PREZİDENT

# İLHAM ƏLİYEV

və

# MƏDƏNİYYƏT

(2008-2013)

2 cilddə

2-ci cild

Təbriklər, qanunlar,
fərmanlar, sərəncamlar

Bakı – 2013

**Azərbaycan Respublikası**
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin Prezident Kitabxanası

Azərbaycan Dövlət Teleqraf Agentliyi

Layihənin rəhbəri və baş məsləhətçi: **ƏBÜLFƏS QARAYEV**
Azərbaycan Respublikasının
mədəniyyət və turizm naziri

70/79(5Aze) **PREZİDENT İLHAM ƏLİYEV VƏ MƏDƏNİYYƏT (2008-2013). 2 clddə. 2-ci cild.**
Ə 65 Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 624 səh.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası və AzərTAc-la birgə layihəsi əsasında tərtib olunmuş "Prezident İlham Əliyev və mədəniyyət. 2008-2013" ikicildlik kitabında cənab Prezidentin 5 illik fəaliyyəti dövründə Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri ilə görüşləri, söhbətləri, habelə mədəniyyət məsələləri ilə bağlı nitqləri, çıxışları, səfərləri, müsahibələri, təbrikləri və bu sahəyə dair rəsmi materiallar toplanmışdır.

"Prezident İlham Əliyev və mədəniyyət. 2008-2013" ikicildliyinin 2-ci cildinə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı qanun, fərman və sərəncamlar daxil edilmişdir.

Kitab Azərbaycanın mədəniyyət sahəsində mövcud qanunvericiliyi öyrənənlər üçün zəngin məlumat mənbəyidir.

**ISBN** 978-9952-404-64-7
978-9952-404-66-1

© Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLIYEV MƏDƏNİYYƏT, ƏDƏBİYYAT, TARİXİ-MƏDƏNİ İRS VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA**

(*Azərbaycan Prezidenti İlham Əliyevin 2009-2013-cü illər ərzində nitqlərindən, çıxışlardan, müsahibələrindən və bəyanatlarından çıxarışlar*)

“Azərbaycanda təhsil, səhiyyə, mədəniyyət, idman sahəsindəki nailiyyətlər haqqında qürurla danışa bilərik. Bu sahədə, sözün əsl mənasında, böyük dönüş yarandı və artıq əldə edilmiş nailiyyətlər əsasında biz növbəti illərdə də bu siyasəti davam etdirməliyik.”

***30 may 2009-cu il***
***Nazirlər Kabinetinin 2008-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Bütün İslam dünyasının özünü təqdim etməsi üçün atılan addımlar mədəniyyət sahəsində də özünü büruzə verməlidir. Çünki İslam dünyasının çox zəngin tarixi, çox zəngin mədəniyyəti vardır. Bizim mədəniyyətimiz dünya birliyinə olduğu kimi təqdim edilməlidir.”

***18 fevral 2009-cu il***
***“Bakı - İslam mədəniyyətinin paytaxtı-2009”***
***Mədəniyyət ilinin təntənəli açılışı mərasimdə***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Azərbaycanda demək olar ki, bütün tarixi abidələr bərpa edilir, yeni mədəniyyət ocaqları yaradılır, teatrlar, muzeylər bərpa olunur və ən müasir, gözəl səviyyədə yeniləri tikilir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.”

***18 fevral 2009-cu il***
***“Bakı - İslam mədəniyyətinin paytaxtı-2009”***
***Mədəniyyət ilinin təntənəli açılışı mərasimdə***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Biz köklü əsaslar üzərində - tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü, dünyəvi, qüdrətli Azərbaycan qururuq və bu işdə artıq böyük nailiyyətlərə çatmışıq. Azərbaycan inkişaf edir, Azərbaycan çiçəklənir, iqtisadi, siyasi islahatlarla yanaşı, mədəniyyətlə bağlı məsələlərə çox böyük diqqət göstərilir. İndiki böhranlı günlərdə mədəniyyət sahəsinə vəsaitin ayrılması və onun prioritet kimi dövlətin diqqət mərkəzində qalması çox şeyi deyir, çox şey ifadə edir. İlk növbədə, bizim öz mədəni irsimizə, zəngin mədəniyyətimizə, tariximizə, milli ənənələrimizə olan münasibəti göstərir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır.”

***20 mart 2009-cu il***
***Bakıda “Muğam aləmi” Beynəlxalq festivalının rəsmi açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Azərbaycanda rus dilinə və rus mədəniyyətinə münasibət həmişə çox xeyirxah, çox səmimi olmuşdur və biz şadıq ki, bu, indi də davam edir. Xalqlarımız arasında münasibətlər ölkələrimiz arasında münasibətlərin ayrılmaz tərkib hissəsidir.”

***17 aprel 2009-cu il***
***Rusiya Federasiyasına işgüzar səfəri zamanı mətbuat konfransında***
***Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatından***

“Mən birmənalı şəkildə deyə bilərəm ki, Heydər Əliyev Fondu mədəniyyət sahəsində və digər sahələrdə, ölkə həyatında önəmli bir amilə çevrilibdir və əminəm ki, Fondu bundan sonrakı fəaliyyətində də ümumbəşəri prinsipləri irəliyə aparacaqdır.”

***10 may 2009-cu il***
***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və***
***Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə***
***təntənəli mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Biz dərin mədəniyyətə malik olan bir xalqıq və bununla haqlı olaraq qürur hissi keçiririk. Bizim çox dərin ənənələrimiz vardır.”

***6 iyul 2009-cu il***
***Təzəpir məscid kompleksi əsaslı yenidənqurma və geniş tikinti işlərindən***
***sonra istifadəyə verilməsi mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir. Onu da qeyd etmək istəyirəm ki, bu şərəfli ad bir neçə il bundan əvvəl verilməyə başlamışdır. Azərbaycanın paytaxtı Bakı ilk İslam şəhərlərindəndir ki, bu şərəfli ada layiq ola bilmişdir.”

***29 avqust 2009-cu il***
***Şeyxülislam müqəddəs Ramazan ayı münasibətilə verdiyi iftar mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətə malikdir. Naxçıvanın tarixi abidələri Azərbaycan xalqının böyük istedadının nümunələridir.”

***3 oktyabr 2009-cu il***
***Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Humanitar sahədə də çox gözəl perspektivlər vardır. Mədəniyyətlərimiz bir-birinə çox bağlı olduğuna görə humanitar sahədə əməkdaşlıq daha da sürətlə inkişaf etməlidir. Bu sahədə TÜRKSOY təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirmək istəyirəm."

***3 oktyabr 2009-cu il***
***Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanın çox zəngin tarixi, çox zəngin mədəniyyəti vardır. Biz 18 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Ancaq müxtəlif dövrlərdə başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, öz mədəni irsimizi, tarixi irsimizi saxlaya bilmişik, qoruya bilmişik. Abidələri qoruya bilmişik, ana dilimizi qoruya bilmişik, milli və dini adət-ənənələri qoruya bilmişik. Bu gün Azərbaycanın uğurlu inkişafı üçün bizim milli-mənəvi dəyərlərimiz çox böyük rol oynayır."

***14 oktyabr 2009-cu il***
***İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının nümayəndələrini qəbulda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda mədəniyyət sahəsində çox böyük işlər görülür. Bütün mədəniyyət ocaqları təmir olunur, bərpa edilir. Yeni muzeylər, teatrlar tikilir, əvvəllər tikilmiş mədəniyyət infrastrukturu yeniləşir, müasirləşir."

***14 oktyabr 2009-cu il***
***İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının nümayəndələrini qəbulda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Lakin biz bir-birimizi daha yaxşı tanımalıyıq. Daha çox təmaslar və səfərlər olmalıdır. Təbii ki, bir-birimizi daha yaxşı tanımaq mədəniyyətdən keçir. Hər bir ölkə öz mədəni və tarixi irsi ilə fəxr edir. Biz müstəqil ölkə və beynəlxalq ictimaiyyətin üzvü kimi gənc dövlətik. Lakin bizim böyük tariximiz, ənənələrimiz, mədəniyyətimiz vardır. Biz özünəməxsusluğumuzu bunların sayəsində qoruyub saxlamışıq."

***19 oktyabr 2009-cu il***
***İsveçrədə Azərbaycan Mədəniyyət Günlərinin rəsmi açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Ağdaşda bir müddət bundan əvvəl istifadəyə verilmiş musiqi məktəbinin fəaliyyəti ilə bu gün tanış oldum. Orada gənclərimiz, uşaqlarımız milli ruhda tərbiyə olunacaqlar, milli musiqi mədəniyyətimizi dərindən öyrənəcəklər, ölməz musiqi əsərlərimizi yaşadacaqlar.”

***12 fevral 2010-cu il***
***Ağdaş rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Bizim mədəniyyətimiz, tarixi abidələrimiz bizim sərvətimizdir. Dünyanın nadir ölkələrində həm gözəl təbiət, müxtəlif iqlim növlərinin mövcudluğu, qədim, tarixi abidələr, gözəl meşələr, təbii mənzərələr - nadir hallarda bütün bu amillər cəm şəkildə müşahidə oluna bilər. Azərbaycan o ölkələrdəndir.”

***18 mart 2010-cu il***
***Heydər Əliyev Fondunun layihəsi çərçivəsində hazırlanmış***
***“Azərbaycan” nəşrinin təqdimat mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Xoşbəxt insanlarıq ki, bu gün müstəqil Azərbaycanın inkişafında iştirak edirik. Müstəqil Azərbaycan bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, müstəqillikdən məhrum olmuşuq. Buna baxmayaraq, öz milli ruhumuzu qoruya bilmişik. Mədəni abidələrimizi, ana dilimizi, mədəniyyətimizi qoruya bilmişik və bu gün də qoruyuruq.”

***18 mart 2010-cu il***
***Heydər Əliyev Fondunun layihəsi çərçivəsində hazırlanmış***
***“Azərbaycan” nəşrinin təqdimat mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Bu gün Azərbaycan bütün istiqamətlərdə ən sürətlə və çox böyük uğurla inkişaf edən ölkədir. Bizim ən böyük sərvətimiz bizim müstəqilliyimizdir, bizim xalqımızdır, bizim mədəniyyətimizdir.”

***18 mart 2010-cu il***
***Heydər Əliyev Fondunun layihəsi çərçivəsində hazırlanmış***
***“Azərbaycan” nəşrinin təqdimat mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Yaxın zamanlarda TÜRKSOY Fondu yaradılacaq və Azərbaycan bu Fondun fəaliyyəti üçün lazımi maddi dəstəyini verəcəkdir. Hesab edirəm ki, bu Fond nəinki

türkdilli dövlətlərdə, bütün türk ellərində mədəni abidələrin bərpası, qorunması işinə öz dəstəyini verməlidir. Tarixi, mədəni araşdırmalar aparmalıdır. Mədəni sahədə, ölkələrimiz, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrinin inkişafı işinə böyük töhfə verməlidir. Bizi ortaq tarix, ortaq mədəniyyət birləşdirir."

***16 sentyabr 2010-cu il***
***İstanbulda Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Bu gün Heydər Əliyevin adını daşıyan mədəniyyət mərkəzinin yeni dövrü başlayır. Bütün bu hadisələr onu göstərir ki, aramızda olan münasibətlərin çox dərin kökləri və çox mənalı məzmunu vardır."

***27 sentyabr 2010-cu il***
***Daşkənddə ulu öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin***
***açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Bölgələrimizdə turizm imkanları çox genişdir. Bu gün artıq gözəl təbii şəraitimiz, təbiətimiz səviyyəsində müasir istirahət və mehmanxana kompleksləri tikilir ki, bu, Azərbaycanın turizm imkanlarını böyük dərəcədə artıracaqdır."

***20 oktyabr 2010-cu il***
***Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının***
***sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

"2011-ci ildə Bakıda 5 beşulduzlu mehmanxana açılacaq, hesab edirəm, yəqin ki, bu, dünyada analoqu olmayan bir hadisədir. Bir ildə bir şəhərdə 5 beşulduzlu mehmanxana açılacaq, mən Bakını nəzərdə tuturam. Ancaq Bakıda dördulduzlu, üçulduzlu hotellər də tikilməkdədir. Bölgələrdə hotelçilik ilə bağlı çox böyük işlər görülür, artıq Azərbaycanda turizmin inkişafı reallıqdır."

***14 yanvar 2011-ci il***
***Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və***
***2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Şahdağ" kurort mərkəzi dünya səviyyəli mərkəzə çevriləcəkdir. Dünyada hazırda mövcud olan ən qabaqcıl, ən populyar kurort yerlərindən geri qalmamalıdır və qalmayacaqdır. Beləliklə, bu, ölkəmizə həm yeni investisiyalar gətirəcək, həm də şimal zonasında yaşayan əhali üçün əlavə şərait yaradacaq, minlərlə, bəlkə də, on minlərlə yeni iş yerləri açılacaqdır. Azərbaycana gələn turistlərin sayı daha da çox olacaq və Azərbaycan turizm üçün çox cəlbedici ölkəyə çevriləcəkdir."

***14 yanvar 2011-ci il***
***Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Turizmin inkişafı üçün bizdə çox gözəl şərait var, gözəl imkanlar var. Hər bir bölgədə müasir hotellər, turizm kompleksləri tikilməlidir və tikilir."

***1 mart 2011-ci il***
***"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

"Vaxtilə işlərin düzgün şəkildə qurulmaması ucbatından milli sərvətimiz olan İçərişəhər YUNESKO-nun dünya mədəni irsi siyahısından silinirdi. Biz orada böyük işlər gördük, yeni qurum yaradıldı, İçərişəhərdə təmir-bərpa işləri aparıldı. Biz nail olduq ki, İçərişəhər dünya mədəniyyət incisi kimi YUNESKO-nun siyahısına yenidən daxil edilsin. Bu gün həm Bakı sakinləri, həm şəhərimizə gələn qonaqlar İçərişəhərlə tanış olarkən Azərbaycanın qədim mədəniyyətini, tarixini öz gözləri ilə görürlər. . İndi orada görülən işlər ən yüksək səviyyədədir. Özü də mən sizə deyim ki, dünyada köhnə şəhərlər, tarixi abidələr o qədər də çox deyildir. Onlar daha çox Avropa şəhərlərində vardır. Onların arasında mən deyə bilərəm ki, İçərişəhər öz gözəlliyi, səliqə-sahmanı və göstərilən xidmətləri ilə fərqlənir. Bu, bizim tariximizə, qədim mədəniyyətimizə olan münasibətimizdir. Eyni zamanda, müasir infrastrukturun yaradılması və şəhərdə quruculuq-abadlıq işlərinin aparılması gələcəyə atılan addımlardır. Bakı bu iki anlayışı özündə birləşdirir: həm qədim tarix, həm də ki, müasirlik. Eyni qaydada ölkəmiz – Azərbaycan öz müstəqil həyatını yaşayır. Dövlətimiz çox möhkəm milli mənəvi dəyərlər üzərində qurulubdur. Ancaq gələcəyə – müasirliyə, inkişafa, tərəqqiyə yönəldilibdir."

***9 mart 2011-ci il***
***Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair müşavirədə Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

"Müstəqillik dövründə Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. Müstəqillikdən əvvəlki dövrdə milli mənsubiyyətimizi, milli xarakterimizi qoruyub saxlamaq üçün bizim tariximiz, mədəniyyətimiz, dilimiz, dinimiz müstəsna rol oynamışdır."

***7 aprel 2011-ci il***
***Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Biz güclü dövlət qururuq. Müasir dövlət, eyni zamanda, güclü milli dəyərlərə söykənən dövlət qururuq. Biz, əlbəttə ki, ümumbəşəri dəyərləri bölüşürük, Avropa dəyərlərinə də hörmətlə yanaşırıq. Ancaq bizim öz dəyərlərimiz var. Bu, bizim ənənələrimizdir, tariximizdir, bizim mədəniyyətimizdir, dilimizdir. Biz haqlı olaraq, fəxr edirik ki, biz müstəqil ölkə kimi öz taleyimizi özümüz müəyyən edirik. Azərbaycanda tarixi keçmişə, mədəniyyətimizə, milli köklərimizə qayğıkeş münasibətə söykənən müasir dövlət quruculuğu prosesi gedir və elə etməliyik, dövlətçiliyimizin əsasları sarsılmaz olsun.”

***22 aprel 2011-ci il***
***Müxtəlif sahələrdə uğurlar qazanmış***
***bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini qəbulda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Heç kimdə şübhə yoxdur ki, Nizami Gəncəvi dahi Azərbaycan şairidir. Bunu bütün dünya bilir. Əgər belə ehtiyac yaranıbsa ki, bunu kiməsə sübut edək, biz bunu çox asanlıqla sübut edə bilərik. Nizaminin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir, doğmadır. Nizaminin əsərləri əlbəttə ki, milli şüurumuzun tərkib hissəsidir. O ki qaldı hansısa qüvvələr tərəfindən bu əsərlərə yiyə çıxmaq, yaxud da özünküləşdirmək məsələsinə, əfsuslar olsun ki, biz belə hallarla dəfələrlə üzləşirik. Bunun da əsas səbəbi ondadır ki, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özünküləşdirmək üçün cəhdlər göstərirlər.”

***26 aprel 2011-ci il***
***Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

“Azərbaycan mədəniyyətlərarası dialoqda öz rolunu oynamaqdadır. Əsrlər boyu ölkəmiz elə bir məkan olub ki, orada müxtəlif etnik, dini köklərə malik xalqlar yan-yana, mehribanlıq şəraitində yaşayıblar. Çox şadıq ki, bu müsbət meyillər müstəqillikdən sonra hətta daha da güclənib. Azərbaycan cəmiyyəti çoxmədəniyyətli cəmiyyətdir, çoxetnik cəmiyyətdir.”

***23 iyun 2011-ci il***
***Brüsseldə Krans Montana Forumunun rəsmi açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

“Eyni zamanda, biz indi xaricdə Azərbaycan mədəniyyət evlərinin yaradılmasına başlamışıq. Bu yeni təşəbbüsdür. Aparıcı ölkələrin mərkəzi şəhərlərində Azərbaycan dövləti mülkiyyət almaq niyyətindədir. Orada həm Azərbaycan mədəniyyət evlərinin fəaliyyəti təşkil edilməlidir, eyni zamanda, Azərbaycan ticarət evləri də yaradılmalıdır. Göstəriş verilmişdir ki, paytaxt şəhərlərinin mərkəzi yerlərində, mərkəzi küçələrində Azərbaycan mərkəzləri yaradılmalıdır.”

***5 iyul 2011-ci il***
***Dünya azərbaycanlılarının III qurultayında***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

"Qəbələ ölkəmizin turizm mərkəzlərindən birinə çevrilibdir."

***12 iyul 2011-ci il***
***Nazirlər Kabinetinin 2011-ci ilin birinci yarısının***
***sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Deyə bilərəm ki, bütövlükdə Azərbaycanda turizmin inkişafı prioritet məsələlərdən biridir."

***26 iyul 2011-ci il***
***Azərbaycan-Polşa biznes forumunda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Muğam milli sərvətimizdir. Muğam milli şüurumuz, milli ruhumuzdur. Bu gün müstəqil Azərbaycan əlbəttə ki, milli irsini qorumağa qadirdir. O dövrdə - sovet dövründə simfonik muğam janrının yaradıcısı kimi, Fikrət Əmirov həm öz yaradıcı axtarışının nəticələrini görmüşdü, eyni zamanda, doğma xalqına, xalq mədəniyyətinə olan duyğular bu gözəl janrı yaratmağı ona nəsib etmişdir."

***19 sentyabr 2011-ci il***
***Bakıda görkəmli bəstəkar Fikrət Əmirovun abidəsinin***
***açılışında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Bizim musiqimiz bizim milli sərvətimizdir. Biz musiqi irsimizi həm qorumalıyıq, həm musiqimizi inkişaf etdirmək, yeni gənc musiqiçilərin uğurlu fəaliyyəti üçün daha da böyük işlər görməliyik."

***19 sentyabr 2011-ci il***
***Bakıda görkəmli bəstəkar Fikrət Əmirovun abidəsinin***
***açılışında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Bütövlükdə mədəniyyət, incəsənət məsələlərinə həmişə olduğu kimi, böyük diqqət göstərilir və göstərilməlidir. Bu, əvvəlki dövrlərdə də elə olub. Bilirsiniz ki, ulu öndər Heydər Əliyev sənət adamlarına daim böyük diqqətlə yanaşırdı, onlarla daim ünsiyyətdə idi, onların fəaliyyəti ilə maraqlanırdı. Sovet dövründə onlara ən yüksək mükafatların verilməsində fəal iştirak edirdi. Müstəqillik dövründə yaradıcı insanların fəaliyyəti üçün çox böyük işlər görürdü. Bu gün də bu siyasət davam etdirilir. Mən çalışıram ki, öz növbəmdə Azərbaycan mədəniyyəti, incəsənəti, musiqi sənəti üçün böyük

işlər görmüş insanlarla əlaqədə olum, onlarla bir yerdə olum. Belə gözəl tədbirlərdə bir yerdə olmaq mənim üçün çox xoşdur.

Biz mədəniyyətimizlə haqlı olaraq fəxr edirik. Bu gün müstəqil Azərbaycan özünü dünyada mədəni ölkə kimi təqdim edir.”

***19 sentyabr 2011-ci il***
***Bakıda görkəmli bəstəkar Fikrət Əmirovun abidəsinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Biz, qeyd etdiyim kimi, 20 ildir müstəqilik. Biz tariximizlə, mədəniyyətimizlə qürur duyuruq. Bu gün müstəqil və azad xalq kimi yaşamağımız ən böyük qürurverici amildir.”

***23 sentyabr 2011-ci il***
***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin iyirminci ildönümünə həsr olunmuş Beynəlxalq bayram tədbirində Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Azərbaycanın coğrafi vəziyyəti təbii ki, ölkənin inkişafına da təsirini göstərmişdir. Azərbaycan o ölkədir ki, burada mədəniyyətlər, sivilizasiyalar görüşür, birləşir.”

***10 oktyabr 2011-ci il***
**Bakıda “XXI əsr: ümidlər və çağırışlar” devizi ilə Beynəlxalq Humanitar Forumunu açılış mərasimində və birinci plenar iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən**

“Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir.”

***15 oktyabr 2011-ci il***
***Türkiyəyə səfəri zamanı Birgə mətbuat konfransında Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatından***

“Ancaq həm coğrafi vəziyyətimizi, şəhərin gözəlliyini və təbii imkanlarımızı nəzərə alaraq mən çox istərdim ki, elitar turizmin mərkəzlərindən biri də Bakı və Azərbaycan olsun.”

***24 oktyabr 2011-ci il***
***Nazirlər Kabinetinin 2011-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

“Mənə xoşdur ki, bizim gənclərin əsas hissəsi, böyük əksəriyyəti Azərbaycan musiqisini dinləyir. Yəqin ki, bu çox mühüm göstəricidir. Bu gənclər Azərbaycan xalqının ənənələri, mənəvi dəyərlərimiz, mədəniyyətimiz, tariximiz əsasında tərbiyə olunmuşlar. Yəni, mən deyərdim ki, bizim gənclərin milli ruhu çox güclüdür.”

***26 dekabr 2011-ci il***
***İTAR-TASS-ın baş direktorunun birinci müavini***
***Mixail Qusmana, İTAR-TASS agentliyi və “Rossiya 24” telekanalı üçün***
***Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsindən***

“Biz keçən il müstəqilliyimizin 20 illiyini qeyd etmişik. Ancaq bizim çox böyük, zəngin tariximiz, mədəniyyətimiz vardır. Şifahi xalq yaradıcılığımız vardır. Gözəl əsərlərimiz, dahi şəxsiyyətlərimiz vardır. Bizim vətəndaşlar, xüsusilə gənclər o dahi şəxsiyyətləri tanımalıdırlar. Koroğlu abidəsinin ucaldılması bir tərəfdən tarixi ədaləti əks etdirir, digər tərəfdən Koroğlu abidəsi bir daha Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu əyani şəkildə göstərir.”

***21 fevral 2012-ci il***
***Bakıda xalq qəhrəmanı Koroğlunun abidəsinin açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulubdur. Çoxəsrlik tarix, mədəniyyət üzərində qurulubdur. Milli mənəvi dəyərlər bizim üçün ən vacib məsələdir. Biz təbii ki, ümumbəşəri dəyərləri bölüşürük. Ancaq bizim üçün başlıca dəyərlər öz milli Azərbaycan dəyərlərimizdir.”

***21 fevral 2012-ci il***
***Bakıda xalq qəhrəmanı Koroğlunun abidəsinin açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Ancaq qloballaşma dövründə təhsil, mədəniyyət, yenə də deyirəm, ziyalıların sözü müstəsna əhəmiyyətə malikdir.”

***12 aprel 2012-ci il***
***Ağstafada yenidən qurulmuş Səməd Vurğun adına***
***mədəniyyət və istirahət parkının açılışında***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Naxçıvan Azərbaycanın qədim torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Naxçıvanın bütün daşları, bütün abidələri Azərbaycan tarixinə, Azərbaycan mədəniyyətinə məxsusdur."

***30 may 2012-ci il***
***Naxçıvan–Culfa magistral avtomobil yolunun açılışında***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"Bakıda çox müxtəlif məsələlər, siyasi müstəvidə çox maraqlı mövzular ətrafında birgə müzakirələr, debatlar, forumlar təşkil olunur. Bunun hamısı bizim siyasətimizin nəticəsidir, eyni zamanda, bu, ölkəmizin tarixi irsidir. Ona görə ki, Azərbaycan tarixən, əsrlər boyu müxtəlif mədəniyyətlərin, müxtəlif millətlərin sülh şəraitində yaşadığı bir məkan olmuşdur. Ona görə də bizim ölkədə belə tədbirlərin keçirilməsi, müxtəlif millətlərin, mədəniyyətlərin nümayəndələrinin bir araya gəlməsi, birlikdə işləməsi, müzakirələrin, debatların keçirilməsi bizim üçün çox təbii bir haldır. Biz həmişə öz işimizlə multikulturalizmi, yəni çoxmədəniyyətlilik amilini inkişaf etdirməyə üstünlük veririk və bunun gücləndirilməsinə çalışırıq. Çünki qloballaşan bugünkü dünyada başqa bir yol, başqa bir alternativ yoxdur. Ona görə də bir daha qeyd etmək istərdim ki, müxtəlif etnik mənşəyə mənsub olan, müxtəlif mədəniyyətləri təmsil edən insanların əsrlər boyu burada birlikdə yaşaması Azərbaycan üçün təbii bir hal olub. Azərbaycan çox böyük tarixə malik olan bir ölkədir. Mən əminəm, qonaqlarımızın imkanı olacaqdır ki, onlar bizim tarixi yerlərə baş çəkə bilsinlər, Azərbaycanın tarixi abidələrini görə bilsinlər və onlara toxuna bilsinlər."

***29 iyun 2012-ci il***
***Bakıda Krans Montana Forumunun rəsmi açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Qeyd etdiyiniz kimi, siyasi əlaqələrlə yanaşı, biz həm də ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələri müzakirə etdik. Bu əlaqələr də çox uğurla inkişaf edir. Sizin də qeyd etdiyiniz kimi, dünən mən Luvr Muzeyində İslam incəsənəti bölməsinin açılışında iştirak etmişəm. Bu gün biz Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışında iştirak edəcəyik. Bu, Azərbaycandan kənarda açılan ilk mədəniyyət mərkəzidir. Ötən il biz Bakıda yeni fransız məktəbinin təməlini qoyduq. Mən bir çox başqa tədbirləri, sərgiləri, mədəniyyət sahəsində mübadilə, konsertlər və digər mühüm tədbirləri qeyd edə bilərəm ki, bunlar da işbirliyi həyata keçirmək üçün gözəl şərait yaradır.”

***19 sentyabr 2012-ci il***
***Parisdə MEDEF-in üzvü olan iş adamları ilə görüşdə***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Bu gün səhər bu binanın həyətində Azərbaycan bayrağı qaldırılmışdır. Bu gün biz dostlarımızı qəbul edirik. Bu Mədəniyyət Mərkəzinin fəaliyyəti bizə imkan verəcəkdir ki, Azərbaycan öz zəngin mədəniyyətini, tarixini, incəsənətini fransalılara geniş şəkildə təqdim etsin. Əminəm ki, bu bina qısa bir müddətdə Fransa-Azərbaycan dostluq evinə çevriləcəkdir.”

***19 sentyabr 2012-ci il***
***Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışına həsr olunmuş qəbulda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Bu gün Azərbaycan gənc dövlətdir. Ancaq baxın, artıq dünyada bizim nə qədər dostlarımız, tərəfdaşlarımız vardır. Biz enerji diplomatiyamızı aparırıq. Biz mədəniyyət diplomatiyamızı aparırıq. Baxın, xaricdə bizim nə qədər mədəni tədbirlərimiz keçirilir. Dünya paytaxtlarında Azərbaycanın mədəniyyətini, tarixini, incəsənətini təbliğ edirik.”

***21 sentyabr 2012-ci il***
***Diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsindəki***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Bizim mədəni irsimiz dövlət tərəfindən lazımınca qorunur, beynəlxalq təşkilatlar tərəfindən qorunur. Uzun illər başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, biz milli xüsusiyyətlərimizi, mənliyimizi qoruya bilmişik, milli identifikasiyamızı itirməmişik – və bunun başlıca səbəbi mədəniyyətdir.”

***4 oktyabr 2012-ci il***
***Bakıda İkinci Beynəlxalq Humanitar Forumun***
***açılış mərasimində və plenar iclasında***

*Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən*

“Avropadan Azərbaycana baxdıqda bəzi hallarda avropalıIara Azərbaycan Asiya ölkəsi kimi təqdim olunur. Asiya tərəfindən Azərbaycana baxanda Avropa ölkəsi kimi təqdim edilir. Yəni, deyə bilərəm ki, Azərbaycanda bu sintez - mədəniyyətlərin sintezi mövcuddur.”

***4 oktyabr 2012-ci il***
***Bakıda İkinci Beynəlxalq Humanitar***
***Forumun açılış mərasimində və plenar iclasında***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

“Mən çox şadam ki, artıq bölgələrdə də turizm infrastrukturunun yaradılması ilə bağlı çox böyük işlər görülür. Ölkəmizin müxtəlif yerlərində yeni turizm mərkəzləri yaradılır. Azərbaycanda mənzərəli, gözəl, təbiətlə zəngin olan yerlər çoxdur. Hazırda o yerlərdə böyük quruculuq, tikinti işləri aparılır. Mən Şahdağ xizək kompleksini qeyd edə bilərəm. Digər bölgələrdə gözəl otellərin mövcudluğu artıq o bölgələri turistlər üçün cəlbedici edir. Bakıya gələcək qonaqlar, turistlər əlbəttə ki, bu imkanlardan istifadə etməlidirlər. Turizm marşrutları müəyyən edilməlidir.”

***2 fevral 2013-cü il***
***2015-ci ildə Bakıda keçiriləcək***
***birinci Avropa Oyunları Təşkilat Komitəsinin ilk iclasında***
***Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

“Azərbaycanın rəmzi olan Qız qalasının bərpası və yenilənməsi də Avstriya mütəxəssisləri tərəfindən aparılır. Bu, aramızda olan ən yüksək etimad səviyyəsidir, çünki Qız qalası bizim üçün böyük məna daşıyır. O, özünəməxsusluğumuzun, memarlığımızın və mədəniyyətimizin əsl rəmzidir.”

***13 may 2013-cü il***
***Vyanada Avstriya-Azərbaycan biznes forumunda***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

“Mən əminəm ki, bizim müstəqilliyimiz dövründə açılan yalnız ikinci Azərbaycanın Mədəniyyət Mərkəzi olan bu mərkəz, ilk növbədə Azərbaycan mədəniyyətini avstriyalılara təqdim edəcək, eyni zamanda, bu, ziyalılar, siyasətçilər, ictimai xadimlər arasında görüşlərin keçirildiyi yer olacaqdır.”

***13 may 2013-cü il***
***Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi açılmışında***
***Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından***

"İslam mərhəmət dinidir. Çalışmalıyıq ki, əməli addımlarla dünyada islam dini haqqında dolğun və ədalətli məlumatları çatdıraq. Deyə bilərəm ki, Azərbaycan bu istiqamətdə kompleks tədbirlər görür. Keçən ilin sentyabr ayında dünyanın ən böyük muzeyi olan Parisdəki Luvr muzeyində islam mədəniyyəti bölməsinin açılışı olmuşdur. Azərbaycan bu bölmənin yaradılması üçün öz dəstəyini vermişdir. Bu, əslində bizim bütün islam mədəniyyətinə olan töhfəmizdir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Vatikanda ilk dəfə olaraq müsəlman ölkəsinin sərgisi keçirilmişdir. Bu da Azərbaycan sərgisi idi. Yəni, biz çalışırıq və birgə səylərlə çalışmalıyıq ki, islam mədəniyyəti, dəyərləri haqqında dünyaya dolğun məlumat çatdıraq."

***17 may 2013-cü il***
***Şamaxı Cümə məscidi əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

"Çünki biz hamımız istəyirik ki, dünyada dinlərarası, mədəniyyətlərarası münasibətlər sağlam zəmində həllini tapsın, əməkdaşlıq meylləri güclənsin, xoşagəlməz halların qarşısı alınsın, ümumiyyətlə, dünyada sivilizasiyalararası dialoqun inkişafında müsbət meyllər üstünlük təşkil etsin."

***30 may 2013-cü il***
***Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

"Mən hesab edirəm ki, biz müsbət təcrübəni daha da geniş şəkildə təbliğ etməliyik. Çünki burada, bu Forumda iştirak edən insanları bir amal birləşdirir. Bizi multikulturalizmin inkişafı, mədəniyyətlərarası dialoqun uğurlu gələcəyi və beləliklə, dünyada gedən müsbət meyllərin gücləndirilməsi amalı birləşdirir. Belə olan halda biz də çalışmalıyıq ki, öz işimizlə, öz praktiki addımlarımızla bu müsbət meylləri gücləndirək."

***30 may 2013-cü il***
***Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində***
***Azərbaycan Prezidenti İlham Əliyevin nitqindən***

***TƏBRİKLƏR***

## TAMARA SİNYAVSKAYAYA

Əziz Tamara İlyiniçna,

Həyat yoldaşınız, zəmanəmizin görkəmli musiqi xadimi Müslüm Maqomayevin vaxtsız vəfatı barədə faciəli xəbəri ürək ağrısı ilə qarşıladım. Bu ağır itki ilə əlaqədar bütün Azərbaycan xalqı ilə birlikdə mən də kədər içindəyəm və Sizə dərin hüznlə başsağlığı verirəm. Biz hamımız bu acı xəbəri böyük şəxsi itki, bütün azərbaycanlılar üçün, bütün musiqi aləmi üçün əvəzsiz itki kimi qəbul edirik. Müslüm Maqomayev bizim üçün bütöv bir dövrün rəmzi, əsl sənətin təcəssümü, milyonlarla insanın sevimlisi idi.

Unudulmaz Heydər Əlirza oğlu Əliyevin Maqomayevə necə böyük məhəbbət və qayğı ilə yanaşmasını Azərbaycanda yaxşı xatırlayırlar. Heydər Əliyev Müslümü musiqi sənətinin canlı əfsanəsi adlandırır və onu babası Müslüm Maqomayevin Azərbaycanda təməlini qoyduğu ənənələrin layiqli davamçısı hesab edirdi.

Bu böyük müğənnini və yüksək rəğbət hissi doğuran insanı tanıyanların və sevənlərin hamısı Sizin kədərinizə şərik olur.

Allah sizə yar olsun.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 oktyabr 2008-ci il***

## TÜRKDİLLİ ÖLKƏLƏRİN MİLLİ KİTABXANA DİREKTORLARININ KONFRANSI VƏ "AVRASİYA KİTABXANALAR ASSAMBLEYASI" ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜMUMİ İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və "Avrasiya Kitabxanalar Assambleyası" əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarını səmimi qəlbdən salamlayır, hər birinizə uğurlar, cansağlığı və firavanlıq arzulayıram.

Müstəqil Azərbaycan dövlətinin dünya mədəni məkanına inteqrasiyasında türkdilli dövlətlərlə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Son illər ərzində respublikamızda müxtəlif sahələrdə artıq ənənəvi şəkil almış irimiqyaslı forum və konfransların təşkili də məhz bu məqsədə xidmət göstərməkdədir.

Sizin tədbiriniz Azərbaycan Milli Kitabxanasının yaradılmasının 85 illik yubileyi ilə eyni vaxta təsadüf edir. Hər bir kitabsevərə qürur hissi bəxş edən bu tarix ölkələrimizin mədəni həyatında nəzərəçarpan hadisədir. Tarixən özünün yüksək kitab mədəniyyəti ilə tanınan və zəngin kitabxanaları ilə şöhrət tapan Azərbaycanda bu gün də kitabxanalar şəbəkəsinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi sayəsində son üç ildə dünya və Azərbaycan ədəbiyyatı nümunələrindən ibarət, ümumi tirajı 10 milyon nüsxəyə çatan 500-dən artıq kitabın çap olunub ölkə kitabxanalarına hədiyyə edilməsi ilə kitabxana fondları mütəmadi zənginləşmiş, onlardan faydalanma imkanları xeyli genişlənmişdir.

Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir. Ümidvaram ki, konfransınızda müzakirəyə çıxarılan məsələlər və qəbul edilən qərarlar milli kitabxanaların xalqlarımızın mədəni sərvətlərinin yaşadılması və intellektual potensialının artırılmasında rolu baxımından faydalı olacaqdır.

Konfrans iştirakçısı olan dost və qardaş ölkələrin milli kitabxanalarının rəhbərlərinə, Azərbaycan Milli Kitabxanasının kollektivinə mənəvi dəyərlərimizin, bəşər mədəniyyəti xəzinəsi incilərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması naminə nəcib fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzu edirəm.

Dərin hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2008-ci il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Mübarək Qurban bayramı müsəlmanların Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmalarını, eyni zamanda, onların mənəvi-əxlaqi dəyərlərə sadiqliyini, humanizm və qardaşlıq duyğularını təcəssüm etdirir.

Cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, saflıq və mərhəmətin təntənəsinə çevrilən Qurban mərasimləri hər il Azərbaycanda böyük sevinc və yüksək əhval-ruhiyyə ilə keçirilir. Dövlətimizin inkişafı, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar oxunur, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad edilir. Əmin olduğumu bildirirəm ki, müqəddəs bayram günlərində edilən arzu və diləklər, xeyirxah niyyətlər gerçəkləşəcək, Ulu Tanrının mərhəməti xalqımızın və dövlətimizin üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlar!

Bu müqəddəs gündə bir daha Sizə, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi bayram təbriklərimi yetirir, hamınıza möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 dekabr 2008-ci il***

## AZƏRBAYCAN DİASPORUNUN TANINMIŞ XADİMİ SƏİD QURBANOVA

Hörmətli cənab Səid Qurbanov!

Sizi – Dağıstan azərbaycanlılarının görkəmli nümayəndəsini anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, səadət və nəcib fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizin Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında qarşılıqlı əlaqələrin daimi inkişafındakı xidmətləriniz təqdirə layiqdir. Müxtəlif dövrlərdə Siz olduqca mötəbər qurumlara başçılıq edərək vətənpərvərlik ruhu və əzmkarlıq nümayiş etdirmisiniz. Yüksək təşkilatçılıq bacarığınız Dərbəndə rəhbərlik etdiyiniz dövrdə özünü xüsusilə büruzə vermişdir. Sizin müdrikliyiniz və böyük həyat təcrübəniz müxtəlif nəsillərin nümayəndələri tərəfindən dərin rəğbət və ehtiramla qarşılanmışdır. Azərbaycan diasporunun təşkilatlanmasında misilsiz xidmətlər göstərmiş ulu öndər Heydər Əliyev həmişə fəaliyyətinizi və şəxsiyyətinizi yüksək dəyərləndirmişdir.

Sizin gərgin və məhsuldar əməyiniz lazımınca qiymətləndirilmiş və Siz bir çox mükafatlara, o cümlədən Azərbaycan Respublikasının ali mükafatına – "Şöhrət" ordeninə layiq görülmüsünüz. Bununla yanaşı, sözsüz ki, Sizin ən böyük mükafatınız el ağsaqqalı kimi qazandığınız nüfuz və hörmətdir. Əminəm ki, Siz bundan sonra da özünüzə xas uzaqgörənliklə dünya azərbaycanlılarının həmrəyliyi işinə layiqli töhfələr verəcəksiniz.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2008-ci il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan azərbaycanlıların hər il dekabrın 31-də təntənə ilə qeyd etdiyi Dünya azərbaycanlılarının həmrəyliyi günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Uzun illərdən bəri bütün dünyada yaşayan həmvətənlərimizi və soydaşlarımızı düşündürən dünya azərbaycanlılarının həmrəyliyi ideyası ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri sayəsində dövlət siyasəti səviyyəsinə qaldırılmış və ardıcıl olaraq həyata keçirilmişdir.

Son illər ərzində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların milli özünüdərkinin güclənməsi, birlik və mütəşəkkilliyinin artması, tarixi vətənlə əlaqələrinin möhkəmlənməsi diaspor potensialının mühüm amilə çevrildiyini göstərir. 2006-cı ilin martında Bakıda keçirilən Dünya azərbaycanlılarının II qurultayında qəbul edilmiş qərarların, qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsi diaspor quruculuğuna, milli-mənəvi və ümumbəşəri dəyərlərə söykənən azərbaycançılıq ideologiyasının yayılmasına güclü təkan vermişdir.

Bu gün dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoymuşdur. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verirlər. Soydaşlarımız Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Eyni zamanda, Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirilir.

Sosial-iqtisadi və siyasi yüksəliş dövrünü yaşayan Azərbaycan dövləti bütün resurslarını xalqımızın rifahının yüksəlməsinə və ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə yönəltmişdir. Dünyanın qlobal enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu getdikcə artır. Respublikamızda həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət müasir infrastrukturların yaradılmasına, sosial problemlərin həllinə, elm və mədəniyyətin inkişafına, vətəndaşlarımızın hüquq və azadlıqlarının daha dolğun təmin olunmasına yeni imkanlar açır.

İndiki dövrdə xalqımızın qarşısında duran başlıca problem hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə ədalətli həllinə nail olmaq və ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən ibarətdir. Hesab edirəm ki, Azərbaycan dövləti ilə yanaşı, bütün həmvətənlərimiz bu sahədə səylərini gücləndirməkdə davam edəcək, uğurlarımızın daha fəal təbliğ olunması və ölkəmizin müsbət imicinin möhkəmlənməsi qayğısına qalacaqlar. Diasporumuz öz mütəşəkkilliyini və çevikliyini bir qədər də artırmalı, digər xalqların diaspor mərkəzləri ilə əlaqələrini genişləndirməli, ölkəmizə qarşı yönəlmiş informasiya təxribatlarını vaxtında ifşa etməlidir.

Həmvətənlərimizi daha sıx birliyə, müstəqil dövlətimizin mənafelərinin ardıcıl qorunması və beynəlxalq nüfuzunun artırılması işinə bundan sonra da öz töhfələrini verməyə çağırıram.

Bu əziz bayram münasibətilə Sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı və firavanlıq, işlərinizdə uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2008-ci il***

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm.

2008-ci il başa çatır. Ölkəmiz üçün, Azərbaycanın hərtərəfli inkişafı üçün 2008-ci il çox uğurlu olmuşdur. 2008-ci ildə bizim iqtisadiyyatımız yüksək sürətlə inkişaf etməkdə davam etmişdir. Deyə bilərəm ki, son dörd il ərzində Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Bu, böyük nailiyyətdir və bizə imkan verir ki, bütün iqtisadi, infrastruktur və sosial məsələləri uğurla həll edək.

Təsadüfi deyil ki, 2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı və bunu bəyan etdi. Bu onu göstərir ki, Azərbaycanda aparılan ciddi, düşünülmüş iqtisadi islahatlar öz bəhrəsini verir və dünya miqyasında Azərbaycan çox böyük nüfuza malikdir, çox böyük hörmətə malikdir.

Azərbaycanda iqtisadiyyatın inkişafı üçün bütün lazımi tədbirlər görülür. Dövlət sahibkarlığın inkişafını dəstəkləyir və növbəti illərdə bu dəstək daha da böyük olacaqdır. Bunun nəticəsində bu gün Azərbaycan iqtisadiyyatının 85 faizi özəl sektorda formalaşır. Bu, böyük nailiyyətdir və onu göstərir ki, Azərbaycanda siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına xidmət edir və ölkəmizi gücləndirir. Biz bundan sonrakı illərdə də iqtisadi inkişafa böyük diqqət göstərəcəyik və əminəm ki, qarşıda duran bütün vəzifələrə nail olacağıq.

Ölkəmizdə son beş il ərzində həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı da uğurla başa çatdı. Proqramın bütün vəzifələri icra olundu. Proqram qəbul olunanda 600 min yeni iş yerlərinin açılması nəzərdə tutulurdu. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, son beş il ərzində Azərbaycanda 750 min yeni iş yerləri açılmışdır ki, bu da regionların inkişafına çox böyük təkan vermişdir.

Bizim bölgələrimiz abadlaşır, gözəlləşir, yeni infrastruktur layihələri həyata keçirilir, sosial obyektlər tikilməkdədir. Bütün bunlar Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərir, Azərbaycanın bütün bölgələri inkişaf edir.

Kənd təsərrüfatına böyük diqqət göstərilir. Biz, demək olar ki, ərzaq təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirləri görmüşük və ümid edirəm ki, növbəti bir-iki il ərzində özümüzü ərzaq məhsulları ilə tamamilə təmin edəcəyik. Kənd təsərrüfatında aparılan islahatlar, fermerlərə verilən güzəştlər, dövlət qayğısı, dövlət tərəfindən verilən kreditlər - bütün bunlar bizim uğurlarımızı şərtləndirən amillərdir.

Bununla bərabər, Azərbaycanda sosial siyasətə böyük diqqət göstərilir. Bəli, biz bazar iqtisadiyyatı əsasında yaşayırıq və uğurumuzun da əsası bundan ibarətdir. Ancaq bununla bərabər, bütün sosial proqramların icrası üçün Azərbaycan iqtidarında iradə var və biz bunu edirik.

Azərbaycanda sosial obyektlərin tikintisi geniş vüsət almışdır. Son beş il ərzində Azərbaycanda 1600 yeni məktəb tikilmişdir və növbəti illərdə bu siyasət davam etdiriləcəkdir. Yeni məktəblərin tikintisi davam etdiriləcəkdir. Bütün bölgələrdə, demək olar ki, hər yerdə yeni müasir tibb müəssisələri yaradılır. Onlar ən müasir avadanlıqlarla təchiz olunur ki, insanlara gözəl tibbi xidmət göstərilsin. Bu da bizim sosial siyasətimizin təzahürüdür. Ünvanlı sosial yardım proqramı icra olunur və bunun da çox böyük əhəmiyyəti var. Baxmayaraq ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı son

beş il ərzində 49 faizdən 16 faizə düşmüşdür və əminəm ki, 2008-ci ilin yekunlarına görə bu rəqəm daha da aşağı düşəcəkdir, hələ ki, yoxsulluq şəraitində yaşayan vətəndaşlar var və dövlət onlara kömək üçün hər şeyi etməlidir. Ona görə ünvanlı sosial yardım proqramı bundan sonra da davam etdiriləcək və əminəm ki, Azərbaycanda yoxsulluq kimi ictimai bəla aradan qaldırılacaqdır.

2008-ci ildə minimum əmək haqqı və minimum pensiyanın həcmi 50 faiz artırılmışdır və bundan sonrakı illərdə bu siyasət davam etdiriləcəkdir. Biz elə etməliyik ki, insanlarımız yaxşı yaşasınlar. Bizneslə məşğul olanlar üçün şərait yaradırıq, ancaq büdcə təşkilatlarında işləyənlər, vətəndaşlarımız dövlət tərəfindən lazımi maddi təminat almalıdırlar və biz bu istiqamətdə bundan sonra da işləyəcəyik.

2008-ci ildə məcburi köçkünlərin, qaçqınların sosial problemlərinin həlli və məşğulluğunun artırılması üçün bütün lazımi tədbirlər görülübdür. 2003-cü ildə mən söz vermişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Biz buna nail olduq. Bu gün Azərbaycanda bir dənə də çadır şəhərciyi yoxdur. Əvvəllər dözülməz şəraitdə yaşayan soydaşlarımız bu gün gözəl evlərlə təmin olunublar. Onlar üçün qəsəbələr salınıb, məktəblər, tibb ocaqları tikilib, yollar salınıb, işıq xətləri çəkilibdir. Beləliklə, biz bu böyük, ağır sosial bəlanın aradan qaldırılması üçün mühüm addım atdıq. Bundan sonrakı illərdə biz bu siyasəti davam etdirəcəyik.

Amma bununla bərabər, bu məsələnin həlli üçün, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün biz öz səylərimizi göstəririk. 2008-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın işğal altında qalan torpaqlarında vəziyyətlə bağlı çox önəmli qətnamə qəbul edilmişdir. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü - Minsk qrupunun həmsədrləri bu qətnamənin əleyhinə çıxmışdı, qətnamə böyük səs çoxluğu ilə qəbul edildi. Bir tərəfdən bu, Azərbaycanın gücünü göstərir, Azərbaycanın artan nüfuzunu göstərir. Digər tərəfdən, onu göstərir ki, haqq-ədalət öz yerini tutmalıdır.

Bütün dünya ictimaiyyəti Azərbaycanı dəstəkləyir və mən şübhə etmirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaqdır. Bunun başqa yolu yoxdur. Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün bütün səyləri göstərəcəyik. Həm siyasi, həm diplomatik və lazım gələrsə, hərbi üsullardan da istifadə etmək olar. Bu haqq bizdə var. Beynəlxalq hüquq bunu təmin edir.

Bildiyiniz kimi, bu istiqamətdə böyük işlər görülübdür. 2008-ci ildə ordu quruculuğu üçün lazımi tədbirlər görülübdür. Bizim bütün hərbi xərclərimiz 2 milyard dollara çatıbdır və 2009-cu ildə bu rəqəm daha da artacaqdır. Biz bunu edirik, bunu etməliyik, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyibdir. Müharibənin birinci mərhələsi başa çatıb və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı istənilən yolla işğalçılardan azad edək. 2008-ci ildə keçirilən hərbi parad bizim hərbi gücümüzü hamıya göstərdi.

Azərbaycan 2008-ci ildə öz enerji siyasətini uğurla davam etdirmişdir. Biz enerji təhlükəsizliyi məsələlərinə nail olduq və bu gün başqa ölkələrin enerji təhlükəsizliyi üçün fəaliyyət göstəririk. Bu bizə həm siyasi, həm iqtisadi dividendlər gətirir, bizim üçün yeni imkanlar açır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir. Azərbaycan, demək olar ki, qarşıda duran bütün neft-qaz məsələlərini uğurla həll edibdir. İxracın şaxələndirilməsinə nail olubdur. Bu gün Azərbaycan nefti və

qazı həm ölkəyə xidmət göstərir, - Azərbaycanda qazlaşdırma artıq 85 faizə çatıbdır, - eyni zamanda, bu, bizə iqtisadi imkanlar yaradır, siyasi imkanlarımızı genişləndirir. 2008-ci ildə Bakıda keçirilən Enerji sammiti bunun bariz nümunəsidir. Bakıda qəbul edilmiş qərarlar nəinki Azərbaycanın gələcək enerji siyasətini möhkəmləndirir, eyni zamanda bölgədə, Avropada, geniş mənada dünyada yeni vəziyyətə gətirib çıxarılmasına xidmət göstərəcəkdir. Biz bu imkanlardan uğurla istifadə edirik və mən şübhə etmirəm ki, növbəti illərdə Azərbaycanın uğurlu neft strategiyası davam etdiriləcəkdir.

Bununla bərabər, energetika sektoruna biz böyük vəsait qoyuruq. Son beş il ərzində Azərbaycanda 6 elektrik stansiyasının tikintisinə nail olduq. Bir neçə elektrik stansiyası bərpa edildi, təmir olundu və bizim enerji gücümüzü artırdı. Bu da böyük nailiyyətdir. Yəni, bir sözlə, bu sahədə vəziyyət çox qənaətbəxşdir. Əminəm ki, növbəti illərdə bu uğurlu siyasət davam etdiriləcəkdir.

2008-ci ildə biz böyük tarixi əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başladıq. Uzun illərdən, uzun müzakirələrdən sonra biz bu dəmir yolunun tikintisinə nail olduq və bu gün Azərbaycan şirkətləri bu işlərdə fəal iştirak edirlər.

Dəmir yolunun tikintisi nəticəsində, Avropa ilə Asiyanın birləşməsi nəticəsində, təbii ki, Azərbaycanın həm iqtisadi, həm də geosiyasi mövqeləri daha da möhkəmlənəcəkdir. Azərbaycan nəqliyyat üçün əvəzolunmaz ölkəyə çevriləcəkdir. Bu, bizim uzunmüddətli milli maraqlarımızın təmin olunmasına xidmət göstərir.

Nəqliyyat sektorunda digər vacib hadisələr baş vermişdir. 2008-ci ildə Lənkəranda və Zaqatalada iki gözəl aeroport istifadəyə verilmişdir. Yeni tankerlər alınır, avtomobil yolları tikilir. Bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti bu gün bu imkanlara malikdir. Uğurlu iqtisadi siyasətimiz, iqtisadi islahatlarımız bütün bu şəraiti bizim üçün yaratdı.

Əziz dostlar, bu gün, eyni zamanda, Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bu günü bütün azərbaycanlılar bütün dünyada qeyd edirlər. Azərbaycan dövləti dünya azərbaycanlılarının təşkilatlanması üçün, həmrəyliyinin güclənməsi üçün öz səylərini göstərir və göstərməkdədir. Mən çox şadam ki, demək olar, bütün ölkələrdə, azərbaycanlıların yaşadıqları bütün ölkələrdə bizim soydaşlarımız müvafiq təşkilatlarda fəaliyyət göstərirlər. Azərbaycan diaspor təşkilatları möhkəmlənir, güclənir və ölkəmizin maraqlarını təmin etmək üçün çox müsbət fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan dövləti xaricdə yaşayan azərbaycanlıların məsələlərinin həlli üçün öz səylərini göstərir. Biz həmişə onları dəstəkləyəcəyik və bütün başqa ölkələrdə yaşayan azərbaycanlılar doğma Vətənə həmişə arxalana bilərlər.

2008-ci ildə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı demokratik, azad şəkildə öz iradəsini ortaya qoymuşdur, öz iradəsini ifadə etmişdir. Bu fürsətdən istifadə edərək, mənə göstərdiyi böyük etimada görə bir daha bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu böyük etimad və xoş münasibət məni daha da ruhlandırır. Mən beş il bundan əvvəl Azərbaycan xalqına söz vermişəm ki, ölkənin hərtərəfli inkişafı üçün əlimdən gələni edəcəyəm. Mən Azərbaycan xalqının rifahı naminə çalışacağam. Azərbaycanın inkişafı naminə, dövlətçiliyimizin möhkəmlənməsi naminə çalışacağam. Bir daha demək istəyirəm ki, mənə göstərilən böyük etimad və inam məni həm çox ruhlandırır, həm də sevindirir. Mən bir daha Azərbaycan xalqına söz vermək istəyirəm ki, bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm ki, doğma xalqıma ləyaqətlə xidmət edim.

Əziz dostlar!

Əziz xanımlar və cənablar!

Əziz bacılar və qardaşlar!

Mən bir daha sizin hamınızı Yeni il bayramı və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2008-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hamınıza ən xoş arzularımı yetirirəm.

Bu gün dünyada tolerantlıq örnəyi kimi səciyyələndirilən çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində bütün xalqlar, etnik-dini icmalar qarşılıqlı hörmət və etimad şəraitində, əmin-amanlıq mühitində yaşayıb fəaliyyət göstərirlər. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizin tam hüquqlu vətəndaşları olan pravoslav xristian icması öz dil və mədəniyyətini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaqla, milli-dini bayram və mərasimlərini azad və sərbəst şəkildə icra edir, Azərbaycanda gedən böyük quruculuq işlərində, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir.

İsa peyğəmbərin mövludu ilə əlamətdar olan və bəşər sivilizasiyasında yeni bir tarixi mərhələnin əsasını qoyan Milad günü bütün dünyada olduğu kimi, Azərbaycanda da hər il pravoslav xristian icması tərəfindən təntənə ilə bayram edilir. Yeniliyin, əmin-amanlığın, şəfqət və mərhəmət duyğularının rəmzi olan bu nurlu bayram münasibətilə bir daha hər birinizə xoşbəxtlik, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2009-cu il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını Beynəlxalq qadınlar günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq, bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir.

1918-ci ildə seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını XX əsrdə qısa müddət ərzində bir neçə əsrə bərabər inkişaf yolu keçmişdir. Xalqın maariflənməsi, mədəniyyətimizin yüksəlişi və müasir iqtisadiyyatımızın qurulmasında o, daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirmişdir. Cəmiyyətimizdə qadınlara göstərilən yüksək ehtiram mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə onlara bilik və bacarıqlarını gerçəkləşdirmək üçün əlverişli zəmin yaratmışdır. Qadınlarımız bu gün də müxtəlif sahələrdə, o cümlədən vətəndaş cəmiyyəti quruculuğunda və mədəniyyətlərarası dialoqun formalaşdırılmasında öz intellektual potensiallarını əsirgəmirlər.

Ümidvaram ki, Uşaq ili elan olunan 2009-cu ildə qadınlarımız gələcək nəsillərin milli-mədəni irsə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyəsində var qüvvələrini sərf edəcək, daim yeniləşən ölkəmizin daha da çiçəklənməsi prosesinə layiqincə xidmət göstərəcəklər.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 mart 2009-cu il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi xalqımızın ən əziz bayramı – Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Təbiətin insanlara töhfəsi olan Novruz bayramının hər gəlişi əsrlərdən bəri Azərbaycanda bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü kimi qəbul edilmişdir. Gecə ilə gündüzün bərabərləşdiyi ilk bahar günündə yurdumuza qədəm qoyan bu bayram insanları daim birliyə, sülhə və əmin-amanlığa səsləyir. Bahar mərasimləri, adət-ənənələri əsrlərin sınağından çıxaraq, ulu babalarımızdan bizə yadigar qalmış misilsiz ərməğandır.

Milli təfəkkürümüzün və mədəni-mənəvi dəyərlərimizin parlaq təcəssümü sayılan Novruz bayramı suveren Azərbaycan dövlətinin rəsmi bayramı olaraq müstəqil respublikamızın hər bir guşəsində kütləvi şənliklərlə qeyd edilir. Yaz bayramının insanlarımızda qurub-yaratmaq əzmini artıran yeniləşdirici ovqatı ölkəmizin dinamik inkişafla əlamətdar həyatında son illər ən müxtəlif sahələrdə ürəkaçan nailiyyətlərlə, paytaxtda və bölgələrdə geniş miqyasda aparılan quruculuq-abadlıq işləri ilə ümumi ahəng təşkil edir. Builki Novruz bayramı özünün yeni dövrünü yaşayan Azərbaycan muğamının da bayramıdır və Beynəlxalq Muğam Festivalının keçirilməsi ilə əlamətdardır.

Doğma Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması naminə canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bu əziz gündə ehtiramla yad olunur. Ölkəmizin hüdudlarından uzaqlarda soydaşlarımız da bizimlə bərabər Bahar bayramını böyük sevinclə qarşılayırlar. İnanıram ki, milli həmrəyliyimizin rəmzinə çevrilmiş bu el bayramı azərbaycançılıq məfkurəsi ətrafında onların müqəddəs Vətənə bağlılıq duyğularını daha da möhkəmləndirəcəkdir.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 mart 2009-cu il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda tarixən mövcud olmuş tolerantlıq mühiti, etnik-mədəni müxtəliflik, xalqlar arasında mehriban dostluq və qardaşlıq münasibətləri cəmiyyətimizdə mütərəqqi əxlaqi-mənəvi dəyərlər sistemini formalaşdırmış və bu üstün keyfiyyətlər ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Biz haqlı olaraq bunu xalqımızın tarixi nailiyyəti hesab edir, ölkədə sülhün, əmin-amanlığın, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsi və dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində səylərimizi davam etdiririk.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan çoxminli pravoslav xristian icması milli-mənəvi dəyərlərini və adət-ənənələrini qoruyub saxlamaqla, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edir, vətəndaş cəmiyyəti quruculuğunda yüksək fəallıq göstərir.

Pasxa bayramı əmin-amanlıq, həmrəylik, mərhəmət və şəfqət rəmzi kimi hər il Azərbaycanda geniş qeyd edilir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 aprel 2009-cu il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Tarixin ən kütləvi insan fəlakətinə səbəb olmuş İkinci dünya müharibəsi bir çox xalqların, xüsusilə də yəhudi xalqının həyatında müdhiş qara səhifə kimi yaşamaqdadır. Bu qanlı savaş zamanı milyonlarla yəhudi əsilli insan faşizmin günahsız qurbanına çevrilərək, məqsədyönlü soyqırımı siyasətinə məruz qalmışdır.

1943-cü ilin aprelində Varşava yəhudi gettosunda saxlanan məhbuslar faşizmin qanlı cinayətlərinə, milli-dini ayrı-seçkiliyə qarşı qətiyyətli etiraz aksiyasına başlamış, qeyri-bərabər ölüm-dirim savaşında qəhrəmanlıqla həlak olsalar da, öz milli haqları və insani ləyaqəti uğrunda şərəfli mübarizə örnəyi vermişlər. Faşizmlə mübarizədə mənəvi qələbə rəmzinə çevrilmiş bu hadisə tarixə təkcə yəhudilərin müsibəti deyil, eyni zamanda qəhrəmanlıq nümunəsi kimi daxil olmuşdur.

Təəssüflə qeyd etmək istəyirəm ki, tarixdən ibrət dərsi götürməyən ayrı-ayrı siyasi-şovinist dairələr, irticaçı rejimlər və ideologiyalar bu gün də beynəlxalq sülh və əmin-amanlıq üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır. Son iyirmi ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilmiş deportasiya və etnik təmizləmə siyasəti, kütləvi qətl və terror aksiyaları, nəhayət Xocalıda azərbaycanlıların dəşhətli qətliamı zəmanəmizin acı gerçəkliyidir. Biz hansı coğrafiyada törədilməsindən asılı olmayaraq, etnik-dini düşmənçiliyin və ayrı-seçkiliyin hər cür təzahürünü bütövlükdə bəşər sivilizasiyasını təhdid edən cinayət kimi qiymətləndirir və dünya birliyini bu bəşəri təhlükəyə qarşı səfərbər olmağa dəvət edirik.

Əziz həmvətənlər!

Hər il mütərəqqi dünya ictimaiyyəti Yəhudi xalqının müsibəti və qəhrəmanlığı gününü böyük ehtiramla yad edir. Bu milli hüzn gününüzdə Azərbaycan xalqı adından bir daha kədərinizə şərik olduğumu bildirir, irticanın bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 aprel 2009-cu il***

## XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUYA

Hörmətli Vaqif Səmədoğlu!

Sizi – müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayıram.

Siz respublikamızda ədəbi prosesin inkişafına töhfələr vermiş nəslin istedadlı nümayəndəsi olduğunuzu sənət aləminə gəldiyiniz ilk vaxtlardan nümayiş etdirmisiniz. Sizin yaradıcılığınız mövzu rəngarəngliyi, poetik təfəkkürün genişliyi və əhatəliliyi ilə səciyyələnir. Sənətsevərlərin diqqətini daim cəlb edən, özünəməxsus ifadə tərzinə malik poeziyanızda dünyanın, insanın və cəmiyyətin fəlsəfi dərki məsələləri mühüm yer tutmuşdur. Sözlərinizə bəstələnmiş mahnılar dilimizin geniş bədii imkanlarından ustalıqla faydalandığınızı təsdiq edir.

Teatr və kino üçün yazdığınız əsərlər yüksək sənətkarlıq keyfiyyətləri ilə seçilmiş, tamaşaçıların rəğbətini qazanaraq Sizi, eyni zamanda, dramaturq kimi tanıtmışdır.

Ölkəmizin ədəbi-mədəni həyatında, həmçinin ictimai-siyasi sahədə yaxından iştirak etməklə göstərdiyiniz təqdirəlayiq səmərəli fəaliyyət Sizin əsl vətəndaşlıq mövqeyinizin aydın ifadəsidir.

İnanıram ki, Siz yeni əsərlərinizlə ədəbiyyatımızı daha da zənginləşdirəcək və xalqımızın milli mənəvi dəyərlərinin qorunub yaşadılması naminə bundan sonra da bacarığınızı əsirgəməyəcəksiniz.

Hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyun 2009-cu il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının milli yeni il bayramı - Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza can sağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Biz xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndiririk. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin insan hüquq və azadlıqlarının təminatı, o cümlədən ölkədə sabitlik, əmin-amanlıq və vətəndaş həmrəyliyi həyata keçirdiyimiz siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan dövləti daim bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşmış, respublikada bütün milli azlıqların, o cümlədən yəhudi icmasının etnik-mədəni özünəməxsusluğunun, adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətinin inkişafı üçün hərtərəfli demokratik, hüquqi şərait bərqərar edilmişdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər.

Əziz dostlar!

Roş-Ha-Şana yenilik, mənəvi saflıq, xoş müjdələr və həmrəylik bayramıdır. Qoy bu əziz gün həyatınıza sevinc, ailələrinizə səadət və firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 sentyabr 2009-cu il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müsəlmanların müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları sülh, əmin-amanlıq və bərabərlik yoluna dəvət edir, mənəvi-əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir.

Xalqımız həmişə milli mənəvi və islami dəyərlərə sadiqliyi ilə seçilmiş, Azərbaycan İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olmuşdur. Təsadüfi deyildir ki, Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Müsəlman dünyasının ayrılmaz parçası olan ölkəmizdə milli-dini mərasimlər, o cümlədən Ramazan bayramı xüsusi təntənə ilə qeyd olunur. Allah və din qarşısında vicdani borcunu ləyaqətlə yerinə yetirən və orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız bayram fərəhini məmnunluqla bölüşür, dövlətimizin, xalqımızın əmin-amanlığı və rifahı üçün diləklər edirlər. Ölkəmizin hər yerində Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Bu mübarək Ramazan günlərində bütün xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, dualarınızın çin olmasını Uca Yaradandan arzu edirəm.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə dostluq, qardaşlıq və həmrəylik duyğularını daha da gücləndirən, insanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran mübarək Ramazan ayını hər il olduğu kimi, bu il də böyük qürur hissi və könül xoşluğu ilə yola salırıq. Bu əziz bayram günlərində bir daha hər birinizi səmimi qəlbdən təbrik edir, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 sentyabr 2009-cu il***

## İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN
## VI KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının iştirakçılarını səmimi qəlbdən salamlayır, konfransınızın işinə uğurlar, hamınıza cansağlığı, ölkələrinizə əmin-amanlıq arzulayıram.

2009-cu il üçün Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkəmizin zəngin tarixi və mədəniyyətinə verilən yüksək qiymətdir. Bu il ərzində gerçəkləşən tədbirlər İslam Konfransı Təşkilatı çərçivəsində mədəni əlaqələrimizin inkişafına layiqli töhfələr vermiş, bir daha Azərbaycanın böyük İslam mədəniyyətinin formalaşmasında tutduğu mövqeyə diqqəti cəlb etmişdir.

Respublikamızda hökm sürən tolerantlıq mühitini biz böyük tarixi nailiyyətimiz kimi dəyərləndirir, bu ənənələri davam etdirərək müxtəlif dinlər, mədəniyyətlər arasında konstruktiv dialoqun qurulması prosesinə daim diqqət yetiririk. Əminəm ki, sizin konfransınız da müxtəlif sivilizasiyaların ortaq mənəvi-mədəni dəyərlərə əsaslanan səmərəli əməkdaşlıq səylərinə köməyini əsirgəməyəcəkdir.

Azərbaycan özünün maddi və qeyri-maddi mədəni irsinin qorunması və təbliğinə dair beynəlxalq miqyaslı bir çox layihələri həyata keçirir. Lakin iyirmi ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalmış torpaqlarımızdakı İslam mədəniyyətinə aid bütün nümunələr, o cümlədən dini məbədlər, məscidlər və abidələr dağıdılmışdır. Məruz qaldığımız bu təcavüzlə bağlı olaraq daim İslam Konfransı Təşkilatına üzv dövlətlər tərəfindən Azərbaycanın haqq mövqeyinin dəstəklənməsi ölkəmizdə həmişə təqdirlə qarşılanmışdır.

İnanıram ki, konfransınızda İslam dünyası mədəniyyətinin aktual məsələlərinə dair ətraflı müzakirələr aparılacaq, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı mədəni əməkdaşlığın yeni inkişaf yolları müəyyən ediləcəkdir.

Dərin hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 oktyabr 2009-cu il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı

Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və dözümlülük mühitinin formalaşmasında islam dininin də müstəsna rolu olmuşdur.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2009-cu il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzinə çevrilmiş 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü hər il bütün soydaşlarımız ən əziz bayramlarından biri kimi qeyd edirlər. 1991-ci ilin dekabrında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən təsis edilmiş və az sonra bütün ölkə miqyasında qəbul olunmuş bu bayram hər bir azərbaycanlıda öz ana Vətəninə məhəbbət, xalqına sədaqət, tarixi və mədəniyyətinə hörmət kimi nəcib hissləri gücləndirir, bizi birləşdirən mənəvi-əxlaqi dəyərlərin sonrakı nəsillərə ötürülməsinə xidmət edir.

Azərbaycan dövləti dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsini, onların mütəşəkkil, çevik və təsirli qüvvəyə çevrilməsini vacib vəzifə olaraq daim diqqətdə saxlayır, bu mühüm prosesə hərtərəfli dəstək verir. Diaspor quruculuğu sahəsində aparılan işlər artıq öz müsbət nəticələrini verməkdədir. Bu gün soydaşlarımız yaşadıqları dövlətlərin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına hərtərəfli inteqrasiya olunur, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə fəal yardım göstərirlər. Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasında, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğində, erməni millətçilərinin qərəzli ideoloji fəaliyyətinin qarşısının alınmasında diaspor təşkilatlarımızın rolu danılmazdır. Biz xaricdəki həmvətənlərimizin dost ölkələrin lobbi və diasporları ilə sıx əməkdaşlığının qurulmasına da ciddi önəm verir, bu sahədə irəli sürülən təşəbbüsləri, atılan addımları həmişə birmənalı şəkildə müdafiə edirik.

Müstəqil Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının doğma yurdu və etibarlı dayağıdır. Onu göz bəbəyi kimi qorumaq və gücləndirmək hər birimizin ümdə vəzifəsidir. Hazırda ölkəmiz öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Ötən illər ərzində həyata keçirilən islahatlar sabit və dayanıqlı hüquqi-siyasi sistemin, güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarmışdır. Bu il Azərbaycan iqtisadiyyatı dövrün çətin sınağından uğurla çıxmış, bütün dünyanı bürüyən ağır böhrana baxmayaraq yüksələn xətlə irəliləməkdə davam etmişdir. İndi biz cəsarətlə bəyan edirik ki, ölkəmizdə sosialist iqtisadiyyatından bazar münasibətləri sisteminə keçid dövrü başa çatmış, həmin mərhələyə xas olan problemlər həll olunmuşdur. Bütün bunlar xalqımızın rifah halının yüksəldilməsinə, sosial tələbatlarının ödənilməsinə, elm və mədəniyyətimizin tərəqqisinə, vətəndaşlarımızın hüquq və azadlıqlarının davamlı təmin olunmasına münbit şərait yaradır.

Azərbaycan dövləti qarşısına çıxan bütün çətinlikləri uğurla dəf edə bilir. Bu gün bizi narahat edən yeganə problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmaması, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmamasıdır. Biz bu mürəkkəb, ağrılı məsələnin sülh yolu ilə ədalətli həllinə nail olmaq üçün bütün zəruri tədbirləri görürük. Düşünürəm ki, gənc respublikamızın inkişafı yolunda əsas maneə olan bu problemin tezliklə həlli Azərbaycan dövləti ilə yanaşı bütün həmvətənlərimizin də qarşısında mühüm vəzifə kimi durur. Buna görə də ürəyi Vətən sevgisi ilə döyünən dünya azərbaycanlıları bu istiqamətdə öz səylərini gücləndirməli, problemin mahiyyətini xarici ölkələrin hökumət və ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırmaq üçün daha məqsədyönlü fəaliyyət göstərməlidirlər. Diaspor təşkilatlarımız dünyadakı proseslərin nəbzini tutaraq öz çevikliyini artırmalı, digər xalqların diaspor

mərkəzləri ilə səmərəli əməkdaşlığın yeni formalarını tapmalı, ölkəmiz əleyhinə yönəlmiş təxribatlara qarşı operativ və adekvat addımlar atmalıdırlar.

Əziz soydaşlar!

Hörmətli həmvətənlər!

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Sizi milli mənafelərimizin qorunması, müstəqil dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə sıx birləşərək daha səmərəli fəaliyyət göstərməyə dəvət edirəm.

Bu əziz bayram münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2009-cu il***

## XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ

Hörmətli Əminə xanım!

Sizi – Azərbaycan milli rəqs sənətinin böyük ustadını yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir,

Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz xalqımızın qədim rəqs mədəniyyətinin inkişafı naminə istedad və bacarığınızı illər boyu fədakarcasına sərf etmiş sənətkarlardansınız. Klassik milli rəqslərimizi yeni ifa tərzi ilə zənginləşdirərək Siz əsl sənət inciləri yaratmısınız. Fəaliyyətiniz boyu Sizin repertuar hər zaman öz rəngarəngliyi ilə səciyyələnmişdir.

Tarixi kökləri qədimlərə bağlanan rəqslərimizin parlaq nümunələrinin yaşadılmasına layiqli töhfələr verməklə yanaşı, Siz dünya xalqları rəqslərinin mahir ifaçısı kimi də tamaşaçıların qəlbinə yol tapmısınız. Azərbaycan mədəniyyətinin xarici ölkələrdə tanınmasında və geniş şöhrət qazanmasında özünəməxsus yeriniz vardır.

Zəngin pedaqoji təcrübənizi ölkəmizdə milli xoreoqrafiyanın inkişafına yönəldərək, Siz xalq rəqslərinin sirlərinə bələd olan yeni ifaçılar nəslinin hazırlanması yolunda yorulmadan çalışmısınız. Adınız ölkəmizdə professional və özfəaliyyət rəqs ansambllarının yaradılması ilə də sıx bağlıdır.

Yarım əsrdən bəri "Xalq Artisti" fəxri adını ləyaqətlə daşıyaraq Siz gənclər üçün sənətə sadiqlik rəmzinə çevrilmisiniz. Uzunmüddətli fəaliyyətiniz dövründə layiq görüldüyünüz çoxsaylı təltiflər, həmçinin müstəqil Azərbaycan Respublikasının ali mükafatı – "İstiqlal" ordeni Sizin nadir sənətinizə və şəxsiyyətinizə dövlət tərəfindən verilmiş yüksək qiymətdir.

Dərin hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2009-cu il***

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

-Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Yeni ildə sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

2009-cu il tarixdə qalır. 2009-cu il bütün ölkələr üçün sınaq ili olmuşdur. 2009-cu ildə dünyanı bürümüş maliyyə və iqtisadi böhran demək olar ki, bütün ölkələrə öz mənfi təsirini göstərmişdir. 2009-cu ildə ölkələr öz imkanları, öz təbii ehtiyatları, apardıqları islahatlar hesabına nəyə qadir olduqlarını nümayiş etdirmişlər. Azərbaycan 2009-cu ildə bütün çətinliklərə baxmayaraq, uğurlu inkişafı davam etdirmişdir. 2009-cu ildə ölkəmizdə iqtisadi artım 9 faizdən çox olmuşdur. Bu, böhranlı ildə çox böyük göstəricidir. Bütün bölgədə yaşanan böhran və bölgədə müxtəlif istiqamətlərdə aparılan islahatlar hər bir ölkənin iqtisadi və siyasi potensialını ortaya qoydu. Böhran ili kimin nəyə qadir olduğunu çox açıq və aydın şəkildə göstərdi. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır. Biz xalqımızın istedadına arxalanırıq, aparılan islahatlara arxalanırıq, Azərbaycan xalqının iradəsinə arxalanırıq.

2009-cu ildə Azərbaycanda bütün istiqamətlərdə irəliləyiş, inkişaf müşahidə olundu. Dediyim kimi, iqtisadi artım 9 faizdən çox olmuşdur, sənaye istehsalı təxminən 9 faiz artmışdır. Ölkəmizdə inflyasiya 2 faizdən aşağı səviyyədədir. Yəni, iqtisadi inkişafın təmin edilməsinə dair əsas göstəricilər ən yüksək səviyyədədir. Bütün bunlara biz sizinlə bərabər düşünülmüş siyasət aparmaqla, islahatlar aparmaqla buna nail ola bilmişik. Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumları Azərbaycanın bu istiqamətdə - iqtisadi və siyasi islahatların aparılması istiqamətində gördüyü işləri yüksək qiymətləndirir. 2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi qəbul etdi və bunu bəyan etdi. 2009-cu ildə Dünya İqtisadi Forumu – çox mötəbər beynəlxalq təşkilat - Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə dünyada 51-ci yerə layiq gördü. Azərbaycan MDB məkanında bu parametrlər üzrə lider ölkədir.

2009-cu ildə bütün planlar, nəzərdə tutulmuş bütün tədbirlər icra edildi. Regionların inkişafı sürətlə davam etdi. Son 6 il ərzində Azərbaycanda 800 mindən çox yeni iş yerləri açılmışdır. Bütün bölgələrdə canlanma vardır, abadlıq, quruculuq işləri aparılır. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair ikinci proqram icra olunur. Bu proqram çox müfəssəl proqramdır və proqramın icrası nəticəsində, demək olar ki, 2013-cü ilə qədər ölkə qarşısında duran əsas iqtisadi və sosial məsələlər öz həllini tapmalıdır. Biz görürük ki, bu proqram 2009-cu ilin yekunlarına görə uğurla icra edilir.

Azərbaycanda böyük abadlıq-quruculuq işləri aparılır. Böhran ilinə baxmayaraq, bütün infrastruktur layihələri icra edilir. Yeni yollar çəkilir. Həm Bakıda, həm bizi qonşu ölkələrlə birləşdirən magistral yollar salınır və bu yollar ən yüksək standartlara cavab verir. Elektrik stansiyalarının tikintisi uğurla davam edir. Bunu etməklə Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edib və biz gələcək illərdə diqqətimizi daha çox bərpa olunan enerji növlərinin yaradılmasına yönəldəcəyik. Azərbaycanda bütün bölgələrin qazlaşdırılması prosesi davam etdirilir. Əhali təmiz içməli su ilə təmin edilir. Görülən təxirəsalınmaz tədbirlər nəticəsində yüz minlərlə vətəndaş içməli su ilə təmin edilibdir. Bu proses davam edir və nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi

bizə imkan verəcək ki, Azərbaycan əhalisi içməli su ilə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə təmin edilsin.

Bütün sosial proqramlar icra edilir. Sirr deyil ki, iqtisadiyyatımızın müəyyən hissəsi neftdən əldə olunan gəlirlər hesabına formalaşır və 2009-cu ildə neftin qiyməti dünyada kəskin şəkildə aşağı düşmüşdür. Buna baxmayaraq, bütün sosial proqramlar vaxtında icra edilir. Ünvanlı sosial yardım proqramı aparılır və bu proqram gələcəkdə də davam etdiriləcəkdir. Hər yerdə yeni məktəblər, tibbi mərkəzlər, idman kompleksləri, mədəniyyət ocaqları yaradılıb. Yəni ki, 2008-ci ilin sonunda bu il üçün – 2009-cu il üçün dövlət büdcəsində nəzərdə tutulmuş bütün sosial proqramlar icra edildi.

Erməni işğalından əziyyət çəkən soydaşlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması və onların məşğulluğunun artırılması işində əməli addımlar atılmışdır. Yeni qəsəbələr salınır, gözəl evlər, hündürmərtəbəli binalar tikilir. Yəni, bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı öz resurslarına arxalanır. Biz bəzi başqa ölkələr kimi xarici yardım hesabına yaşamırıq. Biz müstəqil siyasət aparırıq, ləyaqətli siyasət aparırıq, öz resurslarımıza arxalanırıq, öz hesabımıza yaşayırıq və ölkəmizi gücləndiririk, abadlaşdırırıq. Ölkəmizin beynəlxalq müstəvidə daha da güclü olması üçün əlimizdən gələni edirik.

2009-cu ildə kənd təsərrüfatının inkişafı sahəsində böyük işlər görülübdür. Üç milyon ton taxıl yığılıbdır. Bu, rekord göstəricidir. Azərbaycan tarixində bu günə qədər heç vaxt bu qədər taxıl istehsal olunmurdu. Bütün başqa kənd təsərrüfatı məhsullarının istehsalı üçün də praktiki işlər görülür, subsidiyalar, kreditlər verilir, soyuducu anbarlar, taxıl anbarları tikilir, suvarma tədbirləri görülür. Yəni, kənd təsərrüfatını daha da inkişaf etdirmək üçün bizim düşünülmüş proqramımız vardır və bunun nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsulları artır. Biz bu gün özümüzü demək olar ki, əsas kənd təsərrüfatı məhsulları ilə təmin edirik. Gələcəkdə bu, daha da böyük həcmlə təşkil ediləcəkdir. Həm öz daxili tələbatımızı ödəmək üçün, həm də ixrac potensialımızı artırmaq üçün gələcəkdə əlavə imkanlar yaradılacaqdır. Ölkəmiz üçün həm iqtisadi, həm sosial baxımdan çox vacib olan bu sahənin inkişafı kompleks tədbirlər nəticəsində təmin edilir.

Azərbaycanda sahibkarlığın inkişafı üçün gözəl şərait vardır. Sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi və həm də iqtisadi dəstək alırlar. Əgər Azərbaycan dövləti tərəfindən kreditlər təşkil edilməsəydi, kənd təsərrüfatının inkişafı üzrə bizim böyük problemlərimiz ola bilərdi. Amma kreditlərin vaxtında verilməsi və sahibkarlığın inkişafı üçün görülən bütün tədbirlər, əlbəttə, sahibkarlara da çox gözəl şərait yaradır. Gələcəkdə Azərbaycanın iqtisadiyyatı daha çox sahibkarlığın fəaliyyətindən asılı olacaqdır. Bütün infrastruktur layihələri həyata keçirilir, elektrik stansiyaları, yollar tikilir, - mən artıq bu barədə danışdım, - bunlar, eyni zamanda, sahibkarlığın inkişafı üçün də başlıca şərtdir. Azərbaycanın şəhərləri abadlaşır, gözəlləşir. Sahibkarlığın inkişafı bizim üçün həmişə olduğu kimi prioritet məsələdir və bu istiqamətdə növbəti illərdə də lazımi tədbirlər görüləcəkdir.

Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Qarşıda duran bütün neft-qaz layihələri icra edilib. Biz nəzərdə tutulmuş bütün məsələləri həll etmişik, ixracımızı şaxələndirə bilmişik. Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla çıxarılır və ixrac coğrafiyası gələn ildən başlayaraq daha da genişlənəcəkdir.

2009-cu ildə Azərbaycanda 50 milyon ton neft, 25 milyard kubmetr qaz hasil edilibdir. Gələn il bu rəqəmlər daha da artacaq və beləliklə, ölkəmizə əlavə maliyyə resursları gələcək, eyni zamanda, ixrac imkanlarımız genişlənəcəkdir. Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artmaqdadır.

Xarici siyasətə gəldikdə, bu istiqamətdə çox vacib addımlar atılmışdır. 2009-cu ildə Azərbaycan bu istiqamətdə çox vacib işlər görmüşdür. Mənim müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlar, keçirdiyim görüşlər Azərbaycanın dünyadakı mövqeyini daha da gücləndirmişdir. Azərbaycanla dost olmaq istəyən ölkələrin sayı artır. Bizim strateji tərəfdaşlarımızın sayı artır. Sirr deyil ki, bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Bizim xarici siyasətimiz Azərbaycanın milli maraqlarının tam şəkildə müdafiə edilməsinə yönəldilibdir. Bütün qonşu ölkələrlə qarşılıqlı surətdə faydalı və qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlər mövcuddur. Azərbaycan bütün başqa ölkələrlə öz fəaliyyətini ancaq və ancaq dostluq, əməkdaşlıq şəraitində qurur.

Biz xarici siyasətimizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzərində çox fəal işləyirik. Deyə bilərəm ki, 2009-cu ildə məsələnin həlli üçün çox vacib addımlar atılmışdır. Artıq bütün dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər problemin hansı yollarla həll olunması haqqında öz iradələrini ortaya qoyurlar. Çox sevindiricidir ki, Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqe üstünlük təşkil edir. Yəni ki, məsələ öz həllini beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bizim həmişə ortaya qoyduğumuz prinsiplər məhz bunlardır.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu, mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları - həm siyasi, həm iqtisadi, həm diplomatik, həm başqa imkanları - işə salaraq, bu məsələni tezliklə, ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər.

Amma bununla bərabər Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu, bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Təbii ki, bu, bizim daxili işimizdir. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq dörd ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. Bizim hərbi potensialımız gündən-günə artır və artacaqdır. 2010-cu ildə bu məqsədləri təmin etmək üçün əlavə böyük vəsait nəzərdə tutulur. Biz Dağlıq Qarabağ məsələsini, Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün bütün imkanlardan istifadə edə bilərik.

Əziz həmvətənlər, əziz dostlar!

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün azərbaycanlılar bu günü qeyd edirlər. Mən dünyada yaşayan bütün azərbaycanlılara uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Onlar bilməlidirlər və bilirlər ki, arxalarında qüdrətli Azərbaycan dövləti dayanır. Eyni zamanda, onların uğuru, yaşadıqları ölkələrdə səmərəli fəaliyyəti Vətənimizi – Azərbaycanı daha da gücləndirir. Mən çox şadam ki, bu gün müxtəlif ölkələrdə, dünyanın demək olar ki, əksər bölgələrində güclü Azərbaycan

təşkilatları formalaşıb, fəaliyyət göstərir. Onlar həm bizneslə məşğul olurlar, eyni zamanda, müxtəlif vəzifələrdə, dövlət vəzifələrində çalışırlar, artıq qanunvericilik orqanlarına seçilirlər. Bu da çox vacibdir. Belə mütəşəkkil Azərbaycan icmaları Azərbaycanı gücləndirirlər və yaşadıqları ölkələrdə onların həyat səviyyəsi daha da artır. Bu, çox müsbət haldır.
Dünyada yaşayan azərbaycanlıların sayı çoxdur və bizim fəallığımız, mütəşəkkil qaydada fəaliyyətimiz bizi gücləndirir. Son vaxtlar Azərbaycana qarşı ədalətsiz qərarlar çıxarılarkən Azərbaycanın diaspor nümayəndələri öz güclərini göstərdilər, kütləvi aksiyalarda iştirak etdilər, müxtəlif etiraz aksiyalarına əl atdılar, mədəni, sivil qaydada öz etiraz səslərini ucaltdılar. Bax, budur Azərbaycanın qüdrəti, budur azərbaycançılıq fəlsəfəsinin təntənəsi.

Mən bu əziz gündə dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən təbrik edirəm. Onların hər biri bizim üçün əzizdir, doğmadır. Onlar bilirlər ki, həmişə doğma Vətənə arxalana bilərlər.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Əziz həmvətənlər!

Bir daha sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2009-cu il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzularımı yetirirəm.

Səmavi dinlər Azərbaycanda yüz illər boyu sülh və anlaşma şəraitində, dinc yanaşı fəaliyyət göstərərək cəmiyyətimizdə əmin-amanlığın, dostluq və qardaşlıq münasibətlərinin formalaşmasında misilsiz rol oynamışdır. Mütərəqqi tarixi-mədəni ənənələr üzərində bərqərar olan müasir Azərbaycan cəmiyyətində xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühiti, mövcud milli mənəvi həmrəylik, haqlı olaraq, ölkəmizi dünyada tolerantlıq örnəyi kimi tanıtmışdır.

Bu gün xristian inanclı vətəndaşlarımız, o cümlədən çoxsaylı pravoslav icması cəmiyyətimizin ayrılmaz hissəsidir və ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edir. Əmin olduğumu bildirirəm ki, Azərbaycanın tərəqqisi və daha da çiçəklənməsi naminə vətəndaşlıq borcunuzu bundan sonra da layiqincə yerinə yetirəcəksiniz.

Əziz həmvətənlər!

Yeniliyin, əmin-amanlığın, mərhəmət və şəfqət duyğularının rəmzi olan Milad bayramı hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilir. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2010-cu il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, ölkəmizin bütün qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Xalqımızın milli varlığını müəyyən edən mədəni-mənəvi dəyərlərimizin, ana dilimizin, adət-ənənələrimizin qorunub saxlanması və bu günlərədək layiqincə yaşadılmasında Azərbaycan qadını misilsiz xidmətlər göstərmişdir. O, müstəqil dövlətçiliyimizə və azərbaycançılıq məfkurəsinə sədaqət, müqəddəs vətənimizin suverenliyi və ərazi bütövlüyünün toxunulmazlığı naminə gənclərimizin doğma yurda sonsuz məhəbbət ruhunda formalaşmaları yolunda var qüvvəsini sərf edir.

Azərbaycanın qədim və zəngin tarixinin hər səhifəsində qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri vardır. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra qadınlar sosial fəallıqlarını xeyli artıraraq elm və təhsil, səhiyyə və mədəniyyət sahələrində mühüm nailiyyətlər qazanmışlar. Onlar suveren ölkəmizin dinamik inkişafını təmin edən bütün bu təqdirəlayiq fəaliyyətləri ilə milli dövlət quruculuğu işində öz istedad və bacarıqlarını müvəffəqiyyətlə gerçəkləşdirir, beynəlxalq aləmdə Azərbaycanı layiqincə təmsil edirlər.

Ümidvaram ki, siz, Azərbaycan qadınları, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatının ən müxtəlif sahələrində bundan sonra da uğurla çalışacaq, davamlı yeniləşən ölkəmizin çiçəklənməsi naminə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 mart 2010-cu il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi hamımızın sevimli Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Xalqımız min illər ərzində təşəkkül tapmış ənənələrə sadiq qalaraq hər il Novruz gününü təntənə ilə bayram edir. Təbiətlə insanın sarsılmaz vəhdətinə dair qədim təsəvvürləri əks etdirən Novruz bayramı insanlarımızın yaddaşına əbədi həkk olunmuşdur. Ulu əcdadlarımızın indiki nəsillərə misilsiz ərməğanı olan Novruz adət-ənənələrinin günümüzədək layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir.

Yüksək mənəviyyat xəzinəsi sayılan Bahar bayramı milli-mədəni sərvətlərimizin zənginliyini dolğun ifadə edir. O, böyük mənəvi gücə malik olub, insanlar arasında qarşılıqlı dostluq, səmimiyyət, qayğıkeşlik və qardaşlıq duyğularını gücləndirir, cəmiyyətdə əmin-amanlığın və xoş münasibətlərin bərqərar olmasına zəmin yaradır. Sürətlə dəyişən dünyamızda qloballaşma proseslərinin geniş vüsət aldığı bir zamanda Novruz bayramı daşıdığı bütün məna və rəmzləri ilə xalqımızın tarixi-mədəni irsə son dərəcə bağlı olduğunu parlaq nümayiş etdirir. Ən ali keyfiyyətləri özündə cəmləşdirən bayram kimi Novruzun YUNESKO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi təqdirəlayiq haldır.

Bahar bayramının kütləvi el şənlikləri və mərasimlərlə dövlət səviyyəsində keçirilməsi və yurdumuzun hər bir guşəsində sonsuz sevinclə qarşılanması milli müstəqilliyimizin bizə bəxş etdiyi nailiyyətlərdəndir. Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan və qəlbləri Azərbaycanla birgə döyünən soydaşlarımız bu əziz günü bizimlə bərabər qeyd edirlər. Ümidvaram ki, milli dəyərlərə sadiqlik və həmrəylik duyğusu bütün azərbaycanlıları doğma Vətənimizin inkişafı naminə daha sıx birləşdirəcəkdir.

Hamınıza bahar təravətli bayram əhval-ruhiyyəsi arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 mart 2010-cu il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda tarixən xalqlar arasında mehriban dostluq və qardaşlıq münasibətləri mövcud olmuş, səmavi dinlər qarşılıqlı hörmət və etimad şəraitində, dinc yanaşı fəaliyyət göstərmişdir. Yüksək əxlaqi dəyərlərə əsaslanan tolerantlıq mühitində ölkəmizin bütün milli azlıqları öz etnik-dini adət-ənənələrini, dil və mədəniyyətini günümüzəcən yaşatmışlar. Müasir mərhələdə tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunub saxlanması Azərbaycan hökumətinin xüsusi diqqət və qayğıyla yanaşdığı məsələlərdəndir.

Bu gün çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində özünəməxsus yeri olan pravoslav xristian icması ictimai-siyasi həyatın bütün sahələrində fəal iştirak edir, ölkədə təmin olunmuş demokratik-hüquqi şəraitdən tam yararlanmaqla, milli-dini ayin və mərasimlərini azad və sərbəst şəkildə yerinə yetirir. Azərbaycanda hər il təntənə ilə qeyd edilən Pasxa bayramı da belə mərasimlərdəndir.

Bu əziz bayram günündə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 aprel 2010-cu il***

## ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri,

Tacqoyma gününüz münasibətilə Sizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Vatikan münasibətləri, dostluq və əməkdaşlığımız humanizm ideallarının və ümumbəşəri dəyərlərin təntənəsi naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar diləyir, həmməzhəblərinizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı, 13 aprel 2010-cu il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı artıq başa çatmaqdadır. Bu ayda müsəlmanlar Allah və din qarşısında öz vicdani borclarını daha dolğun yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il təntənə ilə qeyd edilir. Orucluğun sınaqlarından alnıaçıq çıxan mömin vətəndaşlarımız Ramazan günlərini qürur hissi ilə yola salır, bayram sevincini məmnunluqla bölüşürlər. Ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün diləklər edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Bu əziz bayram günlərində bütün xeyirxah niyyətlərlə həmrəy olduğumu bildirir, dualarınızın Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Əziz bacı və qardaşlarım!

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Bu mübarək bayram münasibətilə hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə xoşbəxtlik, firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2010-cu il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən islam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

Qurban bayramı islamın bir din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsi ilə əlamətdardır. Bu mübarək gündə müsəlmanlar Uca Tanrıya yaxınlığın, ilahi dəyərlərə bağlılığın sevinc və fərəhini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Hər il ölkəmizdə böyük təntənə ilə keçirilən Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu günlər xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması arzusu ilə bir daha hər birinizə, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirirəm. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 noyabr 2010-cu il***

## SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRININ YARADICI HEYƏTİNƏ

Sizi – Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının yaradıcı heyətini və bütün işçilərini bu mədəniyyət ocağının 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

Teatrınız fəaliyyətə başladığı vaxtlardan etibarən respublikamızda teatr sənətinin inkişafı naminə mühüm xidmətlər göstərmişdir. Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda dünya dramaturji irsinin gözəl nümunələrinin səhnə təcəssümü tapmasında aktyorlarınızın böyük rolu vardır. Milli dramaturgiyamızın görkəmli simalarının həmişə ustalıqla canlandırdığınız əsərləri teatrsevərlər tərəfindən yüksək qiymətə layiq görülmüşdür. Siz uzun illər boyu rus teatrının zəngin ənənələrindən bəhrələnməklə Azərbaycan-rus mədəni əlaqələrinin möhkəmlənməsinə töhfələr vermisiniz.

Təqdirəlayiq haldır ki, teatrınız daim rəngarəng repertuarı ilə tamaşaçıların bir çox nəslinin hüsn-rəğbətini qazanmışdır. Teatrınızın salnaməsini təşkil edən parlaq səhifələr ayrı-ayrı illərdə burada çalışmış və ölkəmizin hüdudlarından kənarda da tanınmış istedadlı sənətkarların adları ilə sıx bağlıdır. İnanıram ki, yaradıcı heyətiniz öz ənənələrinə sadiq qalaraq bundan sonra da axtarışlarını müvəffəqiyyətlə davam etdirəcək və ölkəmizdə teatr sənətinin inkişafında bundan sonra da mühüm rol oynayacaqdır.

Ən xoş arzularla

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2010-cu il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər birimizdə böyük sevinc və səmimi duyğular oyadan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik
Günü ərəfəsində sizi ürəkdən salamlayır və ən xoş arzularımı yetirirəm.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər. Gələn il Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçiriləcəkdir. Əminəm ki, qurultayda diaspor təşkilatlarının fəaliyyəti dərindən təhlil olunacaq, qəbul edilən qərarlar soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin gücləndirilməsinə təkan verəcəkdir.

Azərbaycan dövlətinin iqtisadi-siyasi, sosial-mədəni qüdrətinin artması və dinamik inkişafı bütün dünya azərbaycanlılarının arzusudur. Yola salmağa hazırlaşdığımız 2010-cu ildə bütün sahələrdə nəzərdə tutulmuş proqramlar uğurla icra edilmişdir. Ölkəmizdə yaradılmış güclü inkişaf potensialı, səmərəli idarəetmə sistemi dövlətimizin çətin sınaqlardan alnıaçıq çıxmasına imkan verir.

Hazırda respublikamızda sabit və sağlam ictimai-siyasi mühit hökm sürür. Cari ilin noyabrında keçirilmiş parlament seçkiləri ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun təntənəsini və xalqımızın bu kursa inamını, cəmiyyətimizin siyasi yetkinliyini və mütəşəkkilliyini bir daha nümayiş etdirdi.

Qazandığımız uğurlara baxmayaraq, hələ də müharibə şəraitində yaşadığımızı unutmamalıyıq. Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir.

Əziz bacı və qardaşlar!

Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir. Bu bayram münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 dekabr 2010-cu il***

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

2010-cu il arxada qalır. 2010-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. Baxmayaraq ki, 2010-cu ildə dünyada iqtisadi və maliyyə böhranı hələ də davam edirdi, Azərbaycan 2010-cu ildə böyük uğurlara nail olmuşdur. Bizim iqtisadiyyatımız artmışdır, ölkədə bütün sosial proqramlar öz həllini tapmışdır, bütün infrastruktur layihələri icra edilmişdir, bir sözlə, 2010-cu ildə ölkə qarşısında duran bütün vəzifələr şərəflə yerinə yetirildi. İqtisadiyyatımız təxminən 5 faiz, əhalinin pul gəlirləri 12 faiz artmışdır, inflyasiya cəmi 5,7 faiz təşkil etmişdir. Ölkəmizə 15 milyard dollar sərmayə qoyulmuşdur, bizim valyuta ehtiyatlarımız 20 milyard dollardan 29 milyard dollara qalxmışdır. Bütün bunlar, bu nəticələr onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur, Azərbaycanın seçdiyi yol tərəqqi və inkişaf yoludur.

2010-cu ildə sosial sahədə böyük işlər görülmüşdür. 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb tikilmiş və təmir edilmişdir, 5 Olimpiya-İdman Mərkəzi tikilmişdir. Minimum əməkhaqqı və pensiyanın baza hissəsi qaldırılmışdır, ünvanlı sosial yardım proqramı uğurla icra edilir. Bu, onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və iqtisadiyyatımız tam şəkildə bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Ancaq bununla bərabər, güclü sosial siyasət bizim əsas vəzifəmizdir.

2010-cu ildə ölkəmizdə siyasi proseslər müsbət istiqamətdə inkişaf etmişdir. Azərbaycanda demokratiyanın inkişafı yolunda böyük və uğurlu addımlar atılmışdır. 2010-cu ildə Azərbaycanda parlament seçkiləri şəffaf, ədalətli şəkildə keçirilmişdir. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə öz əksini tapmışdır. Bu, onu göstərir ki, biz nəinki iqtisadi sahədə çox böyük uğurlara nail olmuşuq, eyni zamanda, siyasi islahatların aparılması işində Azərbaycan çox uğurla inkişaf edir. Bu, bizə imkan verir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkəmiz sözün əsl mənasında, müasir dövlətə çevrilsin və bu istiqamətdə atılmış addımlar bizi ruhlandırır.

Xarici siyasət sahəsində 2010-cu ildə böyük uğurlara nail olduq. Bizim dostlarımızın, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz həm ikitərəfli müstəvidə, həm regional formatda, həm çoxtərəfli formatda uğurlu xarici siyasət aparırıq. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz artıq oturuşmuş əlaqələrdir, qarşılıqlı hörmət, qarşılıqlı inam, qarşılıqlı maraqlar üzərində qurulmuş münasibətlərdir.

2010-cu ildə Avropa Parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox əhəmiyyətli və ədalətli qətnamə qəbul etmişdir. Beləliklə, münaqişənin həlli ilə bağlı gedən işlərdə bizim siyasi və diplomatik mövqelərimiz daha da möhkəmləndirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Bizim ərazi bütövlüyümüzün bərpası mütləq baş verməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə

barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağda yaşayan əhali və ora qayıdacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşayacaqlar və bu, məsələnin həlli üçün yeganə variantdır.

2010-cu ildə ölkəmizdə böyük infrastruktur layihələri icra edilmişdir. Nəqliyyat sektorunda, inşaat sektorunda, elektrik enerjisi güclərinin yaradılması işində böyük və önəmli addımlar atılmışdır. 2010-cu ildə Bakıda böyük gəmiqayırma zavodunun tikintisi başlanmışdır. Bakıda Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi başlanmışdır. Bu layihələr bölgədə gedən əməkdaşlıq proseslərinə çox güclü təkan verəcək, Azərbaycanın qeyri-neft sektorunun inkişafına çox müsbət təsir göstərəcək və ölkəmizin inkişafına xidmət edəcəkdir. Bütün bu layihələr böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Ancaq iqtisadi vəziyyətimiz imkan verir ki, biz bu layihələri öz gücümüzlə, öz pulumuzla icra edək.

2010-cu ildə Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi başa çatmışdır. Bu, ölkəmiz üçün tarixi bir hadisədir. Yeni böyük su kəməri Bakını təmiz, keyfiyyətli içməli su ilə təmin edəcək və Bakının demək olar ki, əsas problemlərindən biri olan su təchizatının yaxşılaşdırılmasına böyük töhfə verəcəkdir. Bu tarixi layihənin həyata keçirilməsi Azərbaycan xalqının, Azərbaycan dövlətinin böyük uğurudur və bir daha onu göstərir ki, bizim siyasətimiz insanların yaşayış səviyyəsinin qaldırılmasına, rifah halının yaxşılaşdırılmasına yönəldilibdir.

Bildiyiniz kimi, 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdir. Bu, sadəcə olaraq şüar naminə atılmış bir addım deyildi. Sözün əsl mənasında, biz 2010-cu ildə ekoloji məsələlərin həlli ilə çox ciddi məşğul olurduq. Mən əminəm ki, bundan sonrakı illərdə də bu məsələ daim diqqət mərkəzində olacaqdır. Təkcə bir il ərzində görülmüş işlər və irəli sürülmüş təşəbbüs nəticəsində Azərbaycanda 6 milyondan çox ağac əkilmişdir. Bu, tarixdə misli görünməmiş bir nəticədir. Biz ilin əvvəlində qarşıya hədəf qoymuşduq ki, 3 milyon ağac əkilsin. Ancaq 6 milyon ağacın əkilməsi onu göstərir ki, hər bir bölgədə, hər bir kənddə insanlar bizim təşəbbüsümüzə qoşularaq Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz töhfələrini vermişlər.

Əhalini, xüsusilə çaylar boyu yerləşən kəndlərdə yaşayan insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular tikilmişdir. Artıq o çaylar boyu yerləşən kəndlərdə yaşayan 300 min Azərbaycan vətəndaşı təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təchiz edilir.

2010-cu ildə bizim iqtisadiyyatımızın aparıcı sahəsi olan neft-qaz sektorunda da böyük uğurlar əldə edilmişdir. Ölkəmizdə 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmişdir. Biz dünyanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz töhfəmizi veririk. Azərbaycan çox etibarlı tərəfdaşdır və bizim neft-qaz resurslarımız ölkəmizi, ölkə iqtisadiyyatını gücləndirir, eyni zamanda, bizim beynəlxalq mövqelərimizi də gücləndirir. 2010-cu ildə Azərbaycanda böyük qaz yatağı kəşf edilmişdir. "Ümid" yatağı Azərbaycan neftçiləri tərəfindən kəşf edilmişdir və bu yataq bizim enerji potensialımıza böyük dəstək verəcəkdir. Artıq yatağın aşkarlanması dünyada böyük səs salıb və Azərbaycanın enerji

potensialının dünya bazarlarına təqdim edilməsi üçün bu hadisənin böyük əhəmiyyəti olacaqdır.

Əziz dostlar, bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən dünyada yaşayan bütün soydaşlarımızı bu bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü, qüdrətli, müasir, azad Azərbaycan dövləti dayanır. Azərbaycan onların dayağıdır, onların arxasıdır. Onlar da yaşadıqları ölkələrdə Azərbaycanı təmsil edirlər və ölkəmizin maraqlarının təmin edilməsinə gündəlik fəaliyyətləri ilə öz töhfələrini verirlər. Dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, Azərbaycan dövləti daim onlarla bərabərdir, onların fəaliyyətini izləyir, onların qayğıları ilə yaşayır. Dünyada mövcud olan Azərbaycan diaspor təşkilatları da öz səmərəli fəaliyyətləri ilə bizim gücümüzü artırırlar.

Əziz dostlar, 2010-cu ildə ölkəmizdə, ölkəmizin paytaxtında çox əlamətdar hadisə baş vermişdir. Bakıda Dövlət Bayrağı Meydanı yaradılmışdır və dünyanın ən böyük, ən hündür bayrağı Bakıda ucaldılmışdır. Bizim bayrağımız milli rəmzimizdir, dövlət rəmzimizdir, qürur mənbəyimizdir. Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda qaldırılmalıdır və qaldırılacaqdır. Şuşada, Xankəndidə bizim milli bayrağımız dalğalanmalıdır və dalğalanacaqdır. Bu günü biz hamımız yaxınlaşdırmalıyıq, bu günə biz hamımız nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan dövləti bundan sonra da ancaq və ancaq inkişaf və tərəqqi yolu ilə gedəcəkdir.

Bir daha sizi bu gözəl bayramlar münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2010-cu il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olan xalqlar və etnik azlıqlar həmişə sülh və əmin-amanlıq içində yaşamış, səmavi dinlər əsrlər boyu qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişlər. Biz mütərəqqi milli-tarixi ənənələr üzərində bərqərar olmuş müasir cəmiyyətimizdə hökm sürən tolerantlığı, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini Azərbaycan dövlətçiliyinin misilsiz nailiyyəti kimi qiymətləndirir və haqlı olaraq bununla fəxr edirik. Ölkəmizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanmasına və daha da inkişaf etdirilməsinə bundan sonra da daimi diqqət və qayğı göstəriləcəkdir.

Əziz həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2011-ci il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə səmimi qəlbdən təbrik edirəm, hər birinizə cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Builki qadınlar bayramı ölkəmizin dövlət müstəqilliyinin bərpasının iyirmi illik yubileyinə hazırlaşdığımız günlərə təsadüf edir. Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlamışlar. Sürətlə maariflənən qadınlarımız yüzillərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Dövlət müstəqilliyimizin bərpasından sonra ötən iyirmi il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə o öz nüfuzunu ilbəil artırmağa müvəffəq olmuşdur. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətləri məmnunluq hissi doğurur. Ölkəmizdəki sabitlik və demokratik mühit qarşıdakı illərdə də onlara öz fitri istedadlarını, yaradıcılıq imkanlarını tam gerçəkləşdirə bilmələri üçün bütün lazımi şəraiti təmin edir.

Ümidvaram ki, siz, Azərbaycan qadınları gənc nəslin milli adət-ənənələrə, azərbaycançılıq məfkurəsinə bağlılıq ruhunda tərbiyəsi işinə bundan sonra da xüsusi diqqət yetirəcək, dinamik inkişaf edən ölkəmizin gələcəyi naminə qüvvənizi, bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 mart 2011-ci il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Ulu Tanrıya, kainatın nizamına və ana təbiətə sonsuz sevginin parlaq ifadəsi olan bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir.

Baharın Azərbaycan torpağına builki gəlişi dövlət müstəqilliyimizin bərpasının iyirminci ildönümünə yubiley hazırlıqları ilə üst-üstə düşür. Əsrlərin sınağından çıxmış Novruz bayramının artıq dövlət səviyyəsində keçirilməsi məhz istiqlal yolunda qazandığımız nailiyyətlərdəndir. Suverenlik şəraitində özünün iyirminci baharını yaşayan respublikamız Novruz günlərində Beynəlxalq muğam festivalı çərçivəsində ayrı-ayrı ölkələrdən gəlmiş muğam tədqiqatçılarını, xanəndələri və çoxsaylı qonaqları qəbul edir. Xalqımızın əbədi və təkrarsız sənət incisi muğam baharın insanlarda inam hissini və yaradıcılıq şövqünü artıran yeniləşdirici ab-havası ilə yaxından səsləşir.

Dünya azərbaycanlılarına Novruz bayramı salamlarımı yetirir, azərbaycançılıq məfkurəsi ətrafında onların daha sıx birləşəcəklərinə inamımı ifadə edirəm. Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması naminə canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bu əziz günlərdə bir daha ehtiramla yad olunur. Ümidvaram ki, Azərbaycanın müstəqil ölkə olaraq qazandığı zəfərlər şəhidlərimizin ruhunu şad edəcəkdir.

Hər evə, hər ailəyə, hər bir Azərbaycan vətəndaşına bayram ovqatı və sevinc arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 mart 2011-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə can sağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin mövcud olması, ayrı-ayrı dinlərin və etiqadların qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərməsi bu gün ölkəmizi dünyada nümunəvi tolerantlıq məkanı kimi tanıtmışdır. Təsadüfi deyildir ki, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər bizim ölkəmizdə keçirilməsi artıq ənənə halını almışdır. Azərbaycanda etnik-dini müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması dövlət siyasətimizin prioritet istiqamətlərindəndir və bu sahədəki səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, respublikamızın xristian icması, o cümlədən pravoslav vətəndaşlarımız ölkəmizdə gedən böyük quruculuq işlərində yaxından iştirak edir, vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz dostlar!

Pasxa bayramı əmin-amanlıq, həmrəylik, mərhəmət və şəfqət rəmzi kimi hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu nurlu bayram ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 aprel 2011-ci il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq və bərabərlik yoluna dəvət edir. Müsəlmanlar bu ayda Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız mübarək Ramazan ayını, hər il olduğu kimi, bu il də böyük fərəh hissləri və könül xoşluğu ilə yola salır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız məmnuniyyətlə bayram sevincini bölüşür, dövlətimizin rifahı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin ölməz ruhuna dualar oxunur. İnanıram ki, bu müqəddəs bayram günlərində etdiyiniz dua və diləklər, saf niyyətlər Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

İnsanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran Ramazan bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir. Bu əziz gündə bir daha sizə, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 avqust 2011-ci il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Yəhudi xalqının milli yeni il bayramı – Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələri, o cümlədən yəhudi vətəndaşlarımız, yüz illərdir ki, əmin-amanlıq şəraitində yaşayaraq ölkəmizin ictimai-siyasi və elmi-mədəni həyatında yaxından iştirak edirlər. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin təşviq edilməsi, milli azlıqların dil və mədəniyyətinin inkişafı, adət-ənənələrinin qorunub saxlanması dövlətin daimi himayəsi altındadır və bu siyasət gələcəkdə də ardıcıl olaraq davam etdiriləcəkdir.

Yeniliyin, mənəvi saflığın, həmrəylik və xeyirxahlığın rəmzi olan Roş-Ha-Şana münasibətilə bir daha hamınızı səmimi qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 sentyabr 2011-ci il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Müqəddəs Qurban bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslamın bir din kimi tamamlanmasını və hidayət yolu olaraq bəşəriyyətə göndərilməsini özündə ehtiva edən Qurban mərasimləri müsəlmanlara xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmanın və Uca Yaradana yaxınlığın fərəhini yaşatmaqla, insanları sülhə, əmin-amanlığa və qardaşlıq yoluna dəvət edir. Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlər sistemində Qurban bayramının xüsusi yeri vardır. Xalqımız yüz illərdir ki, Allah və din yolunda mənəvi borcunu böyük təntənə ilə yerinə yetirir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli mənəvi həmrəyliyi və dözümlülük ovqatını daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir. Bu mübarək gündə bir daha hamınıza Ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 noyabr 2011-ci il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xalqımızın birlik və mütəşəkkilliyinin, milli təəssübkeşlik və Vətənə sədaqətinin rəmzi olan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayıram.

Ümummilli liderimiz Heydər Əliyevin 20 il əvvəl irəli sürdüyü təşəbbüs nəticəsində təsis edilən bu əziz bayram dünyadakı bütün soydaşlarımızın qəlbini Vətən hərarəti ilə isidir və müstəqil Azərbaycan dövlətinə məhəbbət hissi aşılayır.

Həmvətənlərimizin milli birliyinə xüsusi əhəmiyyət verən Azərbaycan hökuməti diaspor quruculuğu işini daim diqqət mərkəzində saxlayır. Bu ilin yayında Bakıda Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması və Vətənlə əlaqələrinin möhkəmləndirilməsi yolunda yeni mərhələnin başlanğıcını qoydu. Qurultayda diaspor qurumlarının fəaliyyəti qiymətləndirildi, soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin artırılmasına təkan verən mühüm qərarlar qəbul olundu.

Vətənimizin hüdudlarından kənarda yaşayan soydaşlarımız arasında azərbaycançılıq ideyalarının və milli təəssübkeşlik duyğularının günü-gündən güclənməsi olduqca fərəhləndirici haldır. İndi xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında getdikcə öz mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, mədəniyyətimizin təbliğinə sanballı töhfələr verirlər. Bu ilin yazında keçirilmiş nüfuzlu beynəlxalq mədəniyyət yarışmasında - “Eurovision - 2011” mahnı müsabiqəsində təmsilçilərimizin qazandığı qələbədə Avropa ölkələrində yaşayan soydaşlarımızın da payı olmuşdur. Ümidvaram ki, diaspor təşkilatlarımız bundan sonra da əldə edilən nailiyyətlərlə kifayətlənməyəcək, Diasporla İş üzrə Dövlət Komitəsi və xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə əməkdaşlığı gücləndirəcək, yeni çağırışlara daha mütəşəkkil və təsirli cavab verəcəklər.

Əziz həmvətənlər!

Biz bu il dövlət müstəqilliyimizin 20 illiyini geniş qeyd etdik. Azərbaycanın 20 il ərzində nail olduğu uğurlar vətəndaşlarımızın əməksevərliyini, yüksək intellektual qabiliyyətini və qurub-yaratmaq əzmini bütün dünyaya əyani şəkildə nümayiş etdirir. Müstəqilliyin ilk illərində ölkəni bürümüş böhranlı vəziyyət, xalqımızın düçar olduğu çətinlik və məhrumiyyətlər indi arxada qalmış, yoxsulluq və işsizliyin səviyyəsi minimuma enmişdir. Düşünülmüş və planlı şəkildə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanı dinamik inkişaf edən güclü və demokratik bir dövlətə çevirmiş, nüfuzlu və etibarlı tərəfdaş kimi dünyada tanıtmışdır. Bu il Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına keçirilən seçkilərdə qələbə qazanmış Azərbaycanı 155 dövlətin dəstəkləməsi dünya birliyinin ölkəmizə olan hörmət və inamının parlaq təzahürüdür.

Müasir dövrdə dünyada gedən proseslərin axarı sürətlə dəyişir. Qlobal, regional və lokal səviyyələrdə meydana çıxan problemlər, təhlükəli meyillər ağır iqtisadi böhranlara və sosial təlatümlərə yol açır, beynəlxalq əlaqələrə güclü təsir göstərir. Belə şəraitdə qazandığımız nailiyyətlərin möhkəmləndirilməsi və ölkəmizin davamlı inkişafının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bu yaxınlarda imzalanmış “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması haqqında Prezident Sərəncamı

məhz həmin sahədə perspektiv vəzifələrin və onların həlli yollarının aydın müəyyən olunmasına yönəlib.

Azərbaycan dövlətinin gücü, xalqımızın yaradıcı potensialı müəyyənləşdirdiyimiz yeni məqsədlərə çatacağımıza əminlik yaradır. Lakin hələ də qarşımızda həllini tapmayan vəzifə - Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərin öz doğma ocağına dönməsinin təmin edilməsi dayanır. Şübhə etmirəm ki, biz tezliklə bu çətin problemin də öhdəsindən gələcək, dünyanın gözü qarşısında törədilən işğala və haqsızlığa son qoyacağıq.

Əziz bacı və qardaşlar!

Qələbəyə, ədalətin təntənəsinə gedən yolu qısaltmağın vacib şərtlərindən biri də bizim birliyimiz və həmrəyliyimizdir. Ona görə də bütün azərbaycanlıları daha sıx birliyə, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş haqlarının müdafiəsi, müstəqil dövlətimizin mənafelərinin ardıcıl qorunması və beynəlxalq nüfuzunun artırılması işinə bundan sonra da öz töhfələrini verməyə çağırıram.

Bu sevimli bayram münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət, işlərinizdə uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2011-ci il***

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

2011-ci il arxada qalır. 2011-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. 2011-ci ildə ölkə qarşısında duran əsas vəzifələr öz həllini tapmışdır. Azərbaycanın uğurlu iqtisadi inkişafı təmin edilmişdir. Çox sevindirici hal ondan ibarətdir ki, 2011-ci ildə ölkə iqtisadiyyatının qeyri-neft sektoru böyük templərlə artmışdır. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artmışdır və bu da əvvəlki illərdə aparılan islahatların bariz nümunəsidir.

İqtisadiyyatın bütün sahələri inkişaf edir. Ölkəmizdə böyük quruculuq-abadlıq işləri aparılır. Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. İqtisadi inkişafı göstərən bütün statistik göstəricilər çox müsbətdir. Ölkəmizin valyuta ehtiyatları artır. Artıq bizim 40 milyard dollardan çox valyuta ehtiyatlarımız vardır. Ölkə iqtisadiyyatına milyardlarla dollar investisiya qoyulur və bu proses davam edir. İldən-ilə investisiya qoyuluşu daha da artır.

Bölgələrin inkişafı uğurla aparılır. Bu il ölkədə 100 minə qədər yeni iş yeri açılmışdır. Bütövlükdə son səkkiz il ərzində bir milyondan artıq yeni iş yeri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yeridir. Əhalinin pul gəlirləri təxminən 20 faiz artmışdır. İnflyasiyanın səviyyəsi təxminən 8 faiz civarındadır. Yoxsulluğun səviyyəsi aşağı düşür. 2011-ci ilin yekunlarına görə, yoxsulluq 8 faizdən aşağı olacaqdır. İşsizlik aşağı düşür. Azərbaycanda işsizlik 5,5 faizdir. Bütün bu göstəricilər onu deməyə əsas verir ki, ölkəmiz çox dinamik və uğurla inkişaf edir. Dünyada və Avropada iqtisadi sahədəki mənfi proseslərə baxmayaraq, Azərbaycan inamla qabağa gedir.

Ölkədə bütün sosial məsələlər öz həllini tapmaqdadır. Bu il 900 minə yaxın pensiyaçının orta pensiyası təxminən 40 faiz artmışdır. Dekabrın 1-dən minimum əməkhaqqı artmışdır. Digər sosial proqramlar uğurla icra edilir. Məktəblər, xəstəxanalar, idman kompleksləri tikilir. Yəni, Azərbaycan hərtərəfli və dinamik şəkildə inkişaf edir. Siyasi islahatlar uğurla aparılır. Azərbaycanda demokratiya uğurla inkişaf edir. Ölkənin modernləşdirilməsi üçün konkret addımlar atılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılır. Biz bu mübarizənin gözəl nəticələrini görürük. Gələcək illərdə bu mübarizə daha da məqsədyönlü və ciddi olmalıdır. Bütün lazımi göstərişlər verilmişdir. Bir sözlə, biz müasir dövlət qururuq. Dərin milli mənəvi dəyərlər, köklər üzərində müasir, dünyəvi, gələcəyə inamla baxan dövlət qururuq. Bu proses uğurla davam edir.

Bizi ən çox narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Azərbaycan bütün dövrlərdə, xüsusilə son dövrdə öz səylərini daha da gücləndirir. Ancaq bildiyiniz kimi, bu məsələnin həlli təkcə bizdən asılı deyildir.

Əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesində göstərdiyi riyakarlıq, danışıqlardan faktiki olaraq imtina etməsi bu prosesə böyük zərbə vurmuşdur. Əfsuslar olsun ki, hələ də dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər birmənalı şəkildə danışıqların pozulmasında günahkarın kim olduğunu açıq demirlər.

Müsbət bəyanatlar vardır. Biz bu bəyanatları eşidirik, onları dəstəkləyirik. Xüsusilə bu il yenilik ondan ibarətdir ki, həmsədr ölkələr status-kvonun qəbuledilməz olduğu

haqqında dəfələrlə bəyanatlar vermişlər. Biz bu bəyanatları dəstəkləyirik. Ancaq bəyanatlardan sonra konkret addımlar atılmalıdır. Əfsuslar ki, bu addımlar atılmır.

Biz diplomatik və siyasi səylərimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz vardır. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Münaqişə məhz bu prinsiplər üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, ikinci dəfə əzəli Azərbaycan torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Bu, bizim prinsipial mövqeyimizdir. Bir daha demək istəyirəm ki, bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır.

Bununla bərabər, biz iqtisadi sahədə olduğu kimi, hərbi sahədə də köklü islahatlar aparırıq. Bizim hərbi gücümüz, hərbi potensialımız artır. 2011-ci ildə hərbi xərclərimiz 3 milyard dolları keçmişdir. Bu, Ermənistanın bütün xərclərindən çoxdur. Gələn il hərbi xərclər yenə də artacaqdır. Ən müasir silahlar, texnikalar, döyüş təyyarələri, döyüş helikopterləri, sursatlar gətirilir və gətiriləcəkdir. Bununla bərabər, bir neçə il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə Azərbaycanda artıq 600 növ hərbi yönümlü məhsullar istehsal edilir. Biz gələcəkdə də hərbi potensialımızı gücləndirmək üçün səylərimizi əsirgəməyəcəyik. Bu gün Azərbaycanın hərbi potensialı bizə imkan verir ki, doğma torpaqlarımızı işğalçılardan istənilən yolla azad edək. Sadəcə olaraq, danışıqlara hələ ki, ümidlərimiz tükənməyib və bu danışıqlar hələ ki, davam etdirilməlidir.

2011-ci ildə ölkəmiz üçün çox vacib olan enerji sahəsində böyük uğurlar əldə edilmişdir. Azərbaycan öz mövqelərini möhkəmləndirə bilmişdir. İlin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji əməkdaşlığına dair çox vacib Bəyannamə imzalanmışdır. Azərbaycan artıq Avropanı enerji, xüsusilə təbii qazla təmin edə biləcək ölkə kimi tanınır. Bizim imkanlarımız artır.

Bu il aşkar etdiyimiz yeni qaz yataqları və keçən il aşkarlanan qaz yataqlarımız qaz potensialımızı böyük dərəcədə artıra bilmişdir. Biz uzun illər bundan sonra böyük qaz dövləti kimi dünyada öz sözümüzü deyəcəyik.

2011-ci ildə bütün lazımi tranzit müqavilələri imzalanmışdır. Artıq Azərbaycan qazını dünyaya müxtəlif yollarla nəql etmək üçün bütün imkanlar vardır. Hesab edirəm ki, 2012-ci ildə bizim zəngin qaz yataqlarımıza yeni böyük investisiyalar qoyulmalıdır. Bir neçə ildən sonra bizim qaz potensialımız ölkəmiz üçün çox böyük dəyər kimi özünü göstərəcəkdir.

İqtisadiyyatın digər sahələrində inkişaf vardır. Kənd təsərrüfatı, sənaye və qeyri-neft sənayesi artır. Bununla bərabər, 2011-ci ildə Azərbaycanda humanitar məsələlər də çox uğurla öz həllini tapmışdır. Artıq Azərbaycan tolerant, dözümlü ölkə kimi dünyada öz sözünü deyir. Bu il Birinci Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Forumda iştirak etmiş bütün qonaqlar ölkəmizdən çox gözəl təəssüratlarla ayrılmışlar. Azərbaycanın nadir təcrübəsi - dinlərarası, millətlərarası, sivilizasiyalararası dialoqun aparılması üçün bizim nadir təcrübəmiz dünyanın diqqətini cəlb edir. Əlbəttə ki, bizim müsbət təcrübəmiz, Azərbaycanda, cəmiyyətdə yaşanan gözəl ab-hava, bütün millətlərin, bütün konfessiya nümayəndələrinin bir ailə kimi yaşaması indiki dünyada nadir hadisədir. Əfsuslar olsun

ki, dünyanın müxtəlif bölgələrində, müxtəlif qitələrdə ayrı-seçkilik, qarşılıqlı inamsızlıq, apatiya meyilləri güclənir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycanın müsbət təcrübəsi öyrənilməlidir və geniş mənada bu təcrübədən başqa ölkələr də istifadə etməlidirlər.

2011-ci ildə ölkəmiz üçün çox vacib hadisə baş vermişdir. İlk dəfə olaraq Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, böyük tarixi qələbədir. Hesab edirəm ki, 20 illik müstəqillik dövründə ən böyük qələbəmizdir. Çətin mübarizədə biz bütün dünya birliyinin inamını qazana bilmişik. İlk turdan başlayaraq sonuncu tura qədər Azərbaycan bu səsvermədə liderlik edirdi. Nəticə etibarilə dünyanın 155 ölkəsi Azərbaycana öz səsini verdi, Azərbaycana inandı, bizim siyasətimizi dəstəklədi. Azərbaycana çox böyük inam, etimad vardır. Bizim siyasətimiz dəstəklənir. Çünki bizim siyasətimiz ədalətə söykənir. Bizim siyasətimiz müstəqil siyasətdir. Mən son səkkiz il ərzində dəfələrlə bu barədə demişəm ki, Azərbaycan müstəqil siyasət aparır. Azərbaycanın öz yolu vardır. Bu, inkişaf, tərəqqi, demokratiya yoludur. Bu yol Azərbaycan xalqının iradəsi ilə seçilibdir. Bizim bütün addımlarımız Azərbaycan xalqının iradəsinə əsaslanır.

Gördüyümüz bütün işlərin təməlində Azərbaycan vətəndaşıdır, Azərbaycan maraqlarıdır. Biz dövlət quruculuğu prosesində böyük uğurlar əldə etmişik. İndi bütün dünya Azərbaycanı dəstəkləyir. Dünya ictimaiyyəti deyəndə, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı yada düşür. Çünki budur dünya ictimaiyyəti. Dünya ictimaiyyətinin rəyi hər hansı bir kiçik təşkilatın, regional təşkilatın, yaxud da ki, hər hansı bir qeyri-hökumət təşkilatının rəyi deyildir. Dünya ictimaiyyətinin rəyi BMT-nin rəyidir, 155 ölkənin rəyidir. Bu dəstək, bu inam bizi daha da ruhlandırır. Biz növbəti iki ildə Təhlükəsizlik Şurasında ədalət prinsiplərini müdafiə edəcəyik.

Bu il müstəqilliyimizin bərpasının 20 illik ilidir. İyirmi il ərzində ağır günlərimiz də, gözəl günlərimiz də olub. Gözəl günlərimiz daha da çox olub. Mən tam əminəm ki, gələcəkdə bizi ancaq gözəl günlər gözləyir. Azərbaycan daha da inkişaf edəcək, öz gücünü daha da artıracaqdır. İyirmi il müstəqillik onu göstərdi ki, Azərbaycan xalqı müstəqil xalq kimi yaşaya bilər və yaxşı yaşaya bilər. Azərbaycan dövləti bu gün bölgədə sabitləşdirici amil kimi özünü təqdim edir. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Son illərin təcrübəsi onu bir daha göstərir. İqtisadi, enerji, siyasi, diplomatik, regional əməkdaşlıq məsələlərində bölgədə Azərbaycan söz sahibidir. Biz bunu yaratmışıq, biz bunu qorumalıyıq. Ölkəmizi qorumalıyıq və qoruyacağıq.

Əziz dostlar!

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Mən bu gün dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara hörmət və məhəbbətimi ifadə edirəm. Azərbaycan xalqı böyük xalqdır. Bizim böyük tariximiz və gözəl gələcəyimiz vardır. Dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, dünyada müstəqil və güclü Azərbaycan dövləti vardır. O dövlət ki, öz soydaşları haqqında daim düşünür, onların problemləri ilə yaşayır və onların rahat yaşaması üçün öz səylərini göstərir. Mən bütün dünya azərbaycanlılarını bu gözəl bayram münasibətilə təbrik edirəm.

Əziz həmvətənlər!

2012-ci il başlayır. Mən tam əminəm ki, 2012-ci ildə də ölkəmizi yalnız və yalnız uğurlar gözləyir. Bizim gördüyümüz bütün işlərin məqsədində, bir daha demək istəyirəm ki, Azərbaycan vətəndaşı, Azərbaycan ailəsi dayanır.

Mən bütün vətəndaşlara, bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2011-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər və etiqadlar əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, Azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın zəngin etno-mədəni palitrasında özünəməxsus yeri və rolu olan xristian icması, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz ölkəmizdə gedən böyük quruculuq işlərində əsl vətəndaşlıq əzmi ilə yaxından iştirak edirlər.

Əziz dostlar!

Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2012-ci il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Əziz analar və bacılar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə ürəkdən təbrik edirəm.

Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər. Onlar dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib seçilmək hüququ sayəsində cəmiyyət həyatının fəal iştirakçısı olmaq imkanı əldə etmişlər. Öz tükənməz enerjilərini və zəkalarının gücünü bütünlüklə vətən, xalq yolunda sərf eləyən qadınlarımız ötən dövr ərzində çoxsaylı nailiyyətlər qazanmışlar. Milliliklə müasirliyin ahəngdar vəhdəti onların zəngin mənəviyyatının ayrılmaz xüsusiyyətidir. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, Şərq qadınları arasında mədəniyyətin və incəsənətin, elmin və texnikanın ayrı-ayrı sahələrində ilk addımlar da bizim ölkənin qadınları tərəfindən atılmışdır.

Xalqımızın müstəqillik ideyası ətrafında sıx birləşən Azərbaycan qadını bu gün milli dövlət quruculuğu proseslərinin, ictimai-siyasi hadisələrin fəal iştirakçısı olaraq respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına əvəzsiz töhfələr verir. O, xüsusən təhsil və səhiyyə sistemlərində dolğun fəaliyyəti ilə maarifpərvər qadın ziyalılarımızın ideyalarını müvəffəqiyyətlə həyata keçirir. Cəmiyyətimizdə qadının daim artan nüfuzu və hazırkı yüksək ictimai mövqeyi Azərbaycanın müasir həyatının diqqətəlayiq hadisəsidir. Qloballaşan dünyada dəyərlər sisteminin sürətli dəyişikliklərə məruz qaldığı indiki vaxtda məhz analarımız milli-mədəni zənginliklərimizin və əxlaqi-mənəvi sərvətlərimizin qorunub saxlanılmasının həqiqi təminatçılarıdır. Gənc nəslin qədim adət-ənənələrimizə, milli məfkurəyə və dövlətçilik ideallarımıza sədaqət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirməklə onlar üzərlərinə düşən işlərin öhdəsindən hər zaman olduğu kimi yenə şərəflə gəlirlər.

İnanıram ki, Azərbaycan qadını respublikamızın dinamik inkişafı və tərəqqisi naminə qüvvəsini bundan sonra da əsirgəməyəcəkdir.

Hamınıza cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 mart 2012-ci il***

# NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə can sağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüzillərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq Yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir.

Dövlət müstəqilliyimizin bərpasından ötən illər ərzində azad ölkəmizin öz taleyini arzularına uyğun qurmağa müvəffəq olması belə əziz günlərdə insanlarımıza əsl bayram əhval-ruhiyyəsi bəxş edir. Hal-hazırda həyatımızın bütün sahələrində baş verən müsbət dəyişikliklər hər birimizdə dövlətimizin gələcək illərdə də yüksək zirvələr fəth edərək dünyanın qabaqcıl ölkələri səviyyəsinə çatacağına böyük inam, dərin qürur hissi və ruh yüksəkliyi yaradır. Novruz bayramının qəlblərdə quruculuq əzmini artıran yeniləşdirici ab-havası bizi müasir güclü dövlət və sosial rifah cəmiyyətini tam bərqərar etmək məqsədlərimizə sürətlə yaxınlaşdırır.

Bu günlər bütün əzizlərimizin, həmçinin Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü yolunda canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bir daha ehtiramla yad olunur. İnanıram ki, yurdumuzun hərtərəfli inkişafı yolunda əldə etdiyimiz hər yeni zəfər şəhidlərimizin ruhunu şad edəcəkdir.

Ölkəmizin hüdudlarından kənarda, qürbətdə olub ürəyi hər an Vətən məhəbbəti ilə döyünən, milli həmrəylik duyğusu ilə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşən soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Xalqımızın bu baharı da öz gəlişiylə qoy hər evə, hər ocağa bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2012-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluqlarını, dil və mədəniyyətlərini qoruyub saxlayırlar. Dərin tarixi kökləri olan tolerantlıq və multikulturalizm ənənələri müasir cəmiyyətimizin başlıca ictimai dəyərlərindəndir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün milli azlıqları, o cümlədən pravoslav xristianlar millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir, vətəndaş cəmiyyəti quruculuğunda fəallıq nümayiş etdirirlər.

Pasxa bayramı əmin-amanlığı, həmrəyliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 aprel 2012-ci il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan həmişə islam dünyasının tarixi-mədəni mərkəzlərindən biri olmuş, xalqımız əsrlər boyu öz dininə və milli mənəvi dəyərlərinə sadiqliyini qoruyub saxlamışdır. Müstəqil respublikamızda vətəndaşların vicdan və dini etiqad azadlığı ölkə qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq təmin edilmiş, dini ayin və mərasimlərin sərbəst şəkildə icra edilməsi, bayramların keçirilməsi üçün münbit şərait yaradılmışdır.

Ramazan bayramını bütün müsəlman aləmi kimi bizim xalqımız da hər il böyük məmnunluq hissi ilə qeyd edir. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Bu ayda müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Cəmiyyətdə vəhdət və humanizm duyğularını, Allah və Vətən sevgisini daha da gücləndirən Ramazan ayı artıq başa çatmaqdadır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız bu günlərdə könül xoşluğu ilə bayram sevincini bölüşürlər. Xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin ölməz ruhuna dualar oxunur.

Əziz bacı və qardaşlarım!

Dua və diləklərinizin Tanrı dərgahında qəbul olunması arzusu ilə bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 avqust 2012-ci il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan yəhudi vətəndaşlarımız yüz illərdir ki, ölkəmizdə əmin-amanlıq, dostluq və qardaşlıq münasibətləri şəraitində yaşayır, öz dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamaqla Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hazırda ölkəmizdə gedən böyük tərəqqi və inkişaf prosesində, azad vətəndaş cəmiyyəti quruculuğunda, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında yəhudi icmasının özünəməxsus rolu vardır.

Əziz dostlar!

Hər il təntənə ilə bayram etdiyiniz Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 sentyabr 2012-ci il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycan Respublikası vətəndaşlarını və xarici ölkələrdə yaşayan soydaşlarımızı dünya müsəlmanlarının mənəvi birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı islamın bir din kimi tamamlandığı və insanlar üçün hidayət yolu olaraq seçildiyi mübarək günün təcəssümüdür. Əksər müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına kəsilən qurbanlarla Allaha yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Qurban bayramı həm də xeyirxahlıq, şəfqət və mərhəmət bayramıdır. Azərbaycanda hər il böyük fərəh hissləri ilə icra olunan Qurban mərasimləri insanları sülh və əmin-amanlıq yoluna dəvət edir, cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın təntənəsinə çevrilir. Bu günlər ölkəmizdə geniş xeyriyyəçilik tədbirləri həyata keçirilir, imkanı çatan hər bir müsəlman ehtiyacı olanlara könül xoşluğuyla yardım göstərir.

Əziz həmvətənlər, hörmətli soydaşlar!

Mübarək Qurban bayramı günündə hamınıza Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 oktyabr 2012-ci il***

## “DÖVLƏT VƏ DİN: DƏYİŞƏN DÜNYADA TOLERANTLIĞIN GÜCLƏNDİRİLMƏSİ” BİRİNCİ BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi – “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi” Birinci Beynəlxalq Bakı Forumunun iştirakçılarını ürəkdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Ayrı-ayrı dövlətlərdə dini siyasətlə məşğul olan rəsmi hökumət nümayəndələrinin, nüfuzlu beynəlxalq təşkilatların və aparıcı elmi-tədqiqat mərkəzləri təmsilçilərinin, görkəmli din xadimlərinin Azərbaycanda bir araya gəlməsini təqdirəlayiq hal hesab edirəm. Qloballaşma prosesinin sürətləndiyi müasir dünyada gedən mürəkkəb etno-siyasi proseslərdə dinin yeri və rolu, beynəlxalq münasibətlərdə və cəmiyyət həyatında din amili, bəşəriyyətin gələcək taleyi naminə mədəniyyətlərarası dialoq kimi qlobal məsələlərin müzakirəsi xüsusi əhəmiyyət kəsb edir. Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın belə müzakirələrə ev sahibliyi etməsi təsadüfi deyildir. Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi birgəyaşayış normasına çevrilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında bizim xalqımıza xas olan humanizmin və multikulturalist dəyərlərin müstəsna rolu vardır.

Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir, beynəlxalq aləmlə qarşılıqlı münasibətlərin, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Əminəm ki, Bakı Forumunda sürətlə dəyişən dünyada tolerantlığın gücləndirilməsi, universal mənəvi dəyərlərin beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması, dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi kimi aktual problemlər ətrafında konstruktiv fikir mübadilələri aparılacaq və səmərəli tövsiyələr səsləndiriləcəkdir.

Bu xeyirxah və gərəkli fəaliyyətinizdə hər birinizə cansağlığı, Beynəlxalq Forumun işinə uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 dekabr 2012-ci il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və artıq ənənəvi bayramlarımızdan birinə çevrilmiş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Sizi səmimi qəlbdən salamlayır, hər birinizə səadət və firavanlıq arzulayıram.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və birliyinin möhkəmlənməsi, tarixi Vətənlə əlaqələrinin güclənməsi diaspor quruculuğunun mühüm tərkib hissəsini təşkil edir. Hazırda dünyanın müxtəlif ölkələrindəki həmvətənlərimizin yaratdıqları qurumlar Azərbaycan hökumətinin də ardıcıl dəstəyi sayəsində daha mütəşəkkil və çevik fəaliyyət göstərirlər. Sevindirici haldır ki, yeni ideyaları və vətənpərvərliyi ilə seçilən gənclərimiz bu prosesə yaxından cəlb olunur, diasporun möhkəmlənməsinə öz töhfələrini verirlər. Cari ilin martında təsis edilmiş Dünya Azərbaycanlı Gənclər Birliyi buna bariz nümunədir.

Soydaşlarımızın yaşadıqları dövlətlərin cəmiyyətinə dərindən inteqrasiya olunması, həmin ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında getdikcə daha fəal rol oynaması təqdirəlayiqdir. Bunlar respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsinə, Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasına, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğinə əlverişli şərait yaradır. Eyni zamanda, Moskva, Hyuston, Paris və Türkiyənin Kocaeli şəhərində artıq fəaliyyətə başlamış, gələcəkdə digər ölkələrdə də açılması nəzərdə tutulan Azərbaycan mədəniyyət mərkəzləri diasporumuzun imkanlarını xeyli artıracaq. Ümidvaram ki, diaspor təşkilatlarımız bundan sonra da öz səylərini davam etdirəcək, Diasporla İş üzrə Dövlət Komitəsi, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimiz və Azərbaycan mədəniyyət mərkəzləri ilə sıx əməkdaşlıq edərək daha mütəşəkkil fəaliyyət göstərəcəklər.

Tarixi şərait dünya azərbaycanlılarının həmrəylik və birlik arzularının məhz müstəqil dövlətimiz yarandıqdan sonra reallığa çevrilməsini mümkün etmişdir. Buna görə də biz milli varlığımızın əsası olan Azərbaycan Respublikasının hərtərəfli inkişafının təmin edilməsi, onun qüdrətinin artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparırıq. Həyata keçirilən tədbirlər nəticəsində, əvvəlki dövrlərdə olduğu kimi, yola salmağa hazırlaşdığımız 2012-ci ildə də ölkəmizdə sosial-iqtisadi inkişaf prosesləri uğurla davam etmişdir. İqtisadi potensialın güclənməsi sosial, mədəni, hüquqi və digər sahələrə daha çox diqqət yetirilməsinə imkan yaratmış, dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsinə və xaricdəki dostlarımızın sıralarının genişlənməsinə səbəb olmuşdur. 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi Azərbaycanın istər qitə, istərsə də dünya miqyasındakı rolunun və təsir imkanlarının artmasının parlaq göstəricisidir.

Hazırda BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərən Azərbaycan Respublikası dünyada sülhün və təhlükəsizliyin qorunması sahəsində öz məsuliyyətini dərindən dərk edir. Bu gün ölkəmiz multikulturalizmin və tolerantlığın məkanı kimi islam dünyası ilə Qərb sivilizasiyası, eləcə də digər mədəniyyətlərə mənsub olan xalqlar arasında əməkdaşlıq üçün qlobal platformanın yaradılmasında mühüm rol oynayır.

Əziz soydaşlar!

Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların doğma yurdu və güvənc yeridir. Hər bir azərbaycanlı Vətənimizin tərəqqisi, milli mənafelərimizin layiqincə qorunması üçün əlindən gələni əsirgəməməlidir. Ölkəmizin

suverenliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafının davam etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, soydaşlarımızın hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunması kimi mühüm vəzifələrin öhdəsindən uğurla gəlmək üçün əl-ələ verməli, səylərimizi birləşdirməliyik. Buna görə də bu gün bir daha bütün dünya azərbaycanlılarını sıx birliyə və həmrəyliyə dəvət edir, milli-mənəvi dəyərlərimizin qorunması, Vətənimizin çiçəklənməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi yolunda əzmkar fəaliyyətə səsləyirəm.
Sizi əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2012-ci il***

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

-Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Bir neçə dəqiqədən sonra 2013-cü il başlayır. 2012-ci il isə ölkəmiz üçün çox uğurlu il olmuşdur. 2012-ci ildə Azərbaycanın uğurlu, dinamik inkişafı təmin edilmişdir. Ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

2012-ci ildə Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. İqtisadiyyatda yenə də inkişaf özünü göstərir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi islahatlarla bağlı siyasətimiz çox uğurludur, çox təsirlidir.

İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır. Əminəm ki, gələcək illərdə ölkəmizin dayanıqlı iqtisadi inkişafı üçün əlavə imkanlar yaranacaqdır. Bütün iqtisadi göstəricilər çox yüksək səviyyədədir. Yoxsulluq 6 faizə düşmüşdür. İşsizlik 5,2 faizdir. Bu il 100 mindən artıq yeni iş yeri açılmışdır. Son doqquz il ərzində bir milyon 100 mindən çox iş yeri açılmışdır. İş yerlərinin açılması bilavasitə işsizliyin aradan qaldırılmasına xidmət göstərmişdir.

Beynəlxalq reytinq agentlikləri 2012-ci ildə ölkəmizin kredit reytinqlərini artırmışlar. Bu da böhranlı il üçün çox gözəl, əlamətdar bir hadisədir. Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir. Əminəm ki, gələcək illərdə bizim yerimiz daha da yüksək olacaqdır.

İqtisadi sahədə aparılan islahatlar, düşünülmüş siyasət bizə imkan verir ki, sosial məsələlərin həllində də böyük nailiyyətlərə imza ataq. 2012-ci ildə maaşlar, pensiyalar qaldırılmışdır, ünvanlı sosial yardım on minlərlə ailəni əhatə edir. 2012-ci ildə sovet əmanətlərinin qaytarılması prosesi başlamışdır. Əminəm ki, gələn il bu proses başa çatacaqdır. MDB məkanında Azərbaycanda bu sahədə aparılan siyasət ən yüksək qiymətə malikdir. Çünki biz bu əmanətlərin ən yüksək əmsalla və ən qısa müddət ərzində qaytarılmasına nail olacağıq. Bütün bu məsələlər onu göstərir ki, həm iqtisadi, həm sosial sahədə düşünülmüş siyasətimiz konkret nəticələrini verməkdədir.

2012-ci ildə məcburi köçkünlərin problemlərinin həlli üçün çox böyük işlər görülmüş və 20 min köçkün yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Gələn il 20 mindən artıq köçkünün yaşayış şəraiti yaxşılaşdırılacaq və beləliklə, Dövlət proqramının icrası nəticəsində biz köçkünləri, bizim soydaşlarımızı gözəl şəraitlə təmin edəcəyik. Ancaq əlbəttə, biz torpaqlarımız işğalçılardan azad olunandan sonra bu gün hələ də işğal altında olan torpaqlarda yeni binalar, qəsəbələr, şəhərlər salacağıq ki, vətəndaşlarımızı gözəl şəraitlə təmin edək. Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bizim gücümüz artır, həm iqtisadi sahədə, həm hərbi sahədə. Beynəlxalq mövqelərimiz möhkəmlənir.

2012-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox ciddi siyasi hadisələr baş vermişdir. Mən ilk növbədə, bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının bəyanatını qeyd etmək istəyirəm. O bəyanatda deyilmişdir ki, status-kvo qəbuledilməzdir. Yəni, bu, onu göstərir ki, artıq heç kim, hətta bu məsələ ilə məşğul olan vasitəçilər, funksiyaları öz üzərinə götürən ölkələr də bu işğalla, bu vəziyyətlə barışmaq istəmir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir.

Eyni zamanda, 2012-ci ildə Azərbaycanın qoşulduğu Qoşulmama Hərəkatının zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox tutarlı və ədalətli qətnamə qəbul edilmişdir. Həmin qətnamədə deyilir ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Eyni zamanda, 2012-ci ildə NATO-nun zirvə görüşündə də qəbul edilmiş qətnamədə Ermənistan-Azərbaycan münaqişəsinin ərazi bütövlüyü əsasında həll edilməsi haqqında məsələ qoyulmuşdur. Yəni, Qoşulmama Hərəkatında və NATO-da birləşən ölkələr dünya birliyinin mütləq əksəriyyətini təşkil edir və bu ölkələrin mövqeyi birmənalıdır: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin başqa həlli yoxdur.

Onu da qeyd etmək və bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu tarixi biz yaxşı bilirik. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı - bütün bunlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması heç vaxt mümkün olmayacaqdır. Azərbaycan heç vaxt buna imkan verməyəcəkdir. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir və bu gün işğal altında olan bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanacaqdır.

Mən hesab edirəm ki, 2013-cü ildə vasitəçilər tərəfindən məsələnin həlli ilə bağlı daha konkret təkliflər verilməli və işğalçı məcbur edilməlidir ki, işğal edilmiş torpaqlardan tezliklə çıxsın. Bununla bərabər, heç kəs üçün sirr deyildir ki, biz ordu quruculuğu prosesi ilə çox ciddi məşğuluq. Azərbaycan Ordusu Cənubi Qafqazın ən böyük qüvvəsidir. Ordunun inkişafı üçün bütün lazımi tədbirlər görülür. 2012-ci ildə böyük miqdarda hərbi texnika, silah-sursat, təyyarələr, helikopterlər, artilleriya qurğuları, hava hücumuna qarşı qurğular gətirilmiş, eyni zamanda, daxildə 40-dan yuxarı sənaye müəssisəsində hərbi təyinatlı məhsulların istehsalı təşkil edilmişdir.

Biz ordumuzu 2013-cü ildə daha da gücləndirəcəyik. Ordumuza xərclənən vəsait Ermənistan büdcəsindən 50 faiz çoxdur və bundan sonra da bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparılacaqdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapsın, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, 2012-ci ildə çox əlamətdar hadisə baş vermişdir, TANAP layihəsi imzalanmışdır. TANAP layihəsi bizə imkan verəcəkdir ki, Azərbaycan zəngin qaz resurslarını dünya bazarlarına böyük həcmdə nəql etsin. Hesab edirəm ki, TANAP layihəsi son illər ərzində nəinki ölkəmizdə, regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük addımdır. TANAP layihəsinin təşəbbüskarı da Azərbaycan olmuşdur. Əminəm ki, TANAP layihəsini Azərbaycan öz tərəfdaşları ilə vaxtında icra edəcək və beləliklə, Avropanın enerji xəritəsi böyük dərəcədə dəyişdiriləcəkdir.

Eyni zamanda, 2012-ci ildə digər vacib layihə - Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla icra edilmişdir. Əminəm ki, gələn il biz bu dəmir yolunun açılışını qeyd edəcəyik.

2012-ci ildə humanitar sahədə böyük işlər görülmüşdür. Bakı sivilizasiyalararası dialoqun təşkili, genişləndirilməsi üçün artıq dünya mərkəzinə çevrilmişdir. Uğurla keçirilmiş İkinci Beynəlxalq Humanitar Forum, onun nəticələri, bu sahədə əldə edilmiş nailiyyətlər ölkəmizi həm dünyaya təqdim edir, eyni zamanda, bizim təcrübəmiz mən əminəm ki, başqa ölkələrdə öyrənilir. Çünki Azərbaycanda bütün millətlərin, bütün

dinlərin nümayəndələri bir ailə kimi, mehribanlıq şəraitində yaşayırlar və yaşayacaqlar. Milli və dini dözümlülük, tolerantlıq Azərbaycanın böyük sərvətidir.

2012-ci ildə idman sahəsində böyük qələbələr əldə edilmişdir. London Yay Olimpiya Oyunlarında Azərbaycan tarixi qələbə qazanmışdır. On medal qazanmışıq. Onlardan ikisi qızıl, ikisi gümüş, altısı bürünc medaldır. Tarixdə ilk dəfə olaraq biz on medala imza atdıq. Beləliklə, Olimpiya Oyunlarının yekunlarına görə Azərbaycan dünya miqyasında 30-cu, Avropada 15-ci, müsəlman aləmində isə 3-cü yerə layiq görülmüşdür.

İlin sonunda bizə bir şad xəbər də çatdı. Dekabr ayında Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi haqqında tarixi qərar qəbul edilmişdir. Bu da bizim böyük qələbəmizdir. Bu oyunlar tarixdə birinci oyunlar kimi qalacaqdır. Avropanın birinci Olimpiya Oyunlarını Azərbaycanda, Bakıda keçirmək, əlbəttə, bizim üçün böyük şərəfdir, böyük məsuliyyətdir, eyni zamanda, ölkəmizdə görülən işlərə Avropa Olimpiya ailəsi tərəfindən verilmiş yüksək qiymətdir. Nəzərə alsaq ki, bu il biz Avropanın və dünyanın birinci mahnı müsabiqəsini – "Eurovision" müsabiqəsini böyük məharətlə, ustalıqla keçirmişik, əminəm ki, Avropa Olimpiya Oyunlarını da yüksək səviyyədə keçirəcəyik. Bax bütün bu dediyim sahələrdə 2012-ci il uğurlu il kimi tarixdə qalır və əldə edilmiş bu nailiyyətlər bizə imkan verir ki, 2013-cü ilə də böyük nikbinliklə baxaq. Əminəm ki, gələn ildə də ölkə qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir.

Bu gün biz, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edirik. Bu fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları səmimi qəlbdən salamlayıram, onları təbrik edirəm. Onlara bildirmək istəyirəm, fəxr edə bilərlər ki, bu gün dünyada müstəqil Azərbaycan dövləti vardır. O Azərbaycan dövləti ki, bu gün dünyanın bir nömrəli beynəlxalq qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüdür. O dövlətdir ki, hətta böhranlı illərdə öz iqtisadi inkişafını davam etdirmiş, öz daxili resursları üzərində güclü iqtisadi zəmin yaratmış və gələcəyə böyük ümidlərlə, böyük nikbinliklə baxır.

Mən dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayramlar - həm Dünya Azərbaycanlılarının Həmrəylik Günü, həm Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2012-ci il***

## AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASININ VI QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının VI qurultayının keçirilməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ali toplantınızın işinə uğurlar arzulayıram.

Azərbaycanda tarixin bütün mərhələlərində ağsaqqallar yüksək hörmət və nüfuz sahibi olmuş, cəmiyyətdə özünəməxsus yer tutmuşlar. Respublikamız müstəqillik qazandıqdan sonra ölkə həyatının bütün sahələrində onların rolu daha da artmışdır. Bu gün inamla qeyd etmək olar ki, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, davamlı ictimai-siyasi sabitliyin bərqərar olmasında, elm, təhsil və mədəniyyətimizin inkişafında, gənc nəslin yetişməsi və formalaşmasında ağsaqqalların müstəsna xidmətləri vardır.

Son illər Azərbaycan özünün mühüm inkişaf dövrünü yaşayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, həyata keçirilən ardıcıl islahatlar ölkə iqtisadiyyatının dinamik inkişafını, nəhəng infrastruktur layihələrinin reallaşdırılmasını, Azərbaycanın sürətlə müasirləşməsini və əhalinin rifah halının yüksəldilməsini təmin etmişdir.

Fərəhli haldır ki, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında ağsaqqallar yaxından iştirak edir, dəyərli təşəbbüslər irəli sürürlər. Biz paytaxt və regionlarda genişmiqyaslı quruculuq işlərini həyata keçirərkən onların rəy və təkliflərini nəzərə alır, müdrik tövsiyələrinə istinad edirik. Yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində də ağsaqqalların böyük rolu vardır.

Hesab edirəm ki, VI qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin genişlənməsinə, qurumun Azərbaycan cəmiyyətindəki nüfuzunun daha da artmasına, dövlət orqanları ilə əməkdaşlığının dərinləşməsinə yeni təkan verəcəkdir.

Sizi bir daha qurultayınızın işə başlaması münasibətilə təbrik edir, hər birinizə uzun ömür, cansağlığı və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 fevral 2013-cü il***

# 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Əziz analar və bacılar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadını mənəvi təbiətinə sadiq qalaraq, zərifliyin, ülviliyin və gözəlliyin rəmzi olan adının ucalığını həmişə layiqincə qoruyub saxlamışdır. Tarix boyu o, özünün müdrikliyi, işgüzarlığı və saflığı ilə keçmişimizə parlaq səhifələr yazmışdır. Milli-əxlaqi dəyərlərimiz, mədəni-tarixi irsimiz və xalq adət-ənənələri xəzinəmiz məhz dilimizin saflığı keşiyində şərəflə dayanan nənələrin, anaların sayəsində mürəkkəb dövrlərin təqib və sınaqlarına qalib gələrək, bu günədək yaşamaqdadır. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib seçilmək hüququ əldə etməsi də, mədəniyyətin, incəsənətin və elmin müxtəlif sahələrində ilk addımları atması da Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının aydın təzahürüdür. Fərəhləndirici haldır ki, gənc xanım və qızlarımız bu nailiyyətlərin layiqli davamçıları kimi nəsillərin varisliyini təmin edirlər.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycanın qazandığı bütün böyük uğurlarda qadınların misilsiz xidmətləri vardır. Respublikamızda bir an belə ara verməyən hazırkı quruculuq işlərində ölkə xanımları tariximizin hər bir mərhələsində olduğu kimi bu gün də çox yaxından iştirak edir, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərin fəal iştirakçısı olaraq vətənimizin yüksəlişinin təmin edilməsinə töhfələrini əsirgəmirlər. Bu bayramın xalqımızın həyatında mühüm hadisəyə çevrilməsi Azərbaycan qadınının cəmiyyətimizin müasir simasının müəyyənləşməsində əhəmiyyətli yerinin və ictimai mövqeyinin nəticəsidir.

İnanıram ki, sürətli dəyişikliklərin baş verdiyi indiki qlobal dünyada siz daim mədəni-mənəvi zənginliklərimizin yaşadılması üçün çalışacaq, ölkəmizin gələcək inkişafı naminə gənc nəslin qədim ənənələrimizə, milli məfkurə və dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsinə bundan sonra da xüsusi diqqət yetirəcəksiniz.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2013-cü il***

## “MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF TƏRƏFDARIDIRLAR” BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – MDB Müsəlmanları Məşvərət Şurasının Bakıda keçirdiyi Beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan islam dünyasının tarixi-mədəni mərkəzlərindən biri olmaqla, dünyəvi və çoxkonfessiyalı dövlətdir. Sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizdə, tarixən müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan mehriban dostluq və əməkdaşlıq münasibətləri mövcud olmuş, yüksək tolerantlıq ənənələri formalaşmışdır. Cəmiyyətimizdə belə mütərəqqi münasibətlərin bərqərar olmasında islam dininin müstəsna rolu danılmazdır. Azərbaycanda milli mədəniyyətin və mentalitetin ayrılmaz hissəsi olan islam dini öz ümumbəşəri mahiyyəti və birləşdirici missiyası ilə insanları daim sülhə, əmin-amanlığa, humanizmə və həmrəyliyə dəvət etmişdir.

Bu gün ölkəmizdə tarixi-mənəvi irsin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanması və daha da inkişaf etdirilməsi həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biridir. Dövlət-din münasibətləri zəngin milli ənənələrimizə söykənir və müasir hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni ölkədə gerçəkləşdirilən dini siyasətin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin zəruri amili kimi qiymətləndiririk.

Hazırda qloballaşan dünyada mürəkkəb ictimai-siyasi proseslər yaşanır, etnik-dini zəmində münaqişələr, irqi ayrı-seçkilik, dini ekstremizm və islamofobiya kimi arzuolunmaz təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və insanların əmin-amanlığını təhdid edən belə hallara qarşı mübarizədə aparıcı dünya dinlərinin sülh və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa və əməkdaşlığa, dini-mənəvi liderlərin nüfuzlu sözünə ciddi ehtiyac vardır. Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliği və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, son illərdə MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən Dünya Dini Liderləri Sammitinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir.

Əmin olduğumu bildirirəm ki, zəruri və aktual bir mövzuya həsr olunmuş bugünkü beynəlxalq toplantınız da konstruktiv müzakirələr ruhunda keçəcək, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına, tolerantlıq, qarşılıqlı anlaşma və dostluq kimi bəşəri dəyərlərin təbliğinə və təşviqinə öz töhfəsini verəcəkdir.

Bu xeyirxah yolda hər birinizə uğurlar və cansağlığı arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 aprel 2013-cü il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illər boyu yüksək mənəvi-əxlaqi dəyərlərin və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycan cəmiyyətində ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcud olmuşdur. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikulturalist ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə xristian icmasının özünəməxsus yeri vardır. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, o cümlədən pravoslav xristianlar öz hüquq və azadlıqlarından lazımınca yararlanmaqla, ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu nurlu bayram ailələrinizə sevinc, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2013-cü il***

## AZƏRBAYCAN QADINLARININ IV QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi Azərbaycan Qadınlarının IV Qurultayının açılışı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və uğurlar, qurultayınızın işinə müvəffəqiyyətlər arzulayıram.

Tarix boyu Azərbaycan qadını istedadlı şair, müdrik hökmdar, mehriban ana kimi şöhrət tapmışdır. Onun toxuduğu xalçalar və tikmələr, yaratdığı laylalar və bayatılar, nəsildən-nəslə ərməğan kimi çatdırdığı nağıllar və rəvayətlər xalqımızın tükənməz mədəni xəzinəsinə layiqli töhfə olmuşdur. Bütün bunlar bizim milli adət-ənənələrimizin, ana dilimizin və mənəvi dəyərlərimizin qorunmasında mühüm rol oynamışdır.

Qadınlarımıza ithaf olunmuş əsərlərdə Azərbaycan qadını dahilər və qəhrəmanlar anası kimi vəsf edilmişdir. Seçib-seçilmək hüququnu bir çox inkişaf etmiş ölkə qadınlarından daha erkən qazanmış xanımlarımız bu gün həyatın bütün sahələrində geniş təmsil olunmuşlar. Ölkəmizdə savadsızlığın ləğvi qadınların kütləvi şəkildə müəllimlik, həkimlik, mühəndislik peşələrinə yiyələnməsinə zəmin yaratmış, onlara elm-mədəniyyətdə fitri istedadlarını reallaşdırmaq üçün imkanlar açmış və cəmiyyətdə qadının mövqeyini əsaslı surətdə dəyişmişdir.

SSRİ-nin süqutu nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran hər bir Azərbaycan qadınının taleyində dərin iz buraxmışdır. Zorla cəlb olunduğumuz Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycan qadınları çoxsaylı şəhidlər vermiş, el-obalarından uzaq düşmüş, qaçqın və köçkün həyatına düçar olmuşlar.

Müstəqillik dövründə gedən quruculuq proseslərində qadınlar vətənimizin inkişafı və çiçəklənməsi naminə var qüvvələrini sərf etmiş, bilik və bacarıqlarını əsirgəməmişlər. Tariximizə sabitlik və inkişaf dövrü kimi daxil olan 1993-2003-cü illərdə ölkəmizdə milli dövlətçilik prinsiplərinin təsbit olunmasında, beynəlxalq əlaqələrimizin formalaşmasında, siyasi və iqtisadi islahatların aparılmasında Azərbaycan qadınlarının xidmətləri danılmazdır.

Son on ildə Azərbaycanın qazandığı misilsiz nailiyyətlərin əldə olunmasında, respublikamızda çoxşaxəli iqtisadiyyatın yaradılmasında, regionların inkişafı proqramının gerçəkləşdirilməsində, demokratik mühitin bərqərar olunmasında, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində Azərbaycan qadınlarının böyük əməyi vardır.

Ölkəmizdə aparılan sosial yönümlü siyasət, ilk növbədə, hər bir Azərbaycan ailəsinə, hər bir Azərbaycan qadınına, hər bir Azərbaycan övladına ünvanlanmışdır. Əminəm ki, qadınlarımız gələcəyə ünvanlanan bütün niyyətlərimizin, o cümlədən “Azərbaycan–2020: Gələcəyə Baxış” konsepsiyasının gerçəkləşdirilməsində fəal iştirak edəcək və vətənimizin çiçəklənməsi naminə var qüvvələrini sərf edəcəklər.

Ümidvaram ki, qurultayınız son beş ildə gender siyasətinin gerçəkləşdirilməsi ilə bağlı həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətini təmsil edən qadın təşkilatlarının işini təhlil edəcək, onların qarşısında yeni vəzifələr qoyacaqdır. İnanıram ki, sizin səmərəli işiniz nəticəsində formalaşan yeni strategiyalar və fəaliyyət proqramları uğurla yerinə yetiriləcək və ölkəmizin gələcək inkişafına xidmət edəcəkdir.

Ən xoş arzularla,

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 iyun 2013-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA SİNYAVSKAYAYA

Əziz Tamara İlyiniçna!

Sizi – görkəmli musiqi mədəniyyəti xadimini, gözəl müğənni və istedadlı pedaqoqu yubileyiniz münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Sizin opera səhnəsinə ilk gəlişinizdən başlayaraq sənətşünaslar səsinizin bənzərsiz tembrini, böyük fitri istedadınızı və şəxsiyyətinizin heyrətamiz cazibəsini qeyd etmişlər. Nüfuzlu beynəlxalq müsabiqələrdə qazandığınız mükafatlar nadir istedadınızın və yüksək peşəkarlığınızın təsdiqidir. Böyük metso-sopranoların ənənələrinin davamçısı kimi Siz məxsusi ifaçılıq tərzinizi formalaşdırmağa, opera teatrı salnaməsində həmişəlik yaşayacaq parlaq səhnə obrazları yaratmağa nail olmusunuz.

Sizə xas olan incə musiqi zövqü konsert fəaliyyətinizdə klassik repertuarı rus xalq mahnıları və müasir estrada ilə harmonik şəkildə əlaqələndirməklə müxtəlif janrlarda uğur qazanmaq imkanı vermişdir. Bu gün Sizin zəngin təcrübənizin gənc müğənnilərə çatdırılmasına yönəlmiş pedaqoji fəaliyyətiniz, heç şübhəsiz, yeni mədəni elitanın formalaşmasına şərait yaradır.

Siz Azərbaycanın böyük dostu kimi bizim musiqi mədəniyyətimizi həmişə ləyaqətlə təmsil etmiş, Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafına və genişlənməsinə töhfə vermisiniz. Əminəm ki, bundan sonra da belə olacaqdır.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyul 2013-cü il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir və ən səmimi arzularımı çatdırıram.

Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin nazil olması ilə əlamətdardır. İnsanlar arasında birlik, bərabərlik və xeyirxahlığı, dini dəyərlərə bağlılığı təcəssüm etdirən bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borcunu daha dolğun ödəmək fürsəti qazanır, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Tarixən islam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə qorunub saxlanmışdır. Respublikamızda vicdan və dini etiqad azadlığı, dövlət-din münasibətləri ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq təmin edilmiş, müstəqillik illərində milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, islam mədəniyyətinin nadir incilərindən olan tarixi-dini abidələrimizin əsaslı şəkildə yenidən qurulması sahəsində işlər davamlı xarakter almışdır. Bu il Cənubi Qafqazın ilk müsəlman məbədi – Şamaxı Cümə məscidi bərpa edilərək dindarların istifadəsinə verilmişdir.

İnsanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran mübarək Ramazan ayı artıq başa çatır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız bayram sevincini səmimiyyətlə bölüşür, xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin xatirəsi minnətdarlıqla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə humanizmin, qardaşlıq və həmrəylik duyğularının təntənəsinə çevrilən Ramazan ayını hər il olduğu kimi, bu il də böyük qürur və məmnunluq hissi ilə yola salırıq. Bu əziz bayram günlərində bir daha bütün xeyirxah dua və diləklərinizlə həmrəy olduğumu bildirir, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 avqust 2013-cü il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının əlamətdar milli bayramlarından olan Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan bu gün etnik-mədəni müxtəlifliyin, multikulturalist ənənələrin qorunub saxlandığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad şəraitinin mövcud olduğu nadir məkanlardandır. Xalqlararası ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, vətəndaş həmrəyliyinin, nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü Azərbaycan cəmiyyətində yəhudi icmasının özünəməxsus yeri vardır. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edir, hüquqi dövlət quruculuğu prosesində fəal mövqe nümayiş etdirirlər.

Yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzi olan Roş-Ha-Şana münasibətilə bir daha hər birinizi təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 sentyabr 2013-cü il***

## “ŞƏHƏRSALMANIN ƏSASLARI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. “Şəhərsalmanın əsasları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 473; 2001-ci il, № 11, maddə 676; 2002-ci il, № 5, maddə 241; 2007-ci il, № 10, maddə 938; 2008-ci il, № 7, maddə 602) 25-ci maddəsinin birinci hissəsinə aşağıdakı dəyişikliklər və əlavə edilsin:

1. ikinci-altıncı abzaslar aşağıdakı redaksiyada verilsin:

“xüsusi razılıq (lisenziya) olmadan I və II məsuliyyət səviyyəli bina və qurğuların layihələndirilməsi, mühəndis-axtarış və tikinti-quraşdırma işləri ilə məşğul olduqda;

baş planlarda, müfəssəl planlaşdırma və ərazi-tikinti layihələrində və mövcud ərazilərin memarlıq-planlaşdırma həllərində müvafiq rəy alınmadan dəyişiklik edildikdə;

mühəndis-axtarış işləri və layihə sənədlərinin dövlət ekspertizası aparılmadan I və II məsuliyyət səviyyəli bina və qurğuların tikintisi həyata keçirildikdə;

mühəndis-axtarış və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı tikinti norma və qaydaları pozulduqda;

tikintisi başa çatmış bina və qurğuların istismara verilməsi qaydaları pozulduqda;”;

2. yeddinci-onuncu və on ikinci-on beşinci abzaslar çıxarılsın;

3. on birinci abzas müvafiq olaraq yeddinci abzas hesab edilsin, həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

“tikintidə təhlükəsizliyə nəzarət edən orqanın fəaliyyətinə maneçilik törədildikdə və həmin orqanın göstərişlərinə əməl edilmədikdə.”.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 aprel 2009-cu il***

## “DİNİ ETİQAD AZADLIĞI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998-ci il, № 1, maddə 16; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 6, maddə 328, № 12, maddə 692; 2003-cü il, № 1, maddə 16; 2005-ci il, № 8, maddə 684) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. Qanuna aşağıdakı məzmunda preambula əlavə edilsin:

“Bu Qanun Azərbaycan Respublikasında dini etiqad azadlığının Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq surətdə həyata keçirilməsi üçün təminatlar yaradır, dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirir, dini qurumların fəaliyyəti ilə bağlı yaranan münasibətləri tənzimləyir.”.

2. 1-ci maddənin birinci-üçüncü hissələri aşağıdakı redaksiyada verilsin:

“Hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

Dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın və ya mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər.”.

3. 2-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Dini etiqad azadlığı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.”.

4. 3-cü maddə çıxarılsın.

5. 4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 4. Dini mənsubiyyətindən asılı olmayaraq şəxslərin hüquq bərabərliyi

Hər kəs dini mənsubiyyətindən asılı olmayaraq qanun və məhkəmə qarşısında bərabərdir. Şəxsin dini mənsubiyyətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız onun arzusu ilə yol verilir.

Öz dini əqidəsinə görə heç kəs qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edə və ya boyun qaçıra bilməz. Bir vəzifənin icrasının dini əqidəyə görə digər

vəzifənin icrası ilə əvəz edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yol verilir.".

6. 5-ci maddədə:

6.1. üçüncü hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.";

6.2. altıncı hissə aşağıdakı redaksiyada verilsin:

"Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların din xadimi kimi fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.";

6.3. yeddinci hissə aşağıdakı redaksiyada verilsin:

"Dini qurumlar Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl edir və onları pozduqda məsuliyyət daşıyırlar.".

7. 6-cı maddənin dördüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dini qurumlar öz nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada gənclərin və yaşlıların dini təhsili üçün tədris müəssisələri yaratmaqla müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirə bilərlər.".

8. 10-cu maddədə:

8.1. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin, ikinci hissə üçüncü hissə hesab edilsin:

"Dini tədris müəssisələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərirlər.";

8.2. üçüncü hissədə "Əyani ali və orta dini" sözləri "Dini" sözü ilə əvəz edilsin.

9. 11-ci maddədə:

9.1. üçüncü hissənin 1-ci bəndində "dini qurumun" sözlərindən sonra "adı," sözü əlavə edilsin;

9.2. üçüncü hissəyə aşağıdakı məzmunda 3-cü, 4-cü və 8-ci bəndlər əlavə edilsin, 3-cü-6-cı bəndlər müvafiq olaraq 5-ci-7-ci və 9-cu bəndlər hesab edilsin:

"3) dini qurumun məqsəd və vəzifələri, habelə fəaliyyətinin əsas formaları;

4) dini qurumun strukturu, idarəetmə orqanları və onların təşkili qaydası, habelə həmin orqanların səlahiyyətləri;

8) dini qurumun ləğvi qaydası;";

9.3. aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin, dördüncü-yeddinci hissələr müvafiq olaraq beşinci-səkkizinci hissələr hesab edilsin:

"Dini qurumun adı onun hansı dinə mənsub olduğunu özündə əks etdirməlidir.".

10. 12-ci maddədə:

10.1. aşağıdakı məzmunda birinci hissə əlavə edilsin, birinci-dördüncü hissələr müvafiq olaraq ikinci-beşinci hissələr hesab edilsin:

"Bütün dini qurumlar yalnız müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alındıqdan və dini qurumların dövlət reyestrinə daxil edildikdən sonra fəaliyyət göstərə bilərlər. Dini qurum yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvanda fəaliyyət göstərə bilər.";

10.2. ikinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin, ikinci cümlə üçüncü cümlə hesab edilsin:

"Ərizəyə habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini

təlimin əsasları, o cümlədən həmin dinin və icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar, habelə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə edilir.”;

10.3. ikinci və üçüncü hissələrdə “dini işlər üzrə” sözləri çıxarılsın;

10.4. beşinci hissə aşağıdakı redaksiyada verilsin:

“Dövlət qeydiyyatına alınmış dini qurum onun dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə hər hansı dəyişiklik olduqda, bu barədə 20 gün müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və müvafiq dəyişikliyi təsdiq edən sənədləri təqdim etməlidir.”;

10.5. aşağıdakı məzmunda altıncı-səkkizinci hissələr əlavə edilsin:

“Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurumun dövlət qeydiyyatına alınmasından aşağıdakı hallarda imtina edilə bilər:

1) dini qurumun fəaliyyəti və ya qarşısına qoyduğu məqsədlər, yaxud təbliğ etdiyi dini təlimin mahiyyəti və əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olduqda;

2) yaradılan qurum dini qurum qismində tanınmadıqda;

3) təqdim olunmuş nizamnamə (əsasnamə) və digər sənədlər Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olduqda və ya onlarda əks olunmuş məlumatlar yanlış olduqda.

Dövlət qeydiyyatına alınmasından imtina barədə dini quruma imtinaya əsas olmuş qanunvericiliyin müddəaları göstərilməklə məlumat verilir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslardan başqa hər hansı digər əsasa görə dini qurumun dövlət qeydiyyatına alınmasından imtinaya yol verilmir.”.

11. Aşağıdakı məzmunda 12-1-ci maddə əlavə edilsin:

“Maddə 12-1. Dini qurumun ləğv edilməsi

Dini qurumlar aşağıdakı hallarda ləğv edilə bilər:

1) təsisçilərin və ya nizamnamə (əsasnamə) ilə buna vəkil edilmiş orqanın qərarı ilə;

2) müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə.

Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurum məhkəmə qaydasında aşağıdakı əsaslarla ləğv edilə bilər:

1) dini qurum tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının, bu Qanunun və digər qanunların pozulması, yaxud həmin qurumun yaranma məqsədlərinə zidd olan fəaliyyətin həyata keçirilməsi;

2) dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yaratmaq məqsədi ilə təbliğ edilməsi, dini etiqadı ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur etmə, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinin (dini cərəyanın) yayılması və təbliğ edilməsi;

3) ictimai təhlükəsizliyin və ya ictimai qaydanın pozulması;

4) terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə, təxribata və ya zorakı cinayət əməllərinə yönəlmiş hərəkətlərin edilməsi;

5) dünyəvi təhsil alınmasına mane olma;

6) dini qurumun üzvlərinin və digər şəxslərin dini qurumun xeyrinə öz əmlakından imtina edilməsinə təhrik və ya məcbur etmə;

7) zor tətbiq etməklə və ya digər qanunsuz əməllərlə şəxsin dini qurumdan çıxmasına mane olma;

8) şəxsləri qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edilməsinə və digər qanunsuz hərəkətlərin edilməsinə təhrik etmə;

9) dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə edilmiş dəyişikliklər barədə məlumatın müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi tələbinə təkrarən əməl olunmaması.”.

12. 21-ci maddənin ikinci hissəsində “İbadətlər” sözü “Bu Qanunun 1-ci maddəsinin tələbləri nəzərə alınmaqla ibadətlər” sözləri ilə əvəz edilsin.

13. 22-ci maddədə:

13.1. ikinci hissədə “dini işlər üzrə” sözləri “, dini qurum olmayan digər hüquqi şəxslər və fiziki şəxslər” sözləri ilə, “idxal edə və” sözləri “idxal, ixrac edə, habelə” sözləri ilə əvəz edilsin;

13.2. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının satışı yalnız müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yaradılmış ixtisaslaşdırılmış satış məntəqələri vasitəsilə həyata keçirilir.”;

14. 24-cü maddənin ikinci hissəsində “mübadiləsi” sözündən sonra “müvafiq icra hakimiyyəti orqanının razılığı ilə” sözləri əlavə edilsin.

15. 29-cu maddədə:

15.1. maddənin adında və birinci abzasında “Dini işlər üzrə müvafiq” sözləri “Müvafiq” sözü ilə əvəz edilsin;

15.2. onuncu abzas aşağıdakı redaksiyada verilsin:

“dinşünaslıq ekspertizasının aparılmasını təmin edir, bu işə dini qurumların nümayəndələrini və müvafiq mütəxəssislərini cəlb edir;”;

15.3. aşağıdakı məzmunda on birinci və on ikinci abzaslar əlavə edilsin:

“dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy verir;

müvafiq icra hakimiyyəti orqanı ilə birlikdə dini tədris müəssisələrinin proqramlarını təhlil və təsdiq edir, dini tədris keyfiyyətinin müəyyən edilməsi üçün rəy verir.”.

16. 30-cu maddədə “pozulmasında günahkar olan” sözləri “pozulmasına görə” sözləri ilə, “və vətəndaşlar” sözləri “, digər fiziki və hüquqi şəxslər” sözləri ilə əvəz edilsin.

II. Bu Qanun qüvvəyə minənədək yaradılmış dini qurumların nizamnamələri (əsasnamələri) və digər təsis sənədləri bu Qanunla dəyişdirilmiş “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunlaşdırılmalı və həmin dini qurumlar 2010-cu il yanvarın 1-dək müvafiq icra hakimiyyəti orqanına yenidən dövlət qeydiyyatından keçməsi üçün sənədləri təqdim etməlidirlər. Müəyyən olunmuş müddətdə yenidən dövlət qeydiyyatına alınması üçün sənədləri təqdim etməmiş dini qurumlar müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmə qaydasında ləğv edilə bilər.

Dini qurumun ləğv edilməsi üçün “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş əsaslar

mövcud olduqda dini qurum yenidən dövlət qeydiyyatına alınmır və bu halda müvafiq icra hakimiyyəti orqanı həmin dini qurumun ləğv edilməsi tələbi ilə məhkəməyə müraciət edir.

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 may 2009-cu il***

## DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Dini etiqad azdlığı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, (№ 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 1997-ci il, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998-ci il, № 1, maddə 16; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 6, maddə 328, № 12, maddə 692; 2003-cü il, № 1, maddə 16; 2005-ci il, № 8, maddə 684; Azərbaycan Respublikasının 2009-cu il 8 may tarixli 812-IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr və dəyişiklik edilsin:

1.8-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafliq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir.".

2. 21-ci maddənin üçüncü, dördüncü və beşinci hissələri müvafiq olaraq dördüncü, beşinci və altıncı hissələr hesab edilsin, maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasında təhsil almış Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyun 2009-cu il***

## “BİRGƏ FİLM İSTEHSALI HAQQINDA” SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

“Birgə film istehsalı haqqında” 2008-ci il noyabrın 14-də Kişinyov şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2009-cu il***

## BİRGƏ FİLM İSTEHSALI HAQQINDA
## S A Z İ Ş

Bundan sonra Tərəflər adlandırılan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumətləri,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq haqqında 2005-ci il 26 avqust tarixli və Kinematoqrafiya sahəsində əməkdaşlıq haqqında 1995-ci il 10 fevral tarixli Sazişlərinə əsaslanaraq,

audiovizual sahədə əməkdaşlığın inkişafına dəstək olmağa çalışaraq,

birgə film istehsalının kinematoqrafiyanın inkişafına, eləcə də ölkələr arasındakı iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinə verdiyi töhfəni nəzərə alaraq,

tərəflərdən hər birinin ölkəsində milli qanunvericilik və beynəlxalq öhdəliklər nəzərə alınmaqla, film istehsalı və istifadəsinə hər vasitə ilə dəstək olmaqla bağlı niyyətlərini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Hazırkı Sazişin məqsədləri üçün göstərilən terminlər aşağıdakı mənaları ifadə edir:

"film" - kinoplyonkada və digər daşıyıcılarda həkk olunan (yazılan) və bir - biri ilə ardıcıl və tematik olaraq birləşmiş kadrlardan ibarət olan, eyni zamanda müvafiq texniki qurğuların köməyi vasitəsilə qavranılması nəzərdə tutulan yaradıcı plan əsasında televiziya, animasiya, tədris, elmi - kütləvi, xroniki-sənədli, bədii və digər formalarda yaradılmış audiovizual əsər;

"prodüser" - Tərəf dövlətin vətəndaşı və ya Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq yaradılmış, filmin maliyyələşdirilməsi, istehsalı və/və ya istifadəsinə görə məsuliyyət daşıyan hüquqi şəxs;

"ortaq prodüserlər" - filmin birgə istehsalı və/və ya istifadəsi, o cümlədən onun maliyyələşdirilməsi ilə bağlı məsələlərdə birgə iştirak etmək haqqında müqavilə vasitəsilə bir - biri ilə əlaqəli olan prodüserlər;

"birgə istehsal filmi" - iki və daha artıq Tərəfin ortaq prodüserlərinin istehsal etdikləri film;

"milli film" - Tərəflərdən ən azı birinin ölkəsinin qanunvericiliyinə uyğun olaraq, milli kinonun dövlət dəstəyinin bütün formalarının şamil olunduğu birgə istehsal filmi.

**Maddə 2**

"Milli film" statusunun verilmə qaydası və şərtləri hazırkı Sazişin ayrılmaz tərkib hissəsi olan birgə istehsal filmlərinə "Milli film" statusunun verilməsi haqqında Əsasnamə (bundan sonra - Əsasnamə) ilə tənzimlənir (əlavə olunur). Tərəflərin səlahiyyətli orqanları kinematoqrafiya sahəsində milli qanunvericiliyin qəbul olunması və ya onun yenidən işlənməsi zamanı birgə istehsal filmlərinə dövlət dəstəyinin forması və həcmini müəyyənləşdirmək hüququna malikdirlər.

**Maddə 3**

Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında qərarlar hər bir ayrıca halda Tərəflərin səlahiyyətli orqanları tərəfindən qəbul olunur.

**Maddə 4**

Film Əsasnamənin şərtlərinə uyğun gəlmədikdə birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında Tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən verilən qərar onların özü tərəfindən ləğv oluna bilər.

**Maddə 5**

Tərəflər, ölkələrinin qanunvericiliklərinə uyğun olaraq, bədii istehsal heyətinin onların ərazilərinə gəliş-gedişinə, eləcə də birgə film istehsalı üçün zəruri olan avadanlıq və materialların müvəqqəti gətirilməsi və aparılmasına şərait yaradırlar.

**Maddə 6**

Birgə istehsal olunmuş filmlərin titrlərində, eləcə də reklam məhsullarında filmin birgə istehsalında iştirak etmiş tərəflərin ölkələrinin adları qeyd olunur.

**Maddə 7**

Birgə istehsal olunmuş filmlərin istifadəsi və yayılmasına Tərəflərin dövlətlərinin qanunvericiliklərində nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir məhdudiyyət qoyulmur.

**Maddə 8**

Birgə istehsal olunmuş filmlərə "milli film" statusunun verilməsi Tərəf dövləti onun öz ərazisində həmin filmin nümayişinə icazə verməsinə məcbur etmir.

**Maddə 9**

Hazırkı Sazişin tətbiqi və təfsiri zamanı Tərəflər arasında yaranan mübahisəli məsələlər maraqlı Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə və ya Tərəflərin arasında razılaşdırılan digər prosedur vasitəsilə həll olunur.

**Maddə 10**

Hazırkı Saziş müvəqqəti olaraq imzalandığı gündən tətbiq olunur və Sazişi imzalamış Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında üçüncü bildirişin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

Dövlətdaxili prosedurları daha gec yerinə yetirmiş Tərəflər üçün hazırkı Saziş müvafiq sənədlərin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

**Maddə 11**

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə, müvafiq protokol vasitəsilə rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

**Maddə 12**

Hazırkı Saziş qüvvəyə mindikdən sonra, onun müddəalarına şərik olan və hazırkı Sazişdən irəli gələn öhdəlikləri öz üzərinə götürməyə hazır olan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlət tərəfindən qoşulması üçün açıqdır. Qoşulan dövlət üçün Saziş, qoşulma haqqında müvafiq sənədlərin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

**Maddə 13**

Hazırkı Saziş qüvvəyə mindiyi tarixdən sonra 5 il müddətində qüvvədədir. Bu müddət bitdikdə və Tərəflər məsələ ilə bağlı digər qərar qəbul etmədikdə, Sazişin qüvvədə olma müddəti avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

**Maddə 14**

Tərəflərdən hər biri çıxışdan ən azı 6 ay əvvəl depozitariyə yazılı bildiriş göndərməklə hazırkı Sazişdən çıxa bilər.

Kişinyov şəhərində 2008-ci il noyabrın 14-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır. Komitə, Sazişi imzalamış hər bir dövlətə onun təsdiq olunmuş surətini göndərəcəkdir.

**Azərbaycan Respublikası Hökuməti adından** imza

**Moldova Respublikası Hökuməti adından** imza /qeyd-şərtlə /

**Ermənistan Respublikası Hökuməti**
**adından** imza /qeyd-şərtlə /

**Belarus Respublikası Hökuməti**
**adından** imza /qeyd-şərtlə /

**Gürcüstan Hökuməti**
**adından** imza yoxdur

**Qazaxıstan Respublikası Hökuməti**
**adından** imza yoxdur

**Qırğızıstan Respublikası Hökuməti**
**adından** imza

**Rusiya Federasiyası Hökuməti**
**adından** imza

**Tacikistan Respublikası Hökuməti**
**adından** imza

**Türkmənistan Hökuməti**
**adından** imza yoxdur

**Özbəkistan Respublikası Hökuməti**
**adından** imza yoxdur

**Ukrayna Hökuməti**
**adından** imza yoxdur

*2008-ci il 14 noyabr tarixli Birgə film istehsalı haqqında Sazişə Əlavə*

## BİRGƏ İSTEHSAL FİLMLƏRİNƏ "MİLLİ FİLM" STATUSUNUN VERİLMƏSİ HAQQINDA
## Ə S A S N A M Ə

Hazırkı Əsasnamə birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi qaydasını və şərtlərini nəzərdə tutur.

1. Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi üçün filmin prodüseri (ortaq prodüserləri) hər bir Tərəfin səlahiyyətli orqanına müvafiq ərizə təqdim edir. Belə ərizə prodüserlər (ortaq prodüserlər) arasındakı qarşılıqlı hesablaşma müddətinin bitməsindən gec olmamaq şərti ilə filmin istehsalından əvvəl və ya istehsalı zamanı verilə bilər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1.1. Hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq hazırlanmış filmin ədəbi ssenarisi və ya sinopsisi.

1.2. Filmdə istifadə olunan əsərlərə aid müəllif hüquqlarını təsdiq edən sənəd.

1.3 Vətəndaşlığı və yerinə yetirdiyi işin kateqoriyası göstərilməklə bədii istehsal heyətinin (bundan sonra BİH) və vətəndaşlığı göstərilməklə baş rolları ifa edənlərin siyahısı. BİH - Tərəflərdən hər birinin dövlətinin qanunvericiliyi ilə bədii istehsal heyəti kimi tanınmış şəxslər hesab olunur.

1.4. Film istehsalının təqvim-quruluş planı.

1.5. Filmin rejissoru və ssenari müəllifi ilə qüvvədə olan müqavilə.

1.6. Hüquqi şəxs olan prodüserlərin (ortaq prodüserlərin) təsis sənədləri.

1.7. Film istehsalının biznes planı.

1.8. Filmin birgə istehsal olunması ilə bağlı prodüserlər (ortaq prodüserlər) arasında müqavilənin layihəsi və ya qüvvədə olan müqavilə.

2. Prodüserlər (ortaq prodüserlər) arasında müqavilənin layihəsi və ya qüvvədə olan müqavilə aşağıdakı məlumatları özündə əks etdirməlidir:

2.1. Filmin adı.

2.2. Filmin prodüserlərinin (ortaq prodüserlərinin) adları və/və ya hüquqi (poçt) ünvanları.

2.3. Filmin ssenari müəllifləri və rejissorlarının adları və soyadları.

2.4. Maliyyələşmə mənbələri, o cümlədən Tərəflərin dövlətlərinin qanunvericiliklərində nəzərdə tutulmuş vergilərlə bağlı məlumat, eləcə də hər bir prodüserin (ortaq prodüserin) qoyduğu məbləğin faiz bölgüsü haqqında məlumat göstərilməklə filmin istehsalına sərf olunmuş xərclər smetası.

2.5. Filmin kommersiya məqsədi ilə istifadəsi nəticəsində əldə olunmuş gəlirlərin bölgüsü qaydası.

2.6. Filmin istehsal olunma müddətləri.

2.7. Müqavilə şərtlərinin yerinə yetirilməsinə görə prodüserin (ortaq prodüserin) məsuliyyəti.

Müqaviləyə edilən dəyişikliklər və əlavələr filmin işçi nüsxəsinin hazırlanma müddətinin bitməsinə (filmin bir plyonkaya köçürülməsinə) qədər razılaşdırılmaq üçün Tərəflərin səlahiyyətli orqanlarına təqdim olunur.

3. Hər bir prodüserin (ortaq prodüserin) filmin çəkilişinə verdiyi töhfə bədii istehsal heyətinin ən azı bir vahidindən, baş rolu ifa edən bir nəfərdən və ikinci dərəcəli rolu ifa edən bir nəfərdən ibarət olmalıdır. Tərəflərin səlahiyyətli orqanlarının razılığına əsasən istisna hallarda prodüserlərin (ortaq prodüserlərin) töhfələrinin həcmində dəyişikliyə yol verilir.

4. Prodüserlərin (ortaq prodüserlərin) qoyduqları müvafiq maliyyə töhfələrinin payı iyirmi faizdən səksən faizədək təşkil edə bilər.

Çoxtərəfli birgə istehsal hallarında prodüserlərin (ortaq prodüserlərin) qoyduqları ən az maliyyə töhfəsinin payı filmin istehsalına sərf olunmuş ümumi məbləğin 10 faizindən az, ən çox payı isə 70 faizindən çox olmamalıdır.

5. Filmlərin birgə istehsalı hər bir Tərəfin dövlətinin bədii istehsal heyəti tərəfindən həyata keçirilir.

Filmin istehsalı üçün ehtiyac olduqda ortaq prodüserlərin qarşılıqlı razılığı əsasında digər dövlətlərin bədii istehsal heyəti filmin istehsalında iştirak edə bilər.

6. Filmin istehsalı Tərəflərin dövlətlərinin ərazisində, lazımi hallarda isə Tərəflərin səlahiyyətli orqanlarının razılığına əsasən üçüncü dövlətlərin ərazisində həyata keçirilir.

7. Prodüserlərdən (ortaq prodüserlərdən) hər biri, saxlanıldığı yerdən asılı olmayaraq, filmin ilkin materiallarının (təsvir və səs) ortaq sahibi hesab olunur. Prodüserinin (ortaq prodüserinin) daha çox maliyyə töhfəsi qoyduğu Tərəf onların saxlanılmasına görə üstün hüquqa malikdir.

8. Prodüserlərdən (ortaq prodüserlərdən) hər birinin onların öz dillərində filmin nüsxəsinə malik olmaq hüququ vardır.

9. Prodüserlər (ortaq prodüserlər) arasındakı bütün qarşılıqlı hesablaşmalar filmin müqavilədə qeyd olunmuş istehsal müddətinin bitməsi tarixindən sonra 60 gün müddətində tamamlanır.

10. Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq milli film şəhadətnaməsinin təqdim olunması yolu ilə Tərəflərin səlahiyyətli orqanları tərəfindən rəsmiləşdirilir.

## “MƏDƏNİ ÖZÜNÜİFADƏ MÜXTƏLİFLİYİNİN QORUNMASI VƏ TƏŞVİQİ HAQQINDA” KONVENSİYANIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” 2005-ci il oktyabrın 20-də Paris şəhərində qəbul edilmiş Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatları ilə təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 noyabr 2009-cu il***

## MƏDƏNİ ÖZÜNÜİFADƏ MÜXTƏLİFLİYİNİN QORUNMASI VƏ TƏŞVİQİ HAQQINDA
## K O N V E N S İ Y A
***Paris, 20 oktyabr 2005-ci il***

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı 3-21 oktyabr 2005-ci il tarixində Paris şəhərində keçirilən 33-cü sessiyasında mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqləyərək,

mədəni müxtəlifliyin bəşəriyyətin ümumi irsini formalaşdırdığını və hamının rifahı üçün onun qədrini bilməli və qoruyub saxlamalı olduğumuzu dərk edərək,

mədəni müxtəlifliyin — seçim diapazonunu genişləndirən və insanın imkanlarını və dəyərlərini qidalandıran zəngin və rəngarəng dünya yaradaraq cəmiyyətlər, insanlar və millətlərin davamlı inkişafı üçün hərəkətverici qüvvə olduğunu bilərək,

demokratiya, tolerantlıq, sosial ədalət və insanlar və mədəniyyətlər arasında qarşılıqlı hörmət şəraitində çiçəklənən mədəni müxtəlifliyin yerli, milli və beynəlxalq səviyyədə sülh və təhlükəsizlik üçün zəruri olduğunu xatırlayaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə elan edilmiş insan hüquqlarının və əsas azadlıqların tam həyata keçirilməsi üçün mədəni müxtəlifliyin əhəmiyyətini qeyd edərək,

BMT-nin 2000-ci il tarixli Minillik Bəyannaməsini və orada yoxsulluğun azaldılmasına xüsusi diqqət yetirildiyini nəzərə alaraq, mədəniyyəti milli və beynəlxalq inkişaf siyasətlərinə, həmçinin beynəlxalq inkişaf naminə əməkdaşlığa strateji tərkib elementi kimi daxil etmək ehtiyacını vurğulayaraq,

mədəniyyətin zaman və məkan dəyişdikcə müxtəlif formalar aldığını və bu müxtəlifliyin bəşəriyyəti təşkil edən xalqların və cəmiyyətlərin mədəni özünüifadə tərzlərinin və özünəməxsusluqlarının unikallığında və müxtəlifliyində öz əksini tapdığını nəzərə alaraq,

qeyri-maddi və maddi sərvətlərin mənbəyi kimi ənənəvi elmlərin, xüsusilə də yerli xalqların bilik sistemlərinin və onların davamlı inkişafa müsbət töhfəsinin vacibliyini, həmçinin onların lazımi qaydada qorunmasının və təşviqinin zəruri olduğunu bilərək,

mədəni özünüifadə müxtəlifliyini, o cümlədən onun məzmununu, xüsusilə də mədəni özünüifadə formalarının yox olmaq və ya ciddi ziyan çəkmək təhlükəsi olduğu hallarda, qorumaq üçün tədbirlər görmək ehtiyacını dərk edərək,

mədəniyyətin bütövlükdə sosial birlik üçün əhəmiyyətini və konkret olaraq onun qadınların cəmiyyətdə rolunu və statusunu artırmaq potensialını vurğulayaraq,

ideyaların azad şəkildə yayılmasının mədəni müxtəlifliyi gücləndirdiyini, mədəniyyətlər arasında daimi mübadilənin və qarşılıqlı təsirin onu zənginləşdirdiyini bilərək,

fikir, ifadə və informasiya azadlığının, eləcə də informasiya vasitələrinin müxtəlifliyinin cəmiyyətlərdə mədəni özünüifadə formalarının çiçəklənməsinə şərait yaratdığını təsdiqləyərək,

mədəni özünüifadə müxtəlifliyinin, o cümlədən ənənəvi özünüifadə formalarının fərdlərə və xalqlara öz ideya və dəyərlərini ifadə etmək və başqaları ilə bölüşmək imkanı verən mühüm faktor olduğunu təsdiqləyərək,

dil müxtəlifliyinin mədəni müxtəlifliyin fundamental elementi olduğunu xatırladaraq və mədəni özünüifadənin qorunması və təşviq edilməsində təhsilin fundamental rolunu təsdiqləyərək,

yerli xalqlara və milli azlıqlara mənsub insanların ənənəvi mədəni özünüifadə formalarından faydalana bilməsi üçün belə mədəni özünüifadə formalarının həyat qabiliyyətli olmasının — bu, özünü həmin insanların ənənəvi mədəni özünüifadə formalarını yaratmaq, yaymaq və nəsildən-nəslə ötürmək və onlardan istifadə etmək azadlığında büruzə verir — mühüm əhəmiyyətini nəzərə alaraq,

mədəni özünüifadəni yeniləşdirən və zənginləşdirən, həmçinin ümumilikdə cəmiyyətin tərəqqisi üçün mədəniyyəti inkişaf etdirənlərin rolunu artıran mədəni yaradıcılıq və qarşılıqlı əlaqənin həyati əhəmiyyətli rolunu vurğulayaraq,

mədəni yaradıcılıqla məşğul olanların dəstəklənməsində əqli mülkiyyət hüquqlarının əhəmiyyətini dərk edərək,

mədəni fəaliyyətin, mədəni malların və xidmətlərin özünəməxsusluq, dəyər və məna kəsb edərək həm iqtisadi, həm də mədəni təbiətə malik olduğuna və buna görə də yalnız kommersiya dəyəri daşımadığına əmin olaraq,

informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə təkan götürmüş qlobalizasiya proseslərinin mədəniyyətlərin qarşılıqlı təsiri üçün misilsiz şərait yaratdığını və eyni zamanda varlı və kasıb ölkələr arasında qeyri-mütənasibliyin dərinləşməsindən irəli gələn risklər nöqteyi-nəzərindən mədəni müxtəliflik üçün yeni təhdidlər formalaşdırdığını qeyd edərək,

YUNESKO-nun qarşısına mədəni müxtəlifliyə hörməti təmin etmək və ideyaların söz və təsvir vasitəsilə sərbəst yayılmasını təşviq etmək üçün zəruri hesab etdiyi beynəlxalq sazişləri tövsiyə etmək kimi konkret vəzifələrin qoyulduğundan xəbərdar olaraq,

mədəni müxtəlifliyə və mədəni hüquqların həyata keçirilməsinə dair YUNESKO tərəfindən qəbul olunmuş beynəlxalq sənədlərin, xüsusilə də Mədəni müxtəlifliyə dair 2001-ci il tarixli Ümumdünya Bəyannaməsinin müddəalarına istinad edərək,

2005-ci il oktyabrın 20-də bu Konvensiyanı qəbul edir.

## I. MƏQSƏDLƏR VƏ RƏHBƏR PRİNSİPLƏR

### Maddə 1.

### Məqsədlər

Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

(a) mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək;

(b) müxtəlif mədəniyyətlərin çiçəklənməsi və qarşılıqlı səmərəli tərzdə bir-birinə sərbəst təsiri üçün şərait yaratmaq;

(c) mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə bütün dünyada geniş və tarazlı mədəni mübadiləni təmin etmək üçün mədəniyyətlərarası dialoqu təşviq etmək;

(d) xalqlar arasında mənəvi körpülərin qurulması ruhunda mədəniyyətlərin qarşılıqlı əlaqələrini inkişaf etdirmək məqsədilə mədəniyyətlərarası qarşılıqlı fəaliyyəti dəstəkləmək;

(e) mədəni özünüifadə müxtəlifliyinə hörməti təşviq etmək və yerli, milli və beynəlxalq səviyyədə onun dəyəri haqqında məlumatlılığı artırmaq;

(f) bütün ölkələr, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün mədəniyyət və inkişaf arasında əlaqənin əhəmiyyətini bir daha təsdiqləmək və bu əlaqənin əsl dəyərinin etirafını təmin etmək üçün milli və beynəlxalq səviyyədə görülən tədbirləri dəstəkləmək;

(g) özünəməxsusluq, dəyər və məna daşıyıcısı olaraq mədəni fəaliyyətin, mədəni malların və xidmətlərin səciyyəvi xüsusiyyətini tanımaq;

(h) dövlətlərin öz ərazilərində mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi üçün uyğun hesab etdikləri siyasət və tədbirləri dəstəkləmək, qəbul etmək və həyata keçirmək kimi suveren hüquqlara malik olduqlarını bir daha təsdiqləmək;

(i) mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək sahəsində xüsusilə inkişaf etməkdə olan ölkələrin imkanlarını genişləndirmək məqsədilə tərəfdaşlıq ruhunda beynəlxalq əməkdaşlıq və həmrəyliyi gücləndirmək.

### Maddə 2.
### Rəhbər prinsiplər

**1. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi**

Mədəni müxtəlifliyin qorunması və təşviqi ancaq ifadə, informasiya və kommunikasiya, fərdlərin mədəni özünüifadə formasını seçmək imkanı kimi insan hüquq və azadlıqlarının təmin olunduğu təqdirdə mümkündür. Heç bir kəs İnsan hüquqlarının Ümumi Bəyannaməsində nəzərdə tutulmuş və beynəlxalq hüquq ilə təminat verilmiş insan hüquq və azadlıqlarına qəsd etmək və ya onları məhdudlaşdırmaq məqsədilə bu Konvensiyanın müddəalarından istifadə edə bilməz.

**2. Suverenlik prinsipi**

BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, dövlətlər öz əraziləri çərçivəsində mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək üçün lazımi tədbirlər görmək və siyasətlər həyata keçirmək kimi suveren hüquqa malikdirlər.

**3. Bərabər ləyaqət və bütün mədəniyyətlərə hörmət prinsipi**

Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi bütün mədəniyyətlərin, o cümlədən azlıqlara və yerli əhaliyə mənsub insanların mədəniyyətlərinin bərabər ləyaqətə malik olmasını və onlara hörmət edilməsini nəzərdə tutur.

**4. Beynəlxalq həmrəylik və əməkdaşlıq prinsipi**

Beynəlxalq həmrəylik və əməkdaşlıq ölkələrə, xüsusilə də inkişaf etməkdə olan ölkələrə istər formalaşmaqda olan, istərsə də artıq mövcud olan mədəniyyət industriyaları

da daxil olmaqla, mədəni özünüifadə vasitələrini yaratmaq və gücləndirmək imkanının verilməsinə yönəlməlidir.

**5. İnkişafın iqtisadi və mədəni aspektlərinin bir-birini tamamlaması prinsipi**

Mədəniyyət inkişafın əsas hərəkətverici qüvvələrindən biri olduğundan, inkişafın mədəni aspektləri onun iqtisadi aspektləri kimi mühüm əhəmiyyət kəsb edir və fərdlər və xalqlar bu sahədə iştirak etmək və bundan faydalanmaq hüququna malikdirlər.

**6. Davamlı inkişaf prinsipi**

Mədəni müxtəliflik fərdlər və cəmiyyətlər üçün dəyərli sərvətdir. Mədəni müxtəlifliyin qorunması, təşviqi və dəstəklənməsi mövcud və gələcək nəsillərin rifahı naminə davamlı inkişaf üçün vacib tələbdir.

**7. Bərabər imkan prinsipi**

Bütün dünyada mədəni özünüifadənin zəngin və çeşidli formalarına bərabər çıxış, həmçinin mədəniyyətlərin ifadə və yayılma vasitələrinə çıxışı — mədəni müxtəlifliyin təmininin və qarşılıqlı anlaşmanı təşviqin mühüm elementlərini təşkil edir.

**8. Açıqlıq və tarazlıq prinsipi**

Dövlətlər mədəni özünüifadə müxtəlifliyini dəstəkləmək üçün tədbirlər həyata keçirdikdə, onların dünyanın digər mədəniyyətləri üçün açıqlığına çalışmalı və həmin tədbirlərin bu Konvensiyanın məqsədlərinə uyğunluğunu təmin etməlidirlər.

## II. TƏTBİQ DAİRƏSİ

### Maddə 3.
### Tətbiq dairəsi

Bu Konvensiya mədəni özünüifadə müxtəlifliyinin qorunmasına və təşviqinə dair Tərəflərin qəbul etdiyi tədbirlərə və siyasətlərə tətbiq olunur.

## III. ANLAYIŞLAR

### Maddə 4.
### Anlayışlar

Bu Konvensiyanın məqsədləri üçün aşağıdakılar müəyyən edilir:

**1. Mədəni müxtəliflik**

"Mədəni müxtəliflik" dedikdə, ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı müxtəlif formalar nəzərdə tutulur. Bu özünüifadə formaları qruplar və cəmiyyətlər arasında və onların daxilində ötürülür.

Mədəni müxtəliflik təkcə bəşəriyyətin mədəni irsinin ifadə olunduğu, artırıldığı və ötürüldüyü müxtəlif mədəni özünüifadə vasitələrinin tətbiqi ilə deyil, həmçinin hansı vəsaitlərdən və texnologiyalardan istifadə edilməsindən asılı olmayaraq, bədii yaradıcılığın müxtəlif növlərinin, mədəni özünüifadə məhsullarının istehsalının, yayılmasının, paylaşılmasının və onlara yiyələnmənin köməyi ilə meydana gəlir.

**2. Mədəni məzmun**

"Mədəni məzmun" dedikdə, mədəni özünəməxsusluqdan doğan və ya mədəni özünəməxsusluğu ifadə edən simvolik məna, bədii aspekt və mədəni dəyərlər nəzərdə tutulur.

**3. Mədəni özünüifadə**

“Mədəni özünüifadə” dedikdə, ayrı-ayrı fərdlərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan özünüifadə nəzərdə tutulur.

**4. Mədəni fəaliyyət, mallar və xidmətlər**

“Mədəni fəaliyyət, mallar və xidmətlər” dedikdə, daşıya biləcəyi kommersiya dəyərindən asılı olmayaraq, səciyyəvi xüsusiyyəti, istifadəsi və ya məqsədi baxımından nəzərdən keçirildikdə, mədəni özünüifadə formalarını təcəssüm etdirən və ya daşıyan mədəni fəaliyyət, mallar və xidmətlər başa düşülür. Mədəni fəaliyyət özü-özlüyündə nəticə ola bilər və ya mədəni mallar və xidmətlərin istehsalına səbəb ola bilər.

**5. Mədəniyyət industriyaları**

“Mədəniyyət industriyaları” dedikdə, 4-cü bənddə müəyyən edilmiş malları və xidmətləri istehsal edən sənaye sahələri nəzərdə tutulur.

**6. Mədəniyyət siyasəti və tədbirləri**

“Mədəniyyət siyasəti və tədbirləri” dedikdə, yerli, regional, milli və ya beynəlxalq səviyyədə ya mədəniyyətin özünə yönəlmiş, ya da fərdlərin, qrupların və ya cəmiyyətlərin mədəni özünüifadəsinə, o cümlədən mədəni fəaliyyətə, mədəni mallar və xidmətlərin yaradılmasına, istehsalına, bölgüsünə və paylanmasına, habelə mədəni fəaliyyət, mallar və xidmətlərin müyəssərliyinə birbaşa təsir üçün nəzərdə tutulmuş siyasət və tədbirlər nəzərdə tutulur.

**7. Qorunma**

“Qorunma” dedikdə, mədəni özünüifadə müxtəlifliyinin qorunub saxlanılması, mühafizəsi və artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

“Qorumaq” — bu tədbirləri həyata keçirmək deməkdir.

**8. Mədəniyyətlərarası əlaqə**

“Mədəniyyətlərarası əlaqə” dedikdə, müxtəlif mədəniyyətlərin mövcudluğu və qarşılıqlı təsiri, həmçinin dialoq və qarşılıqlı hörmət əsasında ümumi mədəni özünüifadənin yaranma imkanı nəzərdə tutulur.

## IV. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

### Maddə 5.
### Hüquq və öhdəliklərə aid olan ümumi qayda

1. Tərəflər BMT-nin Nizamnaməsinə, beynəlxalq hüququn prinsiplərinə və insan hüquqları sahəsindəki beynəlxalq sənədlərə müvafiq olaraq, mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək, habelə bu Konvensiyanın məqsədlərinə nail olmaq məqsədilə beynəlxalq əməkdaşlığı gücləndirmək üçün öz mədəniyyət siyasətini müəyyən etmək və həyata keçirmək, müvafiq tədbirlər görmək kimi suveren hüquqlarını bir daha təsdiqləyirlər.

2. Tərəf öz ərazisi çərçivəsində mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək üçün siyasət həyata keçirdikdə və tədbirlər gördükdə, həmin siyasət və tədbirlər bu Konvensiyanın müddəalarına uyğun olmalıdır.

### Maddə 6.
### Tərəflərin milli səviyyədə hüquqları

1. 4.6-cı maddədə müəyyən edilmiş mədəniyyət siyasəti və tədbirləri çərçivəsində və özünün spesifik şəraiti və tələbatlarını nəzərə alaraq, hər bir Tərəf öz ərazisi

çərçivəsində mədəni özünüifadə müxtəlifliyinin müdafiəsi və təşviqinə yönəlmiş tədbirlər həyata keçirə bilər.

2. Belə tədbirlərə aşağıdakılar aid ola bilər:

(a) mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə yönəlmiş tənzimləyici tədbirlər;

(b) milli ərazi daxilində milli mədəni fəaliyyətlər, mədəni mallar və xidmətlərin meydana gəlməsinə, istehsalına, yayılmasına, ötürülməsinə və onlardan, o cümlədən onlarla əlaqədar işlənən dildən istifadənin təmin olunmasına müvafiq qaydada şərait yaradılmasına yönəlmiş tədbirlər;

(c) mədəni fəaliyyət, mədəni mallar və xidmətlərin istehsalı, bölgüsü və yayılması vasitələrinə qeyri-mütəşəkkil sektorun müstəqil milli mədəniyyət industriyalarının və fəaliyyətinin səmərəli çıxışını təmin etməyə yönəlmiş tədbirlər;

(d) dövlətin maliyyə dəstəyini təmin etməyə yönəlmiş tədbirlər;

(e) qeyri-kommersiya təşkilatlarını, həmçinin dövlət və özəl təşkilatları, sənət adamlarını və mədəniyyət sahəsindəki digər peşəkarları ideyaların, mədəni özünüifadə formalarının və mədəni fəaliyyətin, mədəni malların və xidmətlərin azad mübadiləsini və dövriyyəsini inkişaf etdirməyə və təşviq etməyə, öz fəaliyyətlərində yaradıcılıq və sahibkarlıq ruhunu stimullaşdırmağa kömək etməyə yönəlmiş tədbirlər;

(f) lazım gəldikdə, müvafiq dövlət institutlarının yaranmasına və dəstəklənməsinə yönəlmiş tədbirlər;

(g) sənət adamlarının və mədəni özünüifadə formalarının yaranmasında iştirak edən digər şəxslərin yetişməsinə və dəstəklənməsinə yönəlmiş tədbirlər;

(h) ictimai teleradionun inkişafı da daxil olmaqla, informasiya vasitələrinin müxtəlifliyinin genişlənməsinə yönəlmiş tədbirlər.

**Maddə 7.**
**Mədəni özünüifadə formalarının təşviqi üçün tədbirlər**

1. Tərəflər öz ərazilərində ayrı-ayrı fərdləri və sosial qrupları aşağıdakılara təşviq edən mühit yaratmağa səy göstərirlər:

a) qadınların, habelə müxtəlif sosial qrupların, o cümlədən azlıqlara və ya yerli əhaliyə mənsub şəxslərin səciyyəvi şəraitini və ehtiyaclarını nəzərə almaq şərtilə, özlərinin mədəni özünüifadə formalarını yaratmaq, istehsal etmək, yaymaq, ötürmək və onlardan istifadə edə bilmək;

b) istər öz ərazilərindəki, istərsə də dünyanın digər ölkələrindəki mədəni özünüifadə formalarından istifadə imkanına malik olmaq.

2. Tərəflər sənət adamlarının, yaradıcılıq prosesində iştirak edən digər şəxslərin, mədəni birliklərin və onların fəaliyyətini dəstəkləyən təşkilatların mühüm töhfəsini, mədəni özünüifadə müxtəlifliyinin genişlənməsində onların əsas rolunu qəbul etməyə səy göstərirlər.

**Maddə 8.**
**Mədəni özünüifadə formalarının qorunması üçün tədbirlər**

1. 5-ci və 6-cı maddələrin müddəalarına xələl gətirmədən Tərəf öz ərazisindəki mədəni özünüifadə formalarının yoxaçıxma riski ilə üzləşməsi, ciddi təhlükə altında

olması və ya təcili mühafizəyə ehtiyacı olması ilə bağlı xüsusi halların mövcudluğunu müəyyən edə bilər.

2. Tərəflər, bu Konvensiyanın müddəalarına uyğun olaraq, 1-ci bənddə müəyyən edilmiş hallarda mədəni özünüifadə formalarının qorunması və saxlanılması üçün bütün müvafiq tədbirləri görə bilərlər.

3. Tərəflər konkret şəraitin tələbindən irəli gələrək görülmüş tədbirlər barədə 23-cü maddəyə müvafiq olaraq, Hökumətlərarası Komitəyə məruzə edirlər. Komitə isə öz növbəsində onlara müvafiq tövsiyələr verə bilər.

### Maddə 9.
### Məlumat verilməsi və şəffaflıq

Tərəflər:

(a) hər dörd ildən bir YUNESKO-ya təqdim etdikləri məruzədə öz əraziləri çərçivəsində və beynəlxalq səviyyədə mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi üçün görülmüş tədbirlərə dair müvafiq məlumat verirlər;

(b) bu Konvensiya ilə əlaqədar məlumatın verilməsinə məsul olan əlaqələndiricini təyin edirlər;

(c) mədəni özünüifadə müxtəlifliyinin qorunmasına və təşviqinə dair məlumatları bölüşür və mübadilə edirlər.

### Maddə 10.
### Təhsil və ictimai maariflənmə

Tərəflər:

(a) inter alia, təhsil və ictimai maarifləndirmə proqramları vasitəsilə mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinin əhəmiyyətinin dərk edilməsini təşviq edir və həvəsləndirirlər;

(b) bu maddənin məqsədlərinə nail olmaq üçün digər Tərəflərlə, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq edirlər;

(c) mədəniyyət industriyaları sahəsindəki təhsil, təlim və mübadilə proqramları vasitəsilə yaradıcılığı stimullaşdırmağa və istehsal qabiliyyətini gücləndirməyə səy göstərirlər. Bu tədbirlər istehsalın ənənəvi formalarına mənfi təsir etməyəcək tərzdə həyata keçirilməlidir.

### Maddə 11.
### Vətəndaş cəmiyyətinin iştirakı

Tərəflər mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqində vətəndaş cəmiyyətinin fundamental rolunu etiraf edirlər. Tərəflər bu Konvensiyanın məqsədlərinə nail olunması istiqamətindəki səylərində vətəndaş cəmiyyətini fəal iştirak etməyə həvəsləndirirlər.

### Maddə 12.
### Beynəlxalq əməkdaşlığın təşviqi

Tərəflər aşağıdakı məqsədlərlə 8-ci və 17-ci maddələrdə müəyyən edilmiş hallara xüsusi diqqət yetirərək, mədəni özünüifadə müxtəlifliyini təşviq edəcək şəraitin yaranması üçün ikitərəfli, regional və beynəlxalq əməkdaşlığı inkişaf etdirməyə çalışacaqlar:

(a) Tərəflər arasında mədəniyyət siyasətinə dair dialoqu asanlaşdırmaq;

(b) peşəkar və beynəlxalq mədəniyyət mübadiləsi və qabaqcıl təcrübənin paylaşılması vasitəsilə ictimai mədəni təsisatlarda dövlət sektorunun strateji və idarəçilik potensialını artırmaq;

(c) mədəni özünüifadə müxtəlifliyinin təşviqi və genişləndirilməsində vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları və özəl sektorla, habelə onların öz arasında tərəfdaşlığı gücləndirmək;

(d) məlumat mübadiləsini genişləndirmək və mədəni anlaşmanı yaxşılaşdırmaq, həmçinin mədəni özünüifadə müxtəlifliyinə şərait yaratmaq məqsədilə yeni texnologiyaların tətbiqini təşviq etmək və əməkdaşlığı stimullaşdırmaq;

(e) birgə istehsal və birgə yayım sahəsində sazişlər bağlanılmasına həvəsləndirmək.

**Maddə 13.**
**Mədəniyyətin davamlı inkişafa inteqrasiyası**

Tərəflər davamlı inkişafa səbəb olacaq şəraitin yaradılması üçün bütün səviyyələrdə inkişaf siyasətlərinə mədəniyyət məsələlərini daxil etməyə səy göstərir və bu çərçivədə mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair aspektlərin nəzərə alınmasına kömək edirlər.

**Maddə 14.**
**İnkişaf naminə əməkdaşlıq**

Tərəflər, inter alia, aşağıdakı vasitələrlə dinamik mədəniyyət sektorunun formalaşmasına şərait yaratmaq məqsədilə, inkişaf etməkdə olan Ölkələrin konkret ehtiyaclarını xüsusilə nəzərə almaq şərtilə davamlı inkişaf və yoxsulluğun azaldılması naminə əməkdaşlığı gücləndirməyə səy göstərirlər:

(a) aşağıdakı yollarla inkişaf etməkdə olan ölkələrdə mədəniyyət industriyalarının gücləndirilməsi:

(i) inkişaf etməkdə olan ölkələrdə mədəniyyət sahəsində istehsal və yayım potensialının yaradılması və gücləndirilməsi;

(ii) onların mədəni fəaliyyətinin, mədəni mallar və xidmətlərinin yayılması üçün qlobal bazara və beynəlxalq şəbəkələrə geniş çıxışın asanlaşdırılması;

(iii) həyat qabiliyyətli yerli və regional bazarların formalaşmasına şərait yaradılması;

(iv) lazım gəldikdə, inkişaf etməkdə olan ölkələrin mədəni fəaliyyətinin, mədəni mallar və xidmətlərinin yayılması üçün qlobal bazara və beynəlxalq şəbəkələrə geniş çıxışı asanlaşdırmaq məqsədilə müvafiq tədbirlərin görülməsi;

(v) yaradıcılıq fəaliyyətinin dəstəklənməsi və inkişaf etməkdə olan ölkələrin sənət adamlarının gediş-gəlişinin mümkün qədər asanlaşdırılması;

(vi) inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin, inter alia, musiqi və film sahələrində müvafiq əməkdaşlığın təşviq edilməsi;

(b) inkişaf etməkdə olan ölkələrdə, özəl və dövlət sektorlarında strateji və idarəetmə imkanları, siyasətin müəyyənləşdirilməsi və həyata keçirilməsi, mədəni özünüifadə formalarının təşviqi və yayılması, kiçik, orta və mikro müəssisələrin inkişafı, texnologiyalardan istifadə, habelə qabiliyyətlərin inkişafı və ötürülməsi sahələrində məlumatın, təcrübənin və xüsusi biliklərin mübadilə yolu ilə potensialın formalaşdırılması, həmçinin insan resurslarına təlim keçilməsi;

(c) xüsusilə mədəniyyət industriyaları və müəssisələri sahəsində texnologiyaların və "nou-hou"ların tətbiqinə yönəlmiş müvafiq stimullaşdırıcı tədbirlərin görülməsi vasitəsilə texnologiyaların ötürülməsi;

(d) aşağıdakılar vasitəsilə maliyyə dəstəyinin göstərilməsi:

(i) 18-ci maddədə nəzərdə tutulduğu kimi, Mədəni Müxtəliflik üzrə Beynəlxalq Fondun yaradılması;

(ii) yaradıcılıq fəaliyyətini dəstəkləmək və stimullaşdırmaq məqsədilə, ehtiyac olduqda, texniki yardım da daxil olmaqla, rəsmi yardımın təmin edilməsi;

(iii) maliyyə yardımının digər formalarından, məsələn, aşağıfaizli kreditlər, qrantlar və digər maliyyələşdirmə mexanizmlərindən istifadə.

## Maddə 15.
## Əməkdaşlıq mexanizmləri

Tərəflər mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqində inkişaf etməkdə olan ölkələrin potensialını artırmaq məqsədilə onlarla əməkdaşlıq etmək üçün dövlət, özəl və qeyri-kommersiya təşkilatları ilə və onların öz arasında əməkdaşlığın inkişafını təşviq edirlər. Əməkdaşlığın bu yeni forması inkişaf etməkdə olan ölkələrin praktiki ehtiyaclarını nəzərə almaq şərtilə, infrastrukturun və insan resurslarının inkişafına, siyasətin işlənib hazırlanmasına, həmçinin mədəni fəaliyyət, mədəni mallar və xidmətlər mübadiləsinin gələcək inkişafına yönəlir.

## Maddə 16.
## İnkişaf etməkdə olan ölkələr üçün güzəştli rejim

İnkişaf etmiş ölkələr müvafiq institusional və hüquqi çərçivədə, inkişaf etməkdə olan ölkələrin sənət adamlarına, mədəniyyət sahəsindəki digər peşəkarlarına və işçilərinə, habelə mədəni malların və xidmətlərin güzəştli rejim tətbiq etməklə, həmin ölkələrdə mədəni mübadiləni asanlaşdıracaqlar.

## Maddə 17.
## Mədəni özünüifadə formaları üçün ciddi təhlükə yarandığı hallarda beynəlxalq əməkdaşlıq

Tərəflər 8-ci maddədə göstərilən vəziyyətlərdə bir-birinə və xüsusilə inkişaf etməkdə olan ölkələrə kömək məqsədilə əməkdaşlıq edəcəklər.

## Maddə 18.
## Mədəni Müxtəliflik üzrə Beynəlxalq Fond

1. Bununla, bundan sonra “Fond” adlandırılacaq Mədəni Müxtəliflik üzrə Beynəlxalq Fond təsis olunur.

2. Fond YUNESKO-nun Maliyyə Qaydalarına uyğun olaraq məqsədli fondlardan ibarət olacaqdır.

3. Fondun vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

(a) Tərəflərin könüllü ianələri;

(b) YUNESKO-nun Baş Konfransı tərəfindən bu məqsəd üçün ayrılmış vəsait;

(c) digər dövlətlər, BMT sisteminə daxil olan təşkilat və proqramlar, digər regional və beynəlxalq təşkilatlar, habelə dövlət və özəl orqanlar, yaxud fərdlər tərəfindən edilən yardımlar, ianələr və miraslar;

(d) Fondun vəsaitlərinə hesablanmış faizlər;

(e) Fondun xeyri üçün təşkil olunmuş tədbirlərdən əldə edilən yığımlar və gəlirlər;

(f) Fondun Əsasnaməsində nəzərdə tutulmuş istənilən digər mənbələr.

4. Fondun vəsaitindən istifadə haqqında qərarları 22-ci maddəyə uyğun olaraq Tərəflərin konfransının müəyyən etdiyi rəhbər prinsiplər əsasında Hökumətlərarası Komitə verir.

5. Hökumətlərarası Komitə bəyəndiyi konkret layihələrlə bağlı ümumi və xüsusi məqsədlər üçün ianələr və digər yardım növlərini qəbul edə bilər.

6. Fonda edilən yardımlar bu Konvensiyanın məqsədlərinə uyğun olmayan siyasi, iqtisadi və ya digər şərtlərlə müşayiət oluna bilməz.

7. Tərəflər bu Konvensiyanın həyata keçirilməsi üçün müntəzəm olaraq könüllü ianələrin verilməsinə səy göstərirlər.

### Maddə 19.
### Məlumatın mübadiləsi, təhlili və yayılması

1. Tərəflər informasiya mübadiləsinə və mədəni özünüifadə müxtəlifliyi haqqında məlumatların toplanması və statistikasının aparılması ilə əlaqədar xüsusi bilik və təcrübənin bölüşdürülməsinə, həmçinin onların qorunması və təşviqi üzrə qabaqcıl təcrübə mübadiləsinə dair razılaşırlar.

2. YUNESKO Katiblik çərçivəsində mövcud olan mexanizmlərdən istifadə edərək, müvafiq informasiyanın, statistik məlumatların və qabaqcıl təcrübənin toplanması, təhlili və yayılmasını asanlaşdırır.

3. YUNESKO fəaliyyəti mədəni özünüifadə ilə bağlı olan müxtəlif sektorlar, həmçinin dövlət, özəl və qeyri-kommersiya təşkilatları üzrə məlumat bankını yaradır və yeniləyir.

4. Məlumatların toplanmasını asanlaşdırmaq məqsədilə, YUNESKO Tərəflərin müraciətlərinə əsasən onlarda xüsusi bilik və təcrübə potensialının formalaşdırılmasına və gücləndirilməsinə xüsusi diqqət yetirir.

5. Bu maddədə göstərilən məlumatların toplanması 9-cu maddənin müddəalarına əsasən yığılan məlumatı tamamlayır.

## V. DİGƏR SƏNƏDLƏRLƏ ƏLAQƏLƏR

### Maddə 20.
### Digər müqavilələrlə əlaqə: qarşılıqlı dəstək, bir-birini tamamlama və eyni əhəmiyyətlilik

1. Tərəflər qəbul edirlər ki, bu Konvensiya və tərəfdar çıxdıqları bütün digər beynəlxalq müqavilələr üzrə öz öhdəliklərini vicdanla yerinə yetirməlidirlər. Buna görə də bu Konvensiyanın digər beynəlxalq müqavilələrlə eyni əhəmiyyətli olmasından çıxış edərək,

(a) onlar bu Konvensiya ilə tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələr arasında qarşılıqlı dəstək münasibətini təşviq edir; və

(b) Tərəflər tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələri təfsir və tətbiq edərkən və ya öz üzərinə digər beynəlxalq öhdəlikləri götürərkən bu Konvensiyanın müvafiq müddəalarını nəzərə alırlar.

2. Bu Konvensiyada heç nə Tərəflərin tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələr üzrə götürdükləri hüquq və öhdəliklərini dəyişən kimi şərh edilə bilməz.

**Maddə 21.**
**Beynəlxalq məsləhətləşmə və əlaqələndirmə**

Tərəflər bu Konvensiyanın məqsəd və prinsiplərini digər beynəlxalq forumlarda təşviq etməyi öz üzərlərinə götürürlər. Bu məqsədlə Tərəflər, lazım gəldikdə, həmin məqsəd və prinsiplər ruhunda fəaliyyət göstərərək bir-birilə məsləhətləşirlər.

## VI. KONVENSİYANIN ORQANLARI

**Maddə 22.**
**Tərəflərin Konfransı**

1. Bununla Tərəflərin Konfransı təsis edilir. Tərəflərin Konfransı bu Konvensiyanın plenar və ali orqanıdır.

2. Tərəflərin Konfransının növbəti sessiyası iki ildə bir dəfə, mümkün olduğu halda, YUNESKO-nun Baş Konfransı ilə eyni vaxtda keçirilir. Tərəflərin Konfransının qərarına əsasən və ya Tərəflərin ən azı üçdə bir hissəsinin Hökumətlərarası Komitəyə müraciətinə əsasən fövqəladə sessiya çağırıla bilər.

3. Tərəflərin Konfransı öz prosedur qaydalarını qəbul edir.

4. Tərəflərin Konfransının funksiyası, inter alia, aşağıdakılardan ibarətdir:

(a) Hökumətlərarası Komitənin üzvlərini seçmək;

(b) Konvensiya Tərəflərinin Hökumətlərarası Komitə tərəfindən təqdim olunan məruzələrini qəbul etmək və nəzərdən keçirmək;

(c) onun xahişi ilə Hökumətlərarası Komitə tərəfindən hazırlanmış fəaliyyətin rəhbər prinsiplərini təsdiq etmək;

(d) bu Konvensiyanın məqsədlərinə nail olmağa yarıdım etmək üçün zəruri hesab oluna biləcək hər hansı digər tədbirləri görmək.

**Maddə 23.**
**Hökumətlərarası Komitə**

1. YUNESKO çərçivəsində bundan sonra "Hökumətlərarası Komitə" adlandırılacaq Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitə yaradılır. O, Konvensiya tərəfi olan 18 dövlətin nümayəndələrindən ibarət olacaq; bu

nümayəndələr Konvensiyanın 29-cu maddəsinə uyğun olaraq qüvvəyə minməsindən sonra Tərəflərin Konfransı tərəfindən dörd il müddətinə seçiləcəkdir.

2. Hökumətlərarası Komitə hər il öz iclasını keçirəcəkdir.

3. Hökumətlərarası Komitə Tərəflərin Konfransının rəhbərliyi altında və onun göstərişinə əsasən fəaliyyət göstərir və ona hesabat verir.

4. Konvensiya Tərəflərinin sayı 50-yə çatdığı təqdirdə, Hökumətlərarası Komitənin üzvlərinin sayı 24-ə qədər artırılır.

5. Hökumətlərarası Komitənin üzvləri ədalətli coğrafi təmsilçilik və rotasiya prinsiplərinə əsasən seçilir.

6. Hökumətlərarası Komitə bu Konvensiya ilə ona verilən digər öhdəliklərə xələl gətirmədən aşağıdakı funksiyaları həyata keçirir:

(a) bu Konvensiyanın məqsədlərini təşviq etmək və onun yerinə yetirilməsinə nəzarət etmək;

(b) Tərəflərin Konfransının müraciəti əsasında, Konvensiyanın müddəalarının yerinə yetirilməsi və tətbiqi ilə əlaqədar praktiki tövsiyələri hazırlayıb təsdiq olunmaq üçün Tərəflərin Konfransına təqdim etmək;

(c) Konvensiya Tərəflərinin məruzələrini öz şərhi və məruzələrin məzmununun qısa xülasəsi ilə birlikdə Tərəflərin Konfransına təqdim etmək;

(d) Konvensiyanın müvafiq müddəalarına, xüsusilə də 8-ci maddəyə uyğun olaraq Konvensiya Tərəfləri tərəfindən Hökumətlərarası Komitənin nəzərinə çatdırılan vəziyyətlərdə müvafiq tövsiyələri hazırlamaq;

(e) digər beynəlxalq forumlarda bu Konvensiyanın prinsip və məqsədlərini təşviq etmək üçün məsləhətləşmə prosedurlarını və digər mexanizmləri yaratmaq;

(f) Tərəflərin Konfransının ona tapşırdığı digər məsələləri yerinə yetirmək.

7. Hökumətlərarası Komitə öz prosedur qaydalarına uyğun olaraq istənilən vaxt konkret məsələlərə dair məsləhətləşmələr məqsədilə özəl və ya dövlət təşkilatlarını, yaxud fərdləri öz iclaslarına dəvət edə bilər.

8. Hökumətlərarası Komitə öz prosedur qaydalarını hazırlayır və təsdiq olunmaq üçün Tərəflərin Konfransına təqdim edir.

### Maddə 24.
### YUNESKO-nun Katibliyi

1. Konvensiyanın orqanlarına YUNESKO-nun Katibliyi tərəfindən kömək göstərilir.

2. Katiblik Tərəflərin Konfransının və Hökumətlərarası Komitənin sənədlərini, habelə onların iclaslarının gündəliyini hazırlayır, qərarlarının həyata keçirilməsinə kömək göstərir və buna dair məruzə edir.

## VIII. YEKUN MÜDDƏALAR

### Maddə 25.
### Mübahisələrin həlli

1. Bu Konvensiyanın təfsiri və ya tətbiqinə dair Konvensiya Tərəfləri arasında mübahisə yarandıqda, Tərəflər məsələni danışıqlar yolu ilə həll edirlər.

2. Maraqlı Tərəflər arasında danışıqlar yolu ilə razılaşma əldə olunmadıqda, onlar üçüncü tərəfin xoşməramlı xidmətləri və ya vasitəçiliyi üçün müraciət edə bilərlər.

3. Xoşməramlı xidmətlər və ya vasitəçilik həyata keçirilmədikdə, yaxud danışıqlar, xoşməramlı xidmətlər və ya vasitəçilik məsələnin həllinə gətirib çıxarmadıqda, Tərəf Konvensiyaya edilmiş Əlavədə göstərilən prosedura uyğun olaraq barışıq yolundan istifadə edə bilər. Tərəflər Barışıq Komissiyasının mübahisənin həlli üçün irəli sürdüyü təklifi vicdanla nəzərdən keçirəcəklər.

4. Hər bir Tərəf ratifikasiya, qəbul, təsdiq və ya qoşulma zamanı yuxarıda göstərilən barışıq prosedurunu tanımadığını bəyan edə bilər. Belə Bəyanat vermiş istənilən Tərəf YUNESKO-nun Baş direktoruna bildiriş göndərməklə onu geri götürə bilər.

**Maddə 26.**
**Üzv dövlətlər tərəfindən ratifikasiya, qəbul və ya təsdiq, yaxud qoşulma**

1. Bu Konvensiya YUNESKO-nun üzvü olan dövlətlər tərəfindən onların müvafiq konstitusiya prosedurlarına uyğun olaraq ratifikasiya, qəbul və ya təsdiq edilməlidir, yaxud bu dövlətlər ona qoşulmalıdırlar.

2. Ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında sənədlər saxlanılmaq üçün YUNESKO-nun Baş direktoruna təqdim olunur.

**Maddə 27.**
**Qoşulma**

1. Bu Konvensiya YUNESKO-nun üzvü olmayan, lakin Birləşmiş Millətlər Təşkilatının və ya onun hər hansı ixtisaslaşmış təşkilatının üzvü olan və YUNESKO-nun Baş Konfransı tərəfindən qoşulmağa dəvət olunan dövlətlərin qoşulması üçün açıqdır.

2. Bu Konvensiya həmçinin Baş Assambleyanın 1514(XV) qətnaməsinə uyğun olaraq tam müstəqillik qazanmamış, lakin Birləşmiş Millətlər Təşkilatı tərəfindən tam daxili özünüidarəetməyə malik ərazilər kimi tanınmış, həmçinin bu Konvensiyanın əhatə etdiyi məsələlərdə, o cümlədən belə məsələlərə dair müqavilələr bağlamaq səlahiyyəti olan ərazilərin qoşulması üçün açıqdır.

3. Regional iqtisadi inteqrasiya təşkilatlarına aşağıda qeyd olunan müddəalar tətbiq olunur:

(a) Konvensiya istənilən regional iqtisadi inteqrasiya təşkilatının qoşulması üçün açıqdır; belə təşkilatlar, aşağıda qeyd olunanlar istisna olmaqla, Konvensiyanın müddəalarına münasibətdə Tərəf Dövlətlərlə eyni dərəcədə öhdəlikli olacaqlar;

(b) belə təşkilatın bir və ya bir neçə üzv dövləti də bu Konvensiyanın Tərəfi olduqda, bu təşkilat və həmin üzv dövlət və ya üzv dövlətlər bu Konvensiya əsasında götürdükləri öhdəliklərin həyata keçirilməsi üzrə öz məsuliyyətlərini bölüşdürürlər. Məsuliyyətin bu cür bölgüsü aşağıda (c) yarımbəndində göstərilmiş bildiriş prosedurunun tamamlanması ilə qüvvəyə minir. Təşkilat və üzv dövlətlər bu Konvensiyadan irəli gələn hüquqlardan eyni zamanda istifadə edə bilməzlər. Bundan başqa, regional iqtisadi inteqrasiya təşkilatları öz səlahiyyətlərinə aid olan məsələlərdə, səsvermə hüququndan istifadə edərkən, bu Konvensiyanın Tərəfi olan üzv dövlətlərin sayına bərabər sayda səs hüququna malik olurlar. Əgər belə bir təşkilatın üzvü olan dövlətlər səsvermə

hüququndan özləri istifadə edirlərsə, bu təşkilat səsvermə hüququndan istifadə edə bilməz və əksinə;

(c) (b) yarımbəndində qeyd olunduğu kimi, məsuliyyətlərin bölgüsündə razılığa gəlmiş regional iqtisadi inteqrasiya təşkilatı və onun üzvü olan dövlət və ya dövlətlər məsuliyyətlərin təklif olunan bölgüsü ilə bağlı Tərəfləri aşağıdakı qaydada məlumatlandırırlar:

(i) belə təşkilat Konvensiya ilə tənzimlənən məsələlərdə öz məsuliyyətinin hüdudlarını öz qoşulma sənədində aydın göstərir;

(ii) sonradan məsuliyyətlərin bölgüsündə hər hansı dəyişiklik olduqda, regional iqtisadi inteqrasiya təşkilatı belə dəyişiklik haqqında depozitarini məlumatlandırır, depozitari isə öz növbəsində Tərəfləri bu cür dəyişikliklər barədə xəbərdar edir;

(d) belə başa düşülür ki, bu Konvensiyanın iştirakçısı olan regional iqtisadi inteqrasiya təşkilatının üzvü olan dövlətlər səlahiyyətlərinin həmin təşkilata ötürülməsi barədə aydın bəyanat vermədiyi və ya depozitarini məlumatlandırmadığı bütün məsələlərdə öz səlahiyyətlərindən istifadə etmək hüququna malikdirlər;

(e) "regional iqtisadi inteqrasiya təşkilatı" dedikdə, Birləşmiş Millətlər Təşkilatı və ya onun istənilən ixtisaslaşmış təşkilatının üzvü olan suveren dövlətlər tərəfindən təsis olunmuş, bu Dövlətlərin Konvensiya ilə tənzimlənən məsələlərdə öz səlahiyyətlərini verdikləri və öz daxili prosedurlarına uyğun olaraq Konvensiyanın Tərəfi olmağa tam səlahiyyətləndirilmiş təşkilat nəzərdə tutulur.

2. Qoşulma haqqında sənəd saxlanmaq üçün YUNESKO-nun Baş direktoruna verilir.

### Maddə 28.
### Əlaqələndirici

Bu Konvensiya Tərəf olan kimi hər bir Tərəf 9-cu maddəyə əsasən əlaqələndirici təyin edir.

### Maddə 29.
### Qüvvəyəminmə

1. Bu Konvensiya otuzuncu ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədinin depozitariyə verildiyi tarixdən üç ay sonra qüvvəyə minir, lakin bu, yalnız ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədlərini həmin gün və ya ondan əvvəl təqdim edən dövlətlərə və regional iqtisadi inteqrasiya təşkilatlarına aiddir. İstənilən digər Tərəfə münasibətdə Konvensiya həmin Tərəfin ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədini depozitariyə verdiyi tarixdən üç ay sonra qüvvəyə minir.

2. Bu maddənin məqsədləri üçün regional iqtisadi inteqrasiya təşkilatı tərəfindən depozitariyə verilən hər hansı sənəd həmin təşkilatın üzvü olan dövlətlər tərəfindən depozitariyə artıq təqdim olunmuş sənədlərin əlavəsi hesab edilmir.

### Maddə 30.
### Federal və ya qeyri-unitar konstitusiya sistemləri

Beynəlxalq müqavilələrin Tərəflərin üzərinə onların konstitusiya sistemindən asılı olmayaraq bərabər öhdəliklər qoyduğunu nəzərə alaraq, federal və ya qeyri-unitar konstitusiya sistemlərinə malik olan Tərəflərə aşağıdakı müddəalar tətbiq olunur:

(a) bu Konvensiyanın federal və ya mərkəzi qanunvericilik hakimiyyətinin hüquqi yurisdiksiyası ilə həyata keçirilən müddəalarına münasibətdə, federal və ya mərkəzi hökumətin öhdəlikləri federal dövlət olmayan Tərəflərin hökumətlərinin öhdəlikləri ilə eyni olacaq;

(b) bu Konvensiyanın, federasiyanın konstitusiya sisteminin qanunvericilik tədbirləri görməsini tələb etmədiyi ştat, qraflıq, əyalət və ya kanton kimi federasiya subyektlərinin yurisdiksiyası ilə həyata keçirilən müddəalarına gəldikdə, federal hökumət, lazım gəldikdə, ştat, qraflıq, əyalət və ya kanton kimi federasiya subyektlərini qeyd edilən müddəalar barədə məlumatlandırır və onların qəbul olunması üçün tövsiyələr verir.

**Maddə 31.**
**Denonsasiya**

1. Bu Konvensiyanın istənilən Tərəfi onu denonsasiya edə bilər.
2. Denonsasiya barədə YUNESKO-nun Baş direktoruna yazılı sənəd göndərməklə məlumat verilir.
3. Denonsasiya, denonsasiya haqqında sənədin alınmasından 12 ay sonra qüvvəyə minir. Denonsasiya, denonsasiya edən Tərəfin denonsasiyanın qüvvəyə mindiyi günə qədər olan maliyyə öhdəliklərinə heç bir halda təsir etmir.

**Maddə 32.**
**Depozitarinin funksiyaları**

Bu Konvensiyanın depozitarisi kimi YUNESKO-nun Baş direktoru təşkilatın üzvü olan dövlətləri, 27-ci maddədə göstərilən təşkilatın üzvü olmayan dövlətləri və regional iqtisadi inteqrasiya təşkilatlarını, həmçinin Birləşmiş Millətlər Təşkilatını 26-cı və 27-ci maddələrdə qeyd edilən ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədlərinin və 31-ci maddədə göstərilən denonsasiya sənədinin depozitariyə verilməsi barədə məlumatlandırır.

**Maddə 33.**
**Düzəlişlər**

1. Bu Konvensiyanın istənilən Tərəfi Baş direktora yazılı şəkildə müraciət edərək, Konvensiyaya düzəlişlər təklif edə bilər. Baş direktor bu müraciəti bütün Tərəflərə göndərir. Əgər müraciətin göndərilməsindən altı ay ərzində Tərəflərin ən azı yarısı bu müraciətə müsbət cavab verərsə, Baş direktor bu təklifi onun müzakirə edilib qəbul olunması üçün Tərəflərin Konfransının növbəti sessiyasına təqdim edir.
2. Düzəlişlər iştirak edən və səs verən Tərəflərin üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul olunur.
3. Qəbul olunduqdan sonra düzəlişlər ratifikasiya, qəbul, təsdiq və ya qoşulma üçün Tərəflərə təqdim edilir.
4. Bu Konvensiyaya edilmiş düzəlişləri ratifikasiya, qəbul etmiş və ya təsdiq etmiş, yaxud onlara qoşulmuş Tərəflər üçün belə düzəlişlər bu maddənin 3-cü bəndində qeyd olunan sənədlərin Tərəflərin üçdə iki hissəsi tərəfindən depozitariyə verilməsindən üç ay

sonra qüvvəyə minir. Düzəlişləri bundan sonra ratifikasiya, qəbul və ya təsdiq edən, yaxud onlara qoşulan Tərəflər üçün sözügedən düzəlişlər həmin Tərəflərin ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədlərini depozitariyə verməsindən üç ay sonra qüvvəyə minir.

5. 3-cü və 4-cü bəndlərdə göstərilən prosedur Hökumətlərarası Komitənin üzvlərinin sayı barəsindəki 23-cü maddəyə edilən düzəlişlərə tətbiq olunmur. Bu düzəlişlər qəbul edildiyi tarixdən qüvvəyə minir.

6. 27-ci maddədə göstərilən və dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı, bu Konvensiyanın Tərəfi olan dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı digər niyyət ifadə edilmədikdə:

(a) düzəliş olunmuş Konvensiyanın Tərəfi; və

(b) düzəlişləri qəbul etməyən istənilən Tərəfə münasibətdə, düzəliş olunmamış Konvensiyanın Tərəfi hesab edilir.

**Maddə 34.**
**Autentik mətnlər**

Bu Konvensiya Çin, ərəb, fransız, ingilis, ispan və rus dillərində tərtib edilmişdir və hər altı mətn eyni qüvvəyə malikdir.

**Maddə 35.**
**Qeydiyyat**

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, bu Konvensiya YUNESKO-nun Baş direktorunun müraciətinə əsasən Birləşmiş Millətlər Təşkilatının Katibliyi tərəfindən qeydiyyata alınır.

***ƏLAVƏ***

**Barışıq proseduru**

**Maddə 1.**
**Barışıq Komissiyası**

Barışıq Komissiyası mübahisədə iştirak edən Tərəflərdən birinin müraciəti ilə yaradılır. Əgər Tərəflər başqa cür razılığa gəlməsələr, Komissiya beş üzvdən ibarət olur, hər bir maraqlı Tərəfdən iki üzv təyin edilir və bu üzvlər ümumi razılıq əsasında Komissiyanın Sədrini seçirlər.

**Maddə 2.**
**Komissiyasının üzvləri**

İkidən çox Tərəf arasında yaranan mübahisələrdə eyni maraq güdən Tərəflər ümumi razılıq əsasında Komissiyaya öz üzvlərini təyin edirlər. Əgər iki və ya daha çox Tərəfin ayrı-ayrı maraqları varsa, yaxud onlar arasında maraqlarının eyni olub-olmamasına dair fikir ayrılığı varsa, onlar öz üzvlərini ayrı-ayrılıqda təyin edirlər.

**Maddə 3.**
**Təyinatlar**

Əgər Tərəflər Barışıq Komissiyasının yaradılmasına dair müraciətdən sonra iki ay ərzində Komissiyanın bütün üzvlərini təyin etməsələr, YUNESKO-nun Baş direktoru, əgər bununla bağlı Tərəflərdən biri müraciət etsə, sonrakı iki ay ərzində lazımi təyinatları həyata keçirir.

**Maddə 4.**
**Komissiyanın Sədri**

Əgər Barışıq Komissiyasının Sədri Komissiyanın son üzvünün təyin olunmasından sonra iki ay ərzində seçilməzsə, YUNESKO-nun Baş direktoru, əgər bununla bağlı Tərəflərdən biri müraciət etsə, sonrakı iki ay ərzində Sədri təyin edir.

**Maddə 5.**
**Qərarlar**

Barışıq Komissiyası öz qərarlarını üzvlərinin səs çoxluğu ilə qəbul edir. Tərəflər başqa cür razılığa gəlmədikləri təqdirdə, Komissiya öz prosedurunu özü müəyyən edir. O, mübahisənin həlli üçün Tərəflərin vicdanla yerinə yetirəcəyi təklifləri təqdim edir.

**Maddə 6.**
**Fikir ayrılığı**

Barışıq Komissiyasının səlahiyyəti ilə bağlı fikir ayrılığı Komissiya tərəfindən həll edilir.

## "MƏDƏNİ ÖZÜNÜİFADƏ MÜXTƏLİFLİYİNİN QORUNMASI VƏ TƏŞVİQİ HAQQINDA KONVENSİYA"YA QOŞULMA İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ BƏYANATLARI

"Azərbaycan Respublikası Konvensiyanın 25-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq bəyan edir ki, o, Konvensiyanın 25-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan barışdırma prosedurunu tanımır".

"Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərdə (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində işğalın baş verdiyi tarixdən etibarən mədəni özünüifadələrin dağıdılmasına görə bütün məsuliyyət Azərbaycan Respublikasının işğal olunmuş əraziləri işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək işğalçı Ermənistan Respublikasının üzərinə düşür".

## “AVROPANIN MEMARLIQ İRSİNİN QORUNMASI HAQQINDA” KONVENSİYANIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Avropanın memarlıq irsinin qorunması haqqında” 1985-ci il oktyabrın 3-də Qranada şəhərində imzalanmış Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatı ilə birlikdə təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 noyabr 2009-cu il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 365; 2005-ci il, № 4, maddə 278; 2007-ci il, № 11, maddə 1072) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 1-ci maddəyə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

“Azərbaycan Respublikasının dövlət sərhədinin sərhədboyu zona və sərhədboyu zolaqlarında, silahlı münaqişələr zamanı döyüş əməliyyatları zonalarında, hərbi qurumların ərazilərində istifadəsində olan torpaq sahələrində yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.”.

2. 1-ci, 7-ci, 13-cü, 14-cü, 20-ci, 21-ci maddələrin mətnində və 5-ci maddənin adında və mətnində “Elmlər” sözündən əvvəl “Milli” sözü əlavə edilsin.

3. 4-cü maddədə:

3.1. ikinci hissədə “və onların ayrı-ayrı hissələri” sözləri “ , onların ayrı-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarlıq abidələri” sözləri ilə əvəz edilsin;

3.2. üçüncü-yeddinci hissələr müvafiq olaraq dördüncü-səkkizinci hissələr hesab edilsin və maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Mühəndis kommunikasiyaları, müdafiə obyektləri, şəhərsalma, dini və xatirə abidələri, hidrotexniki qurğular istisna olmaqla, yerli əhəmiyyətli memarlıq abidələri qanunvericiliyə uyğun olaraq özəlləşdirilə bilər.”;

3.3. dördüncü hissədə “yaşayış binalarının və onların ayrı-ayrı hissələrinin” sözləri “yerli əhəmiyyətli memarlıq abidələrinin” sözləri ilə əvəz edilsin.

4. 5-ci maddədə:

4.1. birinci hissədə “maddi-mədəniyyət qalıqlarında” sözləri “arxeoloji qazıntılar zamanı aşkar olunmuş daşınar maddi-mədəniyyət qalıqlarında müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında” sözləri ilə əvəz edilsin;

4.2. ikinci hissədə “bərpa” sözü “üzərində aparılacaq işlərin” sözləri ilə əvəz edilsin.

5. 11-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Mülkiyyətində və ya istifadəsində abidələr olan fiziki və hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanı ilə həmin abidələrin qorunmasına dair mühafizə müqaviləsi bağlamalıdırlar və həmin abidələrin salamatlığına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.”.

6. 12-ci maddənin birinci hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Qoruq sərhədi daxilində və mühafizə zonalarında abidələr üçün təhlükə yarada biləcək hər hansı işlər müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qabaqlayıcı tədbirlər görülməklə həyata keçirilə bilər.”.

7. 13-cü maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Bu halda inşaat və digər təsərrüfat işləri Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə davam etdirilə bilər.”.

8. 14-cü maddənin birinci hissəsində “çəkilişi” sözündən sonra “və digər inşaat işləri” sözləri əlavə edilsin.

9. 18-ci maddənin üçüncü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müstəsna hallarda qoruqların ərazisi və yerli əhəmiyyətli memarlıq abidələri Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında qanunvericiliyə uyğun olaraq hərbi hissələrin təsərrüfat və mədəni məqsədləri üçün istifadəsinə verilə bilər.”.

10. 19-cu maddədə:

10.1. birinci hissədən “və ölkə” sözləri çıxarılsın;

10.2. ikinci hissədə “yerli” sözündən əvvəl “ölkə və” sözləri, “hissələri” sözündən sonra “(arxeoloji abidələr istisna olmaqla)” sözləri, “turizm məqsədləri üçün” sözlərindən sonra “onların istifadə proqramı, uyğunlaşdırma və bərpa layihələri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırıldıqdan sonra ” sözləri əlavə edilsin.

11. 20-ci maddədə:

11.1. birinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Arxeoloji qazıntı işləri müvafiq icra hakimiyyəti orqanının nəzarəti ilə aparılır.”;

11.2. ikinci hissədə “hesabat” sözündən sonra “və aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının siyahısı” sözləri əlavə edilsin.

12. 23-cü maddənin mətni birinci hissə hesab olunsun və maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Abidələrin qoruq zonasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi rejim tətbiq edilir.”.

13. 25-ci maddənin üçüncü hissəsinin ikinci cümləsi çıxarılsın və maddəyə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

“Abidələrin üzərində bərpa, konservasiya, təmir, rekonstruksiya, regenerasiya və digər işlər onların layihələri Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edildikdən sonra aparılır.”.

14. 26-cı maddənin birinci hissəsində “müəllifinin (müəlliflərinin)” sözlərindən sonra “ və müvafiq icra hakimiyyəti orqanının” sözləri əlavə edilsin.

15. 27-ci maddədə:

15.1. ikinci hissədə “gətirmədən” sözündən sonra “Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında abadlıq və” sözləri əlavə edilsin;

15.2. üçüncü hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Bu sənədlərin bir nüsxəsi hesabatla birlikdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilməlidir.”.

16. 32-ci maddənin ikinci hissəsində “dünya və ölkə” sözləri “dünya, ölkə və yerli” sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 fevral 2010-cu il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNİN TƏSİSİ VƏ FƏALİYYƏT ŞƏRTLƏRİ HAQQINDA” SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır :

“Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında” 2009-cu il dekabrın 9-da Paris şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 mart 2010-cu il***

## “AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndinə əsasən **qərara alır:**

“Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 8, maddə 406; 2009-cu il, № 12, maddə 971) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.3-cü maddədə “kommersiya məqsədi ilə ənənəvi və adi olmayan istifadə hallarında” sözləri “istifadəyə dair” sözləri ilə əvəz edilsin.

2. 6.2-ci maddədən “kommersiya məqsədi ilə” sözləri çıxarılsın.

3. aşağıdakı məzmunda 6.3-cü və 6.4-cü maddələr əlavə edilsin:

“6.3. Digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında və istifadəyə görə haqq ödəməklə istifadə edə bilərlər. Həmin vəsait müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür və əqli yaradıcılığın həvəsləndirilməsinə, habelə folklor nümunələrinin qorunub saxlanmasına və zənginləşdirilməsinə sərf olunur.

6.4. Digər dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi qaydasını və istifadəyə görə haqqın məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.”.

4. 9.2-ci maddədə “dövlət büdcəsinə köçürülür və intellektual” sözləri “müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür və əqli” sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 may 2011-ci il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq qərara alır:

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168) 7-ci maddəsinin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

“Təsdiqlənmiş siyahıdan abidənin çıxarılması müvafiq icra hakimiyyəti orqanının təklifi əsasında, Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 oktyabr 2012-ci il***

## TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq q ə r a r a a l ı r :

2012-ci il avqustun 23-də Bişkek şəhərində imzalanmış Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 dekabr 2012-ci il***

## TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN N İ Z A M N A M Ə S İ

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası və Türkiyə Respublikasının hökumətləri,

Xalqları arasında tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq,

Türkdilli xalqların mədəni irsinin qorunması və inkişaf etdirilməsi ilə əlaqədar fəaliyyətin həyata keçirilməsini vacib hesab edərək,

Türkdilli xalqların tarixi-mədəni əlaqələrinin gücləndirilməsinin, ikitərəfli və çoxtərəfli əməkdaşlığının dərinləşdirilməsinin əhəmiyyətini qeyd edərək,

3 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması barədə qərarın qəbul edildiyini, 16 sentyabr 2010-cu ildə İstanbul şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısında dəstəkləndiyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1. **Türk Mədəniyyəti və İrsi Fondu**

Bununla, Tərəflər beynəlxalq təşkilat - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (bundan sonra "Türk Şurası" adlanacaq) yanında Türk Mədəniyyəti və İrsi Fondunu (bundan sonra "Fond" adlanacaq) yaradırlar.

Maddə 2. **Fondun məqsədləri**

Fond türk mədəniyyəti və irsini fəaliyyət, layihə və proqramların dəstəklənməsi və maliyyələşdirilməsi vasitəsi ilə qoruyur, öyrənir və təşviq edir.

Maddə 3. **Fondun vəzifələri**

Göstərilən məqsədə nail olmaq üçün Fond:

- türk mədəniyyəti və irsinin mühafizəsi, qorunması, bərpa edilməsi və təşviqi üçün vəsait ayırır;
- türk mədəniyyəti və irsinin qorunması, bərpa edilməsi və təşviqi üçün elmi və texniki problemlərin həllinə kömək edir;
- türk mədəniyyəti və irsinin qorunması, bərpa edilməsi və təşviqi sahəsində mütəxəssislərin hazırlanmasına dəstək verir;
- seminarların, təlimlərin, konfransların, konqreslərin və sahə araşdırmalarının, o cümlədən sərgilərin təşkilinə kömək edir;
- elektron və çap formatda dövri elmi məcmuə və elmi nəşrlərin hazırlanmasına kömək edir;
- müsabiqə, festival, turnirlərin və s. keçirilməsinə yardım göstərir;
- türkdilli xalqların məskunlaşdığı ərazilərdə ənənəvi sənətlərin, tətbiqi incəsənətin dirçəldilməsi, dəstəklənməsi və inkişaf etdirilməsinə kömək edir;
- sənətkarlara, rəssamlara və digər yaradıcı incəsənət işçilərinə əqli mülkiyyət hüquqlarının müdafiə olunmasında yardım göstərir.

Maddə 4. **Fondun strukturu**

**1. Fondun Şurası**

Şura hər Tərəfdən bir nümayəndə olmaqla təşkil olunan nəzarət orqanıdır. Şura Fondun fəaliyyətinin nizamnamə məqsədlərinə uyğun şəkildə həyata keçirilməsinə, həmçinin qəbul edilən qərarların icra edilməsinə nəzarət edir.

**2. Prezident**

Prezident Fondun rəhbəridir. Ona vəzifələrini icra etməkdə Katiblik yardım edir.

Fondun Prezidenti Fondun Şurasının təklifi əsasında Tərəflərin rəsmi adlarının ingilis əlifbası ardıcıllığı üzrə rotasiya qaydasında Tərəflərin vətəndaşları arasından Türk Şurasının Dövlət Başçıları Şurası (bundan sonra "DBŞ" adlanacaq) tərəfindən növbəti müddətə uzadılma imkanı ilə dörd il müddətinə təyin edilir.

İlk Prezident Azərbaycan Respublikası vətəndaşları arasından təyin ediləcəkdir.

Katiblik Tərəflərin vətəndaşlarından ibarət olacaq və Fondun Prezidenti tərəfindən təyin olunacaqdır.

Tərəflər Fondun Prezidentinin öhdəliklərinin beynəlxalq xarakterinə hörmət etməlidir.

Fondun yerləşmə yeri Azərbaycan Respublikasının Bakı şəhəridir.

Fondun Prezidenti Azərbaycan Respublikası Hökuməti ilə yerləşmə ölkəsi haqqında saziş bağlayacaqdır.

Fond hər bir Tərəfin ərazisində Fondun məqsəd və vəzifələrinin həyata keçirilməsi üçün zəruri olan hüquq qabiliyyətinə malikdir.

Maddə 5. **Prosedur qaydaları**

Fondun Şurası Fondun Prosedur qaydalarını Tərəflərin razılığı ilə qəbul edəcəkdir.

Maddə 6. **Maliyyələşdirmə**

Büdcə Fondun Prezidenti tərəfindən hazırlanır və Türk Şurasının Xarici İşlər Nazirləri Şurası (bundan sonra "XİNŞ" adlanacaq) tərəfindən təsdiq edilir.

Tərəflərin etdiyi məcburi ödənişlərin bölgüsü, onların ödəmə qabiliyyəti və BMT-yə etdikləri ödənişlərin tətbiq olunan cədvəli və oxşar regional təşkilatlara etdikləri ödənişləri nəzərə alınaraq XİNŞ tərəfindən müəyyən edilir. Buna baxmayaraq, yerləşmə ölkəsinin payı digər Tərəflərin payından az olmamalıdır.

Növbəti maliyyə ili üçün xərclər smetasının layihəsi cari ilin birinci yarısında XİNŞ tərəfindən təsdiq olunması məqsədilə Fondun Prezidenti tərəfindən hazırlanacaq və bütün tərəflərə göndəriləcəkdir.

Məcburi ödənişlərin bölgüsü ayrıca protokolla müəyyən ediləcəkdir.

Fonda könüllü ödəmələr məhdudiyyətsizdir.

Maddə 7. **İşçi dillər**

Fondun işçi dilləri Tərəflərin rəsmi/dövlət dilləri və ingilis dilidir.

Maddə 8. **TÜRKSOY ilə əməkdaşlıq**

Fond öz fəaliyyətini TÜRKSOY ilə əməkdaşlıq etməklə həyata keçirir.

Maddə 9. **Tərəqqi hesabatı**

Fondun Prezidenti Fondun fəaliyyəti haqqında tərəqqi hesabatı hazırlayır və onu Türk Şurasının Baş katibi vasitəsilə DBŞ-ə təqdim edir.

Maddə 10. **Fikir ayrılıqlarının həlli**

Hazırkı Nizamnamənin təfsiri və ya tətbiqi ilə əlaqədar fikir ayrılığı yarandığı təqdirdə Tərəflər onları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 11. **Dəyişikliklər və əlavələr**

Hazırkı Nizamnaməyə Tərəflərin qarşılıqlı razılığı ilə hazırkı Nizamnamənin ayrılmaz tərkib hissəsi olan və 12-ci maddədə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 12. **Fəaliyyət müddəti, qüvvəyə minmə və qoşulma**

Bu Nizamnamə qeyri-müəyyən müddətdə qüvvədə olacaqdır və qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə üçüncü yazılı bildirişin depozitari tərəfindən alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Bu Nizamnamə digər imza edən Tərəflər üçün ratifikasiya sənədi depozitari tərəfindən alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Bu Nizamnamə onun qüvvəyə minməsindən sonra türkdilli dövlətlərin qoşulması üçün açıqdır.

Qoşulan dövlət üçün bu Nizamnamə qoşulma sənədinin depozitari tərəfindən alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Maddə 13. **Çıxma**

Tərəflərdən biri bu Nizamnamədən çıxmağa qərar verərsə, Nizamnamə yalnız həmin tərəf üçün hüquqi qüvvəsini itirir. Çıxma, depozitarinin Nizamnamədən çıxmaq istəyən Tərəfdən diplomatik kanallar vasitəsilə yazılı bildirişi aldığı tarixdən altı ay sonra qüvvəyə minir.

Nizamnamədən çıxan Tərəf Fondun əmlakı üzərində hüquqlarını itirmiş hesab olunur.

Maddə 14. **Depozitari**

Hazırkı Nizamnamənin depozitarisi Azərbaycan Respublikasıdır.

23 avqust 2012-ci ildə Bişkek şəhərində, bir əsl nüsxədə Azərbaycan, qazax, qırğız, türk və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Hazırkı Nizamnamənin təfsiri ilə əlaqədar fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətnə müraciət ediləcəkdir.

Hazırkı Nizamnamənin əsl nüsxəsi Depozitaridə saxlanılacaqdır və Depozitari hər imzaçı Tərəfə Nizamnamənin təsdiqlənmiş nüsxəsini göndərəcəkdir.

**Azərbaycan Respublikası Hökuməti adından**

**Qazaxıstan Respublikası Hökuməti adından**

**Qırğız Respublikası Hökuməti adından**

**Türkiyə Respublikası Hökuməti adından**

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİ SƏRVƏTLƏRİN TALANMASI İLƏ MÜBARİZƏ VƏ ONLARIN GERİ QAYTARILMASININ TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA” SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq q ə r a r a a l ı r:

“Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında mədəni sərvətlərin talanması ilə mübarizə və onların geri qaytarılmasının təmin edilməsi sahəsində əməkdaşlıq haqqında” 2012-ci il avqustun 28-də Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 dekabr 2012-ci il***

## MƏDƏNİYYƏT HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edir, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyir.

### 1-Cİ FƏSİL
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. mədəniyyət – ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusu;

1.0.2. mədəniyyət fəaliyyəti (mədəniyyət sahəsində fəaliyyət) – mədəni sərvətlərinin yaradılması, yayılması, qorunması, bərpası, mənimsənilməsi və təşviqi, həmçinin mədəniyyət xidmətlərinin göstərilməsi və təşkili sahəsində fəaliyyət;

1.0.3. mədəniyyət sahəsində dövlət siyasəti – mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması, inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu;

1.0.4. mədəniyyət məhsulları – kommersiya dəyərindən asılı olmayaraq, səciyyəvi xüsusiyyətləri, istifadə növləri və ya məqsədləri baxımından mədəni özünüifadə formalarını ehtiva edən insan fəaliyyətinin nəticələri;

1.0.5. mədəniyyət xidmətləri – şəxslərin mədəni-mənəvi-estetik ehtiyaclarının ödənilməsi məqsədilə göstərilən xidmətlər və yaradılan şərait;

1.0.6. mədəniyyət məkanı – mədəni sərvətlərin və ənənələrin yaranma və yayılma dairəsi;

1.0.7. mədəni məzmun – mədəni özünəməxsusluqdan yaranan və ifadə olunan ənənələr və mədəni dəyərlər;

1.0.8. mədəniyyət sənayesi – mədəniyyət məhsullarının və xidmətlərinin istehsalını və realizə edilməsini təmin edən fəaliyyət sahəsi;

1.0.9. bədii dəyər – bədii yaradıcılıq fəaliyyətinin nəticəsi olan mədəniyyət, ədəbiyyat və incəsənət əsərlərinin estetik əhəmiyyətini formalaşdıran xüsusiyyətlər;

1.0.10. milli mədəni irs – Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu;

1.0.11. qeyri-maddi mədəni irs – şəxslərin, qrupların və cəmiyyətin özünün mədəni irs nümunələri kimi qəbul etdikləri ənənələr, təsvir və ifadə formaları, bilik və bacarıqlar, onların yaradılmasında istifadə olunan alətlər, əşyalar, artefaktlar və mədəniyyət məkanları;

1.0.12. maddi mədəni irs – daşınmaz və daşınar mədəni irs;

1.0.13. daşınmaz mədəni irs – daşınmaz arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar;

1.0.14. daşınar mədəni irs – tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusu;

1.0.15. mədəni irs nümunələri – özündə bir xalqın, milli azlığın maddi və qeyri-maddi mədəni irs nümunələrini əks etdirən mədəni sərvətlərin məcmusu. Bura yeraltı, yerüstü və sualtı mədəni irs nümunələri aiddir;

1.0.16. sualtı mədəni irs – insan varlığının bütövlükdə və ya qismən, daimi və ya vaxtaşırı su altında qalan mədəni, tarixi və ya arxeoloji izləri;

1.0.17. təbii irs – universal dəyərə malik fiziki və bioloji birləşmələrdən ibarət təbiət abidələri, geoloji və fizioqrafik birləşmələr, heyvan və bitki arealı olan zonalar, təbii zonalar,

1.0.18. dekorativ-tətbiqi sənət – müxtəlif məmulatlar üzərində bədii əsərlərin yaradılmasına yönəlmiş maddi mədəni irs yaradıcılığı sahəsi;

1.0.19. mədəni özünüifadə müxtəlifliyi (mədəni müxtəliflik) – ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı, qruplar və cəmiyyətlər arasında və onların daxilində ötürülən müxtəlif formalar. Mədəni müxtəliflik yalnız dünya mədəni irsinin ifadə olunduğu, artırıldığı və ötürüldüyü müxtəlif mədəni özünüifadə vasitələrinin tətbiqi ilə deyil, həmçinin hansı vəsaitlərdən və texnologiyalardan istifadə edilməsindən asılı olmayaraq, bədii yaradıcılığın müxtəlif növlərinin, mədəni özünüifadə məhsullarının istehsalının, yayılmasının və onlara yiyələnmənin köməyi ilə meydana gəlir;

1.0.20. mədəni özünüifadə – ayrı-ayrı şəxslərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan ifadə forması;

1.0.21. mədəni sərvətlər – mənəvi və estetik ideallar, əxlaq normaları və nümunələri, dillər, dialektlər və ləhcələr, milli adət və ənənələr, tarixi toponimlər, folklor, bədii sənət və peşələr, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət əsərləri, nəşriyyat məhsulları, mədəniyyət sahəsində elmi tədqiqatların nəticələri və metodları, tarixi-mədəni əhəmiyyətə malik binalar, tikililər, əşyalar, tarixi-mədəni əhəmiyyətli unikal təbii ərazilər və obyektlər, məqbərələr, qoruqlar, arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;

1.0.22. milli kulinariya nümunələri – bir millətin mədəniyyətinə məxsus texnoloji, forma, naxış, əşya, avadanlıq və resept komplekslərini özündə birləşdirən ərzaq, içki və qida məhsullarının hazırlanmasına yönəlmiş insan fəaliyyətinin nəticələri;

1.0.23. sosial əhəmiyyətli tədbirlər – mədəniyyət günləri, festivallar, baxış, müsabiqə, təqdimat, yubiley və xatirə tədbirləri, eləcə də mədəniyyət və incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə keçirilən mədəniyyət tədbirləri;

1.0.24. yaradıcılıq fəaliyyəti – mədəni sərvətlərin yaradılmasına yönəlmiş fəaliyyət;

1.0.25. yaradıcı şəxs – mədəni sərvətlərin yaradılması, o cümlədən mədəniyyət sahəsində pedaqoji və ya elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

**Maddə 2. Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

## 2-Cİ FƏSİL
## MƏDƏNİYYƏT SİYASƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**Maddə 3. Mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri**

3.1. Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

3.2. Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

3.2.1. dövlət mədəniyyət sisteminin idarə olunması və bu sahədə fəaliyyətin əlaqələndirilməsi;

3.2.2. mədəniyyət sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərin, dövlət, özəl və bələdiyyə mədəniyyət təsisatlarının hüquqlarının qorunması və yaradıcılıq fəaliyyətinin həyata keçirilməsinin təmin edilməsi;

3.2.3. mədəniyyət sahəsində ixtisaslı kadrların hazırlanması və onların peşəkarlıq səviyyəsinin artırılması;

3.2.4. mədəni sərvətlərin qorunması və artırılması;

3.2.5. mədəniyyət fəaliyyəti subyektlərinin sosial müdafiəsi və görkəmli mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi;

3.2.6. milli mədəniyyətin müasir dünya mədəniyyətindən bəhrələnməsinə, milli ənənələrin inkişafına, əhalinin mənəvi tələbatının ödənilməsinə xidmət edən mədəniyyət əsərlərinin yaradılmasının stimullaşdırılması;

3.2.7. milli mədəni irsin müəyyən edilməsi, sistemləşdirilməsi və inkişafı;

3.2.8. milli mədəni irs nümunələrinin və mədəniyyət obyektlərinin yaradılması, qorunması və təşviqi;

3.2.9. milli mədəni irsin inkişafının maliyyə mənbələri ilə təmin edilməsi;

3.2.10. dünya mədəni irsi sahəsində maarifləndirilmənin aparılması;

3.2.11. şəxslər, dövlət orqanları, bələdiyyələr və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın qurulmasının və inkişafının təmin edilməsi;

3.2.12. mədəni, ekoloji, bioloji və idman turizminin inkişaf etdirilməsi və təşviqi;

3.2.13. mədəniyyət sahəsində avtomatlaşdırmanın və ən qabaqcıl rabitə, informasiya, elektron idarəetmə və kommunikasiya texnologiyalarının tətbiq olunması və inkişafı;

3.2.14. mədəniyyətlərarası dialoqun qurulmasının təmin edilməsi və təşviqi;

3.2.15. mədəniyyət, o cümlədən əyləncə sənayesinin inkişaf etdirilməsi, mədəniyyətin müxtəlif formalarının rəqabətə davamlılığının dəstəklənməsi;

3.2.16. mədəniyyət sahəsində inhisarçılığın qarşısının alınması.

**Maddə 4. Mədəniyyət sahəsində dövlət siyasətinin prinsipləri**

4.0. Mədəniyyət sahəsində dövlət siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

4.0.1. tarazlılıq – mədəniyyət sənayesi ilə mədəniyyət məhsullarının və xidmətlərinin bazarları arasında balansın yaradılması, mədəniyyət cəmiyyətlərinin fəaliyyətinin inkişafının təmin edilməsi;

4.0.2. bərabərlik – hər kəsin öz mədəniyyət və yaradıcılıq hüquqlarının və imkanlarının bərabər şərtlər əsasında həyata keçirilməsinin təmin olunması;

4.0.3. demokratiklik – əhalinin azad düşüncə ruhunda tərbiyələndirilməsi, mədəniyyət sahəsinin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində hüquq və azadlıqların genişləndirilməsi, estetik düşüncə azadlığının təmin edilməsi, yeni mədəniyyət təşkilatlarının yaradılmasının stimullaşdırılması;

4.0.4. humanistlik – dünyəvi dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin prioritet kimi qəbul olunması;

4.0.5. inteqrasiya – dünya mədəniyyətindən təcrid olunmamaqla, dünya mədəniyyətinin universal dəyərlərini qəbul edərək, milli mədəniyyətin dünyada tanıdılması, zənginləşdirilməsi və inkişafının təmin edilməsi;

4.0.6. keyfiyyətlilik – mədəniyyət sahəsində məhsulların və xidmətlərin ən qabaqcıl standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğunun təmin olunması;

4.0.7. dünyəvilik – dünyəvi dəyərlərin yaradılması, qorunması və inkişafının təmin olunması;

4.0.8. səmərəlilik – mədəniyyət sahəsində yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkil edilməsi;

4.0.9. varislik – mədəni sərvətlərin, bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsi;

4.0.10. istedad amili – fitri istedada malik şəxslərin yaradıcılıq nailiyyətlərinin artmasına xüsusi qayğının göstərilməsi.

**Maddə 5. Mədəniyyət sahəsində dövlətin vəzifələri**

5.1. Mədəniyyət sahəsində dövlətin vəzifələri aşağıdakılardan ibarətdir:

5.1.1. mədəniyyət sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, o cümlədən sahə üzrə normativ hüquqi aktların və standartların, dövlət proqramlarının, tədbirlər planlarının, strategiyaların və konsepsiyaların qəbul edilməsi;

5.1.2. milli mədəniyyətin bərpa edilməsi, qorunması, inkişafı və təşviqinə yönəlmiş tədbirlərin görülməsi;

5.1.3. insanların Azərbaycan və dünya mədəniyyət nümunələrinə və mədəni sərvətlərə sərbəst yiyələnmələri üçün sosial əhəmiyyətli tədbirlərin təşkili;

5.1.4. istedadlı şəxslərin peşəkar inkişafına dəstəyin göstərilməsi;

5.1.5. mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinə şərait yaradılması;

5.1.6. beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyətinin təqdim edilməsi və təşviqini təmin edən tədbirlərin görülməsi;

5.1.7. mədəniyyət fəaliyyətində beynəlxalq təşkilatların, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, o cümlədən qeyri-kommersiya qurumlarının iştirakının dəstəklənməsi;

5.1.8. milli mədəniyyət obyektlərinin təsnifatının təsdiqi;

5.1.9. mədəniyyət sahəsində dövlət reyestrinin aparılması;

5.1.10. mədəniyyət sahəsinin inkişafında xidmətlərə və töhfələrə görə mədəniyyət işçilərinə və yaradıcı şəxslərə həvəsləndirmə tədbirlərinin təşkili;

5.1.11. milli mədəniyyətin bütün sahələrində zəruri infrastrukturun, şəraitin, maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi;

5.1.12. xarici dövlətlərin mədəniyyət tədbirlərinin keçirilməsinə müvafiq dəstəyin göstərilməsi;

5.1.13. xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin yaradılması, inkişafı və fəaliyyətlərinin əlaqələndirilməsi;

5.1.14. xarici dövlətlərdə Azərbaycan mədəniyyəti tədbirlərinin keçirilməsi;

5.1.15. mədəniyyətin inkişafı istiqamətində digər tədbirlərin həyata keçirilməsi.

5.2. Mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyən edilməsi və onun əsasında məqsədyönlü layihələrin, dövlət proqramlarının, strategiyaların

və tədbirlər planlarının qəbul edilməsi və icrasına nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Mədəniyyət sahəsində tədbirlərin hazırlanması və icrası işi mədəniyyət sahəsində fəaliyyət göstərən şəxslərlə əməkdaşlıq şəraitində həyata keçirilir.

5.3. Mədəniyyət sahəsində dövlətin vəzifələri aşağıdakı fəaliyyət sahələrini əhatə edir:

5.3.1. mədəni irs – maddi və qeyri-maddi mədəni irs;

5.3.2. incəsənət fəaliyyəti;

5.3.3. mədəniyyət sənayesi (kinematoqrafiya, nəşriyyat, o cümlədən elektron nəşriyyat işi, memarlıq və dizayn, multimedia, kulinariya və reklam);

5.3.4. mədəniyyət xidmətləri (muzeylərin, tarix və mədəniyyət əhəmiyyətli parkların və qoruqların fəaliyyəti);

5.3.5. xalq yaradıcılığı.

## 3-CÜ FƏSİL
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARI

**Maddə 6. Hüquq və azadlıqların təminatı**

6.1. Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir.

6.2. Dövlət cinsindən, irqindən, dilindən, dini və siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, sosial mənşəyindən, sağlamlıq imkanlarından, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin mədəniyyət sahəsində öz hüquq və azadlıqlarını həyata keçirməsinə təminat verir.

6.3. Mədəniyyət sahəsində dövlət tərəfindən aşağıdakı bərabərliklər təmin edilir:

6.3.1. dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların mədəniyyətlərinin, hüquq və azadlıqlarının bərabərliyi;

6.3.2. dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların öz mədəniyyətlərini qorumaq, öz mədəniyyət kimliklərini müəyyən etmək, mədəni sərvətlərini bərpa etmək, gücləndirmək və inkişaf etdirmək bərabərliyi.

**Maddə 7. Mədəni həyatda iştirak etmək hüququ**

7.1. Azərbaycan Respublikasında mədəni həyatda iştirak etmək hüququ dövlət tərəfindən təmin edilir.

7.2. Hər kəs öz mədəniyyət kimliyini və ona uyğun həyat tərzini müəyyən etməkdə, yaradıcılıq fəaliyyətini seçməkdə, mədəni sərvətlərin yaradılmasında, mədəni nemətlərdən bərabər istifadə etməkdə tam sərbəstdir.

**Maddə 8. Mədəni özünəməxsusluq hüququ**

8.1. Hər kəsin öz milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mədəniyyət kimliyini müəyyən etmək, mənəvi, estetik və digər dəyərlərini sərbəst seçmək hüququ vardır.

8.2. Mədəniyyət cəmiyyətləri öz mədəni özünəməxsusluğunu təbliğ etmək və inkişaf etdirmək və öz tarixi mədəniyyət məkanlarını bərpa etmək hüququna malikdir.

8.3. Dövlət istənilən mədəniyyət cəmiyyətinin özünəməxsusluğunun qorunmasına və inkişafına dəstək göstərir.

**Maddə 9. Yaradıcılıq azadlığı**

Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinin I hissəsinə uyğun olaraq hər kəsin yaradıcılıq azadlığı vardır. Azərbaycan Respublikasında istənilən şəxs öz

maraqlarına və bacarıqlarına uyğun peşəkar əsasda və azad yaradıcılıq (həvəskar) əsasında istənilən yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq özünün yaradıcılıq
fəaliyyətinin nəticələrini müəlliflik hüququ ilə qorumaq, mədəni sərvətləri nümayiş etdirmək, bu Qanunun tələbləri nəzərə alınmaqla, mülkiyyətində olan mədəni sərvətləri satmaq, bağışlamaq, habelə həmin məqsədlər üçün xarici ölkələrə aparmaq hüququna malikdir.

**Maddə 10. Xaricdə mədəniyyət fəaliyyəti hüququ**

10.1. Azərbaycan Respublikasının vətəndaşları bu Qanuna və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xaricdə mədəniyyət fəaliyyəti ilə məşğul ola bilərlər.

10.2. Azərbaycan Respublikası öz vətəndaşlarının xaricdə mədəniyyət fəaliyyəti ilə məşğul olmasına dəstək göstərir.

10.3. Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin ərazisində mədəniyyət fəaliyyəti həm fərdi qaydada, həm də təşkilat vasitəsilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər hal nəzərdə tutulmamışdırsa, həmin dövlətlərin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**Maddə 11. Mədəniyyət sahəsində mülkiyyət hüququ**

11.1. Hər kəsin mədəniyyət sahəsində mülkiyyət hüququ dövlət tərəfindən qorunur.

11.2. Hər kəsin öz yaradıcılıq fəaliyyətinin nəticələrinə və qanuni əldə etdiyi mədəniyyət məhsullarına mülkiyyət hüququ vardır.

11.3. Mədəniyyət məhsullarının və xidmətlərinin əldə edilməsi, istifadəsi və barəsində sərəncam verilməsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq tənzimlənir.

**Maddə 12. Mədəni sərvətlərlə xarici ticarət**

Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 13. Mədəniyyət sahəsində sahibkarlıq hüququ**

Azərbaycan Respublikasında hər bir şəxs bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq mədəniyyət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

**Maddə 14. Mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ**

14.1. Azərbaycan Respublikasında mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ dövlət tərəfindən təmin edilir.

14.2. Bu Qanunun 14.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə dövlət tərəfindən:

14.2.1. milli mədəniyyətin dünya mədəniyyətinə inteqrasiyasını, mədəniyyətlərarası dialoqların inkişafını və vahid mədəniyyət məkanının qurulmasını təmin etmək məqsədilə milli mədəniyyət sahəsində müvafiq layihələr həyata keçirilir;

14.2.2. mədəniyyət sənayesinin inkişafına yönəlmiş investisiya layihələri həyata keçirilir və ya investisiya mühitinin yaxşılaşdırılması məqsədilə həmin investisiyaların qoyuluşuna əlverişli mühit yaradılır;

14.2.3. əhalinin mədəniyyət müəssisələrindən və mədəniyyət məkanlarından istifadə imkanlarının sadələşdirilməsinə yönəlmiş layihələr həyata keçirilir;

14.2.4. aztəminatlı əhalinin, əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, müharibə iştirakçılarının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada mədəni sərvətlərdən güzəştli istifadəsi təmin edilir;

14.2.5. iqtisadi, sosial, hüquqi, elmi-texniki, müasir texnologiya və digər tədbirlər vasitəsilə uşaq və gənclərin mədəniyyət fəaliyyətini və mədəni sərvətlərdən bəhrələnmələrini stimullaşdıran layihələr həyata keçirilir;

14.2.6. mədəniyyət sahəsində ümumi estetik tərbiyənin, təhsilin, o cümlədən əlavə təhsilin gücləndirilməsi məqsədilə müvafiq layihələr həyata keçirilir;

14.2.7. bu Qanuna uyğun olaraq mədəniyyət sahəsində dövlət reyestri və monitorinqi aparılır, dövlət nəzarəti həyata keçirilir;

14.2.8. mədəniyyət sahəsində səyyar fəaliyyətin inkişafına dair layihələr həyata keçirilir;

14.2.9. mədəniyyət sahəsində müasir informasiya və kommunikasiya texnologiyaları tətbiq edilir;

14.2.10. mədəniyyət fəaliyyətinə dair standartlar qəbul edilir və tətbiqinə nəzarət həyata keçirilir;

14.2.11. mədəniyyət sahəsində sahibkarlığın inkişafına dair tədbirlər görülür;

14.2.12. dövlət mədəniyyət siyasətinin həyata keçirilməsinə dövlət nəzarəti təmin edilir;

14.2.13. əhali mədəniyyət sahəsi barədə məlumatlandırılır.

**Maddə 15. Mədəniyyət sahəsində təhsil hüququ**

15.1. Azərbaycan Respublikasında hər bir şəxs "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mədəniyyət sahəsində təhsil almaq və elmi fəaliyyətlə məşğul olmaq hüququna malikdir.

15.2. Mədəniyyət sahəsində elmi tədqiqatların aparılmasına dövlət tərəfindən şərait yaradılır.

15.3. Dövlət mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən elm və təhsil məqsədləri üçün istifadəyə şərait yaradılır.

15.4. Mədəniyyət sahəsində təhsil və elmi müəssisələrin yaradılması, onların maddi-texniki bazasının gücləndirilməsi və mədəniyyət sahəsində beynəlxalq təcrübə və biliklərin tətbiq edilməsi dövlət tərəfindən dəstəklənir.

15.5. Azərbaycan Respublikasında mədəniyyət sahəsində pedaqoji və elmi tədqiqat fəaliyyəti yaradıcılıq fəaliyyətinə bərabər tutulur.

**Maddə 16. Mədəniyyət sahəsində qeyri-hökumət təşkilatları**

16.1. Azərbaycan Respublikasında mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının yaradılması "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq həyata keçirilir.

16.2. Azərbaycan Respublikasında hər bir şəxs istənilən birliyə öz mənsubiyyətini müstəqil müəyyən edir və birliyin fəaliyyətində bərabər əsasda iştirak edir.

16.3. Dövlət, mədəniyyət sahəsində həyata keçirilən tədbirlərin təşkilində və icrasında mədəniyyət sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, o cümlədən yaradıcılıq birlikləri ilə əməkdaşlıq edir.

**Maddə 17. Mədəniyyət sahəsində məlumat azadlığı**

17.1. "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə əməl olunmaqla, hər kəsin mədəniyyət sahəsində istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

17.2. Bu Qanunun 17.1-ci maddəsinin tələblərinə əməl olunmaqla, mədəniyyət sahəsində məlumat mübadiləsi kütləvi informasiya və digər yayım vasitələri ilə aparıla bilər.

17.3. Azərbaycan mədəni irsinin və mədəni sərvətlərinin təbliğ edilməsinə “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kütləvi informasiya vasitələri tərəfindən informasiya dəstəyi göstərilir.

## 4-CÜ FƏSİL
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ FƏALİYYƏT VƏ ONUN SUBYEKTLƏRİ

**Maddə 18. Mədəniyyət fəaliyyətinin subyektləri**

Azərbaycan Respublikasında mədəniyyət fəaliyyətinin subyektləri dövlət orqanları, fiziki, o cümlədən yaradıcı şəxslər, hüquqi şəxslər, həmçinin mədəniyyət müəssisələri və qeyri-hökumət təşkilatları ola bilərlər.

**Maddə 19. Mədəniyyət müəssisələrinin təsis edilməsi və fəaliyyətinə xitam verilməsi**

19.1. Mədəniyyət müəssisələrinin yaradılması və fəaliyyətinə xitam verilməsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

19.2. Mədəniyyət müəssisələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş istənilən təşkilati-hüquqi formada yaradıla bilər.

19.3. Mədəniyyət müəssisəsinin təsis sənədlərində onun mədəniyyət fəaliyyətinin istiqamətləri göstərilməlidir.

**Maddə 20. Mədəniyyət sahəsində fəaliyyət istiqamətləri**

20.1. Mədəniyyət sahəsində fəaliyyət istiqamətlərinə aşağıdakılar aiddir:

20.1.1. milli mədəni irsin aşkarlanması, qorunması, təbliği və təşviqi;

20.1.2. maddi və qeyri-maddi mədəni irsin qorunması, təbliği və təşviqi;

20.1.3. tarix və mədəniyyət abidələrinin qorunması, təbliği və təşviqi;

20.1.4. tarixi memarlıq qoruqlarının fəaliyyəti;

20.1.5. təbii irsin qorunması, təbliği və təşviqi;

20.1.6. peşəkar və həvəskar yaradıcılıq fəaliyyəti;

20.1.7. audiovizual əsərlərin yaradılması və yayımlanması;

20.1.8. kinematoqrafiya fəaliyyəti;

20.1.9. teatr-konsert fəaliyyəti;

20.1.10. poliqrafiya, nəşriyyat işi sahəsində fəaliyyət;

20.1.11. kulinariya fəaliyyəti;

20.1.12. mədəni-asudə vaxtın təşkili üzrə fəaliyyət;

20.1.13. estetik tərbiyə sahəsində fəaliyyət;

20.1.14. mədəniyyət və incəsənət sahəsində təhsil və pedaqoji fəaliyyət;

20.1.15. mədəniyyət sahəsində elmi tədqiqat fəaliyyəti;

20.1.16. muzey və qalereya fəaliyyəti;

20.1.17. mədəni maarifçilik və kitabxana fəaliyyəti;

20.1.18. mədəniyyət mərkəzlərinin, klublarının və parklarının fəaliyyəti;

20.1.19. mədəniyyət sahəsinin təşviqi məqsədilə məlumatlandırma fəaliyyəti;

20.1.20. folklor yaradıcılığının təbliği və təşviqi;

20.1.21. qastrolların təşkili fəaliyyəti;

20.1.22. dekorativ-tətbiqi yaradıcılıq fəaliyyəti;

20.1.23. ədəbi yaradıcılıq fəaliyyəti;

20.1.24. maarifləndirmə və təbliğat fəaliyyəti;

20.1.25. teleradio yayımı fəaliyyəti;

20.1.26. sirk fəaliyyəti.

20.2. Azərbaycan Respublikasında mədəniyyət sahəsində fəaliyyət istiqamətləri üzrə münasibətlər “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Nəşriyyat işi haqqında”, “Kinematoqrafiya haqqında”, “Teatr və teatr fəaliyyəti haqqında”, “Kitabxana işi haqqında”, “Muzeylər haqqında”, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında”, “Televiziya və radio yayımı haqqında”, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

20.3. Mədəniyyət sahəsində fəaliyyət istiqamətlərinin bərabər əsasda inkişafına dövlət tərəfindən şərait yaradılır.

**Maddə 21. Mədəniyyət sahəsində təşkilati fəaliyyət**

21.1. Fiziki şəxslər, hüquqi şəxslər, o cümlədən qeyri-kommersiya qurumları, bu Qanunun 20.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, mədəniyyət sahəsində aşağıdakı təşkilati fəaliyyətləri həyata keçirə bilərlər:

21.1.1. Azərbaycan mədəniyyətinin, milli mədəni irsin təbliği, təşviqi və inkişafı məqsədilə incəsənət və bədii tədbirlərin təşkili, yaradıcılıq müsabiqələrinin, sərgilərin, yaradıcılıq gecələrinin, mədəniyyət və incəsənət təqdimatlarının, festivalların, konfrans və simpoziumların təşkili;

21.1.2. uşaqların, gənclərin estetik, etik və mənəvi tərbiyələndirilməsi məqsədilə seminar, tədris, dəyirmi masa və digər aidiyyəti tədbirlərin təşkili;

21.1.3. əhalinin milli və dünya mədəniyyət nailiyyətlərindən bəhrələnməsini asanlaşdıran tədbirlərin təşkili;

21.1.4. mədəniyyət sahəsində istedadların müəyyən edilməsi, onların yaradıcılığının inkişaf etdirilməsi ilə bağlı tədbirlərin təşkili;

21.1.5. yaradıcı şəxslərin hüquqi, sosial və iqtisadi maraqlarının təmin edilməsi ilə bağlı tədbirlərin təşkili;

21.1.6. folklor nümunələrinin yaradılması, qorunması, təbliği və təşviqi ilə bağlı tədbirlərin təşkili;

21.1.7. xalq yaradıcılığının inkişafı və təbliği, mədəniyyətin inkişafında xalq ənənələrindən yaradıcı şəkildə istifadə edilməsi, tarixi abidələrin qorunub saxlanılması və zənginləşdirilməsi ilə bağlı tədbirlərin təşkili;

21.1.8. bəşəri dəyərlərin təbliği ilə bağlı tədbirlərin təşkili;

21.1.9. pedaqoji kollektivlərlə birgə uşaq və gənclərin vətənpərvər, mədəni və intellektual inkişafı, mənəvi-etik və estetik tərbiyəsi ilə bağlı tədbirlərin təşkili;

21.1.10. Azərbaycan Respublikasında yaşayan xalqların adət-ənənələrinin tanınması, təbliği və qorunması tədbirlərinin təşkili.

21.2. Mədəniyyət sahəsində həyata keçirilən təşkilati fəaliyyət müvafiq icra hakimiyyəti orqanı tərəfindən koordinasiya edilir.

**Maddə 22. Mədəniyyət sahəsində fəaliyyətin xüsusiyyətləri**

22.1. Mədəniyyət təşkilatları mədəniyyət məhsullarının istehsalı və mədəniyyət xidmətlərinin göstərilməsi ilə məşğul ola bilərlər.

22.2. Azərbaycan Respublikasında mədəniyyət sahəsində əqli mülkiyyət, o cümlədən müəlliflik hüququ və əlaqəli hüquqların həyata keçirilməsi və qorunması “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

22.3. Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni

sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

22.4. Azərbaycan Respublikasının milli mədəni irsinə aid sərvətlər bank zəmanəti kimi istifadə edilə bilməz.

22.5. Milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin hüquqi və fiziki şəxslər tərəfindən kommersiya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi müvafiq icra hakimiyyəti orqanının razılığı ilə həyata keçirilir.

**Maddə 23. Dövlət mədəniyyət müəssisələrinə xüsusi statusların verilməsi**

23.1. Dövlət mədəniyyət müəssisələrinə tarixi və mədəni roluna, yaradıcılıq fəaliyyətinin əhəmiyyətinə, fondlarının zənginliyinə, nadirliyinə, milli dəyərlərin qorunması və təbliği sahəsində nailiyyətlərinə görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən milli, akademik, beynəlxalq və respublika əhəmiyyətini təsdiq edən status verilir.

23.2. Milli statusa malik mədəniyyət təsisatlarının fondları və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyektlər kimi dövlət tərəfindən qorunur.

23.3. Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## 5-Cİ FƏSİL
## YARADICI ŞƏXSLƏR

**Maddə 24. Yaradıcı şəxslər**

24.1. Hər kəs peşəkar və ya həvəskar yaradıcılıq fəaliyyəti ilə məşğul ola bilər.

24.2. Azərbaycan Respublikasında yaradıcılıq fəaliyyəti dövlət tərəfindən dəstəklənir.

24.3. Peşəkar yaradıcılığın inkişafı məqsədi ilə dövlət tərəfindən iqtisadi tədbirlər həyata keçirilir.

24.4. Peşəkar yaradıcılığın meyarları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 25. Yaradıcı şəxslərin dövlət təminatı**

25.1. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyətin inkişafında, təbliğində və təşviqində xüsusi xidmətləri olan yaradıcı şəxslərə, festival və müsabiqə qaliblərinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada fəxri adlar, təqaüdlər, mükafatlar verilir.

25.2. Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq orden və medallarla təltif edilirlər.

25.3. Mədəniyyətin inkişafında xidmətləri olan mədəniyyət işçilərinin, yaradıcı şəxslərin və kollektivlərin bioqrafiyası, peşə və yaradıcılıq fəaliyyətləri barədə məlumat bazası müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılır.

## 6-CI FƏSİL
## MƏDƏNİYYƏT SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİ

**Maddə 26. Mədəniyyət sahəsində dövlət reyestri sistemi**

26.1. Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət reyestri sistemi dedikdə bu sahədə reyestrlər, kataloqlar, uçot sistemləri, mədəniyyət əmlakının siyahıları və məlumat topluları nəzərdə tutulur.

26.2. Mədəniyyət sahəsində dövlət reyestri sistemi mədəniyyət obyektlərinin kəmiyyət və keyfiyyət göstəricilərindən ibarət məlumat toplusudur.

26.3. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısı və mədəni sərvətlərin mühafizə siyahısı mədəniyyət sahəsində dövlət reyestri sisteminə daxildir.

26.4. Mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 27. Mədəniyyət sahəsində dövlət monitorinqi**

27.1. Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

27.2. Mədəniyyət sahəsində dövlət monitorinqinin məqsədi mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsinin cari vəziyyətinin öyrənilməsi, çatışmazlıqların və həyata keçiriləcək dövlət mədəniyyət siyasəti istiqamətlərinin və mədəniyyət siyasəti tədbirlərinin müəyyən edilməsidir.

27.3. Mədəniyyət sahəsində dövlət monitorinqi mədəni sərvətlərin istifadəsinin və cari vəziyyətinin, mədəniyyət sənayesinin vəziyyətinin, mədəniyyət məhsullarının və xidmətlərinin kəmiyyətinin və keyfiyyətinin, maddi və qeyri-maddi mədəni irs obyektlərinin vəziyyətinə və istifadə qaydalarına riayət olunmasının, milli azlıqların mədəni müxtəlifliklərinin vəziyyətinin, mədəniyyət sahələrində kadr, maddi və texniki təchizatın cari vəziyyətinin, mədəniyyət sahəsində elm və təhsil müəssisələrində təhsil prosesinin və tədris proqramlarının müşahidələrindən ibarətdir.

**Maddə 28. Mədəniyyət sahəsində rəsmi statistikanın aparılması**

28.1. Mədəniyyət sahəsində məlumatların obyektivliyinin və müqayisəliliyinin təmin edilməsi məqsədi ilə rəsmi statistika aparılır.

28.2. Azərbaycan Respublikasında mədəniyyət sahəsində rəsmi statistikanın aparılması, o cümlədən məlumatların yığılması, işlənməsi, bazada yerləşdirilməsi, ötürülməsi və yayılması "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 29. Mədəniyyət sahəsində elektron məlumat sistemi**

29.1. Mədəniyyət sahəsində dövlət siyasətinin təmin edilməsi, dövlət reyestrinin və dövlət monitorinqinin aparılması, mədəniyyət sahəsində fəaliyyət göstərən subyektlər arasında münasibətlərin inkişafı məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyət sahəsində elektron məlumat sistemi yaradılır.

29.2. Mədəniyyət sahəsində elektron məlumat sistemi dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin qurulmasına, mədəniyyət fəaliyyəti subyektləri arasında məlumat mübadiləsinin aparılmasına və mədəniyyət sahəsində səmərəli idarəetmənin təmin olunmasına xidmət edən kompleks proqram təminatıdır.

29.3. Mədəniyyət sahəsində elektron məlumat sistemi özündə yerli və mərkəzi elektron məlumat sistemlərini ehtiva edir.

29.4. “İnformasiya əldə etmək haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət sirri haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla, mədəniyyət sahəsində elektron məlumat sistemi ümumi istifadə üçün açıq və alınması məhdudlaşdırılan məlumatlardan ibarətdir.

29.5. Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə olunma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## 7-Cİ FƏSİL
## MƏDƏNİ SƏRVƏTLƏR VƏ AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİ İRSİ

**Maddə 30. Mədəni sərvətlər**

30.1. Mədəni sərvət dedikdə aşağıdakılar başa düşülür:

30.1.1. hər bir xalqın mədəni irsi üçün əhəmiyyəti olan daşınar və ya daşınmaz sərvətlər (memarlıq, incəsənət və ya tarixi, dini və ya dünyəvi abidələr; arxeoloji qazıntı yerləri; tarixi və ya bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları; incəsənət əsərləri; bədii, tarixi və ya arxeoloji əhəmiyyəti olan əlyazmalar, kitablar və digər əşyalar; elmi kolleksiyalar; kitab və arxiv materiallarının, yaxud yuxarıda göstərilən sərvətlərin reproduksiyalarının mühüm kolleksiyaları);

30.1.2. Bu Qanunun 30.1.1-ci maddəsində göstərilmiş, əsas məqsədi daşınar mədəni sərvətlərin saxlanması və ya sərgilənməsi olan binalar (muzeylər, kitabxanalar, arxivlər, habelə daşınar mədəni sərvətləri silahlı münaqişə zamanı saxlamaq üçün istifadə olunan sığınacaqlar);

30.1.3. Bu Qanunun 30.1.1-ci və 30.1.2-ci maddələrdə qeyd olunmuş mədəni sərvətlərin cəmləşdiyi mərkəzlər.

30.2. Mədəni sərvətlərə aşağıdakılar aiddir:

30.2.1. təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar;

30.2.2. kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər və fotomateriallar, dizayn işləmələri və memarlıq layihələri;

30.2.3. əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər;

30.2.4. tətbiqi-sənət əsərləri - xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı;

30.2.5. səhnə və ekran əlbisələri, dekorları, butaforiya və rekvizitləri;

30.2.6. qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.);

30.2.7. şifahi xalq yaradıcılığı nümunələri;

30.2.8. arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;

30.2.9. memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələr;

30.2.10. park və təbii landşaft obyektləri;

30.2.11. flora və fauna, mineralogiya, anatomiya nümunələri və paleontologiya baxımından maraqlı muzey əşyaları.

30.3. Mədəni sərvətlər dövlətin, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin, qeyri-hökumət təşkilatlarının, o cümlədən ictimai və yaradıcılıq birliklərinin mülkiyyətində ola bilər.

30.4. Mədəniyyət nümunələrinin Azərbaycan Respublikasında milli mədəni sərvətlərə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ekspertiza yolu ilə müəyyən edilir. Milli mədəni sərvətin mülkiyyətçisi onun lazımi saxlanılmasını və mühafizəsini təmin etməyə borcludur.

30.5. Azərbaycan Respublikasında yaşayan milli azlıqların mədəniyyət nümunələri Azərbaycan Respublikasının milli mədəni sərvətlərinin tərkib hissəsidir.

30.6. Azərbaycan Respublikasında yaşayan milli azlıqların mədəni sərvətləri dövlət tərəfindən qorunur.

**Maddə 31. Milli mədəni arxivlər**

31.1. Kitabxana, muzey, foto, kino və digər arxiv və fondların yaradılması və mühafizəsi bu Qanunun 20.2-ci maddəsinə və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

31.2. Milli kitabxana, muzey, foto, kino arxiv və fondlarının vahidliyi və toxunulmazlığı dövlət tərəfindən təmin edilir.

31.3. Dövlət mülkiyyətinə aid, bu Qanunun 31-ci maddəsində nəzərdə tutulmuş arxivlərin (fondların) özgəninkiləşdirilməsi qadağandır.

**Maddə 32. Mədəni irs nümunələri**

32.1. Milli mədəni irsə muzey, incəsənət, audiovizual, (o cümlədən kino), teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları aiddir.

32.2. Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 33. Daşınmaz mədəni irs**

33.1. Azərbaycan Respublikasında daşınmaz mədəni irs abidələri yerləşdirildiyi və ya inşa olunduğu məkanlarda qorunur.

33.2. Azərbaycan Respublikasında daşınmaz mədəni irsə aşağıdakılar aiddir:

33.2.1. milli mədəni irs üçün önəmli olan memarlıq, arxeoloji, mədəniyyət və tarixi, dini və dünyəvi abidələr, o cümlədən tarixi və bədii maraq kəsb edən arxeoloji, təbii ərazilər və arxitektura kompleksləri, incəsənət əsərləri;

33.2.2. daşınar mədəni sərvətlərin qorunması və ya nümayişini həyata keçirən bina və tikililər, muzeylər, kitabxanalar və arxivlər, müharibə şəraitində mədəni sərvətlərin mühafizəsini təmin edən sığınacaqlar;

33.2.3. mədəni sərvətlərin toplandığı yerlər.

33.3. Daşınmaz mədəni irs abidələrinin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Həmin siyahılara daxil edilən mədəni irs abidələrinin və qoruqların mühafizə zonaları və qoruqların sərhədləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 34. Sualtı mədəni irs**

34.1. Azərbaycan Respublikasının ərazi sularında sualtı mədəni sərvətlərin sualtı mədəni irs nümunələrinə aid edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

34.2. Sualtı mədəni irsə öz təbii və arxeoloji mühiti ilə birgə suyun altında olan aşağıdakılar aiddir:

34.2.1. obyektlər, tikililər və onların qalıqları, artefaktlar və paleontoloji qalıqlar;

34.2.2. gəmilər, uçuş və nəqliyyat vasitələri və ya onların hissələri, onların yükü və içindəki digər əşyalar;

34.2.3. qədim tarixi əşyalar.

34.3. Sualtı mədəni irs nümunələrindən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 35. Milli mədəni irs obyektləri**

35.1. Nadir tarixi, arxeoloji, bədii, elmi, estetik dəyərlərə malik olan və Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət daşıyan mədəni irs obyektlərinin müəyyən edilməsi və qorunması bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

35.2. Xüsusi əhəmiyyət daşıyan mədəniyyət obyektlərinin milli mədəni irs obyektlərinə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

35.3. Azərbaycan Respublikasının milli mədəni irs obyektləri başqa dövlətlər tərəfindən mənimsənilə bilməz.

**Maddə 36. Qeyri-maddi mədəni irs**

36.1. Azərbaycan Respublikasında qeyri-maddi mədəni irs nümunələri dövlət tərəfindən qorunur.

36.2. Qeyri-maddi mədəni irs nümunələrinin qorunması özündə eyniləşdirmə, sistemləşdirmə, saxlanma, mühafizə, yaxşılaşdırma, nəsildən-nəslə ötürülmə daxil olmaqla mədəni irsin müxtəlif aspektlərinin bərpası istiqamətində keçirilən fəaliyyətlərlə təmin edilir.

36.3. Qeyri-maddi mədəni irsin müəyyən edilməsi, sistemləşdirilməsi və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyət sahəsində dövlət reyestri sisteminə daxil olan, qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestri aparılır.

36.4. Qeyri-maddi mədəni irs özündə aşağıdakıları ehtiva edir:

36.4.1. diyarşünaslıq (adət və ənənələr, bayram və mərasimlər, tarixi rəmz nümunələri və sirlər);

36.4.2. folklor (ifaçılıq, musiqi və rəqslər, şifahi yaradıcılıq, oyun və tamaşalar);

36.4.3. sənətkarlıq (tətbiqi sənət, ənənəvi dekorativ sənət, milli təsviri yaradıcılıq).

**Maddə 37. Milli kulinariya nümunələri**

37.1. Azərbaycan Respublikasında milli kulinariya nümunələrinin sistemləşdirilməsi, qorunması, təbliği müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

37.2. Kulinariya nümunələrinin milli mədəni irsə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 38. Milli mədəni irsin mühafizəsinə dair öhdəliklər**

38.1. Azərbaycan Respublikasında milli tarixi, təbii və mədəni irs obyektlərini, o cümlədən tarix, təbiət və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

38.2. Azərbaycan Respublikasında təbiət komplekslərinin, tarixi ərazilər və mədəni irs abidələrinin qoruq elan edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

38.3. Milli mədəni irsin mühafizəsi sistemi dövlət orqanları və bələdiyyələr tərəfindən həyata keçirilən qanuni hüquqi, maddi-texniki və təşkilati tədbirlərdən ibarətdir.

38.4. Milli mədəni irs obyektlərinin sahiblərinə həmin obyektlərin mühafizəsini təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən təminatlar verilir.

38.5. Milli mədəni irs obyektlərinin mühafizəsi mədəniyyət sahəsində dövlət reyestri sistemi vasitəsilə təmin edilir.

**Maddə 39. Mədəni sərvətlərin mühafizəsi**

39.1. Mühafizə məqsədilə mədəni sərvətlərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilir.

39.2. Mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq edilmiş mədəni sərvətlərin müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmadan sökülməsi, məhv edilməsi, parçalanması, yeni quruluşa salınması, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsi qadağandır.

39.3. Mühafizənin konservasiya dərəcəsi, istifadədən tamamilə çıxarılmalı və ya müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında məhdud dairədə istifadə edilməli olan mədəni sərvətlərə aid edilir.

39.4. Mühafizənin bərpa dərəcəsi, ilkin mədəniyyət təyinatına qaytarılması üçün bərpa işlərinə ehtiyacı olan mədəni sərvətlərə şamil edilir. Mühafizənin bərpa dərəcəsi tətbiq olunana qədər obyekt barədə konservasiya dərəcəsi müəyyən edilə bilər.

39.5. Xüsusi mühafizə dərəcəsi Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan mədəni sərvətlərə şamil edilir.

39.6. Mühafizə dərəcəsi olan mədəni sərvətlərin mülkiyyətçisi və ya istifadəçisinin müvafiq icra hakimiyyəti orqanı ilə münasibətləri mühafizə müqaviləsi ilə müəyyən olunur.

## 8-Cİ FƏSİL
## MƏDƏNİ SƏRVƏTLƏRDƏN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ

**Maddə 40. Mədəniyyət obyektlərindən istifadə rejimi**

40.1. Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektlərinin istifadəsi öz tarixi və bədii təyinatına uyğun və bu Qanunda müəyyən edilmiş qaydada həyata keçirilir.

40.2. Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektləri digər şəxslərin istifadəsinə və ya idarəçiliyinə verildiyi halda, mədəniyyət obyektlərinin təyinatına uyğun istifadə edilməsi təmin olunmalıdır.

40.3. Tarixi, arxeoloji, şəhərsalma, arxitektura və monumental sənət abidələrinin, təbii-landşaft obyektlərinin mühafizəsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin obyektlərin mühafizə zonaları müəyyən edilir.

40.4. Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntıların aparılmasına və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərinin yerinə yetirilməsinə icazə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən verilir və müvafiq icra hakimiyyəti orqanında qeydə alınır. Bu maddədə qeyd olunan işləri aparan (yerinə yetirən) şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Milli Elmlər Akademiyasına və müvafiq icra hakimiyyəti orqanına aparılmış tədqiqat işləri barədə hesabat verir.

40.5. Dövlət mühafizəsində olan mədəniyyət obyektlərində aparılan bərpa, təmir-tikinti, rekonstruksiya və konservasiya işlərinin layihələri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır. Layihə üzrə işlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş mütəxəssisin iştirakı ilə həyata keçirilir.

40.6. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, konservasiyası, təmir-tikintisi, rekonstruksiyası, ərazilərinin abadlaşdırılması "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.

40.7. Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektlərinin istifadəsi nəticəsində əldə edilən gəlir mədəniyyət obyektinin qorunmasına, bərpasına və saxlanılmasına sərf edilməlidir.

**Maddə 41. Mühafizə olunan mədəni sərvətlərin siyahısı**

41.1. Mühafizə olunan mədəni sərvətlərin siyahısının aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

41.2. Mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edilən hər bir mədəni sərvətə müvafiq icra hakimiyyəti orqanı tərəfindən şəhadətnamə verilir.

**Maddə 42. Mədəni sərvətlərin ixracı**

42.1. Mədəni sərvətlərin ixracının mümkünlüyü müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş mədəni sərvətin mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.

42.2. Sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlərin Azərbaycan Respublikasının ərazisindən aparılması qadağandır.

42.3. Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 43. Mədəniyyət sahəsində qadağalar**

43.0. Mədəniyyət sahəsində aşağıdakı hərəkətlərə yol verilmir:

43.0.1. Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və milli maraqlarına zərər vura biləcək təbliğatın aparılmasına;

43.0.2. müharibənin, sosial, irqi, milli, dini, təbəqə, nəsil üstünlüyünün təbliğinə və təşviqinə yönəlmiş çağırışların səsləndirilməsini nəzərdə tutan mədəniyyət tədbirlərinin keçirilməsinə;

43.0.3. zorakılığın, pornoqrafiyanın, narkomaniyanın təbliğinə və təşviqinə yönəlmiş çağırışların səsləndirilməsini nəzərdə tutan mədəniyyət tədbirlərinin keçirilməsinə;

43.0.4. milli mədəni irs nümunələrinin Azərbaycan Respublikasının ərazisindən qanunsuz aparılmasına;

43.0.5. irqindən, milliyyətindən, dinindən, dilindən, sosial mənşəyindən, qulluq mövqeyindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq mədəniyyət sahəsində əsas insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına;

43.0.6. mədəni və təbii irsin tarixi və bədii təyinatı ilə bir araya sığmayan tərzdə istifadə edilməsinə;

43.0.7. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməklə, mülkiyyətçisinin və ya istifadəçisinin razılığı olmadan mədəni sərvətlərin nüsxələndirilməsi, habelə onlardan turizm, ekskursiya və reklam məqsədilə istifadə edilməsinə;

43.0.8. mədəni sərvətlərin sökülməsi, məhv edilməsi, parçalanması, yeni quruluşa salınması, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsinə.

## 9-CU FƏSİL

## MƏDƏNİYYƏT SAHƏSİNİN MALİYYƏ-İQTİSADİ TƏNZİMLƏNMƏSİ

**Maddə 44. Mədəniyyət sahəsinin maliyyə-iqtisadi təminatı**

44.1. Azərbaycan Respublikasında mədəniyyət sahəsinin aşağıdakı maliyyə mənbələri vardır:

44.1.1. dövlət büdcəsindən ayırmalar;

44.1.2. yerli büdcədən ayırmalar;

44.1.3. mədəniyyət sahəsində fəaliyyətdən əldə olunan gəlir;

44.1.4. digər qanuni maliyyə mənbələri.

44.2. Mədəniyyət sahəsinin dövlət büdcəsindən maliyyələşdirilməsi mədəni irsin qorunması və inkişafının əsas təminatıdır. Həmin maliyyə təminatı "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

44.3. Mədəniyyət sahəsinin inkişafı məqsədilə, mədəniyyət sahəsində fəaliyyət göstərən subyektlərə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi güzəştləri tətbiq edilir.

**Maddə 45. Mədəniyyət sahəsində layihələrin maliyyələşdirilməsi**

45.1. Müvafiq icra hakimiyyəti orqanı mədəniyyət müəssisələrinin bərpası, maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının bilik və bacarıqlarının artırılması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq layihələrin maliyyələşdirilməsini həyata keçirir.

45.2. Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

45.3. Mədəniyyət sahəsində ədəbiyyat, incəsənət, dizayn, arxitektura, musiqi, xoreoqrafiya, teatr və sirk, kino, muzey və kitabxana, rəssamlıq və heykəltəraşlıq, xalq yaradıcılığı, folklor istiqamətlərinin inkişafında və mədəniyyət sahəsində təhsil və elmi araşdırmalar üzrə layihələrin həyata keçirilməsində dövlət maliyyələşdirilməsi məqsədəuyğun xarakter daşıyır.

**Maddə 46. Mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyəti**

Mədəniyyət sahəsində xeyriyyəçilik və sponsorluq fəaliyyəti "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Qrant haqqında", "Televiziya və radio yayımı haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

**Maddə 47. Mədəniyyət sahəsində özəlləşdirmə məsələləri**

47.1. Dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakının özəlləşdirilməsi qadağandır. Həmin əmlakın siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

47.2. Bu Qanunun 47.1-ci maddəsində qeyd olunan əmlakın bələdiyyələr tərəfindən özgəninkiləşdirilməsinə yol verilmir.

47.3. Dövlət mədəniyyət müəssisələrinin və onlara məxsus mədəni sərvətlərin, o cümlədən dövlət mülkiyyətində olan kitabxana, klub, arxiv, muzey, incəsənət fond və arxivlərinə aid mədəniyyət obyektlərinin, tarix və mədəniyyət abidələrinin, mədəniyyət müəssisələrinin yerləşdiyi binaların və ərazilərin özəlləşdirilməsi "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

47.4. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mədəniyyət obyektlərinin özəlləşdirilməsinə aşağıdakı şərtlərdən birinə riayət olunmaqla, icazə verilir:

47.4.1. mədəni sərvətlərin bərpası, qorunması və təbliği əsas fəaliyyət kimi müəyyən olunduqda;

47.4.2. mədəniyyət məhsullarının istehsalı və ya xidmətlərinin göstərilməsi əsas fəaliyyət kimi müəyyən olunduqda;

47.4.3. əhaliyə mədəniyyət məhsullarının və xidmətlərinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş güzəştlərlə təqdim olunması əsas fəaliyyət kimi müəyyən olunduqda.

**Maddə 48. Mədəniyyəti maliyyələşdirmə fondları**

48.1. Mədəniyyət sahəsinin maliyyələşdirilməsinə əlavə vəsaitin cəlb edilməsi məqsədilə mədəniyyəti maliyyələşdirmə fondları müvafiq icra hakimiyyəti orqanı tərəfindən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaradılır.

48.2. Bu Qanunun 48.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlə hüquqi və fiziki şəxslər tərəfindən mədəniyyəti maliyyələşdirmə fondları yaradıla bilər.

48.3. Mədəniyyəti maliyyələşdirmə fondları öz fəaliyyətlərini şəffaflıq, aşkarlıq, bərabərlik və səmərəlilik prinsiplərinə uyğun həyata keçirirlər.

## 10-CU FƏSİL
## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

**Maddə 49. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq**

49.1. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətidir.

49.2. Mədəniyyət sahəsində beynəlxalq təşkilatlarla və dövlətlərarası əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

49.3. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın məqsədi beynəlxalq mədəni sərvətlər bazarında Azərbaycan Respublikasının mövqeyinin möhkəmlənməsi və genişləndirilməsidir.

49.4. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq şəxslərin bilik və bacarıqlarının, təcrübə və nailiyyətlərinin beynəlxalq səviyyədə mübadiləsinin stimullaşdırılması prinsipi əsasında həyata keçirilir.

Maddə 50. Beynəlxalq əməkdaşlıq sahəsində dövlət mədəniyyət siyasətinin prioritetləri

50.1. Azərbaycan Respublikası mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini prioritet istiqamət kimi qəbul edir.

50.2. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətləri aşağıdakılardır:

50.2.1. beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə milli mədəniyyətin xarici ölkələrdə təbliği;

50.2.2. mədəni sərvətlərin birgə istehsalının stimullaşdırılması;

50.2.3. mədəniyyətlərarası dialoqun dəstəklənməsi;

50.2.4. xarici dövlətlərin mədəni irslərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi;

50.2.5. dünya mədəni irs obyektlərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi;

50.2.6. yeni texnologiyaların beynəlxalq mübadiləsi;

50.2.7. ən qabaqcıl təcrübələrin beynəlxalq mübadiləsi;

50.2.8. beynəlxalq informasiya sistemlərinin tətbiqi.

**Maddə 51. Xarici dövlətlərdə mədəniyyət fəaliyyəti**

51.1. Azərbaycan Respublikası xarici dövlətlərdə Azərbaycan mədəniyyətinin qorunması, təbliği və inkişafı məqsədilə tədbirlərin görülməsini təmin edir.

51.2. Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr yaradır və inkişaf etdirir, onların mədəniyyət mərkəzlərinin, fondlarının və mədəniyyət sahəsində digər təsisatlarının məqsədyönlü fəaliyyətinə köməklik göstərir.

51.3. Azərbaycan mədəniyyətinin qorunması və inkişafı məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən xarici dövlətin ərazisində təsis edilən mədəniyyət mərkəzləri öz fəaliyyətini Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər hal nəzərdə tutulmamışdırsa, həmin dövlətin qanunvericiliyinə uyğun olaraq həyata keçirirlər.

**Maddə 52. Azərbaycan xalqının xarici dövlətlərdə milli mədəni və təbii irsi**

52.1. Azərbaycan Respublikası Azərbaycan xalqının xarici dövlətlərin ərazisində yerləşən (olan) milli mədəni və təbii irsinin aşkarlanması, bərpası və qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirir.

52.2. Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında digər dövlətlərin ərazisində Azərbaycan Respublikasından qeyri-qanuni yolla çıxarılmış milli mədəni irs nümunələrinin geri qaytarılmasına dair məqsədyönlü siyasət həyata keçirir.

52.3. Azərbaycan Respublikasının ərazisindən qeyri-qanuni yolla çıxarılmış milli mədəni irs nümunələri yerləşdiyi ölkədən, yerdən, çıxarıldığı vaxtdan və şəraitdən asılı olmayaraq Azərbaycan Respublikasına qaytarılmalıdır.

**Maddə 53. Azərbaycan xalqının milli mədəni və təbii irsinin beynəlxalq mühafizəsi**

Azərbaycan Respublikası Azərbaycan xalqının milli mədəni və təbii irsinə zərərin vurulmasının və ya zərərin vurulması təhlükəsinin qarşısını almaq məqsədilə, tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq yardımın göstərilməsini və ya beynəlxalq gücləndirilmiş mühafizə statusunun verilməsini tələb edir.

**Maddə 54. Azərbaycan Respublikasına məxsus mədəniyyət təsisatlarına xarici dövlətlər tərəfindən maliyyə vəsaitinin ayrılması**

Azərbaycan Respublikasına məxsus mədəniyyət təsisatlarına xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən maliyyə vəsaitinin ayrılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

**Maddə 55. Beynəlxalq mədəniyyət təşkilatlarının Azərbaycan Respublikasının ərazisində fəaliyyəti**

Beynəlxalq mədəniyyət təşkilatlarının Azərbaycan Respublikasının ərazisində fəaliyyəti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və bu Qanunla tənzimlənir.

## 11-Cİ FƏSİL
## YEKUN MÜDDƏALAR

**Maddə 56. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

**Maddə 57. Keçid müddəalar**

Bu Qanun qüvvəyə mindiyi gündən “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 1998-ci il 6 fevral tarixli 430-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 223; 2001, № 11, maddə 688; 2002, № 5, maddə 245, № 12, maddə 706; 2006, № 12, maddə 1016; 2011, № 2, maddə 71) ləğv edilir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 dekabr 2012-ci il***

## “MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN KİTABXANALARARASI ABUNƏÇİLİK SİSTEMİNİN YARADILMASI HAQQINDA” 1999-CU İL 13 YANVAR TARİXLİ SAZİŞDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“MDB-nin iştirakçısı olan dövlətlərin kitabxanalararası abunəçilik sisteminin yaradılması haqqında” 1999-cu il 13 yanvar tarixli Sazişdə dəyişikliklər edilməsi barədə” 2012-ci il mayın 30-da Aşqabad şəhərində imzalanmış Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 aprel 2013-cü il***

## MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN KİTABXANALARARASI ABUNƏÇİLİK SİSTEMİNİN YARADILMASI HAQQINDA” 1999-CU İL 13 YANVAR TARİXLİ SAZİŞDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## P R O T O K O L

Bundan sonra Tərəflər adlandırılacaq, MDB iştirakçısı olan dövlətlərin kitabxanalararası abunə sisteminin yaradılması haqqında 1999-cu il 13 yanvar tarixli Sazişin (bundan sonra - Saziş) iştirakçısı olan dövlətlərin hökumətləri, Sazişin müddəalarının dəqiqləşdirilməsi məqsədi ilə aşağıdakılar barədə razılığa gəldilər:

### M a d d ə 1

Sazişə aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin 1-ci bəndində “Elmi-Texnoloji İnkişaf Üzrə Hökumətlərarası Komitənin (bundan sonda - ETİ HK)” sözləri “Elmi-Texniki və İnnovasiya Sahələrində Əməkdaşlıq üzrə Dövlətlərarası Şuranın (bundan sonra - ETİ DŞ)” sözləri ilə və “İqtisadi Birliyin Dövlətlərarası İqtisadi Komitəsi (bundan sonra-DİK)” sözləri “MDB İqtisadi Şurası tərəfindən” sözləri ilə əvəz edilsin.
2. 4-cü maddənin 2-ci bəndində “DİK” abreviaturası “MDB İqtisadi Şurası” sözləri ilə əvəz edilsin.
3. 4-cü maddənin 3-cü bəndində “ETİ HK” abreviaturası “ETİ DŞ” abreviaturası ilə əvəz edilsin.
4. 9-cu maddədə “və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən” sözləri çıxarılsın.

### M a d d ə 2

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında onu imzalayan Tərəflərin 3-cü bildirişinin depozitarı tərəfindən alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Dövlətdaxili prosedurlan daha gec yerinə yetirən Tərəflər üçün bu Protokol müvafiq sənədlərin depozitari tərəfindən alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Bu Protokol 2012-ci il 30 may tarixində Aşqabad şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə bu Protokolu imzalamış hər bir dövlətə onun təsdiq olunmuş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

**Azərbaycan Hökuməti adından**
*(imza, qeyd-şərtlə)*

**Ermənistan Hökuməti adından**
*(imza)*

**Belarus Respublikası Hökuməti adından**
*(imza)*

**Qazaxıstan Hökuməti adından**
*(imza)*

**Qırğız Respublikası Hökuməti adından**
*(imza)*

**Moldova Respublikası Hökuməti adından**
*(imza)*

**Rusiya Federasiyası Hökuməti adından**
*(imza)*

**Tacikistan Hökuməti adından**
*(imza)*

**Türkmənistan Hökuməti adından**

**Özbəkistan Hökuməti adından**

**Ukrayna Hökuməti adından**
*(imza)*

## MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN KİTABXANALARARASI ABUNƏÇİLİK SİSTEMİNİN YARADILMASI HAQQINDA" 1999-CU İL 13 YANVAR TARİXLİ SAZİŞDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ 2012-Cİ İL 30 MAY TARİXLİ PROTOKOLA DAİR AZƏRBAYCAN RESPUBLİKASININ Q E Y D - Ş Ə R T İ

Azərbaycan Respublikası Elmi-Texniki və İnnovasiya Sahələrində Əməkdaşlıq üzrə Dövlətlərarası Şuranın iştirakçısı deyildir.

**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**
**Yaqub EYYUBOV**

## "DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2009-CU İL 30 İYUN TARİXLİ 841-IIIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli 841-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması haqqında təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyul 2009-cu il***

## “ŞƏHƏRSALMANIN ƏSASLARI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 30 AVQUST TARİXLİ 187 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Şəhərsalmanın əsasları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar qərara alıram:

“Şəhərsalmanın əsasları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 187 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №8, maddə 497; 2006-cı il, №7, maddə 590; 2008-ci il, №6, maddə 498) 2-ci bəndinin altıncı abzasında “25-ci maddəsinin on birinci abzasında” sözləri “25-ci maddəsinin yeddinci abzasında” sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 avqust 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ TƏRKİBİ VƏ ƏSASNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli 113 nömrəli Sərəncamına əsasən **qərara alıram**:

1. Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyasının tərkibi və Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyası ilə birlikdə Dövlət Mükafatları laureatlarının diplomu və fəxri döş nişanlarının təsvirinə dair təklifləri iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Dövlət Mükafatları komissiyasının fəaliyyətinin təşkili ilə bağlı olan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2010-cu il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2010-cu il 8 fevral tarixli Fərmanı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ ƏSASNAMƏSİ

### I. Ümumi müddəalar və mükafatlandırılmanın şərtləri

1. Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyası (bundan sonra – komissiya) Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli 113 nömrəli Sərəncamına əsasən elm, mədəniyyət və ədəbiyyat sahələrində ən yaxşı əsərləri qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etmək məqsədilə yaradılmışdır.

2. Komissiyanın fəaliyyəti Azərbaycan Respublikasının qanunları, digər qanunvericilik aktları və bu Əsasnamə ilə tənzimlənir.

3. Komissiya Azərbaycan Respublikasının Prezidenti tərəfindən yenidən təşkil və ləğv edilə bilər.

4. Komissiyaya aşağıdakı hüquqlar verilir:

4.1. elm, mədəniyyət və ədəbiyyat sahələri üzrə bölmələr və ekspert qrupları yaratmaq, onların iş qaydasını təsdiq etmək;

4.2. təqdim edilən əsərlərlə fərdi şəkildə tanış olmaq məqsədilə zəruri hallarda yerlərə ekspert qrupları göndərmək;

4.3. təqdim edilən əsərlərə rəy vermək üçün ayrı-ayrı müəssisə və qurumları, habelə mütəxəssisləri cəlb etmək;

4.4. təqdim edilən əsərlərin və həmin əsərlərlə bağlı nəşr olunmuş resenziyaların və rəylərin ilkin öyrənilməsini təmin etmək;

4.5. təqdim edilən əsərlər zəruri tələblərə cavab vermədikdə müvafiq sahə üzrə Mükafatın verilməməsi barədə qərar qəbul etmək.

5. Komissiyanın cari fəaliyyətini təmin etmək üçün onun nəzdində üç nəfərdən ibarət katiblik yaradılır.

6. Komissiya öz möhür və blankına malikdir.

7. İki ildən bir verilən və hər biri 30000 (otuz min) manat məbləğində olan Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə 3 (üç) Dövlət Mükafatı (bundan sonra – Mükafat) hər cüt ildə 28 may – Respublika günü ərəfəsində komissiyanın qərarı ilə dövlət büdcəsinin vəsaiti hesabına verilir.

8. Mükafat Azərbaycan Respublikasının vətəndaşı olan müəlliflərə elmin, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr təşkil edən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, dövlətçilik, iqtisadi inkişaf və digər sahələrdəki elmi kəşflərə və ixtiralara, qabaqcıl sənaye-texniki təcrübənin tətbiqinə və nəzəri tədqiqatlara, habelə yeni material və mexanizmlərin yaradılmasına görə verilir.

9. Əsərlər (işlər) Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, dövlət idarə və təşkilatları, ali təhsil, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri, ictimai və yaradıcı birliklər tərəfindən Mükafata təqdim oluna bilər.

10. Fundamental və tətbiqi elmlərə aid əsərlər müvafiq elmi şuralarda müzakirədən sonra və ya Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən, bədii əsərlər isə yaradıcı ittifaqların qərarı ilə Mükafata təqdim edilə bilər.

11. Əsərlər hər cüt ilin aprel ayının 1-dək komissiyaya təqdim edilməlidir. Mükafata təqdim edilən namizədlərin və əsərlərin siyahısı Mükafatın verilməsinə bir ay qalmış kütləvi informasiya vasitələrində dərc olunur.

12. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən digər mükafatlara, eləcə də başqa ölkələrin dövlət mükafatlarına layiq görülmüş əsərlər bu Mükafata təqdim edilə bilməz.
Mükafat bir şəxsə bir dəfədən artıq verilə bilməz. Bir müəllifə eyni zamanda bir neçə əsərə görə Mükafat verilmir.

Bir qurum tərəfindən Mükafata yalnız bir əsər təqdim edilə bilər.

13. Mükafata layiq görülən şəxslərə pul vəsaiti ilə yanaşı, "Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı"nın diplomu və fəxri döş nişanı təqdim edilir.

14. Mükafatın pul hissəsi iki müəllif arasında bərabər surətdə, 3 nəfərdən ibarət kollektivdə rəhbərə Mükafatın yarısı verilməklə, qalan yarısı digər iki müəllif arasında bərabər qaydada, başqa hallarda isə rəhbər müəllifə Mükafatın 1/3 hissəsi verilməklə, 2/3 hissəsi də qalan həmmüəlliflər arasında bərabər olaraq bölüşdürülür.

Həmmüəlliflər rəhbər irəli sürmədikdə, Mükafat bütün müəlliflər arasında bərabər bölünür.

15. Vəfat etmiş, yaxud ölümündən sonra təltif edilmiş laureatın diplomu, fəxri döş nişanı və Mükafatın pul vəsaiti onun vərəsələrinə təqdim olunur. Laureatın vərəsələri olmadıqda diplom və fəxri döş nişanı komissiyada saxlanılır, pul vəsaiti isə dövlət büdcəsinə qaytarılır.

**II. Əsərlər haqqında sənədlərin və materialların hazırlanması, onların təqdim olunma qaydası**

16. Elm və ədəbiyyat sahələrinə aid əsərlər mətbəə üsulu ilə çap edilmiş şəkildə 4 nüsxədə komissiyaya təqdim olunur, zəruri hallarda digər müvafiq materiallar əlavə edilir.

İncəsənət sahəsi ilə bağlı əsərlər müxtəlif şəkildə, o cümlədən rəqəmsal, CD və DVD formatlarında təqdim oluna bilər.

17. Əsərləri və namizədləri irəli sürən qurum, müəssisə və ya təşkilat komissiya qarşısında vəsatət qaldırır. Vəsatətdə əsər və müəllif haqqında məlumat, mükafata təqdim olunma səbəbləri və əsərlə bağlı digər zəruri məlumatlar göstərilir.

18. Mükafata təqdim olunan müəllifin adı, atasının adı, soyadı, doğulduğu tarix, ixtisası, fəxri adları, elmi dərəcələri və elmi adları, iş yeri, tutduğu vəzifə, iş və ev ünvanı, əlaqə telefonları və elektron poçt ünvanı dəqiq göstərilməlidir.

19. Vəsatət qurum, müəssisə və ya təşkilatın rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq olunur. Qurum, müəssisə və ya təşkilatın rəhbəri əsərin müəllifi sırasına daxildirsə, təqdimat onun müavini tərəfindən imzalanır.
Kollektiv namizədlik irəli sürüldükdə vəsatətlə birlikdə hər bir müəllifin əsərin yaradılmasında iştirakını səciyyələndirən məlumat təqdim edilir. Təsviri sənət və memarlıq sahəsinə aid əsərlər üzrə həmin məlumat qurum, müəssisə və ya təşkilatın rəhbəri və irəli sürülmüş əsərlərin müəllifləri tərəfindən imzalanmalıdır. Kollektiv əsərin rəhbərinin olub-olmadığı ayrıca göstərilməlidir.

20. Vəsatətlə birlikdə aşağıdakı sənədlər təqdim edilməlidir:

20.1. əsər və namizədlərin irəli sürülməsinə dair keçirilmiş iclas və yığıncaqların, elmi və ya texniki şuraların protokolları, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin və ya yaradıcı ittifaqların rəyasət heyətlərinin qərarı (kollektiv əsər təqdim olunduqda protokol və ya qərarda hər bir namizədin əsərdə iştirakı barədə məlumat əksini tapmalıdır);

20.2. hər bir namizədin əmək fəaliyyəti haqqında qısa məlumat və 4x6 sm ölçüdə iki ədəd fotoşəkil;

20.3. təqdim olunan əsərin tədqiqatçılar tərəfindən imzalanmış qısa annotasiyası;

20.4. elmi-texniki işlər üçün texniki və iqtisadi göstəricilər, tətbiqetmənin nəticələri, yayılma miqyası haqqında məlumat;

20.5. əsər və müəllifləri barədə mətbuatda dərc olunmuş rəy və tədqiqatlar (əsli və ya təsdiq olunmuş surəti).

21. Əsərin hər bir nüsxəsi cildlənərək, üz qabığında təqdim edən qurum, müəssisə və ya təşkilatın və əsərin adı, habelə müəllifin (müəlliflərin) adı, soyadı göstərilməklə komissiyaya göndərilir. Komissiyanın ünvanı: Bakı şəhəri, Lermontov küçəsi, 68, Azərbaycan Respublikasının Nazirlər Kabineti.

**III. Komissiya tərəfindən Mükafatın verilməsi barədə qərarın qəbul edilməsi**

22. Komissiyanın iclasları komissiyanın sədri tərəfindən çağırılır.

İclasda komissiya üzvlərinin ən azı 2/3 hissəsi iştirak etdikdə, həmin iclas səlahiyyətli hesab olunur.

23. Mükafatın verilməsi barədə komissiyanın qərarı gizli səsvermə yolu ilə qəbul olunur.

İştirak edənlərin ən azı 3/4 hissəsi namizədin lehinə səs verdiyi halda, komissiyanın qərarı qəbul olunmuş hesab edilir.

24. Komissiyanın qəbul etdiyi qərar qətidir.

25. Mükafatın verilməsi barədə komissiyanın qərarı kütləvi informasiya vasitələrində elan olunur.

*Azərbaycan Respublikası Prezidentinin*
*2010-cu il 8 fevral tarixli Fərmanı*
*ilə təsdiq edilmişdir*

## AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ TƏRKİBİ

| | | |
|---|---|---|
| **Komissiyanın sədri** | | |
| Artur Rasi-zadə | | Azərbaycan Respublikasının Baş naziri |
| **Komissiyanın üzvləri** | | |
| Elçin Əfəndiyev | | Azərbaycan Respublikası Baş nazirinin müavini, xalq yazıçısı |
| Mahmud Kərimov | | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| Əbülfəs Qarayev | | Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri |
| Misir Mərdanov | | Azərbaycan Respublikasının təhsil naziri |
| Abbas Ələsgərov | | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri |
| Arif Mehdiyev | | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| İsmayıl Sadıqov | | Azərbaycan Respublikası Nazirlər Kabinetinin Elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri |

| | | |
|---|---|---|
| Akif Əlizadə | | Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| Nailə Vəlixanlı | | Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| Ömər Eldarov | | Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Heydər Əliyev Mükafatı laureatı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı |
| Abel Məhərrəmov | | Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| Əhliman Əmiraslanov | | Azərbaycan Tibb Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət Mükafatı laureatı |
| Siyavuş Kərimi | | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti |
| İsa Həbibbəyli | | Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| Aqşin Əlizadə | | Azərbaycan Bəstəkarlar İttifaqının katibi, xalq artisti, Azərbaycan Dövlət Mükafatı laureatı |
| Çingiz Abdullayev | | Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı |
| Toğrul Nərimanbəyov | | Xalq rəssamı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı |
| Arif Məlikov | | Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, xalq artisti, Heydər Əliyev Mükafatı laureatı, Azərbaycan Dövlət Mükafatı laureatı |
| Şəfiqə Məmmədova | | Xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı |
| Mövlud Süleymanlı | | Xalq yazıçısı |

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 16 MAY TARİXLİ 574 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN STRUKTURU"NA ƏLAVƏ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan dövlətinin artan iqtisadi imkanları ölkə ərazisində yerləşən muzey binalarında əsaslı təmir-bərpa işlərinin aparılmasına, yeni belə tikililərin inşa olunmasına təkan vermiş, muzey işinin təşkilində və maraqlı ekspozisiyaların qurulmasında müsbət dəyişikliklərə səbəb olmuşdur. Azərbaycan muzeylərinin fəaliyyətinin muzey işinin müasir prinsipləri əsasında, dünya standartlarına uyğun yenidən qurulması istiqamətində görülən işlər də nəzərə alınmaqla, Azərbaycan xalqının tarixi-mədəni irsinin qorunması və geniş miqyasda təbliği məqsədi ilə muzey işi sahəsində həyata keçirilən tədbirlər böyük ictimai əhəmiyyətə malikdir.

Azərbaycan xalqının qədim və zəngin tarixinin öyrənilməsi, onun gələcək nəsillərə ərməğan edilməsində muzeylər əvəzolunmaz rol oynayır. Onlar xalqın dəyərlərini qorumaqla yanaşı, mənəvi tərbiyə ocağı funksiyalarını da yerinə yetirirlər. Bu mənada 1964-cü ildən fəaliyyət göstərən "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyi öz tarixiliyi və memarlıq-estetik görünüşü ilə xüsusi əhəmiyyət kəsb edir. İçərişəhərin simasına əzəmət verən bu muzey kompleksi şanlı tarixi keçmişimizin öyrənilməsi və təbliği, xalqımızın maddi-mədəniyyət dəyərlərinin əcnəbi qonaqlara nümayiş etdirilməsi üçün əhəmiyyətli işlər görməkdədir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisindəki abidələrin təbliği ilə məşğul olan dövlət mədəniyyət təsisatları ilə bağlı vahid dövlət idarəetməsini təmin etmək və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunu təkmilləşdirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 may tarixli 574 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 456) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturu"na aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

"2.5. "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarix-Memarlıq qoruq-muzeyi".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 fevral 2010-cu il***

## "AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli 606 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddələr 614, 625; 2005-ci il, № 8, maddə 715; 2007-ci il, № 11, maddə 1110; 2008-ci il, № 6, maddə 500):

1.1. 1.1-ci bənddə "Ordubad Milli Parkı" sözləri "Zəngəzur Milli Parkı" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında Əsasnamə"nin adında və 1.1-ci bəndində "Ordubad Milli Parkı" sözləri "Zəngəzur Milli Parkı" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 fevral 2010-cu il***

## "AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN NİZAMNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun işçilərinin say həddi 10 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xərclər smetasını, ştat cədvəlini və işçilərinin aylıq vəzifə maaşlarını müəyyən etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, 1 ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dövlət qeydiyyatına alınmasını təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 fevral 2010-cu il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2010-cu il 19 fevral tarixli Fərmanı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Fond) "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 21 oktyabr tarixli 526 nömrəli Sərəncamına uyğun olaraq yaradılmışdır.

1.2. Fond dövlət sifarişi əsasında fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli sahələr üzrə elmi tədqiqatları və digər elmi tədbirləri qrant şəklində məqsədli maliyyələşdirməklə, elmin inkişafına xidmət edən qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Nizamnaməni rəhbər tutur.

1.4. Fond bu Nizamnamədə nəzərdə tutulmuş vəzifə və funksiyalarını yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət, yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, yerli və xarici təşkilatlarla, ictimai və beynəlxalq qurumlarla qarşılıqlı fəaliyyət göstərir.

1.5. Fond öz fəaliyyətini şəffaflıq, əməkdaşlıq, qarşılıqlı məsuliyyət və hesabatlılıq prinsipləri əsasında qurur.

1.6. Fond müstəqil balansa, xəzinə hesabına, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamp və blanklara, loqotipə malikdir.

1.7. Fondun fəaliyyəti və saxlanma xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. Fond Bakı şəhərində yerləşir.

**2. Fondun əsas məqsədi və vəzifələri**

2.1. Fondun əsas məqsədi Azərbaycan Respublikasında elmi təşkilatlar, təhsil müəssisələri, digər müvafiq qurumlar və fiziki şəxslər tərəfindən təqdim olunmuş təbiət, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi tədqiqat proqramları və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) qrant şəklində ünvanlı maliyyələşdirmək, alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara azad yaradıcılıq imkanı yaratmaq, habelə elm müəssisələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən tədbirləri həyata keçirmək yolu ilə Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatın inkişafında bu potensialdan səmərəli istifadə etmək, mühüm sosial problemlərin həllində elm və texnikanın rolunu yüksəltmək və dövlətin elmi informasiya və innovasiya ehtiyatlarını artırmaqdır.

2.2. Fondun vəzifələri aşağıdakılardır:

2.2.1. elmin inkişafı ilə bağlı vahid dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli 255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın məqsədlərinə müvafiq olaraq təkliflər irəli sürmək, layihələr hazırlamaq, onların həyata keçirilməsini təmin etmək;

2.2.3. Azərbaycan Respublikasında elmi tədqiqatların stimullaşdırılmasını, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsini, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılmasını və dünya elmi məkanında Azərbaycanda əldə edilmiş elmi nəticələrin layiqincə təmsil olunmasını öz səlahiyyətləri daxilində təmin etmək;

2.2.4. elm sahəsində araşdırmaların aparılması, beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə elmi tədbirlərin (konfransların, simpoziumların, seminarların və s.) təşkili üzrə layihələri dəstəkləmək;

2.2.5. öz fəaliyyəti haqqında ictimaiyyətə müntəzəm məlumat vermək;

2.2.6. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**3. Fondun funksiyaları**

3.1. Fond bu Nizamnamə ilə müəyyən olunmuş vəzifələrinə uyğun olaraq aşağıdakı funksiyaları yerinə yetirir:

3.1.1. bu Nizamnaməyə uyğun olaraq dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil edir;

3.1.2. Azərbaycan Respublikasının sosial-iqtisadi və elmi-mədəni inkişafına müvafiq olaraq müsabiqə üçün prioritet elmi istiqamətləri müəyyən edir;

3.1.3. layihələrin idarə edilməsi qaydalarını və maliyyələşdirilməsi məqsədi ilə müsabiqələrin keçirilməsi qaydalarını müəyyən edir;

3.1.4. müsabiqəyə təqdim edilən layihələrə baxılması qaydalarını müəyyən edir;

3.1.5. müsabiqə yolu ilə layihələrin seçilməsini təşkil və təmin edir;

3.1.6. qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə uyğun olaraq layihələri maliyyələşdirir, Fond tərəfindən ayrılan vəsaitin təyinatı üzrə istifadəsinə nəzarət edir, həmin vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə maliyyələşdirmənin dayandırılması və verilən vəsaitin qaytarılması üçün qanunvericiliyə uyğun tədbirlər görür;

3.1.7. digər qrant ayıran yerli və xarici qurumlarla və şəxslərlə birgə elmi tədqiqat layihələrinin maliyyələşdirilməsi barədə qərarlar qəbul edir;

3.1.8. müsabiqəyə təqdim edilən və icrası başa çatmış layihələrin ekspertizadan keçirilməsini təşkil edir, qrant yolu ilə yerinə yetirilmiş elmi tədqiqat işlərinin nəticələrini müzakirə edir və müvafiq hesabatları qəbul edir;

3.1.9. dövlət orqanları ilə elmi tədqiqat müəssisələri arasında əməkdaşlığın genişləndirilməsinə yardım edir;

3.1.10. elmi tədqiqat layihələrinin dəstəklənməsi və maliyyələşdirilməsi ilə bağlı ictimai rəyin öyrənilməsini təşkil edir;

3.1.11. bu Nizamnaməyə müvafiq olaraq elmi tədqiqat müəssisələrinə, digər qurumlara və fiziki şəxslərə müsabiqə əsasında maliyyə dəstəyinin göstərilməsi üçün müvafiq tədbirləri həyata keçirir;

3.1.12. maliyyə yardımından istifadə etmək üçün elmi tədqiqat müəssisələrinə, digər qurumlara və fiziki şəxslərə bərabər şərait və imkanlar yaradılmasını təmin edir;

3.1.13. layihələrin həyata keçirilməsi üçün Fondun vəsaitinin xərclənməsi istiqamətlərini müəyyən edir, bununla əlaqədar zəruri tədbirləri həyata keçirir;

3.1.14. layihələrin həyata keçirilməsi məqsədi ilə müsabiqələri təşkil edir və bununla bağlı:

3.1.14.1. elanlar verir;

3.1.14.2. layihələr üzrə vəsaitin miqdarını müəyyənləşdirir;

3.1.14.3. layihələrin təqdim olunma formalarını, müddətlərini və zəruri sənədlərin siyahısını müəyyən edir;

3.1.14.4. təqdim olunmuş layihələrin qiymətləndirilməsi işini həyata keçirir;

3.1.14.5. layihələri məqbul hesab edilən elmi tədqiqat müəssisələrinin və digər qurumların nümayəndələri və fiziki şəxslərlə şifahi müsahibə keçirir;

3.1.14.6. müsabiqədə qalib gəlmiş layihələri müəyyənləşdirir və müvafiq qərar qəbul edir;

3.1.14.7. müsabiqənin qalibi ilə vəsaitin istifadəsi şərtləri haqqında müqavilə bağlayır;

3.1.14.8. müsabiqəni baş tutmamış elan edir;

3.1.14.9. müsabiqənin nəticələri barədə məlumatları açıqlayır;

3.1.15. Azərbaycan Respublikasının dövlət büdcəsində elmin inkişafına maliyyə yardımının göstərilməsi və Fondun saxlanılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü ilə bağlı təkliflərini aidiyyəti üzrə təqdim edir;

3.1.16. layihələrin həyata keçirilməsi ilə bağlı elmi tədqiqat müəssisələrinin, digər qurumların və fiziki şəxslərin hesabatlarını nəzərdən keçirir, qiymətləndirmə aparır və zəruri hallarda müvafiq qərar qəbul edir;

3.1.17. Fondun ümumi fəaliyyəti haqqında, aktual və elmi-praktiki əhəmiyyət kəsb edən mühüm müsabiqələrin nəticələri haqqında məlumat verir;

3.1.18. internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;

3.1.19. Fondun fəaliyyəti barədə illik hesabatı bu Nizamnaməyə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentinə və aidiyyəti qurumlara təqdim edir və ümumi informasiyanı mətbuatda dərc etdirir;

3.1.20. elmi tədqiqatlar sahəsində fəaliyyət göstərən xarici və beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlər görür;

3.1.21. qanunvericiliyə uyğun olaraq digər funksiyaları həyata keçirir.

**4. Fondun hüquqları**

4.1. Fondun öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. məqsədlərinə uyğun olaraq layihələrin maliyyələşdirilməsi məsələsini həll etmək;

4.1.2. öz vəzifə və funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan məlumatları və sənədləri qanunvericiliyə uyğun olaraq dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən sorğu vermək yolu ilə əldə etmək;

4.1.3. Fondun fəaliyyətini və qrant layihələrinin mühüm elmi nəticələrini ölkə daxilində və xaricdə təbliğ etmək;

4.1.4. qanunvericiliyə uyğun olaraq xarici ölkələrdə müvafiq funksiyaları yerinə yetirən dövlət qurumları, qeyri-hökumət və digər təşkilatlarla əməkdaşlıq əlaqələri qurmaq, elmi-informasiya mübadiləsi aparmaq, razılaşdırılmış şərtlər əsasında müştərək ekspertlər qrupu yaratmaq;

4.1.5. qanunvericiliyə uyğun olaraq regional və beynəlxalq təşkilatlara üzv olmaq;

4.1.6. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet resursları yaratmaq;

4.1.7. layihələr üzrə elmi tədqiqat müəssisələri, digər qurumlar və fiziki şəxslər tərəfindən müqavilə şərtlərinin pozulması və təyinatdan kənar istifadə halları aşkar edildikdə, bu halların aradan qaldırılması ilə bağlı müqavilə tərəfinə və zəruri hallarda, qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara müraciət etmək;

4.1.8. layihələr üzrə müqavilə şərtlərini pozan elmi tədqiqat müəssisələrini, digər qurumları və fiziki şəxsləri iki ilədək müddətə Fondun layihələrində iştirakdan məhrum etmək;

4.1.9. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Fondun vəsaitinin formalaşdırılması və istifadəsi**

5.1. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırıla bilər:

5.1.1. Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmalar;
5.1.2. hüquqi və fiziki şəxslər tərəfindən könüllü verilən ianələr;
5.1.3. məqsədlərinə uyğun müxtəlif tədbirlərin təşkilindən əldə edilən gəlirlər;
5.1.4. xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən verilən qrantlar və digər ayırmalar;
5.1.5. qanunvericilikdə qadağan olunmayan digər mənbələr.
5.2. Fondun vəsaiti Azərbaycan manatı və xarici valyutalarla formalaşdırılır.
5.3. Fondun vəsaiti və sərəncamında olan əmlak bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlərə istifadə edilə bilməz.
5.4. Fond sərəncamında olan vəsaitdən bu Nizamnamədə əks olunmuş məqsədlər üzrə həyata keçirilən layihələrə, Fondun bu Nizamnamə ilə müəyyən edilmiş digər məqsədlərinə və Fondun xərclər smetasına uyğun istifadə edir.
5.5. Maliyyə ilinin sonunda Fondun hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.
5.6. Layihələr üzrə qrantlar böyük, orta və kiçik həcmli, həmçinin qısamüddətli və uzunmüddətli olmaqla, layihələrin məzmununa uyğun olaraq, akademik və təhsil sistemindəki elmi təşkilatların və müəssisələrin, digər qurumların, fiziki şəxslərin müvafiq olaraq statusundan, tabeliyindən və təşkilati-hüquqi formasından, həmçinin müsabiqədə iştirak edən alimlərin yaşından, onların tutduqları vəzifələrdən, elmi adlarından və elmi dərəcələrindən asılı olmayaraq, müəyyənləşdirilmiş elmi prioritetlərə uyğun, şəffaf müsabiqə əsasında ayrılır.
5.7. Layihələrin maliyyələşdirilməsi Fondla müsabiqənin qalibi (elmi rəhbəri) arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Layihənin xərclər smetası, layihənin yerinə yetirilməsi, elmi nəticələrin dərc etdirilməsi və ictimaiyyətə çatdırılması ilə bağlı xüsusi öhdəlikləri nəzərdə tutan müvafiq sənədlər müqaviləyə əlavə olunur.

**6. Fondun idarə edilməsi və fəaliyyətinin təşkili**

6.1. Fondun fəaliyyətinə ümumi nəzarət Fondun Himayədarlar Şurası (bundan sonra - Şura) tərəfindən həyata keçirilir.
6.2. Şura doqquz üzvdən ibarət tərkibdə formalaşdırılır.
6.3. Şura üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilirlər.
6.4. Şura üzvlərinin səlahiyyət müddəti 4 ildir. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Şuranın üzvü ola bilməz.
6.5. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər.
6.6. Şuranın üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.
6.7. Şuranın iclasları ildə iki dəfədən az olmayaraq keçirilir. Şuranın növbədənkənar iclasları Şura üzvlərinin yarıdan çoxunun və ya Fondun icraçı direktorunun təşəbbüsü ilə keçirilə bilər. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarları açıq səsvermə yolu ilə iclasda iştirak edən Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə Şura sədrinin səsi həlledici hesab edilir.
6.8. Şuranın sədri və sədr müavini Şuranın iclasında Şuranın üzvləri tərəfindən Şuranın üzvləri sırasından seçilir.
6.9. Şura:
6.9.1. Fondun fəaliyyətinin qanunvericiliyə uyğun olmasına, vəsaitinin formalaşmasına və xərclənməsinə ümumi nəzarəti həyata keçirir;
6.9.2. Fonda əlavə vəsait cəlb edilməsi strategiyasının hazırlanmasında iştirak edir;

6.9.3. layihələrin həyata keçirilməsi məqsədi ilə dövlət dəstəyinin yönəldilməsi daha məqsədəuyğun hesab edilən elmi tədqiqat sahələri barədə təkliflərini Fondun icraçı direktoruna təqdim edir;

6.9.4. elmi tədqiqat müəssisələrinin və digər hüquqi və fiziki şəxslərin layihələrinin qiymətləndirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarının, elmi tədqiqat müəssisələrinin nümayəndələrindən və digər mütəxəssislərdən (o cümlədən xarici mütəxəssislər cəlb edilməklə) ibarət daimi və ya müvəqqəti ekspert komissiyalarının yaradılmasına və tərkibinə dair tövsiyələr verir;

6.9.5. Fondun icraçı direktorunun təqdimatına əsasən Fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərini, onun illik xərclər smetasının layihəsini və balansını müzakirə edir və tövsiyələr verir;

6.9.6. Fondun fəaliyyəti ilə bağlı Fondun icraçı direktorunun illik hesabatlarına baxır və rəy verir;

6.9.7. səlahiyyətləri daxilində digər vəzifələri həyata keçirir.

6.10. Şura üzvləri aşağıdakı hüquqlara malikdirlər:

6.10.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

6.10.2. Şuranın iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olmaq;

6.10.3. Şurada baxılan məsələlərə dair fikir söyləmək;

6.10.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər vermək;

6.10.5. Şuranın qərarları, iclaslarının protokolları və digər sənədləri ilə tanış olmaq.

6.11. Şura üzvlərinin vəzifələri aşağıdakılardır:

6.11.1. Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmaq;

6.11.2. Şuranın iclaslarını üzrsüz səbəbdən buraxmamaq;

6.11.3. Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməmək;

6.11.4. Şurada baxılan məsələlər haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair ictimaiyyət qarşısında fikir söyləməmək.

6.12. Şuranın sədri:

6.12.1. Şuranın işini təşkil edir;

6.12.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslarını çağırır və iclaslarında sədrlik edir;

6.12.3. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirləri həyata keçirir.

6.13. Şura sədrinin müavini Şuranın sədri tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir, Şuranın sədri vəzifələrini icra edə bilmədikdə, onun səlahiyyətlərini həyata keçirir.

6.14. Şuranın hər bir üzvü Şuranın iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, Şuranı məlumatlandırmalı və qərarların qəbul edilməsində iştirak etməməlidir. Belə əsaslar olduqda, Şuranın üzvünə yazılı və ya şifahi formada əsaslandırılmış etiraz edilə bilər.

6.15. Şura üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda Şuranın qərarı ilə vaxtından əvvəl xitam verilə bilər:

6.15.1. öz arzusu ilə Şura üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

6.15.2. bu Nizamnamədə Şura üzvü üçün nəzərdə tutulmuş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

6.15.3. səhhətinə görə vəzifələrini bir ildən artıq müddətdə yerinə yetirə bilmədikdə;

6.15.4. ardıcıl olaraq 4 dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə;

6.15.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

6.15.6. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

6.15.7. Şura üzvünün adına ləkə gətirən hərəkətlərə yol verdikdə.

6.16. Səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş Şura üzvünün yerinə yeni üzv onun səlahiyyət müddətinin qalmış hissəsinə bu Nizamnamədə nəzərdə tutulmuş qaydada təyin edilir.

6.17. Fondun fəaliyyətinə rəhbərlik Fondun icraçı direktoru (bundan sonra - İcraçı direktor) tərəfindən həyata keçirilir.

6.18. İcraçı direktor Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.19. İcraçı direktor:

6.19.1. Fondun cari fəaliyyətinə rəhbərlik edir və Fondu təmsil edir;

6.19.2. Fondun strukturunu təsdiq edir;

6.19.3. Fondun illik fəaliyyət planını təsdiq edir;

6.19.4. Fondun maliyyə vəsaiti də daxil olmaqla, qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə uyğun olaraq əmlakını idarə edir, müqavilələr bağlayır, səlahiyyətləri daxilində əmrlər, sərəncamlar və göstərişlər verir, onların icrasına nəzarəti həyata keçirir;

6.19.5. işçiləri əmək müqaviləsi əsasında, qanunvericiliyə uyğun olaraq işə qəbul edir, işdən azad edir, onlar barədə qanunvericilikdə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir;

6.19.6. Fondun daxili intizam qaydalarını, əməkdaşların davranış kodeksini və səlahiyyətləri daxilində Fondun idarə edilməsi məsələləri ilə bağlı sənədləri təsdiq edir;

6.19.7. Fondun xərclər smetasının layihəsini, vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərinə dair təklifləri hazırlayır və baxılmaq üçün Şuraya təqdim edir;

6.19.8. bu Nizamnaməyə uyğun olaraq müsabiqəyə təqdim olunan layihələrin qiymətləndirilməsini, maliyyə yardımının ayrılmasını, bununla əlaqədar müvafiq əqdlərin bağlanmasını təmin edir;

6.19.9. Fond tərəfindən maliyyələşdirilən layihələrin və digər tədbirlərin icra vəziyyətinə nəzarəti həyata keçirir;

6.19.10. Fondun fəaliyyəti ilə bağlı illik hesabatı hazırlayır, Şuranın müvafiq rəyi ilə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

6.19.11. Fondun maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət edir və qanunvericiliyə uyğun olaraq auditin keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir;

6.19.12. Fondun kargüzarlıq işlərini təşkil edir;

6.19.13. Fondun səmərəli fəaliyyətini təmin etmək məqsədilə cari və perspektiv maddi-texniki təminat məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirir;

6.19.14. Fondun fəaliyyətinin və idarəetməsinin təkmilləşdirilməsi və informasiya təminatının gücləndirilməsi üçün təkliflər hazırlayır və müvafiq tədbirlər həyata keçirir;

6.19.15. öz səlahiyyətləri daxilində Fondun fəaliyyətinə aid qərarların icrası ilə əlaqədar müvafiq tədbirlər görür;

6.19.16. Fondun illik fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandırır;

6.19.17. qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

6.20. Fondun xərclər smetası, ştat cədvəli və işçilərinin aylıq vəzifə maaşları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

6.21. Fondun işçilərinin say həddi və İcraçı direktorun aylıq vəzifə maaşı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

**7. Fondun yenidən təşkili və ləğvi**

Fondun yenidən təşkili və ləğvi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

# "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2010-CU İL 1 FEVRAL TARİXLİ 947-IIIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 1 fevral tarixli 947-IIIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin birinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 13-cü maddəsinin birinci hissəsinin ikinci cümləsində, 18-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində, 20-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 23-cü maddəsinin ikinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində, 26-cı maddəsinin birinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirirlər;

1.2. həmin Qanunun 1-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri daxilində həyata keçirirlər.

2. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 386; 2002-ci il, № 1, maddə 14; 2006-cı il, № 9, maddə 743, № 11, maddə 943; 2007-ci il, № 11, maddə 1115; 2008-ci il, № 1, maddə 8, № 6, maddə 498) 2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 1-ci maddəsinin beşinci hissəsində ikinci halda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini, 4-cü maddəsinin yeddinci hissəsində, 5-ci maddəsinin birinci hissəsində, 8-ci maddəsində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 13-cü maddəsinin birinci və ikinci hissələrinin ikinci cümlələrində, 14-cü maddəsinin birinci və ikinci hissələrində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 17-ci maddəsinin ikinci hissəsində, 18-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin ikinci cümləsində, 20-ci maddəsinin

birinci hissəsinin birinci və ikinci cümlələrində və ikinci hissəsində, 21-ci maddəsinin ikinci və üçüncü hissələrində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində, 26-cı maddəsinin birinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir;";

2.2. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 1-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri daxilində həyata keçirirlər;";

2.3. on birinci abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 1-ci maddəsinin beşinci hissəsində hər iki halda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini, 4-cü maddəsinin yeddinci hissəsində, 5-ci maddəsinin birinci və ikinci hissələrində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və ikinci hissəsində, 13-cü maddəsinin birinci və ikinci hissələrinin ikinci cümlələrində, 14-cü maddəsinin birinci və ikinci hissələrində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 16-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində, 17-ci maddəsinin ikinci hissəsində, 18-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin ikinci cümləsində, 20-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və ikinci hissəsində, 21-ci maddəsinin ikinci və üçüncü hissələrində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 24-cü maddəsinin ikinci hissəsində, 25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində, 26-cı maddəsinin birinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 avqust 2010-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİNİN YARADILMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 noyabr tarixli 2504 nömrəli Sərəncamı ilə Bakı şəhərində yaradılmış Dövlət Bayrağı Meydanı ölkəmizin qüdrətini, xalqımızın dövlət atributlarına ehtiramını təcəssüm etdirir.

Eyni zamanda, paytaxtın simvollarından birinə çevrilən Dövlət Bayrağı Meydanının fəaliyyəti mürəkkəb mühəndis-texniki konstruksiyaların istismarı ilə bağlıdır.

Göstərilənləri, habelə Bakı şəhərindəki Dövlət Bayrağı Meydanı Kompleksinin Azərbaycanın ictimai və siyasi həyatında xüsusi əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi yaradılsın.

2. Müəyyən edilsin ki, Bakı şəhərindəki Dövlət Bayrağı Meydanı Kompleksinin vəziyyəti, fəaliyyəti, perspektiv inkişafı və mühafizəsi üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi tərəfindən həyata keçirilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi haqqında Əsasnamənin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin strukturu və işçilərinin say tərkibi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Bakı şəhərindəki Dövlət Bayrağı Meydanı Kompleksi ərazisinin hüdudlarını dəqiqləşdirib təsdiq etsin;

3.4. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin fəaliyyətinin təşkili ilə bağlı maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

3.5. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2010-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİ HAQQINDA ƏSASNAMƏNİN, İDARƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin aparatının işçilərinin say həddi 30 ştat vahidi müəyyən edilsin.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin tabeliyində olan qurumlar dövlət büdcəsinin vəsaiti, həmçinin xidmətlər göstərilməsindən və işlərin görülməsindən əldə edilən vəsait hesabına fəaliyyət göstərirlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 aprel 2011-ci il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2011-ci il 8 aprel tarixli Fərmanı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2011-Cİ İL 8 APREL TARİXLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞDİR AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİ HAQQINDA ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi (bundan sonra - İdarə) Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 noyabr tarixli 355 nömrəli Fərmanına əsasən yaradılmışdır. İdarə Bakı şəhərindəki Dövlət Bayrağı Meydanı Kompleksinin (bundan sonra – Kompleks) vəziyyəti, fəaliyyəti,

perspektiv inkişafı və mühafizəsi üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar, ianələr, tabeliyində olan qurumlar tərəfindən xidmətlər göstərilməsindən və işlərin görülməsindən əldə edilən vəsait hesabına maliyyələşdirilir.

1.6. İdarə Bakı şəhərində yerləşir.

**2. İdarənin fəaliyyət istiqamətləri**

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Kompleksin vəziyyəti, fəaliyyəti, perspektiv inkişafı və mühafizəsi üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarətini həyata keçirmək;

2.1.2. Kompleksin fəaliyyətini təmin etmək;

2.1.3. Kompleksə dair proqnozlaşdırma və planlaşdırma işlərini təşkil etmək və kompleksin perspektiv inkişafını təmin etmək.

**3. İdarənin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq İdarənin vəzifələri aşağıdakılardır:

3.1.1. Kompleksin vəziyyəti, fəaliyyəti, perspektiv inkişafı, bərpası və mühafizəsi sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.1.2. İdarənin fəaliyyət istiqamətlərinə dair məsələlərlə bağlı digər icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək;

3.1.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həmin müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.4. Kompleksin ərazisində hər hansı bərpa, inşaat-təmir, rekonstruksiya işləri üzrə layihə-smeta sənədlərini müvafiq qurumlarla razılaşdırmaq və təsdiq etmək, müxtəlif qorunma tələbləri irəli sürmək;

3.1.5. Azərbaycan Respublikasının Dövlət bayrağının mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək, həmin məqsədlə muzey təşkil etmək;

3.1.6. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.7. dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının aidiyyəti üzrə ayrılan vəsaitlərindən, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatına uyğun, səmərəli istifadə olunmasını təmin etmək;

3.1.8. fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.9. Kompleksin ərazisinin qorunması və mühafizəsi sahəsində pozuntu hallarının aradan qaldırılması barədə icrası məcburi olan göstərişlər vermək və müvafiq tədbirlər görmək;

3.1.10. Kompleksin ərazisində törədilmiş inzibati xətalar və digər hüquq pozuntuları barədə müvafiq dövlət orqanlarına müraciət etmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.12. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin etmək;

3.1.13. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.1.14. İdarənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və müvafiq tədbirlər görmək.

**4. İdarənin hüquqları**

4.1. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Kompleksin vəziyyəti, fəaliyyəti, perspektiv inkişafı, bərpası və mühafizəsi ilə bağlı normativ hüquqi və qeyri-normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

4.1.2. zəruri məlumatlar (sənədlər) almaq məqsədi ilə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək;

4.1.3. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

4.1.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək, fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübəni öyrənmək;

4.1.5. fəaliyyətinin təşkili məqsədi ilə mütəxəssislərin seçilib yerləşdirilməsi üçün müvafiq tədbirlər görmək;

4.1.6. tabeliyində olan qurumlar vasitəsilə Kompleksin bərpası və inkişafı üzrə layihə-smeta sənədlərinin hazırlanmasını, tikinti-quraşdırma, təmir və bərpa işlərini təşkil etmək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz fəaliyyətinə cəlb etmək;

4.1.8. həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində xüsusi bülletenlər və digər nəşrlər buraxmaq.

**5. İdarənin fəaliyyətinin təşkili**

5.1. İdarənin aparatı və tabeliyində olan qurumlar İdarənin vahid sistemini təşkil edir. İdarə öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. İdarənin Əsasnaməsinin və strukturunun təsdiq olunması, aparatının işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

5.3. İdarənin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.4. İdarənin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarənin rəisi rəhbərlik edir. İdarənin rəisi İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.5. İdarə rəisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır. İdarə rəisinin müavini İdarənin rəisi tərəfindən ona həvalə olunmuş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.6. İdarənin rəisi:

5.6.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. İdarənin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq olunmaq üçün təqdim edir;

5.6.3. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində İdarənin aparatının və tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.6.4. İdarənin aparatının işçilərini, tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.6.5. öz səlahiyyəti daxilində icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasına nəzarəti həyata keçirir, normativ hüquqi və qeyri-normativ hüquqi aktların icrasını təşkil edir;

5.6.6. İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd qərarlarını ləğv edir;

5.6.7. İdarəni təmsil edir;

5.6.8. İdarənin fəaliyyətinə dair illik hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

5.7. İdarənin rəisinin, rəis müavininin və aparatının işçilərinin əməyinin ödənilməsi normaları və digər təminatları müvafiq olaraq Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin, rəhbər müavininin və aparatının işçilərinin əməyinin ödənilməsi normalarına və təminatlarına bərabər tutulur.

5.8. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün İdarədə ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər. Elmi-Texniki Şura haqqında Əsasnamə İdarənin rəisi tərəfindən təsdiq edilir.

***Azərbaycan Respublikası Prezidentinin***
***2011-ci il 8 aprel tarixli Fərmanı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİNİN STRUKTURU

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin aparatı.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN TƏŞKİLİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

2011-ci il 7-9 aprel tarixlərində Azərbaycan Respublikasında 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə ayrı-ayrı aspektlərinin nəzərdən keçirilməsi və yerli, regional və qlobal səviyyələrdə gücləndirilməsinə təşviq edilməsi Forumun əsas məqsədi olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizin İslam dünyası ilə Qərb sivilizasiyası və eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təsis edilməsi və Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş Forumun təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

3.1. Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 may 2011-ci il***

## “AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2011-Cİ İL 17 MAY TARİXLİ 124-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 29 YANVAR TARİXLİ 19 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 17 may tarixli 124-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

1.1. qüvvədə olan Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində nəzərdə tutulmuş digər dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi qaydasını və istifadəyə görə haqqın məbləğini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qüvvədə olan normativ xarakterli aktların “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı müvafiq tədbirlər görsün.

3. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 19 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 25) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Müəyyən edilsin ki:

1.1. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Qanunun 5.2-ci maddəsində, 6.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 9.2-ci maddəsində hər iki halda nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 iyun 2011-ci il***

## 2011-Cİ İL APRELİN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2011-ci il aprelin 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Bolqarıstan Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 iyun 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR S A Z İ Ş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti,

iki ölkə arasında mövcud dostluq əlaqələrini inkişaf etdirmək və gücləndirmək niyyətində olaraq,

ikitərəfli əlaqələrində mədəniyyətlərarası dialoqun rolunu vacib hesab edərək,

həmçinin mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası adından - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi;

Bolqarıstan Respublikası adından - Bolqarıstan Respublikasının Mədəniyyət Nazirliyi.

### Maddə 2

Razılığa gələn Tərəflər dövlət mədəniyyət siyasəti üzrə təcrübə və məlumat mübadiləsi aparacaqlar.

**Maddə 3**

Razılığa gələn Tərəflər öz ölkələrinin mədəniyyət təsisatları arasında əməkdaşlığa şərait yaradacaq və bu məqsədlə hər iki ölkənin muzey, kitabxana və teatrları arasında müqavilələrin bağlanılması imkanlarını araşdıracaqlar.

**Maddə 4**

Razılığa gələn Tərəflər mədəniyyət-və incəsənət sahəsində təhsil alınması, təcrübə keçirilməsi məqsədilə müəllim, tələbə və tədqiqatçı mübadiləsi aparacaqlar və elmi konfrans, simpozium və kollokviumlar təşkil edəcəklər.

**Maddə 5**

Razılığa gələn Tərəflər digər Tərəfin Mədəniyyət Günlərinin keçirilməsi imkanlarını araşdıracaqlar.

**Maddə 6**

Razılığa gələn Tərəflər mədəniyyət abidələrinin qorunması, bərpası, regenerasiyası və konservasiyası sahəsində əməkdaşlıq edəcəklər.

**Maddə 7**

Razılığa gələn Tərəflər kitabxana və nəşriyyat işi sahəsində əməkdaşlıq aparacaqlar.

**Maddə 8**

Razılığa gələn Tərəflər hər iki ölkədə keçirilən beynəlxalq musiqi, incəsənət, teatr və ya kino festivallarında təşkilatçıların şərtlərinə və qaydalarına müvafiq olaraq dəvət əsasında iştirak edəcəklər.

**Maddə 9**

Razılığa gələn Tərəflər hər iki ölkədə rəssamlıq, dekorativ-tətbiqi sənət və kulinariya sərgiləri keçirəcəklər.

**Maddə 10**

Razılığa gələn Tərəflərin yazılı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan əlavə protokollarla

rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

**Maddə 11**

Bu Saziş beş (5) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurаların yerinə yetirdikləri barədə bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilər. Saziş belə bildiriş alındığı tarixdən 6 (altı) ay sonra qüvvədən düşmüş hesab edilir.

Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Razılığa gələn Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində “08” aprel 2011-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, bolqar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətnə istinad ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Bolqarıstan Respublikası Hökuməti adından** |
| (imza) | (imza) |

## 2011-Cİ İL APRELİN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ 2011-2013-CÜ İLLƏR ÜZRƏ ƏMƏKDAŞLIQ BARƏDƏ TƏDBİRLƏR PLANI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2011-ci il aprelin 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İordaniya Haşimilər Krallığının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində 2011-2013-cü illər üzrə əməkdaşlıq barədə Tədbirlər Planı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Tədbirlər Planının müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 iyun 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ 2011-2013-CÜ İLLƏR ÜZRƏ ƏMƏKDAŞLIQ BARƏDƏ T Ə D B İ R L Ə R P L A N I

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İordaniya Haşimilər Krallığının Mədəniyyət Nazirliyi,

2010-2011-2012-ci illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahəsində İcraedici Əməkdaşlıq Proqramının həyata keçirilməsi məqsədi ilə,

İki ölkə arasında mövcud olan dostluq münasibətlərini daha da inkişaf etdirmək və gücləndirmək niyyətində olaraq,

İkitərəfli münasibətlərdə mədəniyyətlərarası dialoqun mühüm rolunu nəzərə alaraq və mədəniyyət sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Razılığa gələn Tərəflər 2011-2013 illərdə öz imkanları daxilində aşağıdakı tədbirlərin təşkil edilməsi barədə razılığa gəldilər. Hər tədbirin detalları diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaqdır.

<table>
<tr><th>№</th><th>Tədbir</th><th>Tarix</th><th>Qeydlər</th></tr>
<tr><th>1</th><th>2</th><th>3</th><th>4</th></tr>
<tr><td>1.</td><td>İordaniyalı-alimlərin II Bakı Beynəlxalq Kulturologiya ekspertləri Forumunda iştirakı</td><td>2011-ci ilin ikinci yarısı</td><td></td></tr>
<tr><td>2.</td><td>İordaniyanın nəşr evlərinin II Bakı Kitab Sərgisində iştirakı</td><td>Sentyabr, 2011</td><td></td></tr>
<tr><td>3.</td><td>Bakıda İordaniya mətbəxi festivalı</td><td>Mart, 2012</td><td></td></tr>
<tr><td>4.</td><td>Əmmanda Azərbaycan mətbəxi festivalı</td><td>Noyabr, 2012</td><td></td></tr>
<tr><td>5.</td><td>Azərbaycanda İordaniya film festivalı</td><td>2013-cü ilin birinci yarısı</td><td rowspan="2">Kral Film Komissiyası ilə birlikdə təşkil ediləcək</td></tr>
<tr><td>6.</td><td>İordaniyada Azərbaycan film festivalı</td><td>2013-cü ilin ikinci yarısı</td></tr>
<tr><td>7.</td><td>iki ölkənin Milli Kitabxanalar arasında beynəlxalq kitab mübadiləsi</td><td>2011-2013</td><td></td></tr>
</table>

## Maddə 2

Yuxarıda adı çəkilən İcra Proqramının 9-cu maddəsini nəzərə alaraq, Razılığa gələn Tərəflər Milli Kitabxanalar arasında əməkdaşlığı M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və İordaniyanın Milli Kitabxanası arasında Əməkdaşlıq Memorandumunun həyata keçirilməsi vasitəsi ilə təşviq edəcəklər.

## Maddə 3

Hazırkı Tədbirlər Planına Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında hər hansı əlavə və dəyişikliklər edilə bilər.

Bu Tədbirlər Planı imzalandığı gündən qüvvəyə minir.

Bu Tədbirlər Planı Bakı şəhərində "8" aprel 2011-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Tədbirlər Planının təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

**Azərbaycan Respublikasının** **İordaniya Haşimilər Krallığının**

| | |
|---|---|
| **Mədəniyyət və Turizm Nazirliyi adından** | **Mədəniyyət Nazirliyi adından** |
| (imza) | (imza) |

## 2011-Cİ İL APRELİN 9-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ İRAQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2011-ci il aprelin 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İraq Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Memorandumun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İraq Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 iyun 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ İRAQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA A N L A Ş M A   M E M O R A N D U M U

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İraq Respublikasının Mədəniyyət Nazirliyi,

İki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Razılığa gələn Tərəflər aşağıda göstərilən sahələrdə əməkdaşlığı genişləndirəcəklər:

1. Tərəflər arasında kitab, tətbiqi sənət nümunələri, folklor nümunələri və qədim geyim əşyalarının sərgilərinin, ədəbi və elmi simpoziumların, musiqi və teatr günlərinin ehtiva olunduğu mədəniyyət həftələrinin keçirilməsi;
2. Tərəflərin mədəniyyət müəssisələri arasında kitab, CD-lər və mətbuat məhsullarının mübadiləsi və mədəniyyət sahəsində mətbuat məhsulları paylanmasının təşviqi və tərcümə sahəsində birgə layihələrin hazırlanması;

3. Tərəflərin ölkələrində keçirilən ədəbi, elmi və mədəniyyət konfransları, simpoziumları və seminarlarda iştirak;

4. Tərəflərin ölkələrində keçirilən mədəni musiqi və incəsənət tədbirlərində və yubileylərində iştirak və bu cür tədbirlərin uğurla keçirilməsi üçün təcrübə mübadiləsi;

5. Tərəflərin mədəniyyət müəssisələri arasında incəsənət, elm və mədəniyyət sahələrində mütəxəssislərin qarşılıqlı səfərləri, təcrübə mübadiləsinin təşviqi, incəsənət və mədəniyyət fəaliyyəti ilə əlaqəli müştərək araşdırmaların aparılması vasitəsilə əlaqələrin gücləndirilməsi, arxeoloji qazıntılar sahəsində birgə əməkdaşlıq və müştərək elmi əsərlərin yazılması, kitabların ingilis və ərəb dillərində nəşr olunması imkanlarının nəzərdən keçirilməsi.

**Maddə 2**

Tərəflərin hər biri öz ərazilərində digər tərəfə məxsus olan müəlliflik hüququnun, əlaqəli hüquqların, folklor nümunələrinin (ənənəvi mədəni nümunələrin) və digər oxşar əqli mülkiyyət hüquqlarının qorunmasını təmin edir.

Müəlliflik hüququnun və digər oxşar əqli mülkiyyət hüquqlarının qorunması Tərəflərin qanunvericiliklərinə və qoşulduqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçiriləcəkdir.

**Maddə 3**

Tərəflər uşaq mədəniyyəti sahəsində mütəxəssis və ekspertlər mübadiləsini təşkil edir, uşaqların müştərək mədəniyyət əl işlərini təqdim edir, o cümlədən uşaqlara aid teatr tamaşaları, filmləri, mədəniyyət sahəsində mətbuat məhsulları, CD-lərin mübadiləsini və tərbiyəvi araşdırmalar, axtarışlar və seminarlar təşkil edirlər.

**Maddə 4**

Tərəflər musiqi və teatr sahələrində institutların əməkdaşlığını təşkil edir, Tərəflər arasında bu institutların tələbə və müəllimlərinin qarşılıqlı səfərlərini təşkil edir və birgə tədbirlər planı həyata keçirirlər.

**Maddə 5**

Tərəflər kino məhsulları, hər iki ölkədə kino festivalları həftəliklərinin təşkili, hər iki ölkədən kino və teatr truppalarının kino və teatr yubileylərində iştirak üçün dəvət edilməsi və teatr tamaşaları həftələrinin təşkili vasitəsi ilə kino, teatr və xalq yaradıcılığının mübadiləsi sahəsində əməkdaşlıq edirlər.

**Maddə 6**

Tərəflər aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi vasitəsi ilə tarixi sərvətlər sahəsində əməkdaşlığı gücləndirir və təcrübə mübadiləsi aparırlar:

1. Arxeoloji qazıntılar aparılması, tarixi sərvətlərin mühafizəsi, muzey işi, tarixi sənədlər, əlyazmaların bərpası, qorunması və araşdırılması sahəsində ekspertlərin mübadiləsi;

2. Tarixi sərvətlər, muzeylər, tarixi sənədlərin və əlyazmaların qorunması və bərpası ilə əlaqəsi olan konfranslar və elmi seminarlarda iştirak;

3. Tərəflər hər hansı bir tərəfin ərazisindən oğurlanmış tarixi sərvətlərin qaytarılmasına dair əməkdaşlıq edəcəklər;

4. Hər iki tərəfin ərazisindən qeyri-qanuni yolla çıxardılmış tarixi sərvətlərin qaytarılması hər iki tərəfin diqqət mərkəzində qalaraq bu sərvətlərin hər biri barəsində hər bir tərəf digər tərəfi məlumatlandırır;

5. Hər bir Tərəfin tarixi sərvətlərini əks etdirən rəngli kartların, filmlərin, çap məhsullarının və broşürlərin mübadiləsi;

6. Tərəflər arasında tarixi sərvətlər sahəsində işləyənlərin ixtisas artırma mübadiləsi;

7. Tərəflərin ərazilərində irsi və tarixi eskponatlara aid incəsənət sərgilərinin təşkili.

**Maddə 7**

Tərəflər əlyazmaların kataloqları və elektron surətlərinin mübadiləsi çərçivəsində elmi fəaliyyətin və əlyazma mərkəzləri ilə əməkdaşlığın möhkəmləndirilməsini, nadir əlyazmaların surətlərinin sərgilərinin təşkilini öz üzərinə götürürlər.

**Maddə 8**

Bu Anlaşma Memorandumunun icrası ilə bağlı yaranmış fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 9**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olan və 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

**Maddə 10**

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanır və imzalandığı gündən qüvvəyə minir. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, bu Anlaşma Memorandumunun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində, 09 aprel 2011-ci il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumun müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

**Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi adından**

**İraq Respublikasının Mədəniyyət Nazirliyi adından**

(imza) (imza)

## 2011-Cİ İL İYUNUN 9-DA LYUBLYANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SLOVENİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT, TƏHSİL VƏ ELM SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2011-ci il iyunun 9-da Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında mədəniyyət, təhsil və elm sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Sloveniya Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 iyul 2011-ci il***

## 2011-Cİ İL MAYIN 25-DƏ PEKİN ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ ÇİN XALQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA 2011-2015-Cİ İLLƏR ÜÇÜN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL"UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2011-ci il mayın 25-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2011-2015-ci illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 iyul 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ MONTENEQRO ARASINDA 2011-Cİ İL SENTYABRIN 16-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası və Monteneqro arasında 2011-ci il sentyabrın 16-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Monteneqronun Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Monteneqro tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2011-ci il***

## 2011-Cİ İL SENTYABRIN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ HƏŞTƏRXAN VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2011-ci il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Həştərxan vilayəti (Rusiya Federasiyası) Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2011-ci il***

## BAKI ŞƏHƏRİNDƏ “EUROVİSİON-2012” MAHNI MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASINA GƏLƏN ƏCNƏBİLƏR VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏR ÜÇÜN VİZA PROSEDURLARININ SADƏLƏŞDİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASİ PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Müəyyən edilsin ki, Bakı şəhərində keçiriləcək “Eurovision-2012” mahnı müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn müsabiqə iştirakçısı olan dövlətlərin vətəndaşları və həmin dövlətlərdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. “Eurovision-2012” mahnı müsabiqəsinin Təşkilat Komitəsi tərəfindən verilmiş rəsmi dəvət məktubu;

2.2. Avropa Yayımları Birliyinin müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən sənəd;

2.3. “Eurovision-2012” mahnı müsabiqəsinin konsertlərinə bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Bu Fərmanın 1-ci hissəsində göstərilən şəxslər viza almaq üçün aşağıdakı müddətlərdə müraciət edə bilərlər:

3.1. “Eurovision-2012” mahnı müsabiqəsinin Təşkilat Komitəsi tərəfindən verilmiş rəsmi dəvət məktubu əsasında gələn şəxslər, habelə Avropa Yayımları Birliyinin müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçmiş iştirakçılar və nümayəndə heyətlərinin üzvləri - 2012-ci il aprelin 15-dən iyunun 1-dək;

3.2. Avropa Yayımları Birliyinin müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçmiş jurnalistlər və fanklub üzvləri, habelə “Eurovision-2012” mahnı müsabiqəsinin konsertlərinə bilet əldə etmiş şəxslər - 2012-ci il mayın 10-dan iyunun 1-dək.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. “Eurovision-2012” mahnı müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslərə Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza verilməsi işinin təşkili ilə bağlı maddi-texniki təminat məsələlərini həll etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

5.1. “Eurovision-2012” mahnı müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Avropa Yayımları Birliyinə və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

5.2. “Eurovision-2012” mahnı müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumatın Nazirliyin,

habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti "Eurovision-2012" mahnı müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 fevral 2012-ci il***

**“AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 25 İYUL TARİXLİ 431 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

“Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 431 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 595; 2010, № 2, maddə 80, № 9, maddə 773) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## 2012-Cİ İL APRELİN 12-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SAN MARİNO RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2012-ci il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə San Marino Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 iyun 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SAN MARİNO RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA S A Z İ Ş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və San Marino Respublikası Hökuməti,

Hər iki Ölkənin iqtisadiyyatı və iki xalq arasında daha yaxşı anlaşma və dostluq əlaqələrində turizmin zərurətini dərk edərək,

Onların müvafiq potensiallarım nəzərə alaraq, turizm sahəsində fəal əməkdaşlığın təşviqinə ehtiyac olduğuna əmin olaraq,

Razılığa gələn Tərəflərin turizm sahəsində davamlı inkişafını təmin etmək məqsədilə təbii, ekoloji və mədəni ehtiyatların qorunub saxlanılmasına yönəlmiş hər hansı bir tədbiri həyata keçirmək arzusunu nəzərə alaraq,

Aşağıdakılar barədə razılığa gəlirlər:

### Maddə 1

Razılığa gələn Tərəflər hər iki xalqın tarix və mədəniyyəti haqqında bilik səviyyəsini yüksəltmək məqsədilə hər iki ölkə arasında turizm əlaqələrinin inkişafına və gücləndirilməsinə xüsusi diqqət göstərirlər.

Razılığa gələn Tərəflər hər iki ölkənin turizm sahəsində fəaliyyət göstərən müəssisə, təşkilat, institut və orqanları arasında əməkdaşlığa dəstək göstərirlər.

**Maddə 2**

Razılığa gələn Tərəflər təlim və texnoloji araşdırmalar sahəsində əməkdaşlıq vasitəsilə bu sahələrin qorunması və idarə olunmasını təkmilləşdirmək və onların milli qanunvericiliklərinə uyğun olaraq turizm sahəsində sərmayələri artırmaq məqsədilə turizm sektorunun inkişafını təşviq etmək üçün əməkdaşlığı gücləndirməyə səy göstərir və turizm marketinqinin təşviqinə yönəlmiş ekspert mübadiləsini həvəsləndirirlər.

**Maddə 3**

Hazırkı Sazişin həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi;

San Marino Respublikası Hökuməti adından - San Marino Respublikasının Turizm, İdman və İqtisadi Planlaşdırma Nazirliyi.

**Maddə 4**

Razılığa gələn Tərəflər öz səlahiyyətləri çərçivəsində aşağıdakıları dəstəkləyirlər:

a) turizmin inkişafı üçün birgə tədbirlərin görülməsi və müvafiq təcrübə mübadiləsi məqsədilə turizmin təşviqi, əyləncə və təhsil sahələrində texniki missiyaların həyata keçirilməsi;
b) turistləri cəlb etmək məqsədilə nəşrlər və turizm təşviqat materiallarının mübadiləsi;
c) turizm məqsədləri üçün YUNESKO-nun İrs Abidələrinin və tarixi əhəmiyyətli binaların qorunması və təşviqi məqsədilə əməkdaşlığın inkişafı;
d) turizm və ekologiya qanunvericiliyi sahələrində mübadilə.

**Maddə 5**

Razılığa gələn Tərəflər peşə təlimləri sahəsində əməkdaşlığı həvəsləndirəcək, turizm sahəsində təhsil proqramları üzrə informasiya mübadiləsini yüngülləşdirəcək və aidiyyəti milli səlahiyyətli orqanlar vasitəsilə turizm və turizm biznesinin idarə olunması sahəsində ekspertlərin təlim keçməsi üçün maddi dəstək göstərilməsi imkanlarını araşdırırlar.

**Maddə 6**

Razılığa gələn Tərəflər aparılan tədqiqatlar və onların nəticələri haqqında məlumat mübadiləsi vasitəsilə hər iki ölkə üçün maraqlı olan turizm və mehmanxana idarəçiliyi sahələrində araşdırma proqramlarının həyata keçirilməsinə səy göstərirlər.

**Maddə 7**

Razılığa gələn Tərəflər özlərinin müvafiq orqanları, həmçinin turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar arasında gələcək əməkdaşlığı inkişaf etdirmək üçün səylərini əsirgəmir və əldə olunmuş nailiyyətlər barədə məlumat mübadiləsi aparırlar.

**Maddə 8**

Bu Sazişin nəticəsi olan bütün əməkdaşlıq formaları Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**Maddə 9**

Bu Sazişin icrasını təmin etmək və mövcud layihələri razılaşdırmaq məqsədilə Razılığa gələn Tərəflər müvafiq olaraq öz hökumətlərinə təqdim ediləcək təkliflərin müzakirəsi və layihələşdirilməsi üçün cavabdeh olan Birgə İşçi Qrup yaradırlar.

Bu İşçi Qrup həmçinin, Razılığa gələn Tərəflər tərəfindən qəbul olunmuş proqramların operativ olaraq idarə olunmasına cavabdehdir və layihələr işləyib hazırlayır.

**Maddə 10**

Hazırkı Sazişə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə Sazişin ayrılmaz tərkib hissəsi olan və 11-ci maddəsində müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

**Maddə 11**

Hazırkı Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş illik müddətə bağlanır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Əgər Razılığa gələn Tərəflər başqa cür razılaşmazlarsa, bu Sazişin sona çatması Saziş çərçivəsində razılaşdırılmış proqram və layihələrin həyata keçirilməsinə təsir göstərmir.

Bu Saziş Bakı şəhərində “12” aprel 2012-ci il tarixində Azərbaycan, italyan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı hər hansı bir fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| **Azərbaycan Respublikası Hökuməti adından** | **San Marino Respublikası Hökuməti adından** |
|---|---|
| *(imza)* | *(imza)* |

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"nin 14.3-cü bəndində nöqtəli vergül işarəsindən əvvəl ", müvafiq sahədə fərqlənən işçiləri Nazirlik tərəfindən təsis olunmuş döş nişanları və fəxri fərmanlarla təltif edir" sözləri əlavə edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 iyul 2012-ci il***

## "HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN ƏSASNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Heydər Əliyev Mərkəzinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Heydər Əliyev Mərkəzinin aparatının işçilərinin say həddi 154 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. cari ilin sonuna kimi Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə bağlı tələb olunan vəsaitin ayrılmasını müvafiq qaydada təmin etsin;

3.2. 2013-cü il və növbəti illər üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində Heydər Əliyev Mərkəzinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrıca sətirlə müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 oktyabr tarixli 161 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №10, maddə 774) ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 oktyabr 2012-ci il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2012-ci il 8 oktyabr tarixli Fərmanı***
***ilə təsdiq edilmişdir***

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Heydər Əliyev Mərkəzi (bundan sonra – Mərkəz) "Heydər Əliyev Mərkəzi"nin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 1886 nömrəli Sərəncamı ilə yaradılmışdır.

1.2. Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin, Heydər Əliyev irsinin dərindən öyrənilməsi, tədqiqi, geniş təbliği, qorunub saxlanılması, hərtərəfli inkişaf etdirilməsi və tətbiqini, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsini, bu sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini, yerli, regional və beynəlxalq tədbirlərin keçirilməsini təmin edən dövlət təsisatıdır.

1.3. Mərkəz bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında hesabat verir.

1.4. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.5. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət, yerli özünüidarəetmə orqanları, yerli, xarici və beynəlxalq təşkilatlarla, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.6. Mərkəz hüquqi şəxsdir, müstəqil balansa, qanunvericiliyə uyğun olaraq istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.7. Mərkəzin fəaliyyəti və saxlanma xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. Mərkəz Bakı şəhərində yerləşir.

**2. Mərkəzin fəaliyyət istiqamətləri**

2.1. Mərkəzin fəaliyyət istiqamətləri:

2.1.1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı tarixi əşyaların və maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişi və təbliği;

2.1.2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin, Heydər Əliyev irsinin dərindən öyrənilməsi, tədqiqi, geniş təbliği, qorunub saxlanılması və hərtərəfli inkişaf etdirilməsi;

2.1.3. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dövlət siyasətinin ayrı-ayrı sahələrində tətbiqi;

2.1.4. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin öyrənilməsi ilə bağlı digər qurumlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi;

2.1.5. Azərbaycan tarixi, mədəniyyəti, Azərbaycan dilinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği;

2.1.6. elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsi və onların inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi;

2.1.7. yerli, regional və beynəlxalq tədbirlərin keçirilməsi;

2.1.8. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Mərkəzə həvalə olunan digər istiqamətlər.

**3. Mərkəzin vəzifələri**

3.1. Mərkəz bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsinin və Heydər Əliyev irsinin dərindən öyrənilməsini və tədqiqini təşkil etmək, həmin sahələrdə materialların əldə edilməsi, toplanılması, kataloqlaşdırılması, fondlarda qorunub saxlanılması, dərc edilməsi və nümayiş olunmasını təmin etmək;

3.1.2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsini və Heydər Əliyev irsini geniş təbliğ etmək və bu istiqamətdə tədbirlər həyata keçirmək;

3.1.3. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya, iqtisadiyyat və digər sahələrdə qorunması və inkişaf etdirilməsini təmin etmək üçün tədbirlər görmək və təkliflər hazırlamaq;

3.1.4. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

3.1.5. internet və digər elektron xidmətlərinin təşkili və göstərilməsini təmin etmək;

3.1.6. Mərkəzin maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, Mərkəzin fəaliyyətinin səmərəliliyini artırmaq üçün müvafiq tədbirlər görmək;

3.1.7. Mərkəzə ayrılan dövlət büdcəsi və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.8. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.9. Mərkəzdə olan arxiv sənədlərinin müəyyən olunmuş qaydada saxlanılmasını və mühafizəsini təmin etmək;

3.1.10. Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə dövlət orqanları, idarə və təşkilatları, habelə beynəlxalq təşkilatlar, o cümlədən hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən fəaliyyəti əlaqələndirmək;

3.1.11. Mərkəzin sərəncamında olan dövlət əmlakını fəaliyyət istiqamətlərinə uyğun olaraq müstəqil surətdə istifadə etmək;

3.1.12. Mərkəzin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.13. Mərkəzin fəaliyyət planını hazırlamaq.

**4. Mərkəzin hüquqları**

4.1. Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq təkliflər, proqramlar, planlar, tədbirlər hazırlamaq və həyata keçirmək, Azərbaycan Respublikasının Prezidentinə və aidiyyəti dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara baxılmaq üçün təkliflər vermək;

4.1.2. Heydər Əliyevin fəlsəfi və dünya görüşlərinə, Heydər Əliyev irsinə aid materialların elmi, bədii, habelə kütləvi nümayiş etdirilən əsərlərdə və digər təbliğat vasitələrində tətbiqinə dair rəy vermək;

4.1.3. Mərkəzin fəaliyyətini təmin etmək məqsədi ilə qanunvericiliklə qadağan olunmayan fəaliyyət növləri ilə məşğul olmaq;

4.1.4. Mərkəzin fəaliyyəti ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlamaq və (və ya) onların hazırlanmasında iştirak etmək;

4.1.5. Mərkəzin fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Azərbaycan Respublikasının Prezidenti qarşısında təşəbbüslə çıxış etmək;

4.1.6. müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, müvafiq beynəlxalq ittifaqlar və assosiasiyalara üzv olmaq, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.7. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, araşdırma, tədqiqat və təbliğat işlərini həyata keçirmək, təkliflər vermək;

4.1.8. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun müxtəlif mükafatlar, Mərkəzin fəxri adlarını və təltiflərini təsis etmək;

4.1.9. qanunvericiliklə müəyyən edilmiş qaydada nəşrlər buraxmaq, habelə kütləvi informasiya vasitələri təsis etmək;

4.1.10. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq konfrans, simpozium, muzey, sərgi, ekspozisiya və digər tədbirlər təşkil etmək;

4.1.11. Mərkəzin sərəncamında olan dövlət əmlakının Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun istifadəsini təmin etmək məqsədi ilə hüquqi və fiziki şəxslər ilə müstəqil surətdə müqavilələr bağlamaq;

4.1.12. tədbirlərin keçirilməsi, müvəqqəti və daimi xidmətlər göstərən strukturların (obyektlərin) yaradılması, özəl və dövlət qurumları ilə müqavilə əsasında birgə fəaliyyətdə iştirak, müxtəlif növ xidmətlərin göstərilməsi yolu ilə qanunvericiliyə zidd olmayan gəlir əldə etmək;

4.1.13. Mərkəzin vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxslər və tabeliyində olan qurumlar təsis etmək, həmin hüquqi şəxslər barəsində təsisçi (iştirakçı) funksiyalarını həyata keçirmək;

4.1.14. Mərkəzin vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə qrantlar, ianələr və digər əvəzsiz köçürmələri almaq, qrantlar, ianələr və təqaüdlər təsis etmək;

4.1.15. Mərkəzin fəaliyyət istiqamətləri üzrə digər şəxslər tərəfindən göstərilən xidmətləri və müxtəlif tədbirləri maliyyələşdirmək, maddi-texniki və təşkilati cəhətdən dəstəkləmək;

4.1.16. Mərkəzin fəaliyyətinə aid olan məsələlərə dair müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək;

4.1.17. Mərkəzin fəaliyyət istiqamətlərinə aid olan məsələlər barədə məlumatları (sənədləri) əldə etmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) əldə etmək;

4.1.18. Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

4.1.19. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər hüquqları həyata keçirmək.

**5. Mərkəzin fəaliyyətinin təşkili**

5.1. Mərkəz öz fəaliyyətini aparatı və tabeliyində olan qurumları vasitəsilə həyata keçirir.

5.2. Mərkəzin işçilərinin say həddi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

5.3. Mərkəzin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Mərkəzin direktoru Mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Direktorun Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və bir müavini var. Direktorun müavinləri Mərkəzin direktoru tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Mərkəzin direktoru:

5.5.1. Mərkəzin işini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Mərkəzin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, istehsalat-təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Mərkəzin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi və onun hüquqlarının həyata keçirilməsi üçün zəruri tədbirlər görür;

5.5.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Mərkəzin aparatının və tabeliyində olan qurumlarının strukturunu, ştat cədvəli və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.5.5. müəyyən edilmiş qaydada Mərkəzin aparatının işçilərini və tabeliyində olan digər qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

5.5.6. Mərkəzin struktur bölmələrinin, tabeliyində olan qurumların əsasnamələrini və hüquqi şəxslərin nizamnamələrini təsdiq edir;

5.5.7. Mərkəzin işçiləri barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;

5.5.8. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.9. Mərkəzin adından etibarnaməsiz fəaliyyət göstərir, Mərkəzi təmsil edir, müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.10. Mərkəzin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.5.12. dövlət büdcəsindən ayrılan vəsaitlərin, büdcədənkənar xüsusi vəsaitlərin sərəncamçısı olmaqla, maliyyə vəsaitini qurumları arasında bölüşdürür, ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.13. Mərkəzdə daxili təhlükəsizliyin təminatı məsələləri ilə əlaqədar qərarlar qəbul edir;

5.5.14. Mərkəzin daxili intizam qaydalarını təsdiq edir;

5.5.15. Mərkəzin əmlakı barədə qanunvericiliyə uyğun olaraq müstəqil sərəncam verir, müqavilələr bağlayır, etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır;

5.5.16. Mərkəzin iş planlarının tərtib olunmasını təmin edir;

5.5.17. Mərkəzin fəaliyyətinin yaxşılaşdırılmasına dair təklifləri, Mərkəzin fəaliyyətinə dair hesabatları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

5.6. Mərkəzin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə tapşıra bilər.

5.7. Mərkəzin direktorunun aylıq vəzifə maaşı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Mərkəzin direktor müavinlərinin və işçilərinin aylıq vəzifə maaşları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

5.8. Mərkəzdə direktordan (Direktorlar Şurasının sədri), direktorun müavinlərindən, Mərkəzin struktur bölmələrinin və tabeliyində olan qurumların rəhbərlərindən ibarət

Direktorlar Şurası yaradılır. Direktorlar Şurasının üzvlərinin sayı və tərkibi direktor tərəfindən müəyyən olunur.

**6. Mərkəzin maliyyə-təsərrüfat fəaliyyəti**

6.1. Mərkəzin əmlakı ona təhkim edilmiş dövlət əmlakından, dövlət büdcəsindən məqsədli təyinatla ayrılan vəsaitlərdən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, qanunvericiliklə nəzərdə tutulan digər mənbələrdən daxil olan vəsaitlərdən ibarətdir.

6.2. Mərkəzin əmlakından bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi məqsədilə istifadə olunur. Mərkəz fəaliyyət istiqamətləri üzrə həyata keçirilən tədbirlərin maddi-texniki, hüquqi və təşkilati təminatını həyata keçirir.

6.3. Mərkəz öz vəzifələrini yerinə yetirmək məqsədi ilə büdcədənkənar vəsaitləri, hüquqi və fiziki şəxslərin, o cümlədən xarici hüquqi və fiziki şəxslərin, beynəlxalq təşkilatların qrant və ianələrini istifadə etməklə xüsusi fondlar yaratmaq və onlardan istifadə etmək hüququna malikdir.

6.4. Mərkəzin maddi-texniki bazasını torpaq sahələri, binalar, tikililər, müxtəlif qurğular, texniki vasitələr, metodiki materiallar, elmi və bədii ədəbiyyat, nəqliyyat vasitələri, maşın və avadanlıqlar, habelə başqa maddi-texniki təchizat vasitələri təşkil edir.

6.5. Mərkəzə təhkim edilmiş torpaq sahələri onun daimi istifadəsindədir.

6.6. Mərkəz əldə edilən gəlirlərdən və mülkiyyət obyektlərindən elmi və maddi bazanın inkişafı, işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, habelə öz fəaliyyəti ilə bağlı digər ehtiyaclar üçün qanunvericiliyə uyğun olaraq istifadə edir.

6.7. Mərkəzin direktorunun əmri ilə Mərkəzin öz maliyyə vəsaitləri hesabına vəzifə maaşlarına əlavə və artırmalar müəyyən oluna, mükafatlar və digər həvəsləndirici ödənişlər verilə bilər.

**7. Yekun müddəalar**

7.1. Mərkəz Azərbaycan Respublikasında və xarici ölkələrdə nümayəndəliklər təsis edə bilər.

7.2. Mərkəzin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

## “AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ TƏRKİBİ VƏ ƏSASNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL 8 FEVRAL TARİXLİ 212 NÖMRƏLİ FƏRMANINDA VƏ “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜKAFATI LAUREATININ DİPLOMU VƏ FƏXRİ DÖŞ NİŞANININ TƏSVİRLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL 8 MAY TARİXLİ 892 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, texnika və memarlıq sahələrində ən yaxşı əsərləri qiymətləndirmək məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi və Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 76) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “Elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi”ndə:

1.2.1. Komissiyanın adında “Elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin;

1.2.2. “Komissiyanın üzvləri” bölməsində “Respublikası Nazirlər Kabinetinin Elm, mədəniyyət, xalq təhsili və sosial problemlər” sözləri “Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər” sözləri ilə əvəz edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi”ndə:

1.3.1. Əsasnamənin adında “Elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin;

1.3.2. 1-ci hissədə “Elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin, “elm, mədəniyyət və ədəbiyyat sahələrində ən yaxşı əsərləri” sözləri “elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələrində ən dəyərli əsərləri (işləri, layihələri)” sözləri ilə əvəz edilsin;

1.3.3. 4.1-ci bənddə “elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin;

1.3.4. 7-ci hissədə “Elm, mədəniyyət və ədəbiyyat üzrə 3 (üç)” sözləri “Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə 5 (beş)” sözləri ilə əvəz edilsin;

1.3.5. 8-ci hissədə “elmin,” sözündən sonra “texnikanın, memarlığın,” sözləri əlavə edilsin, “təşkil edən” sözləri “verən” sözü ilə əvəz edilsin;

1.3.6. 9-cu hissədən “(işlər)” sözü çıxarılsın, “oluna bilər” sözləri “olunur” sözü ilə əvəz edilsin;

1.3.7. 10-cu hissədə “edilə bilər” sözləri “edilir” sözü ilə əvəz edilsin;

1.3.8. 16-cı hissədə:

1.3.8.1. birinci abzasda “Elm” sözündən sonra “, texnika, memarlıq” sözləri əlavə edilsin;

1.3.8.2. ikinci abzasda “İncəsənət” sözü “Mədəniyyət” sözü ilə, “oluna bilər” sözləri “olunur” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 may tarixli 892 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 416) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatının diplomunun təsviri”nə əlavə olunmuş Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı diplomunun dördüncü səhifəsinin eskizində “Elm,” sözündən sonra “texnika, memarlıq,” sözləri əlavə edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 noyabr 2012-ci il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 16 OKTYABR TARİXLİ 449-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 16 oktyabr tarixli 449-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində birinci halda nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində ikinci halda nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2012-ci il*

## 2012-Cİ İL NOYABRIN 15-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEÇEN RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2012-ci il noyabrın 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çeçen Respublikası (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çeçen Respublikası (Rusiya Federasiyası) Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2012-ci il***

## 2012-Cİ İL OKTYABRIN 9-DA BUDAPEŞT ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MACARISTAN HÖKUMƏTİ ARASINDA TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT ÜZRƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ"İN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2012-ci il oktyabrın 9-da Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Hökuməti arasında təhsil, elm və mədəniyyət üzrə əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Macarıstan Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2012-ci il***

# “AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA “İÇƏRİŞƏHƏR” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN ƏSASNAMƏSİNİN, İDARƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 16 MAY TARİXLİ 574 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin ərazi dairəsinin və fəaliyyət istiqamətlərinin genişləndirilməsi ilə əlaqədar onun işini təmin etmək məqsədi ilə qərara alıram:

1. “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsinin, idarənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 may tarixli 574 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 456; 2010, № 2, maddə 81) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə “56” rəqəmləri “68” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsi”ndə:

1.2.1. 1-ci bənddə “Qoruğu (bundan sonra - Qoruq)” sözləri “və “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruqları (bundan sonra - Qoruqlar)” sözləri ilə əvəz edilsin;

1.2.2. 1-ci bənddə, 7.2–7.5-ci, 8.7-ci, 8.9-cu, 8.11-ci, 8.22-ci (hər iki halda), 8.26-cı, 8.27-ci, 9.6-cı, 9.8–9.10-cu, 9.12-ci, 9.13-cü, 14.9-cu, 14.10-cu yarımbəndlərdə “Qoruğun” sözü “Qoruqların” sözü ilə əvəz edilsin;

1.2.3. 7.1-ci, 7.2-ci, 8.1–8.4-cü, 8.6-cı, 8.8-ci, 8.10-cu, 8.12-ci (hər üç halda), 8.13-cü, 8.14-cü, 8.16-cı, 8.17-ci, 8.20-ci, 8.22-ci, 8.23-cü, 9.1-ci, 9.7-ci, 9.17-ci yarımbəndlərdə, 23-cü bənddə “Qoruq” sözü “Qoruqlar” sözü ilə əvəz edilsin;

1.2.4. 8.24-cü, 9.14-cü yarımbəndlərdə “Qoruğa” sözü “Qoruqlara” sözü ilə, 9.2-ci yarımbənddə “Qoruqla” sözü “Qoruqlarla” sözü ilə əvəz edilsin;

1.2.5. 24-cü bənddə “Qoruq” sözü “ “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu” sözləri ilə əvəz edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturu”na aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

“2.6. “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 yanvar 2013-cü il***

## “MƏDƏNİYYƏT HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. altı ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Qanunun 12-ci maddəsinə uyğun olaraq, mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. həmin Qanunun 14.2.4-cü maddəsinə uyğun olaraq, mədəni sərvətlərdən aztəminatlı əhali, əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, müharibə iştirakçıları tərəfindən güzəştli istifadə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 22.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Qanunun 23.3-cü maddəsinə uyğun olaraq, mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 24.4-cü maddəsinə uyğun olaraq, peşəkar yaradıcılığın meyarlarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Qanunun 26.4-cü maddəsinə uyğun olaraq, mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.9. həmin Qanunun 27.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.10. həmin Qanunun 29.5-ci maddəsinə uyğun olaraq, mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibini, təşkilini və idarə olunması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.11. həmin Qanunun 32.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.12. həmin Qanunun 34.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazi sularında sualtı mədəni sərvətlərin sualtı mədəni irs nümunələrinə aid edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.13. həmin Qanunun 34.3-cü maddəsinə uyğun olaraq, sualtı mədəni irs nümunələrindən istifadə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.14. həmin Qanunun 38.4-cü maddəsinə uyğun olaraq, milli mədəni irs obyektlərinin sahiblərinə həmin obyektlərin mühafizəsini təmin etmək məqsədi ilə verilən təminatları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.15. həmin Qanunun 39.1-ci maddəsinə uyğun olaraq, mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.16. həmin Qanunun 40.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntılar aparan və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərini yerinə yetirən şəxs tərəfindən aparılmış tədqiqat işləri barədə hesabat verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.17. həmin Qanunun 42.3-cü maddəsinə uyğun olaraq, sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.18. həmin Qanunun 45.2-ci maddəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.19. həmin Qanunun 47.1-ci maddəsinə uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakının siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.20. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində həmin Qanunun 21.2-ci, 22.5-ci, 23.1-ci maddələrində, 26.4-cü maddəsində ikinci halda, 27.1-ci maddəsində ikinci halda, 29.1-ci maddəsində, 30.4-cü maddəsinin birinci cümləsində, 33.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 35.2-ci, 36.3-cü, 37.1-ci, 37.2-ci, 38.2-ci, 39.2-ci, 39.3-cü, 39.6-cı, 40.3-cü maddələrində, 40.4-cü maddəsinin birinci cümləsində, ikinci cümləsində ikinci halda, 40.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 41.1-ci, 41.2-ci, 42.1-ci, 45.1-ci, 47.4.3-cü, 48.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, 5.1-ci və 14.2-ci maddələrində nəzərdə tutulmuş vəzifələri həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyən edilməsi və onun əsasında dövlət proqramlarının və strategiyaların qəbul edilməsi və icrasına nəzarət üzrə), 25.1-ci maddəsində hər iki halda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində məqsədyönlü layihələrin və tədbirlər planlarının qəbul edilməsi və icrasına nəzarət üzrə), 12-ci, 14.2.4-cü, 22.3-cü, 23.3-cü, 24.4-cü maddələrində, 26.4-cü maddəsində birinci halda, 27.1-ci maddəsində birinci halda, 29.5-ci, 32.2-ci, 34.1-ci, 34.3-cü, 38.4-cü, 39.1-ci maddələrində, 40.4-cü maddəsinin ikinci cümləsində birinci halda, 42.3-cü, 45.2-ci, 47.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində məqsədyönlü layihələrin və tədbirlər planlarının qəbul edilməsi və onların icrasına nəzarət üzrə), 25.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 fevral 2013-cü il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ 725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanını “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 16 oktyabr tarixli 449-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386; 2002, № 1, maddə 14; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2007, № 11, maddə 1115; 2008, № 1, maddə 8, № 6, maddə 498; 2010, №8, maddə 723) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci bənddə “7-ci maddəsinin ikinci hissəsində” sözlərindən sonra “və üçüncü hissəsində ikinci halda” sözləri əlavə edilsin.

2. Onuncu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on birinci bənd əlavə edilsin:

“həmin Qanunun 7-ci maddəsinin üçüncü hissəsində birinci halda nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tarix və mədəniyyət abidələrinin yerləşdiyi ərazinin yerli icra hakimiyyəti orqanları ilə birgə, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir.”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 mart 2013-cü il***

## 2012-Cİ İL NOYABRIN 29-DA TİRANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ ALBANİYA RESPUBLİKASININ TURİZM, MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT VƏ TURİZM SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2012-ci il noyabrın 29-da Tirana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Albaniya Respublikasının Turizm, Mədəniyyət, Gənclər və İdman Nazirliyi arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Albaniya Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 mart 2013-cü il***

# 2013-CÜ İL FEVRALIN 14-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013-cü il fevralın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Küveyt Dövləti Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2013-cü il***

## “İNCƏSƏNƏT XADİMLƏRİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ TƏSİS EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2002-Cİ İL 8 MAY TARİXLİ 707 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 may tarixli 707 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 274, № 7, maddə 404; 2005, № 2 3, maddə 168; 2007, № 5, maddə 453) 1-ci hissəsində “yüz” sözündən sonra “otuz” sözü əlavə edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 aprel 2013-cü il***

## 2013-CÜ İL YANVARIN 28-DƏ TİRANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ ALBANİYA RESPUBLİKASININ TURİZM, MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ARASINDA 2013-2015-Cİ İLLƏRDƏ GƏNCLƏR VƏ İDMAN SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. 2013-cü il yanvarın 28-də Tirana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Albaniya Respublikasının Turizm, Mədəniyyət, Gənclər və İdman Nazirliyi arasında 2013-2015-ci illərdə gənclər və idman sahələrində Əməkdaşlıq Proqramı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Proqramının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Albaniya Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2013-cü il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ 725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386; 2002, № 1, maddə 14; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2007, № 11, maddə 1115; 2008, № 1, maddə 8, № 6, maddə 498; 2010, № 8, maddə 723; 2013, № 3, maddə 241) 2-ci hissəsinin ikinci və onuncu bəndlərində birinci halda “Qoruğu” sözü “və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları” sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2013-cü il***

## 2013-CÜ İL MARTIN 11-DƏ ZAQREB ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ XORVATİYA RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Xorvatiya Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Xorvatiya Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2013-cü il***

# 2013-CÜ İL MARTIN 12-DƏ MƏDİNƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TURİZM VƏ QƏDİM ABİDƏLƏR ÜZRƏ BAŞ KOMİSSİYASI ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013-cü il martın 12-də Mədinə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Səudiyyə Ərəbistanı Krallığı tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 iyun 2013-cü il***

## Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında ANLAŞMA MEMORANDUMU

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası milli qanunvericiliklərinə və 1994-cü il 10 iyul (02.02.1415-ci hicri ili) tarixində Ciddədə imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq haqqında Baş Saziş"ə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində iki ölkə arasında turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə aşağıdakılar barədə razılığa gəldilər:

M a d d ə 1

Razılığa gələn Tərəflər öz səlahiyyətləri çərçivəsində dəyərlərini və sosial adət-ənənələrini nəzərə alaraq, hər iki ölkənin turizm sənayesində davamlı inkişafa nail olmaq üçün razılığa gəlir və birgə fəaliyyət göstərirlər.

M a d d ə 2

Razılığa gələn Tərəflər turistləri cəlb etmək məqsədi ilə hər iki ölkədə sosial inkişaf sahəsində mədəniyyətin rolunu qoruyaraq və turizm və səyahət agentliklərini digər ölkələrdən turist qrupları üçün birgə proqramları təşkil və təşviq etməyə həvəsləndirərək tarixi, mədəni və şəhər irslərindən faydalanırlar.

M a d d ə 3

Razılığa gələn Tərəflər hər iki ölkədə turizm fəaliyyətləri, məlumat, statistika, tədqiqat və turizmə dair təşviqat materiallan mübadiləsi vasitəsilə qarşılıqlı turist səfərlərini təşviq edirlər.

M a d d ə 4

Razılığa gələn Tərəflər hər iki ölkədən ekspertlərin qarşılıqlı səfərləri və turizm sektoru nümayəndələri üçün mühazirələrin və seminarların təşkili vasitəsilə bilik mübadiləsini təşviq edirlər.

M a d d ə 5

Razılığa gələn Tərəflər turizm sektorunda çalışan insan resurslarının təlimində və turizmə dair məlumat, təcrübə, akademik proqram və tədqiqatların mübadiləsində əməkdaşlıq edirlər.

M a d d ə 6

Razılığa gələn Tərəflər əlverişli şərait yaratmaqla, turizm layihələrində və xidmətlərində öz səlahiyyətləri çərçivəsində qarşıhqlı sərmayə qoyuluşunu təşviq edirlər.

M a d d ə 7

Razılığa gələn Tərəflər memarlıq və milli irs, ənənəvi istehsal və əl sənətkarlığı sahələrində məlumat və təcrübə mübadiləsini və öz səlahiyyətləri çərçivəsində turizmin inkişafında həmin sahələrə sərmayə qoyuluşunu təşviq edirlər.

M a d d ə 8

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Razılığa gələn Tərəfə məlumat vermədiyi təqdirdə, onun qüvvədə qalma müddəti avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılır.

Bu Anlaşma Memorandumu Səudiyyə Ərəbistanı Krallığının Mədinə şəhərində 12 mart 2013-cü il (30.04.1434-cü hicri ili) tarixində Azərbaycan, ərəb və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə edilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi adından** | **Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası adından** |
| **Əbülfəz QARAYEV, nazir** | **Əlahəzrət Şahzadə Sultan bin Salman bin ƏBDÜƏLZİZ ƏL- SƏUD, Komissiyanın prezidenti** |

# GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATININ TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi, Azərbaycan gənclərinin elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil və ictimai fəaliyyət sahələrində nailiyyətlərini təşviq etmək məqsədi ilə **qərara alıram:**

1. Elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclər üçün, ildə bir dəfə verilməklə, altı ədəd 10000 (on min) manat məbləğində Prezident Mükafatı təsis edilsin.

2. "Gənclər üçün Prezident Mükafatının Əsasnaməsi" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Gənclər üçün Prezident Mükafatının diplomunun, nişanının və həmin nişanın vəsiqəsinin təsviri"ni 3 ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 iyul 2013-cü il***

## 2013-CÜ İL İYUNUN 6-DA VOLQOQRAD ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ VOLQOQRAD VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTISADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2013-cü il iyunun 6-da Volqoqrad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Volqoqrad vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Volqoqrad vilayəti (Rusiya Federasiyası) Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyul 2013-cü il***

## 2013-CÜ İL İYULUN 18-DƏ PARİS ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BMT-NİN TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT ÜZRƏ TƏŞKİLATI ARASINDA TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ ÇƏRÇİVƏ SAZİŞİ”NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTININ FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013-cü il iyulun 18-də Paris şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Çərçivə Sazişinin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Çərçivə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatını xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 avqust 2013-cü il***

## "AZƏRBAYCAN RESPUBLİKASINDA KİTABXANA-İNFORMASİYA SAHƏSİNİN 2008-2013-CÜ İLLƏRDƏ İNKİŞAFI ÜZRƏ DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 oktyabr 2008-ci il***

## AVROPA ŞURASINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN "MƏDƏNİYYƏTLƏRARASI DİALOQ AVROPA VƏ ONUN QONŞU REGİONLARINDA DAVAMLI İNKİŞAFIN VƏ SÜLHÜN ƏSASIDIR" MÖVZUSUNDA KONFRANSININ BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası beynəlxalq birliyin bərabərhüquqlu subyekti kimi dünyaya inteqrasiya siyasəti çərçivəsində Avropa Şurası ilə uğurlu əməkdaşlıq edir. Bu əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın nüfuzunun artmasına və təşkilata üzv dövlətlərlə münasibətlərin hərtərəfli inkişafına təkan vermişdir. Azərbaycanda mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində beynəlxalq səviyyəli silsilə tədbirlər həyata keçirilir. Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iştirakı ilə "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransın geosiyasi mövqe baxımından sivilizasiyalar qovuşuğunda yerləşən Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsinə dair təklif belə tədbirlərdən biri kimi Avropa Şurasının rəhbərliyi tərəfindən dəstəklənmişdir.

Avropa Şurası ilə əməkdaşlığın Azərbaycan Respublikası üçün böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı 2008-ci il 1-4 dekabr tarixlərində Bakı şəhərində keçirilsin.

2. Konfransın hazırlanması və keçirilməsini təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Artur Rasi-zadə -Azərbaycan Respublikasının Baş naziri

**Təşkilat Komitəsinin üzvləri**

Əbülfəs Qarayev -Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Elmar Məmmədyarov -Azərbaycan Respublikasının xarici işlər naziri

Ramil Usubov -Azərbaycan Respublikasının daxili işlər naziri

Əli Abbasov -Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Misir Mərdanov -Azərbaycan Respublikasının təhsil naziri

Oqtay Şirəliyev -Azərbaycan Respublikasının səhiyyə naziri

Ziya Məmmədov -Azərbaycan Respublikasının nəqliyyat naziri

Vaqif Axundov -Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi

Aydın Əliyev -Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin səlahiyyətlərini icra edən

Hicran Hüseynova -Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin səlahiyyətlərini icra edən

Elçin Quliyev -Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi səlahiyyətlərini icra edən

Cahangir Əsgərov -"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Kamran İmanov -Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi

3. Təşkilat Komitəsi konfransın keçirilməsi ilə bağlı müvafiq tədbirlər planı hazırlasın və onun yerinə yetirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 noyabr 2008-ci il***

## M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayeva Fatma Həsən qızı
Bayramov Dəmir Əmrah oğlu
Əsədova Bənövşə Ağamalı qızı
Həmidova Hərifət Mülki qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2008-ci il***

## M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARINA "AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının aşağıdakı əməkdaşlarına "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Əmrahova Yaşar Mustafa qızı
Hacıyeva Mələkxanım Məmməd qızı
Məmmədov Fazil Həsənbala oğlu
Məmmədova Tamilla Rəhim qızı
Tahirov Kərim Məhəmməd oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2008-ci il***

## T.T.SALAHOVUN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Tahir Teymur oğlu Salahov "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 noyabr 2008-ci il***

## Y.M.NƏSİROVA "AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Yasif Mirzə oğlu Nəsirova "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2008-ci il***

## 2009-CU İL İYUNUN 11-DƏ QƏBƏLƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA GÖMRÜK İŞİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI YARDIM HAQQINDA 5 NOYABR 2004-CÜ İL TARİXLİ SAZİŞİN HƏYATA KEÇİRİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ARASINDA PROTOKOL”UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il iyunun 11-də Qəbələ şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 avqust 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA GÖMRÜK İŞİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI YARDIM HAQQINDA 5 NOYABR 2004-CÜ İL TARİXLİ SAZİŞİN HƏYATA KEÇİRİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ARASINDA P R O T O K O L

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında malların və nəqliyyat vasitələrinin keçirilməsinə gömrük nəzarətini daha effektli həyata keçirməyə səy göstərərək,

Vaxtında aparılan məlumat mübadiləsinin, həmçinin qarşılıqlı yardımın və Tərəflərin əməkdaşlığının, gömrük nəzarətinin təkmilləşdirilməsinə səbəb olacağım dərk edərək,

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin (bundan sonra Saziş) müddəalarının həyata keçirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər bu Protokolun imzalandığı gündən 30 gün ərzində öz bölmələri və vəzifəli şəxsləri, həmçinin bu Protokolla nəzərdə tutulmuş məsələlər üzrə birbaşa əlaqələri həyata keçirmək səlahiyyətləri olan gömrük idarələrinin siyahılarım mübadilə edirlər.

Tərəflər göstərilən siyahılardakı dəyişikliklər barədə gecikdirilmədən bir-birini xəbərdar edəcəklər.

**Maddə 2**

Bu Protokola əsasən Sazişdə nəzərdə tutulmuş əməkdaşlıq, Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq və bu Protokolun 1-ci maddəsində göstərilən bölmələrin səlahiyyətləri çərçivəsində həyata keçirilir.

**Maddə 3**

Tərəflərin rəhbərləri zərurət yarandıqda, Sazişin həyata keçirilməsinin qiymətləndirilməsi məqsədilə, həmçinin, öz səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq, qarşılıqlı maraq kəsb edən digər gömrük məsələlərini müzakirə etmək üçün görüşəcəklər. Görüşlərin yeri və zamanı hər bir hal üçün ayrıca razılaşdırılacaqdır. Zərurət yarandıqda onlar, bu Protokolun 1-ci maddəsində göstərilən bölmələrin vəzifəli şəxslərini birgə görüşlərin təşkili üçün səlahiyyətləndirə bilərlər.

**Maddə 4**

Yardım barədə sorğular və onlara cavabların göndərilməsi 1-ci maddənin birinci hissəsinə əsasən səlahiyyətli şəxslər tərəfindən yazılı formada Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir. Şifahi sorğular qəbul edilə bilər, lakin onlar gecikdirilmədən yazılı təsdiq edilməlidir.

Yardım barədə sorğular Sazişin 12-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş məlumatlardan ibarət olmalı, sorğuların yerinə yetirilməsi isə Sazişin 13-cü maddəsinə müvafiq olaraq həyata keçirilir.

Təcili hallarda sorğuda, ona cavab verilməli tarix göstərilə bilər. Sorğu olunan məlumat və sənədlər göstərilən tarixdə təqdim edilməli və ya göstərilən müddət bitənədək bu müddətin icrasının mümkünlüyü barədə məlumat verilməlidir.

Tərəflərin təqdim etdiyi məlumat, şifahi, sonradan yazılı təsdiqlə, eləcə də yazılı şəkildə konfidensial hesab edilir və yalnız bu Protokolun yerinə yetirilmə məqsədləri üçün istifadə olunur.

Bu Protokola müvafiq olaraq alınmış məlumatlar, Sazişin 15-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, onları təqdim edən Tərəfin razılığı olmadan dövlət orqanlarına və üçüncü şəxslərə verilə bilməz.

**Maddə 5**

Tərəflər hər rüb, Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonik Sistemin 4 rəqəm səviyyəsində, "ölkə-mal" kəsiyində formalaşdırılmış, dəyər və natural ölçülərdə qarşılıqlı ticarət üzrə məlumatları mübadilə edəcəklər.

Məlumatların formalaşdırılmasını, formatını, məlumatların strukturunu, həmçinin mübadilə mexanizmini Tərəflər əlavə olaraq müəyyən edəcəklər.

**Maddə 6**

Bu Protokolun təfsiri və tətbiqi ilə bağlı yarana biləcək bütün məsələlər danışıqlar yolu ilə həll ediləcəkdir.

**Maddə 7**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

**Maddə 8**

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan, Tərəflərin dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir və Sazişin qüvvəsini dayandırdığı tarixdən öz qüvvəsini itirir.

Qəbələ şəhərində "11" iyun 2009-cu ildə Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun müddəalarının təfsirində fikir ayrılığı yarandıqda rus dilindəki mətn əsas götürülür.

**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsi**
**adından**

**Belarus Respublikası**
**Dövlət Gömrük Komitəsi**
**adından**

## CƏLİL MƏMMƏDQULUZADƏNİN 140 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu ilin fevral ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 140 ili tamam olur.
Qüdrətli qələm ustası Cəlil Məmmədquluzadənin zəngin irsi bədii-estetik düşüncə tariximizin parlaq səhifələrindəndir. Ədibin yüz il əvvəl yaratdığı "Ölülər", milli vəhdət ideyasının carçısına çevrilmiş "Anamın kitabı", eləcə də digər dramaturji, nəsr və publisist əsərləri Azərbaycanın çoxəsrlik söz xəzinəsinin qiymətli incilərini təşkil edir. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə çap olunan "Molla Nəsrəddin" jurnalı ölkənin ədəbi-publisistik həyatında müstəsna rol oynamış, milli məfkurənin formalaşmasına öz layiqli töhfəsini vermişdir. Klassik Azərbaycan və dünya bədii fikri ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnən sənətkarın milli oyanışa səsləyən yaradıcılığı həm Qafqaz xalqlarının, həm də bir sıra Şərq ölkələrinin ədəbiyyatlarına böyük təsir göstərmişdir.

Azərbaycan mədəni və ictimai fikrinin inkişafı yolunda mühüm xidmətlər göstərmiş Cəlil Məmmədquluzadənin 140 illik yubileyinin respublikada layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə birlikdə Cəlil Məmmədquluzadənin 140 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 fevral 2009-cu il***

## MEHDİ HÜSEYNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu ilin mart ayında görkəmli ədib, Azərbaycanın xalq yazıçısı Mehdi Hüseynin (Mehdi Əli oğlu Hüseynovun) anadan olmasının 100 ili tamam olur.

Yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında istedadlı nasir, dramaturq və tənqidçi Mehdi Hüseynin özünəməxsus yeri vardır. O, tarixi və müasir mövzulu bədii əsərlərin bir çox dəyərli nümunələrini meydana gətirməklə yanaşı, peşəkar ədəbiyyatşünas kimi sənətkarlıq və yaradıcılığın nəzəri məsələlərinə dair aktual mülahizələri ilə ədəbi prosesə istiqamət vermişdir.

Azərbaycan ədəbiyyatının inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş yazıçı Mehdi Hüseynin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə xalq yazıçısı Mehdi Hüseynin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 fevral 2009-cu il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

| | |
|---|---|
| **Rüstəmova** Fəridə Eldar qızı | - Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdi |
| **Sevdiməliyev** Ramiz Ramiz oğlu | - Bakı Musiqi Akademiyası nəzdində Orta İxtisas Musiqi Məktəb-studiyasının şagirdi |
| **Yusifli** Zəhra Ceyhun qızı | - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi |

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 fevral 2009-cu il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. «Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu **Qarayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 fevral 2009-cu il***

## B.M.VAHABZADƏNİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadənin xatirəsini əbədiləşdirmək məqsədi ilə qərara alıram:

Bakı Şəhər İcra Hakimiyyəti Bakı şəhərində küçələrdən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini və Bəxtiyar Vahabzadənin yaşadığı binaya (İstiqlaliyyət küçəsi, 9) xatirə lövhəsinin vurulmasını təmin etsin.

Şəki Şəhər İcra Hakimiyyəti Şəki şəhərində küçələrdən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini və Şəki şəhərində Bəxtiyar Vahabzadənin büstünün ucaldılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. təhsil sistemində filologiya ixtisası üzrə təhsil alan tələbələr üçün Bəxtiyar Vahabzadə adına təqaüdün təsis edilməsini təmin etsin;

3.2. Şəki şəhərinin orta məktəblərindən birinə Bəxtiyar Vahabzadənin adının verilməsini təmin etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 fevral 2009-cu il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu **Qarayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 fevral 2009-cu il***

## M.Ç.CABBAROVUN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN RƏİSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 mart 2009-cu il***

## Ç.A.ABDULLAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının ədəbi həyatında fəal iştirakına görə Çingiz Akif oğlu Abdullayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 aprel 2009-cu il***

## R.F.ZÖHRABOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan muğam sənətinin tədqiqində xüsusi xidmətlərinə görə Ramiz Fərzulla oğlu Zöhrabov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2009-cu il***

## L.E.SLUTSKİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Leonid Eduardoviç Slutski "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 may 2009-cu il***

## S.Y.ORLOVANIN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Svetlana Yuryevna Orlova "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 may 2009-cu il***

## V.İ.YAKUNİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Vladimir İvanoviç Yakunin "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 may 2009-cu il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Bayramov Yusif Nəriman oğlu - Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin IX sinif şagirdi

Əsədullayev Mirhüseyn Murtuza oğlu - Azərbaycan Milli Konservatoriyasının I kurs tələbəsi

Hüseynli Toğrul Qabil oğlu - Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin X sinif şagirdi

Məmmədov Tofiq Asif oğlu - Azərbaycan Milli Konservatoriyasının II kurs tələbəsi

Vəkilov Vurğun Mehman oğlu - Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin V sinif şagirdi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Azərbaycan Respublikasının əməkdar artisti"**

Abaszadə Mələk Fuad qızı
Cəbrayılov Elşən Şahin oğlu
Əlizadə Əkbər Müzəffər oğlu
Həmidov Elçin Qəzənfər oğlu
Hüseynov Füzuli İsmət oğlu
Hüseynov Tofiq Əbdülrəhim oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Şarovskaya Natalya Yuryevna
Yaqubova Ella İsmayıl qızı

**"Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi"**

Əsgərov Əsgər Əkbər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycanda mədəniyyətin inkişafında böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Bəykişiyev Nazim Zöhrab oğlu
Dadaşov Fəxrəddin Əlisahib oğlu
Müslümov Möhlət Xanəli oğlu
Paşayev Ağaverdi Ağa Əli oğlu
Səfərov Müzəffər Allahverdi oğlu

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayev Kazım Ənvər oğlu
Abdullayeva Tamella İslam qızı
Adıgözəlov Telman Abbasqulu oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Adıgözəlzadə Murad Zöhrab oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Bağırov Pərviz Sadıq Saleh oğlu
Bayramov Rafael Əli oğlu
Bayramova Aygün Əliqulu qızı
Bayramova Cəmilə Əsədulla qızı
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Enami Oliya Həsən Əliabbas oğlu
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov Hüseyn Həsən oğlu
Əhmədov İlham Namiq Kamal oğlu
Əliyev Təvəkkül Əjdər oğlu
Əliyev Zamiq Balarza oğlu
Əlizadə Rəhman Balarza oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əsədova Məleykə Əlifağa qızı
Əsgər Məmmədoğlu
Əsgərov Əli Rəhim oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Haşımova Şahnaz Həsən qızı
Həkimova Svetlana Cəlal qızı
Həsənov Mircəfər Mirhüseyn oğlu
Həsənov Vaqif İbrahim oğlu
Hüseynov Murad Fərid oğlu

Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilov Məhəmməd Məşədi Kərim oğlu
Xəlilova Sevil Rza qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsgəndərova Sənubər Sabir qızı
İsmayılova Gülnaz Əmir qızı
İsmayılova Zemfira Rüstəm qızı
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Kamran Məmmədqulu oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Lətif İman oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Quliyeva Vəsmə Fətulla qızı
Qurbanov Həsən Məmməd oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Məmmədrzayev Pərviz Müzəffər oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mövlamova Fərqanə Alim qızı
Muradova Təranə Hüseyn qızı
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nəcəfov Süleyman Paşa oğlu

Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Novruzov Ramiz Qəvvam oğlu
Osmanov Bəhram Məcid oğlu
Poladov Əkrəm Nicat oğlu
Rzayev Baba Fazil oğlu
Salmanlı Ağaxan Əli oğlu
Salmanova Gülnar Əlifağa qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şirməmmədov Namis Xanmirzə oğlu
Teymurova Nəzakət Xosrov qızı
Vəliyeva Leyli Fətulla qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Səfərova Afaq Bəşir qızı
Zəki Mehriban Mürvət qızı

2. Azərbaycan Respublikası Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 may tarixli 2805 nömrəli Sərəncamının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## Ö.H.ELDAROVUN HEYDƏR ƏLİYEV MÜKAFATI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə Ömər Həsən oğlu Eldarov Heydər Əliyev Mükafatı ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## A.C.MƏLİKOVUN HEYDƏR ƏLİYEV MÜKAFATI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Arif Cahangir oğlu Məlikov Heydər Əliyev Mükafatı ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

# M.A.ƏLİYEVANIN HEYDƏR ƏLİYEV MÜKAFATI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Mehriban Arif qızı Əliyeva Heydər Əliyev Mükafatı ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2009-cu il***

## AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQININ 75 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu ilin iyun ayında Azərbaycan Bəstəkarlar İttifaqının yaranmasının 75 ili tamam olur. Fəaliyyət göstərdiyi ilk vaxtlardan etibarən Azərbaycan Bəstəkarlar İttifaqı ölkəmizin musiqi ictimaiyyətinin ən istedadlı nümayəndələrini öz ətrafında birləşdirərək nüfuzlu təşkilata çevrilmişdir. Bəstəkarlar İttifaqı xalqımızın zəngin musiqi irsinin dünyada geniş miqyasda tanıdılması işində yaxından iştirak etmişdir. Qurumun tarixi milli bəstəkarlıq məktəbimizin Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Qara Qarayev və Tofiq Quliyev kimi görkəmli simalarının adları ilə sıx bağlıdır.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətlərini nəzərə alaraq, Azərbaycan Bəstəkarlar İttifaqının 75 illik yubileyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Azərbaycan Bəstəkarlar İttifaqının 75 illik yubileyinə həsr edilmiş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 may 2009-cu il***

# AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN YARADILMASININ VƏ "ƏDƏBİYYAT QƏZETİ"NİN NƏŞRƏ BAŞLAMASININ 75 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu ildə Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının və bu təşkilatın ədəbi orqanı "Ədəbiyyat qəzeti"nin nəşrə başlamasının 75 illiyi tamam olur.

Azərbaycan Yazıçılar Birliyi fəaliyyətə başladığı vaxtdan etibarən müxtəlif sınaqlardan keçərək milli ədəbiyyatın, ana dilinin qorunub yaşadılmasında böyük xidmətlər göstərmişdir. Təşkilat bu illər ərzində həmişə xalqımızın mədəniyyəti tarixini və mənəvi sərvətlər xəzinəsini bədii-estetik düşüncənin bir çox qiymətli nümunələri ilə zənginləşdirmək işində öz vəzifəsini layiqincə yerinə yetirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanı kimi "Ədəbiyyat qəzeti" söz sənəti problemlərinə, klassik irsə və aktual yaradıcılıq məsələlərinə dair səhifələrində dərc etdiyi yazılarla müasir ədəbi prosesə töhfələr vermişdir.

Azərbaycanın mədəni həyatında rolunu və ölkə ədəbi-ictimai fikrinin inkişafında əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının və "Ədəbiyyat qəzeti"nin nəşrə başlamasının 75 illik yubileyinin ölkə miqyasında qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə bərabər Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının və bu təşkilatın ədəbi orqanı olan "Ədəbiyyat qəzeti"nin nəşrə başlamasının 75 illik yubileyinə həsr edilmiş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 may 2009-cu il***

## "AZƏRBAYCAN TEATRI 2009-2019-CU İLLƏRDƏ" DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasını, milli mənəvi dəyərlərin təbliği və dünya mədəniyyətinə inteqrasiyasını təmin etmək, milli teatr sənətinin davamlı inkişafını dəstəkləmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci bəndində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 may 2009-cu il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2009-cu il 18 may tarixli Sərəncamı ilə***
***təsdiq edilmişdir***

## "AZƏRBAYCAN TEATRI 2009-2019-CU İLLƏRDƏ" DÖVLƏT PROQRAMI

### 1. Ümumi əsaslar

1.1. Mövcud vəziyyət

XIX əsrin 70-ci illərində təşəkkül tapmış Azərbaycan peşəkar teatr sənəti xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, təbliği, estetik zövqün və dünyagörüşünün formalaşması, realist ənənələrin davam və inkişaf etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi yolunda mütərəqqi ideyalar tribunasına çevrilmişdir.

Hazırda respublikada fəaliyyət göstərən 26 dövlət teatrının və bu şəbəkəyə daxil olan digər qurumların müntəzəm və səmərəli fəaliyyətini təmin etmək məqsədi ilə bütün maliyyə, təşkilati və yaradıcılıq imkanlarından istifadə edilir. Dövlət sifarişi yolu ilə hər il teatrlarda 50-dən çox yeni tamaşa hazırlanır ki, bu tamaşaların da əsasını klassik və müasir Azərbaycan, eləcə də dünya dramaturqlarının əsərləri təşkil edir.

Dövlətlərarası mədəni əməkdaşlıq haqqında ikitərəfli sazişlərə uyğun olaraq respublika teatrları xarici ölkələrdə keçirilən müxtəlif festivallarda uğurla çıxış edirlər.

Qeyd edilənlərlə yanaşı, teatr sənətinin inkişafı ilə bağlı bir sıra problemlər də mövcuddur. Ölkəmizə Ermənistanın hərbi təcavüzü nəticəsində İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şuşa, Füzuli, Ağdam dövlət dram teatrları qaçqın və məcburi köçkünlük şəraitində fəaliyyət göstərirlər.

"Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 fevral tarixli 1964 nömrəli Sərəncamına əsasən Azərbaycan xalqının ictimai-siyasi həyatında, milli mədəniyyətimizin inkişafında böyük rol oynayan Azərbaycan teatrının maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq potensialının inkişaf etdirilməsi, habelə teatr təhsili sisteminin yaxşılaşdırılması məqsədi ilə tədbirlərin həyata keçirilməsi və "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının (bundan sonra - Dövlət Proqramı) hazırlanması nəzərdə tutulmuşdur.

1.2. Məqsəd və vəzifələr

Azərbaycan teatr sənətinin yaxın 10 il ərzində inkişaf perspektivlərini müəyyənləşdirən bu Dövlət Proqramı öz fəaliyyəti ilə milli mədəni sərvətə çevrilmiş Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasına, ümumbəşəri və milli dəyərlərin təbliğinə, dünya mədəniyyətinə inteqrasiyasına, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsinə və repertuarın günün tələblərinə uyğun formalaşması məqsədlərinə xidmət edəcəkdir.

Dövlət Proqramı aşağıdakı vəzifələrin həlli istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- yeni teatr siyasətinin formalaşması və teatr prosesində idarəetmənin optimallaşdırılması, teatr sahəsində islahatların aparılması;
- ümumbəşəri və milli mədəni dəyərlərin qorunması və dünya mədəniyyətinə inteqrasiyası təmin edilməklə Azərbaycan teatr sənətinin inkişafı;
- teatr sahəsinin bütün janrları və peşə istiqamətləri üzrə gənc istedadların dəstəklənməsi;
- kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsilin, müştərək layihələrin keçirilməsi;
- teatr binalarının müasir standartlar səviyyəsində təmiri və maddi-texniki bazanın möhkəmləndirilməsi;
- teatr sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi;
- teatr mədəniyyətinin təbliğ olunması.

1.3. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, o cümlədən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər, habelə Azərbaycan Respublikasının qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.4. Gözlənilən nəticələr

Dövlət Proqramının yerinə yetirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- milli teatr sənəti qorunub saxlanılacaq və inkişaf etdiriləcək;
- yüksək bədii dəyərli tamaşaların hazırlanması təmin ediləcək;
- teatr fəaliyyəti sahəsində normativ hüquqi baza təkmilləşdiriləcək;
- teatr müəssisələrinin maddi-texniki bazası möhkəmləndiriləcək;
- teatr şəbəkəsinin müasir tələblərə uyğun qurulması və əhalinin teatra olan tələbatının ödənilməsi üçün şərait yaradılacaq;

- teatr sahəsinə gənc, istedadlı və peşəkar kadrlar cəlb ediləcək;
- teatr sahəsində regionlararası, millətlərarası və beynəlxalq mədəni əlaqələrin inkişafına nail olunacaq;
- Azərbaycan teatr sənətinin dünyada layiqincə təmsil və təbliğ edilməsinə imkanlar yaradılacaq.

## 2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| № | Tədbirlərin adı | İcraçılar | İcra mü (illər üz |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 2.1. | Teatr sahəsində idarəetmənin və maliyyə-iqtisadi mexanizmlərin təkmilləşdirilməsini nəzərdə tutan islahatların aparılması | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Teatr Xadimləri İttifaqını cəlb etməklə | 2009-2019 |
| 2.2. | Teatr fəaliyyətinin normativ hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi | 2009-2013 |
| 2.3. | Respublika ərazisində fəaliyyət göstərən dövlət teatrlarının maddi-texniki bazasının möhkəmləndirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2019 |
| 2.4. | Bakı şəhərində, Naxçıvan Muxtar Respublikasında və digər regionlarda, həmçinin qaçqın və məcburi köçkünlük şəraitində fəaliyyət göstərən dövlət teatrlarının yerləşdiyi binalarda təmir-bərpa və yenidənqurma işlərinin aparılması üçün zəruri tədbirlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2009-2019 |
| 2.5. | Yüksək səviyyəli nəşr və reklam məmulatlarının, dekor və geyimlərin hazırlanması işinin təşkilinin təkmilləşdirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2012-2014 |
| 2.6. | Teatr treninq mərkəzinin yaradılması | Mədəniyyət və Turizm Nazirliyi | 2014 |
| 2.7. | Azərbaycan Dövlət Opera və Balet Teatrının simfonik orkestri və Azərbaycan Dövlət Musiqili Komediya Teatrının orkestri üçün musiqi alətlərinin alınması | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2013 |
| 2.8. | Dövlət teatrlarının nəqliyyat vasitələri ilə təmin olunması üçün lazımi tədbirlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2019 |
| 2.9. | Azərbaycan Dövlət Rus Dram Teatrının, Azərbaycan Dövlət Kukla | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2017 |

| | | | |
|---|---|---|---|
| | Teatrının, Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Gəncə Dövlət Dram Teatrının, Lənkəran Dövlət Dram Teatrının, Şəki Dövlət Dram Teatrının nəzdində dövlət büdcəsində Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər hesabına studiyaların yaradılması | | |
| 2.10. | Teatr sahəsində təhsilin təkmilləşdirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2019 |
| 2.11. | Müvafiq proqram, saziş və müqavilələr çərçivəsində teatr sənəti ilə bağlı xarici ölkələrdə təhsilalma və stajkeçmələrin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi | müntəzəm |
| 2.12. | Azərbaycan teatr sənəti antologiyasının hazırlanması və nəşr etdirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Teatr Xadimləri İttifaqını cəlb etməklə | 2009-2012 |
| 2.13. | «Yeni Teatr» respublika festivalının keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2009-cu başlayaraq, iki bir |
| 2.14. | Azərbaycan teatr sənətinin müxtəlif sahələri üzrə kitabların və elektron vəsaitlərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2014 |
| 2.15. | Müasir dövrün teatr problemlərinə həsr olunmuş beynəlxalq elmi praktik konfransın təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası Azərbaycan Teatr Xadimləri İttifaqını cəlb etməklə | 2010-2018 (iki ildən bir) |
| 2.16. | UNİMA-nın (Beynəlxalq Kukla Teatrları Assosiasiyası) iştirakı ilə kukla teatrı həftəsinin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2011 |
| 2.17. | YUNESKO-nun Beynəlxalq Teatr İnstitutunun növbəti konqresinin Bakı şəhərində keçirilməsi üçün zəruri tədbirlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi Azərbaycan Teatr Xadimləri İttifaqını cəlb etməklə | 2012 |
| 2.18. | A.P.Çexov adına Beynəlxalq Teatr Festivalının "A.P.Çexov festivalının ipək yolu" adlı bir mərhələsinin Bakı şəhərində keçirilməsi üçün zəruri tədbirlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Teatr Xadimləri İttifaqını cəlb etməklə | 2010 |
| 2.19. | Dövlət teatrlarında illər üzrə dövlət sifarişi yolu ilə tamaşaların hazırlanması üçün müvafiq tədbirlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2019 |
| 2.20. | Bakı şəhərində tanınmış teatr | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2016 |

| | | | |
|---|---|---|---|
| | xadimlərinin iştirakı ilə seminarların təşkili | | |
| 2.21. | Xarici ölkələrin tanınmış teatr kollektivlərinin Azərbaycana dəvət olunması | Mədəniyyət və Turizm Nazirliyi | 2009-2019 |

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu **Qarayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 may 2009-cu il***

**N.R.RƏSULZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikasının ədəbi həyatında fəal iştirakına görə Natiq Rəsul oğlu Rəsulzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 iyun 2009-cu il***

## V.S.VƏKİLOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının mədəni və ictimai-siyasi həyatında fəal iştirakına görə Vaqif Səməd oğlu Vəkilov (Vaqif Səmədoğlu) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyun 2009-cu il***

## 2009-CU İL FEVRALIN 26-DA HAVANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi,

öz aralarında dostluq və həmrəylik əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək arzularını ifadə edərək,

Tərəflər arasında mədəniyyətlərarası dialoqun və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətinə diqqət yönəldərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər hazırkı mədəniyyət siyasəti və bu Sazişdən irəli gələn digər məsələlərlə bağlı informasiya mübadiləsi aparacaq və hər bir tərəfin daxili qanunvericiliyinə müvafiq olaraq hazırkı Sazişin fəaliyyətinin təşviq və tətbiq edilməsinə birlikdə köməklik göstərəcəklər.

### Maddə 2

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

- Qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi;
- Tələbələr, pedaqoqlar və elmi əməkdaşlar arasında bədii təhsil üzrə təcrübə mübadiləsi məqsədilə konfransların, simpoziumların və kollokviumların keçirilməsi;
- Azərbaycan və Kuba təşkilatlarının hər iki ölkədə keçirilən beynəlxalq musiqi, incəsənət, teatr və kino festivallarında iştirakı. Dəvətlər hazırkı tədbir təşkilatçıları komitəsinin şərtlərinə müvafiq olaraq həyata keçiriləcək;
- İncəsənət, dekorativ-tətbiqi sənət və kulinariya sərgilərinin təşkili;
- Hər iki tərəf üçün qarşılıqlı maraq doğuran və əməkdaşlığa yönəldilmiş digər fəaliyyətlər.

**Maddə 3**

Tərəflər öz ölkələrinin mədəniyyət təsisatları arasında əməkdaşlığa şərait yaradacaq və bu məqsədlə hər iki ölkənin muzey, kitabxana və teatrları arasında müqavilələrin bağlanılması imkanlarını araşdıracaqlar.

**Maddə 4**

Tərəflər mədəniyyət abidələrinin qorunması, bərpası, regenerasiyası və konservasiyası sahəsində əməkdaşlıq edəcəklər.

**Maddə 5**

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedураların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 18 may 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir aynlığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi adından**

**Kuba Respublikası Mədəniyyət Nazirliyi adından**

## 2009-CU İL MAYIN 18-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ " AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi,

öz aralarında dostluq və həmrəylik əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək arzularını ifadə edərək,

Tərəflər arasında mədəniyyətlərarası dialoqun və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətinə diqqət yönəldərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər hazırkı mədəniyyət siyasəti və bu Sazişdən irəli gələn digər məsələlərlə bağlı informasiya mübadiləsi aparacaq və hər bir tərəfin daxili qanunvericiliyinə müvafiq olaraq hazırkı Sazişin fəaliyyətinin təşviq və tətbiq edilməsinə birlikdə köməklik göstərəcəklər.

**Maddə 2**

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

- Qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi;
- Tələbələr, pedaqoqlar və elmi əməkdaşlar arasında bədii təhsil üzrə təcrübə mübadiləsi məqsədilə konfransların, simpoziumların və kollokviumların keçirilməsi;
- Azərbaycan və Kuba təşkilatlarının hər iki ölkədə keçirilən beynəlxalq musiqi, incəsənət, teatr və kino festivallarında iştirakı. Dəvətlər hazırkı tədbir təşkilatçıları komitəsinin şərtlərinə müvafiq olaraq həyata keçiriləcək;
- İncəsənət, dekorativ-tətbiqi sənət və kulinariya sərgilərinin təşkili;
- Hər iki tərəf üçün qarşılıqlı maraq doğuran və əməkdaşlığa yönəldilmiş digər fəaliyyətlər.

**Maddə 3**

Tərəflər öz ölkələrinin mədəniyyət təsisatları arasında əməkdaşlığa şərait yaradacaq və bu məqsədlə hər iki ölkənin muzey, kitabxana və teatrları arasında müqavilələrin bağlanılması imkanlarını araşdıracaqlar.

**Maddə 4**

Tərəflər mədəniyyət abidələrinin qorunması, bərpası, regenerasiyası və konservasiyası sahəsində əməkdaşlıq edəcəklər.

**Maddə 5**

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedураların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 18 may 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsirində fikir aynlığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi adından** | **Kuba Respublikası Mədəniyyət Nazirliyi adından** |

## 2009-CU İL MAYIN 18-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ “ AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2009-cu il***

# 2009-CU İL MAYIN 5-DƏ MİNSK ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ BELARUS RESPUBLİKASININ İNFORMASİYA NAZİRLİYİ ARASINDA NƏŞRİYYAT VƏ İNFORMASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2009-cu il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İSRAİL DÖVLƏTİ HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT, TƏHSİL VƏ ELM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə İsrail tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 iyun 2009-cu il***

## R.N.İVANOVUN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Rudolf Nikolayeviç İvanov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyun 2009-cu il***

## “ATƏŞGAH MƏBƏDİ” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNUN MÜHAFİZƏSİ VƏ MADDİ-TEXNİKİ TƏMİNATI BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın maddi mədəniyyət abidələri sırasında XVII-XVIII əsrlərə aid atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş və hazırda YUNESKO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilmiş “Atəşgah məbədi” Dövlət tarix-memarlıq qoruğunun özünəməxsus yeri vardır. Qoruq Azərbaycan tarixinin öyrənilməsi ilə yanaşı, respublikamızda turizmin inkişaf etdirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

“Atəşgah məbədi” Dövlət tarix-memarlıq qoruğunun mühafizəsinin təkmilləşdirilməsi və onun maddi-texniki təminatının yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Bakı şəhərinin Suraxanı rayonu ərazisində yerləşən “Atəşgah məbədi” Dövlət tarix-memarlıq qoruğunun konservasiya və bərpası üzrə layihə-smeta sənədlərinin hazırlanması, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və “Atəşgah” tarixi muzey mərkəzinin yaradılması üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 iyul 2009-cu il***

## B.Ş.ƏLİYEVƏ "AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan musiqisinin inkişafındakı xidmətlərinə görə Bilal Şahşirin oğlu Əliyevə "Azərbaycan Respublikasının xalq artisti" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 iyul 2009-cu il***

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ LATVİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASİ PREZİDENTİNİN SƏRƏNCAMI

1.Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

| | |
|---|---|
| **Komissiyanın həmsədri:** | |
| Ziya Məmmədov | Azərbaycan Respublikasının nəqliyyat naziri |
| **Komissiyanın üzvləri:** | |
| Xələf Xələfov | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| İlqar Fətizadə | Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini |
| Gülməmməd Cavadov | Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini |
| Sevinc Həsənova | Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini |
| Sevda Məmmədəliyeva | Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini |
| Elmar Qasımov | Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| İltimas Məmmədov | Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini |
| Səfər Mehdiyev | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini |
| Avtandil Babayev | Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini |
| Tofiq Zülfüqarov | Azərbaycan Respublikasının Latviya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri |

2. “Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 3 oktyabr tarixli 1717 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 10, maddə 858) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Latviya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyul 2009-cu il***

## T.H.İSMAYILOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanda kinonun inkişafında böyük xidmətləri olan Tofiq Hüseyn oğlu İsmayılova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyul 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ KİNO İŞÇİLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə aşağıdakı kino işçilərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Azərbaycan Respublikasının əməkdar artisti"**
Ağabəyli Mirzə Qasım oğlu
Hüseynova Nəcibə İbrahim qızı

**"Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi"**
Aşumova Amaliya Şıxəli qızı
Babayev Tərlan Qurban oğlu
Bağırov Vaqif Sadiq oğlu
Ələkbərov Elbrus Əli oğlu
İmanov Rafail Bəşir oğlu
İsgəndərova Miroslava İvanovna
İsmayılova Firuzə İsmayıl qızı
Gərəkməzli Dinarə İsa qızı
Məmmədov Əli Fərhad oğlu
Nadirov Mehman Qəhraman oğlu
Nərimanbəyova Tamara Petrovna
Salamzadə Rafayıl Cabbar oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyul 2009-cu il***

## MÜSLÜM MAQOMAYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli müğənni və bəstəkar, SSRİ xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Bakı Şəhər İcra Hakimiyyəti Müslüm Maqomayevin yaşadığı binaya (Fikrət Əmirov küçəsi, 1) xatirə lövhəsinin vurulmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı şəhərində musiqi məktəblərindən birinə Müslüm Maqomayevin adının verilməsini təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 avqust 2009-cu il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ YERLƏŞƏN MONUMENTAL HEYKƏLTƏRAŞLIQ ABİDƏLƏRİ, XATİRƏ-MEMORİAL VƏ MEMARLIQ KOMPLEKSLƏRİNİN ÜMUMİ GÖRKƏMİNİN QORUNUB SAXLANILMASI VƏ ƏTRAFININ ABADLAŞDIRILMASINA DAİR TƏDBİRLƏR PLANI”NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 2 aprel tarixli 2079 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. “Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair Tədbirlər planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 avqust 2009-cu il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2009-cu il 19 avqust tarixli Sərəncamı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ YERLƏŞƏN MONUMENTAL HEYKƏLTƏRAŞLIQ ABİDƏLƏRİ, XATİRƏ-MEMORİAL VƏ MEMARLIQ KOMPLEKSLƏRİNİN ÜMUMİ GÖRKƏMİNİN QORUNUB SAXLANILMASI VƏ ƏTRAFININ ABADLAŞDIRILMASINA DAİR TƏDBİRLƏR PLANI

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul qurumlar |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının ərazisindəbədii əhəmiyyət kəsb edən monumental heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin Dövlət reyestrinin tərtibi | 2009-cu il | Azərbaycan Respublikasının Mədə və Turizm Nazirliyi, Bakı Şəhə Hakimiyyəti və digər müvafiq yer hakimiyyəti orqanları |
| 2. | Heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin | 2009-cu il | Azərbaycan Respublikasının Mədə və Turizm Nazirliyi, Dövlət Şəhərsal |

| | | | |
|---|---|---|---|
| | ucaldılması və demontajı üzrə ekspert komissiyasının yaradılması və fəaliyyətinin təşkili | | Arxitektura Komitəsi, Azərbaycan Elmlər Akademiyası (Azərb Rəssamlar İttifaqı və Memarlar İttif təklifləri nəzərə alınmaqla) |
| 3. | Təmir-bərpa işləri tələb olunan heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin müəyyən edilməsi və müvafiq təkliflərin hazırlanması | 2009-cu il | Azərbaycan Respublikasının Mədə və Turizm Nazirliyi, Dövlət Şəhərsal Arxitektura Komitəsi, Bakı Şəhə Hakimiyyəti və digər müvafiq yer hakimiyyəti orqanları |
| 4. | Heykəltəraşlıq abidələrində, xatirə-memorial və memarlıq komplekslərində təmir-bərpa və abadlıq işlərinin aparılması | 2009-2010-cu illər | Azərbaycan Respublikasının Şəhərsalma və Arxitektura Komitəsi Şəhər İcra Hakimiyyəti və digər m yerli icra hakimiyyəti orqanları |
| 5. | Azərbaycançılıq məfkurəsinin tələblərinə uyğun ucaldılması nəzərdə tutulan heykəltəraşlıq abidələrinin, xatirə-memorial komplekslərinin eskizlərinin və layihə-smeta sənədlərinin hazırlanması | 2010-cu ilin birinci rübü | Azərbaycan Respublikasının Mədə və Turizm Nazirliyi, Dövlət Şəhərsal Arxitektura Komitəsi, Bakı Şəhə Hakimiyyəti və digər yerli hakimiyyəti orqanları |
| 6. | Bədii əhəmiyyət daşıyan, demontaj edilməli heykəltəraşlıq abidələrinin saxlanılması üçün Bakı şəhəri ətrafında ləğv edilmiş və rekultivasiya olunacaq sənaye zonaları sahələrində regional heykəllər xiyabanının yaradılacağı müvafiq ərazilərin müəyyənləşdirilməsi və ilkin təkliflərin hazırlanması | 2010-cu ilin birinci rübü | Bakı Şəhər İcra Hakimiyyəti, Azərb Respublikasının Dövlət Şəhərsalm Arxitektura Komitəsi, Azərbaycan Elmlər Akademiyası, digər müvafiq icra hakimiyyəti orqanları (Azərb Rəssamlar İttifaqı və Memarlar İttif təklifləri |

## R.M.AVŞAROVA "AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR RƏSSAMI" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Rza Muxtar oğlu Avşarova "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 avqust 2009-cu il***

## A.B.PUQAÇOVANIN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Alla Borisovna Puqaçova “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 sentyabr 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi"**
Adıgözəlzadə Həsənağa Əfrasiyab oğlu
Hacıyev İsmayıl Cövdət oğlu
Qafarova Zemfira Həsən qızı

**"Azərbaycan Respublikasının əməkdar artisti"**
Ağayev Nazim Maşı oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırov Nizami İsrafil oğlu
Bayramov Təyyar Allahverdi oğlu
Behbudova Zeynəb Zalı qızı
Caparidze Manana Sergeyevna
Dadaşov Camaləddin Əlisahib oğlu
Əhmədov Əsgər Nəsib oğlu
Ələkbərov İsmayıl Sadıq oğlu
Hüseynov Fərhəng Rəhim oğlu
İbrahimova Vəsilə Famil qızı
Qasımova Elza Nuru qızı
Qaybalıyeva Elza Yaqub qızı
Nəcəfov İlham İsmayıl oğlu
Rəhimov Valeh İslam oğlu
Sadıxov Həsənağa Bilal oğlu
Sadıxova Rəsmiyyə Səlim qızı
Yaqub Zurufçu

**"Azərbaycan Respublikasının əməkdar müəllimi"**
Babayeva Məryəm Şaqi qızı
İrzaquliyeva Sonya Sadıq qızı
Mustafayev Xalid Ərşad oğlu
Rəsulova Firəngiz Əli qızı
Sadıqov Hacıağa Murtuza oğlu

**"Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi"**
Abbasov Elçin Tofiq oğlu
Fətəyev Şərbət Cənətalı oğlu
Məmmədov Sərdar Qələndər oğlu
Plyam İvetta Qriqoryevna

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 sentyabr 2009-cu il*

## R.H.ƏLİYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda memarlıq sənətinin inkişafında böyük xidmətlərinə görə Rasim Həsən oğlu Əliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 sentyabr 2009-cu il***

## GƏNCƏ ŞƏHƏRİNİN SOSİAL-MƏDƏNİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gəncə şəhərinin sosial-mədəni inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Azərbaycan Respublikasının əməkdar müəllimi"**
Dəmirova Qızdarxan Hüseyn qızı
Əliyev Mübariz Müseyib oğlu

**"Azərbaycan Respublikasının əməkdar həkimi"**
Abdurəhmanov Sərvər Həsən oğlu

"Azərbaycan Respublikasının əməkdar artisti"
Omarov Afiser Qara oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2009-cu il***

# "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu **Mustafayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2009-cu il***

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ AVSTRİYA RESPUBLİKASININ TƏHSİL, İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT ÜZRƏ FEDERAL NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏLƏRİNDƏ 2009-2012-Cİ İLLƏR ÜÇÜN ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NU İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illər üçün əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu **Qarayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 oktyabr 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında fundamental elmi tədqiqatların stimullaşdırılmasını, ölkəmizin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsini, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılmasını və dünya elmi məkanında Azərbaycan elminin layiqincə təmsil olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun nizamnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun fəaliyyətinin təşkili üçün müvafiq yerin ayrılması və maddi-texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 oktyabr 2009-cu il***

# BAKI ŞƏHƏRİNDƏ YERLƏŞƏN DÖVLƏT BAYRAĞI MEYDANINDA TİKİNTİ İŞLƏRİNİN SÜRƏTLƏNDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 noyabr tarixli 2504 nömrəli Sərəncamının icrası ilə bağlı aparılan tikinti-quraşdırma və abadlaşdırma işlərinin davam etdirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Bakı şəhərində yerləşən Dövlət bayrağı meydanında tikinti-quraşdırma və abadlaşdırma işlərinin sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı şəhər İcra Hakimiyyətinə 10,0 (on) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 oktyabr 2009-cu il***

## H.H.YAGİZAROVUN “ŞÖHRƏT” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan teatr sənəti və kinematoqrafiyasının inkişafında xidmətlərinə görə Hacı Murad Hacı Əhməd oğlu Yagizarov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 oktyabr 2009-cu i.***

## Ç.H.SADIXOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Çingiz Hacı oğlu Sadıxov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 oktyabr 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 453 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu"nun icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

**Komissiyanın həmsədri**

| | |
|---|---|
| İsmət Abasov | - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| İlqar Fətizadə | - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini |
| Xələf Xələfov | - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Sevinc Həsənova | - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini |
| Gülməmməd Cavadov | - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini |
| Musa Pənahov | - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini |
| Ədalət Vəliyev | - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini |
| Qulu Novruzov | - Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| Abbas Vəlibəyov | - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini |
| Elmir Vəlizadə | - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini |
| Səfər Mehdiyev | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini |
| Rauf Səlimov | - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini |
| Qüdrət Qurbanov | - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi |
| Avtandil Babayev | - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini |
| Akif Əlizadə | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| Mahir Əliyev | - Azərbaycan Respublikasının Suriya Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri |

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə

Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Suriya Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 noyabr 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 453 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu»nun icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

**Komissiyanın həmsədri**

İsmət Abasov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

**Komissiyanın üzvləri:**

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Elmir Vəlizadə - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Rauf Səlimov - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

Aftandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini

Akif Əlizadə - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Mahir Əliyev - Azərbaycan Respublikasının Suriya Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Suriya Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 noyabr 2009-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədi ilə qərara alıram:

1. Hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2009-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PAYTAXTI BAKI ŞƏHƏRİNDƏ XALQ QƏHRƏMANI KOROĞLUNUN ABİDƏSİNİN UCALDILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xalqımızın milli mənəvi dəyərlərinin daşıyıcısına çevrilmiş böyük tarixi şəxsiyyətlərin və qəhrəmanların xatirəsinin əbədiləşdirilməsinin gənc nəslin azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunması işində müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində xalq qəhrəmanı Koroğlunun abidəsi ucaldılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti Koroğlunun abidəsinin ucaldılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 dekabr 2009-cu il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Eyvazova Ayan Fuad qızı - Bakı Xoreoqrafiya Məktəbinin I kurs tələbəsi

Quliyeva Çinarə Əhməd qızı- Bakı Xoreoqrafiya Məktəbinin IX sinif şagirdi

Nəcəfova Pərvin Fərhad qızı- Bakı Xoreoqrafiya Məktəbinin III kurs tələbəsi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 dekabr 2009-cu il***

# BAKI XOREOQRAFİYA MƏKTƏBİNİN ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda xoreoqrafiya sənətinin inkişafındakı xidmətlərinə görə Bakı Xoreoqrafiya Məktəbinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Zülfüqarova Xumar Rza qızı

**"Tərəqqi" medalı ilə**
Əliyeva Nəzifə Arif qızı
Nəcəfzadə Züleyxa Oqtay qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 dekabr 2009-cu il***

## BAKI XOREOQRAFİYA MƏKTƏBİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MÜƏLLİM" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda xoreoqrafiya sənətinin inkişafındakı xidmətlərinə görə Bakı Xoreoqrafiya Məktəbinin aşağıdakı əməkdaşlarına "Əməkdar Müəllim" fəxri adı verilsin:

Aqalliyay Pellumb Mustafa oğlu
İsakadze Alla Fyodorovna

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 dekabr 2009-cu il***

## “İÇƏRİŞƏHƏR” DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNUN İNKİŞAFI TƏDBİRLƏRİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının maddi-mədəni irsinin daşıyıcısı olan İçərişəhərin YUNESKO-nun “Dünya İrs Siyahısı”nda unikal memarlıq-şəhərsalma kompleksi kimi mövqeyinin möhkəmlənməsi və tarixi simasının bərpası istiqamətində əldə edilmiş uğurlar ölkəmizdə dünya əhəmiyyətli tarixi və mədəniyyət ərazilərinin qorunub saxlanmasına göstərilən qayğı və diqqətin məntiqi nəticəsidir.

Tarixi şəhərlərə xas olan turist axınının İçərişəhərə cəlb edilməsi, mövcud potensialdan səmərəli istifadə etməklə beynəlxalq standartlara cavab verən turizm infrastrukturunun yaradılması, ərazidə tarixi irsimizə uyğun şəkildə təmir-bərpa və abadlaşdırma işlərinin davam etdirilməsi məqsədi ilə qərara alıram:

1. İçərişəhərin ərazisində uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində, ənənəvi küçə şəbəkələri olduğu kimi saxlanılmaqla turizm infrastrukturu obyektlərinin qurulması, yaşayış binalarının təmiri və mühəndis kommunikasiyalarının dəyişdirilməsi, ərazidə abadlaşdırma işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 dekabr 2009-cu il***

## ŞAMAXI ŞƏHƏRİNDƏKİ CÜMƏ MƏSCİDİ DÖVLƏT TARİX-MEMARLIQ ABİDƏSİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının tarixi-mədəniyyət abidələrindən sayılan Şamaxı şəhərindəki Cümə məscidi 743-cü ildə inşa edilmiş və təkcə Cənubi Qafqazda deyil, həm də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən biri kimi tanınaraq zəmanəmizə qədər gəlib çatmışdır. Memarlıq üslubu baxımından qədimliyi və orijinallığı ilə seçilən Cümə məscidi bütün dövrlərdə əhali arasında müqəddəs ibadət yeri kimi yüksək ehtiram və diqqətlə qorunub saxlanılmışdır. Şamaxıda 1859-cu və 1902-ci illərdə baş vermiş dəhşətli zəlzələlərdən ciddi ziyan çəkən məscid XX əsrin əvvəllərində yenidən bərpa edilmişdir. Lakin 1918-ci ildə Azərbaycanın əksər şəhərləri və bölgələrində, o cümlədən Şamaxıda erməni-daşnak quldur dəstələri tərəfindən törədilən soyqırım zamanı minlərlə günahsız insan qətlə yetirilmiş, əhalinin sığınacaq tapdığı Cümə məscidi isə yandırılmışdır. Uzun illər dağıdılmış vəziyyətdə qalan bu tarixi abidə 1980-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tapşırığı ilə təmir olunmuşdur.

Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin Azərbaycanın çoxəsrlik milli memarlıq irsi ənənələrinə uyğun şəkildə təmiri və bərpası məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin bərpası üçün Şamaxı Rayon İcra Hakimiyyətinə 4,0 (dörd) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 dekabr 2009-cu il***

## QUBA ŞƏHƏRİNDƏ "SOYQIRIMI MEMORİAL KOMPLEKSİ"NİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ötən əsrin əvvəllərində erməni-daşnak quldur dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Qarabağ, Şamaxı, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmiş, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. Təkcə Quba qəzasında 1918-ci ilin aprel-may ayları ərzində 122 kənd tamamilə dağıdılmışdır. Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Quba şəhərində "Soyqırımı memorial kompleksi" yaradılsın.
2. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması üçün Quba Rayon İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2009-cu il***

## RƏSUL RZANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin may ayında Azərbaycanın xalq şairi, SSRİ Dövlət Mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rzanın (Rəsul İbrahim oğlu Rzayevin) anadan olmasının 100 illiyi tamam olur.

Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. O, söz sənətimizə forma və məzmunca yeniliklər gətirərək novator şair kimi geniş şöhrət qazanmışdır. Azərbaycan dilinin poetik potensialının yeni-yeni imkanlarını üzə çıxaran Rəsul Rza yarım əsrə yaxın dövr ərzində yüksək dəyərli bədii nümunələr meydana gətirməklə yanaşı, respublikamızın elmi-mədəni həyatında yaxından iştirak etmiş, dolğun və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan ədəbiyyatının inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş xalq şairi Rəsul Rzanın 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə xalq şairi Rəsul Rzanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 yanvar 2010-cu il***

## M.N.ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ İSPANİYA KRALLIĞINDA, ANDORRA KNYAZLIĞINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VƏ ÜMUMDÜNYA TURİZM TƏŞKİLATI YANINDA DAİMİ NÜMAYƏNDƏSİ VƏZİFƏLƏRİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının İspaniya Krallığında, Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri və Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 yanvar 2010-cu il***

# AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ RUSİYA FEDERASİYASININ SANKT-PETERBURQ HÖKUMƏTİ ARASINDA İQTİSADİ VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

**Komissiyanın sədri**

Yaqub Eyyubov -Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

Natiq Əliyev -Azərbaycan Respublikasının sənaye və energetika naziri

Abbas Ələsgərov -Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Xələf Xələfov -Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Musa Pənahov -Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Niyazi Səfərov -Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Sevda Məmmədəliyeva -Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov -Azərbaycan Respublikası təhsil nazirinin müavini

Elsevər Ağayev -Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

İntiqam Babayev -Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Arif Həşimov -Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti

Kamal İsmayılzadə -Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri

Qüdsi Osmanov -Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***  
***Azərbaycan Respublikasının Prezidenti***  
***Bakı şəhəri, 15 yanvar 2010-cu il***

## Z.Y.YAQUBOVUN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Zəlimxan Yusif oğlu Yaqubov (Zəlimxan Yaqub) “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 yanvar 2010-cu il***

## M.S.QUSMANIN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mixail Solomonoviç Qusman "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 yanvar 2010-cu il***

## VAQİF MUSTAFAZADƏNİN 70 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin mart ayında görkəmli Azərbaycan pianoçusu və bəstəkarı, respublika Dövlət mükafatı laureatı Vaqif Əziz oğlu Mustafazadənin anadan olmasının 70 illiyi tamam olur.

Vaqif Mustafazadə yaradıcılığı XX əsr milli musiqi mədəniyyətimiz tarixinin yeni parlaq səhifələrindən birini təşkil edir. Sənətkar dərin köklərə malik qədim Azərbaycan muğamı ilə caz musiqisinin uğurlu sintezində dəyərli əsərlər meydana gətirmişdir. Onun yaratdığı kompozisiyalar dünya musiqi inciləri xəzinəsinə caz-muğamın təkraredilməz nümunələri kimi daxil olmuşdur.

Azərbaycan incəsənətinin daha da zənginləşdirilməsi və geniş miqyasda tanıdılması naminə töhfələr vermiş Vaqif Mustafazadənin 70 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, Vaqif Mustafazadənin 70 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 yanvar 2010-cu il***

## Ə.B.MƏMMƏDOVUN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan muğam sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Əlibaba Balaəhməd oğlu Məmmədov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 fevral 2010-cu il***

## A.M.ABDULLAYEVİN “ŞÖHRƏT” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan milli musiqisinin inkişafındakı xidmətlərinə görə Ağaxan Minaxan oğlu Abdullayev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 fevral 2010-cu il***

## N.F.DADAŞOVANIN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN XÜSUSİ AYLIQ TƏQAÜDÜNƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Musiqi sahəsində xüsusi istedadı olan P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası nəzdində Mərkəzi Musiqi Məktəbinin 6-cı sinif şagirdi Nazxanım Firudin qızı Dadaşovanın adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və o, Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülsün.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2010-cu il***

## L.M.İMANOVUN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

SSRİ xalq artisti Lütfiyar Müslüm oğlu İmanovun xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

Bakı Şəhər İcra Hakimiyyəti Lütfiyar İmanovun yaşadığı binaya (Bakı şəhəri, Xaqani küçəsi, 27/32) xatirə lövhəsinin vurulmasını təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 fevral 2010-cu il***

## ÜZEYİR HACIBƏYLİNİN 125 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin sentyabr ayında dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 125 illiyi tamam olur.

Azərbaycan mədəniyyətinin inkişafı naminə misilsiz töhfələr verərək müstəsna xidmətlər göstərmiş Üzeyir Hacıbəylinin 125 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, Üzeyir Hacıbəylinin 125 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsinlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 fevral 2010-cu il***

## F.Ə.QASIMOVANIN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan incəsənətinin inkişafında və vokal sənəti sahəsində gənc ifaçıların hazırlanmasında xidmətlərinə görə Fidan Əkrəm qızı Qasımova “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2010-cu il***

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən biri sayılan, tikintisi XIV əsrin sonu–XV əsrin əvvəllərinə təsadüf edən "İmamzadə türbəsi" və onun ətrafında XVII-XVIII əsrlərdə inşa edilən məscid, sərdabə və digər türbələr əzəmətli dini-tarixi kompleks kimi bugünədək qorunub saxlanılmaqdadır. Bu müqəddəs məkan əsrlərdən bəri Azərbaycandan, eləcə də başqa ölkələrdən gəlmiş müsəlmanların ziyarətgahına çevrilmişdir. Şərqin qədim karvan-ticarət yolu üzərində olub, müxtəlif vaxtlarda dağıntılara məruz qalan "İmamzadə" kompleksi XIX əsrdə bərpa edilmişdir.

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İmamzadə" kompleksinin milli memarlıq ənənələrimizə uyğun şəkildə təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İmamzadə" kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması üçün Gəncə Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2010-cu il***

## C.X.ƏKBƏROVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan muğam sənətinin inkişafında və təbliğində xidmətlərinə görə Canəli Xanəli oğlu Əkbərov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2010-cu il***

## MƏMMƏD ARAZIN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Məmməd Arazın (Məmməd İnfil oğlu İbrahimovun) xatirəsini əbədiləşdirmək məqsədi ilə qərara alıram:

Bakı Şəhər İcra Hakimiyyəti Bakı şəhərində küçələrdən birinə Məmməd Arazın adının verilməsini və onun yaşadığı binaya (İstiqlaliyyət küçəsi, 9) xatirə lövhəsinin vurulmasını təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 mart 2010-cu il***

## R.N.ƏLİYEVAYA "ƏMƏKDAR ARTİST" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə və Daxili Qoşunlarda uzunmüddətli məhsuldar işinə görə gizir Rəna Nuruş qızı Əliyevaya "Əməkdar Artist" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 mart 2010-cu il***

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASININ KAMERA VƏ ORQAN MUSİQİSİ ZALI BİNASININ TƏMİRİ VƏ BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1896-1899-cu illərdə yevangelik-lüteran kilsəsi kimi inşa edilən, sonralar müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün istifadə olunan Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binası Bakı şəhərinin gözəl memarlıq abidələrindən biridir.

Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalı binasının tarixi-memarlıq abidəsi və mədəniyyət ocağı kimi əhəmiyyətini nəzərə alaraq, onun təmiri və bərpası məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalı binasının təmiri və bərpası üçün 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2010-cu il***

## 2009-CU İL OKTYABRIN 30-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il oktyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çexiya Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2010-cu il***

# 2009-CU İL OKTYABRIN 30-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il oktyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çexiya Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2010-cu il***

## “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2010-CU İL 1 FEVRAL TARİXLİ 947-IIIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 1 fevral tarixli 947-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın, 5-ci maddəsinin birinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 13-cü maddəsinin birinci hissəsinin ikinci cümləsində, 18-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində, 20-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 23-cü maddəsinin ikinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində, 26-cı maddəsinin birinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. öz səlahiyyətləri daxilində “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2010-cu il***

# MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin iyun ayında ölkəmizin mühüm elmi-mədəni mərkəzlərindən sayılan Milli Azərbaycan Tarixi Muzeyinin fəaliyyətə başlamasının 90 ili tamam olur.

Azərbaycanda tarix elminin inkişafında rolunu və xalqımızın çoxəsrlik mədəni-tarixi nailiyyətlərinin təbliğində xidmətlərini nəzərə alaraq, Milli Azərbaycan Tarixi Muzeyinin 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Milli Azərbaycan Tarixi Muzeyinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2010-cu il***

## NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNİN 70 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ildə respublikamızın mühüm elmi-mədəni ocaqlarından biri kimi tanınan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 70 illiyi tamam olur.

Zəngin ənənələrə malik Azərbaycan ədəbi-bədii fikrinin öyrənilməsi və görkəmli ədiblərimizin tanıdılması sahəsində səmərəli fəaliyyətini nəzərə alaraq, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 70 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 70 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2010-cu il***

## BAKI ŞƏHƏRİNDƏ ABADLIQ İŞLƏRİNİN MADDİ TƏMİNATI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkə paytaxtının küçə və prospektlərində, park və xiyabanlarında davam edən yenidənqurma və abadlıq işlərinin maddi təminatını gücləndirmək məqsədi ilə qərara alıram:

1. Bakı şəhərində aparılan yenidənqurma və abadlıq işlərini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı şəhər İcra Hakimiyyətinə 20,0 (iyirmi) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 mart 2010-cu il***

## "AZƏRBAYCAN RESPUBLİKASINDA 2010-2014-CÜ İLLƏRDƏ TURİZMİN İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında turizm sektorunun dayanıqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə nail olmaq məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci bəndində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 aprel 2010-cu il***

*Azərbaycan Respublikası Prezidentinin*
*2010-cu il 6 aprel tarixli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2010-2014-CÜ İLLƏRDƏ TURİZMİN İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI

### 1. Ümumi əsaslar

### 1.1. Mövcud vəziyyət

Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Hazırda turizm planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdəbiri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm industriyasında və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur.

Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s.) inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir.

Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda ötən dövr ərzində onların sayı 4 dəfə artaraq 370-ə çatmışdır. Bu obyektlərdə ümumi yerlərin sayı da 2002-ci illə müqayisədə təxminən 3 dəfə çoxdur.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədi ilə 2006-cı ildə Turizm İnstitutu yaradılmış, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılmış, eyni zamanda, Ümumdünya Turizm Təşkilatının və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə müxtəlif təlim proqramları həyata keçirilməkdədir.

2002-ci ildən başlayaraq, hər il Azərbaycanda beynəlxalq turizm sərgisi təşkil olunur. Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədi ilə tematik nəşr məhsulları (kitab, buklet, CD və DVD-lər və s.) hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklam çarxı nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından və digər elektron daşıyıcı vasitələrindən də geniş istifadə edilir.

Görülən kompleks işlərin nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Hazırda respublikada 123 turizm müəssisəsi lisenziya əsasında fəaliyyət göstərir və 2002-ci ilə nisbətən onların sayı 3 dəfədən çox artmışdır.

Bununla yanaşı, turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır.

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmin edilməsi üçün hazırlanmışdır.

**1.2. Məqsəd və vəzifələr**

Dövlət Proqramının başlıca məqsədi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsidir.

Bu məqsədə nail olunması aşağıdakı əsas vəzifələrin həllini nəzərdə tutur:

- ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətin həyata keçirilməsi;
- daxili və xarici investisiyaların turizm sahəsinə cəlb edilməsi məqsədi ilə bu sahədə təşviqləndirici investisiya və biznes mühitinin formalaşdırılması;
- turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması;
- ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması.

**1.3. Dövlət Proqramının fəaliyyət istiqamətləri**

Dövlət Proqramı aşağıdakı istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi;
- turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması;
- ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi;
- ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması;
- turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi;
- turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması;
- turizm xidmətlərinin keyfiyyətinin artırılması məqsədi ilə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiq edilməsi;
- mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi;
- turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi;
- Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi;
- milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının təşviqi;
- turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

**1.4. Dövlət Proqramının maliyyələşdirilməsi**

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri, o cümlədən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitlər, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

**2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| № | Tədbirlərin adı | İcra müddəti (illərüzrə) | İcraçılar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | **2.1. Turizm haqqında qanunvericiliyin təkmilləşdirilməsi** | | |
| 2.1.1. | Turizm sahəsində idarəetmənin yaxşılaşdırılması və sahənin səmərəliliyinin artırılması məqsədi ilə qanunvericilik bazasının təkmilləşdirilməsi | 2010 - 2011 | Nazirlər Kabineti, və Turizm Nazirliy Nazirliyi |
| 2.1.2. | Turizm və rekreasiya zonalarının müəyyən edilməsi, bu zonalarda müxtəlif növlər üzrə turizm fəaliyyətinin təşkilinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi | 2010 - 2011 | Nazirlər Kabineti, və Turizm Nazirliy Nazirliyi |
| 2.1.3. | Daxili turizm üzrə xidmətlərin sertifikatlaşdırılması üçün müvafiq standartlara dair normativ sənədlərin hazırlanması | 2010 - 2014 | Nazirlər Kabineti, və Turizm Standartlaşdırma, Met Patent üzrə Dövlət Kom |
| 2.1.4. | Turizm sahəsində dövlət tənzimlənməsi | 2010 - 2012 | Mədəniyyət və |

| | | | |
|---|---|---|---|
| | mexanizmlərinin təkmilləşdirilməsi üçün müvafiq təkliflərin hazırlanması | | Nazirliyi, İqtisadi İnkişa |
| | **2.2.Turizm və rekreasiya zonaları** | | |
| 2.2.1. | Turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun, mehmanxana və digər turizm xidmətləri göstərən obyektlərin yaradılması ilə bağlı təşviqi tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, İqtisadi İnkişa |
| 2.2.2. | Tarix və mədəniyyət abidələrinin, qədim arxitekturaya malik binaların turizm məqsədləri üçün istifadəsinə dair təkliflərin hazırlanması | 2010 - 2011 | Mədəniyyət və Nazirliyi, Azərbaycan Akademiyası, Nazirlə yanında "İçərişəhər" D Memarlıq Qoruğu İdarə hakimiyyəti orqanları |
| 2.2.3. | Ətraf mühitin, tarix və mədəniyyət abidələrinin qorunması üzrə tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Ekologiya Sərvətlər Nazirliyi, hakimiyyəti orqanları orqanlarını cəlb etməklə |
| | **2.3.Turizmın müxtəlif növlərinin inkişafı** | | |
| 2.3.1. | Mədəni turizm obyektlərinin reyestrinin hazırlanması və təsdiqi | 2010 - 2011 | Mədəniyyət və Nazirliyi, Azərbaycan Akademiyası, Nazirlə yanında "İçərişəhər" D Memarlıq Qoruğu İdarə hakimiyyəti orqanları |
| 2.3.2. | Mədəni turizm marşrutlarının yaradılması və tətbiqi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi |
| 2.3.3. | Tarix-memarlıq və mədəniyyət qoruqlarının ərazilərində müasir turizm infrastrukturunun yaradılmasının dəstəklənməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Nazirlər Kabi "İçərişəhər" Dövlət Tar Qoruğu İdarəsi, hakimiyyəti orqanları |
| 2.3.4. | Milli parklarda və ekoloji turizm üçün yararlı olan digər ərazilərdə ekoturizm fəaliyyətinin təşkili, ərazi turizm inkişaf planlarının hazırlanması | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Ekologiya Sərvətlər Nazirliyi |
| 2.3.5. | Rekreasiya turizmi üzrə kurortlar və sanatoriyalar (rekreasiya-yerləşdirmə obyektləri) barədə rekreasiya planlarının hazırlanması | 2011 | Mədəniyyət və Nazirliyi, Səhiyyə Na icra hakimiyyəti orqanla |
| 2.3.6. | Müalicəvi su və digər təbii mənbələrin olduğu ərazilərdə müasir tələblərə uyğun rekreasiya-yerləşdirmə obyektlərinin tikintisinin planlarının hazırlanması | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Səhiyyə Fövqəladə Hallar Ekologiya və Təbi |

| | | | |
|---|---|---|---|
| | | | Nazirliyi |
| 2.3.7. | Sağlamlıq imkanları məhdud şəxslərin, əlillərin, aztəminatlı əhalinin, uşaq və tələbələrin sosial turizmdən istifadəsinin təmin edilməsinə dair təkliflərin hazırlanması | 2010 - 2012 | Mədəniyyət və Nazirliyi, Əmək və Əh Müdafiəsi Nazirliyi, Dövlət Sosial Mü Azərbaycan Həmkarla Konfederasiyasını cəlb |
| 2.3.8 | Kənd, idman, ailəvi, xüsusi maraq kəsb edən və digər turizm növlərinin inkişafına dair tədbirlər həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, yerli icra orqanları bələdiyyə orq etməklə |
| | **2.4. İnvestisiyaların cəlb edilməsi** | | |
| 2.4.1. | Turizm potensiallı iqtisadi-coğrafi rayonlarda turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi və təşviqi | 2010 - 2014 | Nazirlər Kabineti, və Turizm Nazirliyi, İqt Nazirliyi, Vergilər Nazi |
| 2.4.2. | Turizm sahəsində kiçik və orta sahibkarlığın təşviqi üzrə tədbirlərin həyata keçirilməsi | 2010 - 2014 | İqtisadi İnkişaf Mədəniyyət və Turizm N |
| 2.4.3. | Təbiət ərazilərində, həmçinin milli parklarda həyata keçirilə biləcək turizm fəaliyyətlərinin araşdırılması və bu yerlərin turizm məqsədləri üçün istifadəsi imkanlarının genişləndirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Ekologiya Sərvətlər Nazirliyi |
| 2.4.4. | Tarix, memarlıq və mədəniyyət abidələrinin bərpasına və turizm məqsədləri üçün istifadəsinə investisiyaların cəlb edilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, İqtisadi İnkiş Nazirlər Kabineti "İçərişəhər" Dövlət Tar Qoruğu İdarəsi, Azərb Elmlər Akademiyası |
| | **2.5. Beynəlxalq əlaqələr** | | |
| 2.5.1. | Beynəlxalq turizm bazarında Azərbaycan Respublikası üçün prioritet hesab olunan ölkələrin müəyyən edilməsi və həmin ölkələrdə Azərbaycan turizminin təbliği üzrə tədbirlərin görülməsi | 2010 - 2014 | Nazirlər Kabineti, Nazirliyi, Mədəniyyət Nazirliyi |
| 2.5.2. | Beynəlxalq turizm bazarında Azərbaycan Respublikası üçün prioritet hesab olunan ölkələrlə əməkdaşlığın genişləndirilməsi | 2010 - 2014 | Nazirlər Kabineti, Nazirliyi, Mədəniyyət Nazirliyi |
| | **2.6. Kadr təminatı** | | |
| 2.6.1. | Turizm sahəsinə aid olan işçilərin Vahid Tarif İxtisas Sorğu Kitabçasının təsdiq edilməsi | 2011 | Əmək və Əhal Müdafiəsi Nazirliyi, M Turizm Nazirliyi |
| 2.6.2. | Turizm İnstitutunun nəzdində turizm üzrə milli təlim mərkəzinin yaradılması | 2012 | Mədəniyyət və Nazirliyi, Təhsil Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 2.6.3. | Turizm üzrə mütəxəssis hazırlayan ali, orta ixtisas və texniki peşə təhsili müəssisələrində müvafiq tədris proqramlarının təkmilləşdirilməsi | 2010 - 2011 | Mədəniyyət və Nazirliyi, Təhsil Nazirliyi |
| 2.6.4. | Turizm xidməti sahəsində çalışan şəxslər üçün xüsusi kurslar, seminarlar və digər tədbirlərin keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi |
| 2.6.5. | Turizm obyektlərində sanitariya və gigiyena tədris proqramının həyata keçirilməsi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Səhiyyə Nazir |
| 2.6.6. | Turizm sahəsində təhsillə bağlı yeni vasitələrin araşdırılması və beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiqi barədə təkliflərin hazırlanması | 2011 - 2012 | Mədəniyyət və Nazirliyi |
| 2.6.7. | Ölkənin turizm potensialının xarici ölkələrdə təbliği məqsədi ilə Azərbaycan Respublikasının diplomatik missiyalarının əməkdaşları üçün müvafiq təlim-seminarların təşkili | 2011 - 2014 | Mədəniyyət və Nazirliyi, Xarici İşlər N |
| | **2.7. Statistika və tədqiqat** | | |
| 2.7.1. | Turizm sahəsi üzrə statistik məlumatların toplanılması sisteminin və metodologiyasının beynəlxalq təcrübəyə uyğunlaşdırılmaqla təkmilləşdirilməsi | 2010 - 2011 | Dövlət Statistika Mədəniyyət və Turizm N |
| 2.7.2. | Ölkə üzrə turizm fəaliyyətinə dair illik statistik toplunun hazırlanması | Mütəmadi | Dövlət Statistika Mədəniyyət və Turizm N |
| 2.7.3. | Ölkəyə gələn və ölkədən gedən turistlərin sayı, məqsədləri və xərcləri barədə statistik məlumatların əldə edilməsi | 2010 - 2014 | Dövlət Statistika Mədəniyyət və Turizm İqtisadi İnkişaf Nazir Miqrasiya Xidməti |
| | **2.8. Tanıtma və marketinq** | | |
| 2.8.1. | Xarici turistlər üçün milli mətbəx, incəsənət, sənətkarlıq və Azərbaycanın tarixi-mədəni abidələri haqqında məlumat toplusunun yaradılması və təbliği | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, Azərbaycan Akademiyası |
| 2.8.2. | Milli sənətkarlıq və suvenir məhsullarının istehsalının təşviqi | 2010 - 2014 | Mədəniyyət və Nazirliyi, yerli icra orqanları bələdiyyə orq etməklə |

## MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN 200 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyi tamam olur.

Bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açan Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin təntənəli surətdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri 13 aprel 2010-cu il***

## MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLİN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Moskva və Bütün Rusiyanın Patriarxı Kirill “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 aprel 2010-cu il***

## ADİL ABDULLA ƏL-FƏLAHIN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Adil Abdulla əl-Fəlah "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 aprel 2010-cu il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdullayeva Tamella İslam qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayeva İnarə Əhməd qızı
Babayeva Kimya Mustafa qızı
Bayramov Rafael Əli oğlu
Bayramova Aygün Əliqulu qızı
Bayramova Cəmilə Əsədulla qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Cəfərova Eteri Leonidovna
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov Hüseyn Həsən oğlu
Əhmədov İlham Namiq Kamal oğlu
Əliyev Rafiq Hacıbaba oğlu
Əliyev Zamiq Balarza oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əlizadə Məryəm Əli qızı
Əlizadə Rəhman Balarza oğlu
Əmirbəyova Rita Cəmil qızı
Enami Oliya Həsən Əliabbas oğlu
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Əyyubova Mələkxanım Yadigar qızı
Fərzəliyeva Gülyanaq Əhəd qızı
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Haşımova Şahnaz Həsən qızı
Həmidov Elçin Qəzənfər oğlu

Həsənov Vaqif İbrahim oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Murad Fərid oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Nuriyyə İsmayıl qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsgəndərova Sənubər Sabir qızı
İslamov İslam Bahadur oğlu
İsmayılova Gülnaz Əmir qızı
İsmayılova Zemfira Rüstəm qızı
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mövlamova Fərqanə Alim qızı
Muradov Yadigar Məmməd oğlu
Muradova Təranə Hüseyn qızı
Musayeva Fəranə Əlimurad qızı
Mustafayeva Laləzar Bəşir qızı
Nağıyev Elçin Nağı oğlu
Nəcəfov Süleyman Paşa oğlu
Nəcəfov Tural Nüsrət oğlu
Novruz Ramiz Qəvvam oğlu
Nurzadə Əli Qayıb oğlu
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Poladov Əkrəm Nicat oğlu
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəribova Nargilə Dursun qızı

Quliyev Nurəddin Əzulla oğlu
Qurbanova Günay Fəxrəddin qızı
Qurbanova Pərvanə Yaqub qızı
Rəcəbli Vidadi Həsən oğlu
Rəhimov Əlgüşad Əjdər oğlu
Rzayev Baba Fazil oğlu
Salmanlı Ağaxan Əli oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səfərova Afaq Bəşir qızı
Sibileva Zinaida İvanovna
Süleymanov Məzahir Həbullah oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Vəliyeva Leyli Fətulla qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zəki Mehriban Mürvət qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 may tarixli 263 nömrəli Sərəncamının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2010-cu il***

## CABBAR QARYAĞDI OĞLUNUN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ilin mart ayında Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, tanınmış musiqi xadimi, respublikanın xalq artisti Cabbar Qaryağdı oğlunun anadan olmasının 150 illiyi tamam olur.

Cabbar Qaryağdı oğlu muğamlarımızın mahir ifaçısı kimi milli musiqi mədəniyyətimizin inkişafında mühüm rol oynamışdır. O, qədim tarixi köklərə malik Azərbaycan muğam məktəbinin zəngin ənənələrini layiqincə davam etdirərək, öz fitri istedadı sayəsində xanəndələrin bugünkü nəsli üçün klassik ifaçılığın parlaq nümunəsini yaratmışdır.

Azərbaycan muğamının və xalq musiqisi incilərinin qorunub saxlanılmasında böyük xidmətlər göstərmiş ustad sənətkar Cabbar Qaryağdı oğlunun 150 illik yubileyinin təntənəli surətdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə Cabbar Qaryağdı oğlunun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri 14 may 2010-cu il***

## NİYAZİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin avqust ayında Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, tanınmış dirijor və bəstəkar, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı, Azərbaycan Dövlət Mükafatı və Beynəlxalq Nehru Mükafatı laureatı Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun) anadan olmasının 100 illiyi tamam olur.

Niyazinin Azərbaycan incəsənətinin çiçəklənməsi yolunda zəngin fəaliyyəti müasir mədəniyyət tariximizin parlaq səhifələrini təşkil edir. Milli dirijorluq məktəbinin formalaşması və az bir vaxtda böyük inkişaf yolu keçməsi bilavasitə onun adı ilə bağlıdır. Niyazi Azərbaycan musiqisində bitkin və dolğun məzmunlu simfonik əsərlərin müəllifi kimi də milli simfonizmin təşəkkülünə dəyərli töhfələr vermişdir.

Ölkəmizdə musiqi mədəniyyətinin inkişafı və milli musiqinin təbliği sahəsində mühüm xidmətlər göstərən qüdrətli sənətkar Niyazinin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, Niyazinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 may 2010-cu il***

## BAKI ŞƏHƏRİNDƏ YERLƏŞƏN ƏJDƏRBƏY MƏSCİDİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ötən əsrin əvvəllərində, 1912-1913-cü illərdə tanınmış xeyriyyəçi Hacı Əjdərbəy Aşurbəyov tərəfindən Bakı şəhərində tikilib istifadəyə verilmiş məscid Azərbaycanda mötəbər dini ibadət mərkəzlərindən biridir. Bu müqəddəs məbəd müsəlmanların birliyinin rəmzi kimi ilk vaxtlar "İttifaq" məscidi adı ilə tanınmışdır.

Sonradan Əjdərbəy məscidi adlandırılan və Bakının memarlıq incilərindən sayılan bu tarixi-mədəni abidənin əsaslı təmirinin, bərpasının və aparılan yenidənqurma işlərinin tamamlanmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Əjdərbəy məscidində bərpa işlərinin tamamlanması üçün Bakı şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 may 2010-cu il***

## “BAKI ŞƏHƏRİNİN ƏZİZBƏYOV RAYONUNUN XƏZƏR RAYONU ADLANDIRILMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Bakı şəhərinin Əzizbəyov rayonunun Xəzər rayonu adlandırılması haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Bakı şəhərinin Əzizbəyov rayonunun Xəzər rayonu adlandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində “Bakı şəhərinin Əzizbəyov rayonunun Xəzər rayonu adlandırılması haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 may 2010-cu il***

## 2010-CU İL ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifləri əsasında qərara alıram:

2010-cu il üçün Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

Geologiya-mineralogiya elmləri doktoru Adil Abas Əli oğlu Əliyevə,

geologiya-mineralogiya elmləri doktoru Elmira Hacı Murad qızı Əliyevaya,

geologiya-mineralogiya elmləri doktoru Fərid Həsən oğlu Dadaşova,

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əkpər Əkpər oğlu Feyzullayevə,

Azərbaycan Milli Elmlər Akademiyasının akademiki İbrahim Səid oğlu Quliyevə – "Cənubi Xəzər hövzəsinin palçıq vulkanizmi və neft-qazlılığı" elmi nəşrlər silsiləsinə görə.

**Mədəniyyət sahəsi üzrə**

Xalq Artisti Alim Həmzə oğlu Qasımova – ifaçılıq fəaliyyətinə görə.

**Ədəbiyyat sahəsi üzrə**

Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Bəkir Əhməd oğlu Nəbiyevə,

filologiya elmləri doktoru Məhərrəm Paşa oğlu Qasımlıya,

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Teymur Həşim oğlu Kərimova,

filologiya elmləri doktoru Vilayət Muxtar oğlu Quliyevə,

filologiya elmləri üzrə fəlsəfə doktoru Nikpur Mirhüseyn oğlu Cabbarlıya,

filologiya elmləri doktoru Nizaməddin Şəmsəddin oğlu Şəmsizadəyə

– "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabına görə.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 may 2010-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda mədəniyyətin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Bunyatov Maqbet Zeynal oğlu
Əlikişizadə Yulana Yusufovna
Əliverdibəyov Kazım Ağalar oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 may 2010-cu il***

## MİRZƏ ƏLƏKBƏR SABİRİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin may ayında böyük Azərbaycan şairi, bədii-ictimai fikir tariximizdə yeni ədəbi məktəbin banisi, görkəmli maarifpərvər Mirzə Ələkbər Sabirin (Məşədi Ələkbər Hacı Zeynalabdin oğlu Tahirzadənin) anadan olmasının 150 illiyi tamam olur.

Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır. "Molla Nəsrəddin" jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maariflənməyə çağırış təşkil etmişdir.

Milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr vermiş Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin təntənəli surətdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Ələkbər Sabirin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri 1 iyun 2010-cu il***

## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 135 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ildə zəngin tarixi ənənələrə malik Azərbaycan milli mətbuatının 135 ili tamam olur. 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur. XlX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində "Əkinçi" ənənələrini davam etdirən "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər nəşrlər insanları yüksək ideallar uğrunda mübarizəyə səsləmiş, milli oyanış və özünüdərk prosesinin aparıcı nümunələri kimi tanınaraq şöhrət qazanmışlar. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, mənəvi dəyərlərinin qorunmasına, mədəniyyətinin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikasında söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə zəruri şərait yaradılması prioritet vəzifə kimi müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Heydər Əliyevin fərman və sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar.

Ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da mətbuat qarşıda duran vəzifələri yeni informasiya resurslarının ardıcıl inkişafı ilə şərtlənən mürəkkəb rəqabət mühitində yerinə

yetirir. Azərbaycan dövlətinin artan imkanları milli mətbuatımızın inkişafı yolunda çətinliklərin aradan qaldırılması, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Bu gün mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, dövlət orqanları ilə mətbuat arasında səmərəli əməkdaşlığın inkişafı, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına daha münbit şəraitin yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyətinin qarşısında duran mühüm vəzifələrdir.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, demokratikləşmə və müasir vətəndaş cəmiyyəti quruculuğunda milli mətbuatın rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 135 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Bir ay müddətində jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 iyun 2010-cu il***

## TOĞRUL NƏRİMANBƏYOVUN 80 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin avqust ayında müasir Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, SSRİ xalq rəssamı Toğrul Fərman oğlu Nərimanbəyovun anadan olmasının 80 ili tamam olur.

Toğrul Nərimanbəyov mahir boyakar, monumentalçı və teatr rəssamı kimi öz fitri istedadı sayəsində mədəniyyətimizin inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan incəsənətinin zəngin ənənələrindən qidalanan və bənzərsiz üslubu ilə səciyyələnən sənətkarın yaradıcılığı qısa müddətdə böyük şöhrət qazanmışdır. Onun əsərləri müxtəlif muzey və kolleksiyalarda nümayiş etdirilərək gənc rəssamlar nəslinin formalaşmasına müsbət təsir göstərməkdədir.

Görkəmli Azərbaycan rəssamı Toğrul Nərimanbəyovun 80 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Toğrul Nərimanbəyovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 iyun 2010-cu il***

## K.KRAYEVSKİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Kşiştof Krayevski "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 iyul 2010-cu il***

## A.H.RZAYEVİN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azər Hüseyn oğlu Rzayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 iyul 2010-cu il***

## 2010-CU İL APRELİN 28-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ RUSİYA FEDERASİYASININ STAVROPOL DİYARI HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2010-cu il aprelin 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Stavropol diyarı Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Stavropol diyarı (Rusiya Federasiyası) Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 iyul 2010-cu il***

## F.G.QOCAYEVİN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Fikrət Göyüş oğlu Qocayev (Fikrət Qoca) "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyul 2010-cu il***

## BAKI ŞƏHƏRİNDƏ YERLƏŞƏN DÖVLƏT BAYRAĞI MEYDANINDA TİKİNTİ İŞLƏRİNİN TAMAMLANMASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Bakı şəhərində yerləşən Dövlət Bayrağı Meydanında başa çatdırılan tikinti-quraşdırma və abadlaşdırma işlərinin tamamlanması üçün Azərbaycan Respublikasının 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı şəhər İcra Hakimiyyətinə 10,0 (on) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 avqust 2010-cu il***

## T.F.NƏRİMANBƏYOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Toğrul Fərman oğlu Nərimanbəyov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 avqust 2010-cu il***

## B.Ə.NƏBİYEVƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə Bəkir Əhməd oğlu Nəbiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 avqust 2010-cu il***

## B.Ə.NƏBİYEVİN “AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU” İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafındakı xidmətlərinə görə Bəkir Əhməd oğlu Nəbiyev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 avqust 2010-cu il***

## V.Y.ƏLƏKBƏROVUN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin inkişafında xidmətlərinə görə Vahid Yusifoviç Ələkbərov “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 avqust 2010-cu il***

# AZƏRBAYCAN RESPUBLİKASININ FRANSA RESPUBLİKASINDAKI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ ÖZBƏKİSTAN RESPUBLİKASINDAKI SƏFİRLİKLƏRİNİN TABELİYİNDƏ MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzləri yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. iki ay müddətində "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"ni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci bəndi ilə yaradılan mədəniyyət mərkəzlərinin fəaliyyətinin təmin edilməsi ilə bağlı lazımi tədbirlər görsün.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 sentyabr 2010-cu il***

## S.M.ASLANOVUN “AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU” İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan incəsənətinin inkişafındakı xidmətlərinə görə Səyavuş Məmmədağa oğlu Aslanov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 sentyabr 2010-cu il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Əlizadə Fuad Telman oğlu - Sumqayıt Musiqi Kollecinin tələbəsi

Həsənov Kamil Sənan oğlu - Bakı şəhər Rauf Hacıyev adına 15 №-li Uşaq Musiqi Məktəbinin şagirdi

Hüseynova Nərgiz Ələkbər qızı - Bakı şəhər Qara Qarayev adına 8 №-li Uşaq Musiqi Məktəbinin şagirdi

Mayılov Kənan Eldəniz oğlu - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 №-li Uşaq Musiqi Məktəbinin şagirdi

Nəcəfzadə Minirə İlham qızı - Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının şagirdi

Ömərli Kamran İmran oğlu - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 №-li Uşaq Musiqi Məktəbinin şagirdi

Yunusov İsmayıl Səbuhi oğlu Bakı şəhər Rauf Hacıyev adına 15 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 sentyabr 2010-cu il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar İncəsənət Xadimi"**
Allahverdiyev Vasif Kərim oğlu
Əzimov Aydın Kərim oğlu

**"Əməkdar Artist"**
Axundov Bəxtiyar Ağayar oğlu
Cahangirova Dilarə Eynullayevna
Əliyeva Dinara Fuad qızı
Əliyeva Viktoriya Həsən qızı
Kuznetsov Vladislav Aleksandroviç

**"Əməkdar Mədəniyyət İşçisi"**
Qasımov Kazım Qasım oğlu
Qasımov Nemət Yusif oğlu
Rzayev Abuzər Səlman oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 sentyabr 2010-cu il***

## MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram**:

1. Dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2010-cu il sentyabrın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 sentyabr 2010-cu il***

## M.İ.İBRAHİMOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan muğam sənətinin inkişafındakı xidmətlərinə görə Mənsum İsrafil oğlu İbrahimov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2010-cu il***

## X.H.MİRZƏZADƏNİN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xəyyam Hadi oğlu Mirzəzadə “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 oktyabr 2010-cu il***

## Ə.P.DİLBAZİNİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalq rəqslərinin mahir ifaçısı və quruluşçusu, SSRİ xalq artisti Əminə Paşa qızı Dilbazinin xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

1. Bakı Şəhər İcra Hakimiyyəti Əminə Dilbazinin yaşadığı binaya (Xaqani küçəsi, 19/13) xatirə lövhəsinin vurulmasını təmin etsin.

2. Qazax Rayon İcra Hakimiyyəti Qazax şəhərində küçələrdən birinə Əminə Dilbazinin adının verilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 noyabr 2010-cu il***

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda tarix elminin inkişafı və tarixi-mədəni irsin qorunub saxlanılması sahəsində xidmətlərinə görə Milli Azərbaycan Tarixi Muzeyinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdulova Gülzadə Sərxan qızı
Ağayev Gennadi Camal oğlu
Dulayeva Zərifə Aleksandrovna
Əliyeva Gülşən Alik qızı
Əliyeva Həbibə Mirpaşa qızı
Əliyeva Nərgiz Ağasəlim qızı
Əsədullayeva Xanım Allahverdi qızı
Hüseynova Solmaz İsmayıl qızı
Məmmədov Məmməd Həsən oğlu
Rəcəbli Əli Məhəmməd oğlu
Sayılov Bəxtiyar Sahib oğlu
Şalamova Lüdmila Nikolayevna
Zeynalova Məhfuzə Hacı qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 noyabr 2010-cu il***

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda tarixi-mədəni irsin qorunub saxlanılması sahəsində xidmətlərinə görə Milli Azərbaycan Tarixi Muzeyinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Abdullayeva Faidə Haşım qızı
Əliyeva Mina Əliyulla qızı
Hacıyeva Elmira Qılman qızı
Hacıyeva Gülşən Fərhad qızı
Hüseynova Zemfira Həmid qızı
Məhərrəmov Əliməmməd Hacı oğlu
Nəsirov Musa Müzəffər oğlu
Səfərova Rəna Ağabala qızı
Zəvərov Əmir Yusif Təhsib oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 noyabr 2010-cu il***

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ BİNASININ YENİDƏN QURULMASI İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yarandığı vaxtdan etibarən sənət tariximizə milli-mənəvi sərvətin bir çox qiymətli nümunələrini bəxş etmişdir. Teatr ölkəmizin zəngin ənənələrə malik qabaqcıl sənət ocaqlarından birinə çevrilərək, bu gün də tamaşaçıların dərin rəğbətini qazanmaqdadır.

Xalqımızın mədəni həyatında özünəməxsus yerini və yüksək ictimai əxlaqi dəyərlərin təbliğində rolunu nəzərə alaraq, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasının yenidən qurulmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasının yenidən qurulması ilə bağlı işlərin başlanılması üçün Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 2,0 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2010-cu il***

## NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNİN ƏMƏKDAŞLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının ədəbi-mədəni irsinin qorunması və təbliği işində xidmətlərinə görə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Rəssam"**
Şatikov Stanislav Afanasyeviç

**"Əməkdar Mədəniyyət İşçisi"**
Babanlı Tomris Rəhimağa qızı
Hüseynova Sədaqət Niftalı qızı
Mahmudova İradə Qədirhüseyn qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 noyabr 2010-cu il***

## NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNİN ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının ədəbi-mədəni irsinin qorunması, tədqiqi və təbliği işində xidmətlərinə görə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Hacıyev İlqar Vaqif oğlu
Mövlayeva Səmayə Ələkbər qızı
Şamilova Kübra Əsədulla qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 noyabr 2010-cu il***

## S.B.İXİİLOVUN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DIPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında xalqlar arasında dostluq münasibətlərinin inkişafındakı səmərəli fəaliyyətinə görə Semyon Borisoviç İxiilov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 dekabr 2010-cu il***

## SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRININ ƏMƏKDAŞLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Xalq Artisti”**
Nikuşina Aleksandra Konstantinovna

**“Əməkdar Artist”**
Aslanova Elmira Ramazanovna
İbrahimova Naina Ağaəli qızı
Nağıyev Ömür Məlik oğlu
Spitsina Yelena Eduardovna

**“Əməkdar Mədəniyyət İşçisi”**
Fyodorov Aleksandr Petroviç

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2010-cu il***

## T.Ə. BAKIXANOVUN “AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU” İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 dekabr 2010-cu il***

## BAKI ŞƏHƏRİNDƏ XALQ QƏHRƏMANI KOROĞLUNUN ABİDƏSİNİN UCALDILMASI İLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının əfsanəvi qəhrəmanı Koroğlu milli-mənəvi dəyərlərin daşıyıcısına çevrilərək əsrlərdən bəri insanlarımızın yaddaşına vətənpərvərliyin və mübarizliyin rəmzi kimi həkk olunmuşdur.

Azərbaycanın xalq qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi və onların adlarının daim yad edilməsinin gənc nəslin mədəni-tarixi irsə bağlılıq ruhunda tərbiyə olunması baxımından müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Bakı şəhərində xalq qəhrəmanı Koroğlunun abidəsinin ucaldılması üçün Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 dekabr 2010-cu il***

## BƏHRAM MƏNSUROVUN 100 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ilin fevral ayında Azərbaycan Respublikasının xalq artisti, görkəmli tarzən, muğamların mahir ifaçısı Bəhram Süleyman oğlu Mənsurovun anadan olmasının 100 illiyi tamam olur.

Azərbaycanın milli musiqi mədəniyyətinin inkişafı və muğam sənətinin təbliği işinə dəyərli töhfələr vermiş Bəhram Mənsurovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Bəhram Mənsurovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 dekabr 2010-cu il***

**2010-CU İL NOYABRIN 10-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İRAQ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TİCARƏT, İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin 9-cu maddəsində nəzərdə tutulan Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İraq Respublikası Hökumətini xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 dekabr 2010-cu il***

## E.T.QULİYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Eldar Tofiq oğlu Quliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 yanvar 2011-ci il***

## LÜTFİ ZADƏNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Elm və texnologiyaların inkişafına verdiyi töhfələrlə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi görkəmli xidmətlərinə görə Lütfi Zadə (Lütfi Rəhim oğlu Ələsgərzadə) "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 fevral 2011-ci il***

## S.A.MƏLİKOVAYA “ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda mədəniyyət sahəsində xidmətlərinə görə Sevda Atif qızı Məlikovaya “Əməkdar Mədəniyyət İşçisi” fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda mədəniyyət, turizm sahələrində xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Cəfərov Zülqədər Mustafa oğlu
Əliyeva Tahirə Arif qızı
İbrahimova Gülnarə İdris qızı
Qaloçkina Olqa Borislavovna

**"Tərəqqi" medalı ilə**
Ənnağıyeva Rübabə Gülağa qızı
Qəhrəmanov Mahir Kamandar oğlu
Məsimov Fərrux Əkbər oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2011-Cİ İLİN "TURİZM İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. 2011-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2011-ci ilin Azərbaycan Respublikasında "Turizm ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 fevral 2011-ci il***

## V.Q.ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİN BİRİNCİ MÜAVİNİ TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Vaqif Qadir oğlu Əliyev Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin birinci müavini təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 fevral 2011-ci il***

## O.S.SADIQZADƏNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə xalq rəssamı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 fevral 2011-ci il***

## AZƏRBAYCAN QADINLARININ BİR QRUPUNA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Müəllim"**
Kərimova Ayət Sadıq qızı
Məmmədova Sədaqət Ağaəli qızı

**"Əməkdar Həkim"**
Əliyeva Səhər Hidayət qızı
Ocaqverdizadə Ofelya Məlkum qızı

**"Əməkdar Mədəniyyət İşçisi"**
Əliyeva Zəhra Gülbala qızı
İsmayılova Səriyyə İsmayıl qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 mart 2011-ci il***

## QOBUSTAN MİLLİ TARİX-BƏDİİ QORUĞU MUZEYİNİN YENİ BİNASININ TİKİNTİSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Qobustan Milli Tarix-Bədii Qoruğundakı unikal qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Qobustan Milli Tarix-Bədii Qoruğu muzeyinin yeni binasının tikintisi üçün 2011-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 2,0 (iki) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2011-ci il***

## İ.S.NOVRUZOVA "ƏMƏKDAR ARTİST" FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında uzun müddət səmərəli fəaliyyət göstərdiyinə görə polkovnik-leytenant İlqar Süleyman oğlu Novruzova "Əməkdar artist" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 mart 2011-ci il***

## Ə.N.NEMƏTZADƏYƏ “ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Əflatun Nemət oğlu Nemətzadəyə

“Əməkdar İncəsənət Xadimi” fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 mart 2011-ci il***

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MADDİ-TEXNİKİ BAZASININ MÖHKƏMLƏNDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinin qorunub saxlanılmasında, tədqiqi və təbliğində xüsusi xidmətləri olan Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin maddi-texniki bazasını möhkəmləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin eksponatlarının restavrasiyası, habelə tarixi əhəmiyyətli yeni muzey əşyalarının alınması üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ayrılmış vəsaitdən Milli Azərbaycan Tarixi Muzeyinin təqdim etdiyi plana əsasən aidiyyəti üzrə istifadə olunmasına nəzarəti təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2011-ci il***

## V.N.İQNATENKONUN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında informasiya sahəsində əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Vitali Nikitiç İqnatenko

"Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 aprel 2011-ci il***

## N.Ə.HƏSƏNZADƏNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 aprel 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ATLASI”NIN NƏŞRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından etibarən ötən iyirmi il ərzində xalqımızın ictimai-siyasi və elmi-mədəni həyatı ilə bağlı nailiyyətləri əks etdirən mühüm əhəmiyyətə malik bir sıra nəşrlər işıq üzü görmüşdür. Bununla yanaşı, respublikamıza aid xəritələr mövcud akademik nəşrlərdə lazımınca əhatə olunmamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın milli atlasının çapını təmin etmək məqsədi ilə qərara alıram:

1. “Azərbaycan Respublikasının Milli Atlası” nəşr edilsin.

2. “Azərbaycan Respublikasının Milli Atlası”nın redaksiya heyətinin aşağıdakı tərkibi təsdiq edilsin:

**Redaksiya heyətinin sədri**

Artur Rasi-zadə – Azərbaycan Respublikasının Baş naziri

**Redaksiya heyəti sədrinin müavini**

Mahmud Kərimov – AMEA-nın həqiqi üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

**Məsul katib**

Qərib Məmmədov – AMEA-nın həqiqi üzvü, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri

**Redaksiya heyətinin üzvləri**

Elmar Məmmədyarov – Xarici işlər naziri
Şahin Mustafayev – İqtisadi inkişaf naziri
Natiq Əliyev – Sənaye və energetika naziri
Ziya Məmmədov – Nəqliyyat naziri
İsmət Abasov – Kənd təsərrüfatı naziri
Hüseynqulu Bağırov – Ekologiya və təbii sərvətlər naziri
Əbülfəs Qarayev – Mədəniyyət və turizm naziri
Misir Mərdanov – Təhsil naziri
Oqtay Şirəliyev – Səhiyyə naziri
Əli Abbasov – Rabitə və informasiya texnologiyaları naziri
Azad Rəhimov – İdman və gənclər naziri
Arif Vəliyev – Dövlət Statistika Komitəsinin sədri

Akif Əlizadə – AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, AMEA-nın Geologiya İnstitutunun direktoru

Xoşbəxt Yusifzadə – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

Ağamusa Axundov – AMEA-nın həqiqi üzvü, AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın Dilçilik İnstitutunun direktoru

Əhliman Əmiraslanov – AMEA-nın həqiqi üzvü, AMEA-nın Biologiya Elmləri Bölməsinin akademik-katibi, Azərbaycan Tibb Universitetinin rektoru

Budaq Budaqov – AMEA-nın həqiqi üzvü, AMEA-nın Coğrafiya İnstitutunun direktoru

Abel Məhərrəmov – AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin rektoru

Ziyad Səmədzadə – AMEA-nın həqiqi üzvü, Azərbaycan İqtisadçılar İttifaqının sədri

Yaqub Mahmudov – AMEA-nın müxbir üzvü, AMEA-nın Tarix İnstitutunun direktoru, Bakı Dövlət Universitetinin kafedra müdiri

Məhərrəm Babayev – AMEA-nın müxbir üzvü, AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 aprel 2011-ci il***

## R.R.MƏMMƏDOVUN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİNİN RƏİSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Rəşad Rəfael oğlu Məmmədov Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin rəisi təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 aprel 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Əməkdar İncəsənət Xadimi”**
Alıyev Barat Alı oğlu
Bağırov Elşad Zakir oğlu

**“Əməkdar Artist”**
Əliyev Vahid Əsgər oğlu
Həşimi Yadulla Mehman oğlu
Hüseynov İlham Abbas oğlu
İbayev Səbuhi Tahir oğlu
Məmmədov Xoşbəxt Adil oğlu
Mikayılova Sonaxanım Məmmədağa qızı
Rzayeva Nigar Azər qızı
Rzayeva Vəfa Əliseyran qızı

**“Əməkdar Rəssam”**
Həsənov Rəşid İbrahim oğlu

**“Əməkdar Mədəniyyət İşçisi”**
Ələkbərov Nazim Yaqub oğlu
Həsənov Həsən Nəsib oğlu
Hüseynova Firəngiz Hüseynqulu qızı
Nəzərov Qulam Əkbər oğlu
Salamov Nurəddin Zərbəli oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2011-ci il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdullayeva Tamella İslam qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağasoy Həsən Vəliqulu oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayeva İnarə Əhməd qızı
Bağırov Tamerlan Kamil oğlu
Bağırov Viktor Cəmiloviç
Bayramov Rafael Əli oğlu
Bayramova Aygün Əliqulu qızı
Bayramova Cəmilə Əsədulla qızı
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Cəfərova Eteri Leonidovna
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov İlham Namiq Kamal oğlu
Əkbərov Yusif Məmmədağa oğlu
Əliyev Rahib Seyidağa oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Dilarə Asəf qızı
Əlizadə Məryəm Əli qızı
Əlizadə Rəhman Balarza oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Əsgərov Mübariz Səməd oğlu
Göyçayev Teymur Ənvər oğlu
Həsənova Qəribə İbrahim qızı
Həsənova Səyyarə Hidayət qızı

Həşimov Xanlar Allahverdi oğlu
Həşimova Şahnaz Həsən qızı
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Sevinc Qəhrəman qızı
Hüseynov Murad Fərid oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsgəndərova Sənubər Sabir qızı
İsmayılova Gülnaz Əmir qızı
İsmayılova Zemfira Rüstəm qızı
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Elmira Nəsir qızı
Kərimova Qərinə Rəhim qızı
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quluzadə Lətifə Nəsir qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Mahmudov Zülfüqar Xudaverdi oğlu
Mehdiyeva Dilarə Yurmiz qızı
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Miltıx Aleksey Leonidoviç
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mövlamova Fərqanə Alim qızı
Muradova Təranə Hüseyn qızı
Musayeva Şükufə İmran qızı
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı

Nərimanova Zemfira Əli qızı
Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Salmanlı Ağaxan Əli oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səfərova Afaq Bəşir qızı
Səmədov Cavid Eldar oğlu
Səttarova Günay Nazim qızı
Süleymanov Məzahir Həbullah oğlu
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zəki Mehriban Mürvət qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 5 may tarixli 891 nömrəli Sərəncamının 1-ci hissəsi qüvvədən düşmüş hesab edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycanda mədəniyyətin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Həsənov Vaqif İbrahim oğlu

Rəcəbov Oqtay Məmmədağa oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 may 2011-ci il***

## A.R.RZAYEVƏ HEYDƏR ƏLİYEV MÜKAFATININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətlərinə görə Anar Rəsul oğlu Rzayevə Heydər Əliyev Mükafatı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 may 2011-ci il***

## OLJAS SÜLEYMENOVUN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğindəki xidmətlərinə görə Oljas Süleymenov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2011-ci il***

## E.P.QASIMOVUN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Eurovision-2011" mahnı müsabiqəsində qazandığı qələbəyə görə Eldar Pərviz oğlu Qasımov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 may 2011-ci il***

## N.A.CEMALIN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Eurovision-2011" mahnı müsabiqəsində qazandığı qələbəyə görə Nigar Aydın qızı Cemal "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 may 2011-ci il***

## “EUROVİSİON–2012” MAHNI MÜSABİQƏSİNİN BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Avropa Yayım İttifaqı tərəfindən təşkil olunan ən yaxşı mahnı üzrə builki televiziya müsabiqəsi Azərbaycan Respublikası təmsilçilərinin parlaq qələbəsi ilə başa çatmışdır. Müsabiqənin qaydalarına əsasən, qalib ölkə növbəti ildə yarışmanı keçirmək hüququnu qazanır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2012-ci ilin may ayında Bakı şəhərində “Eurovision–2012” mahnı müsabiqəsinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2012-ci ilin may ayında Bakı şəhərində “Eurovision–2012” mahnı müsabiqəsinin keçirilməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Mehriban Əliyeva –YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti

**Təşkilat Komitəsinin üzvləri**

Elmar Məmmədyarov -Azərbaycan Respublikasının xarici işlər naziri

Ramil Usubov –Azərbaycan Respublikasının daxili işlər naziri

Şahin Mustafayev –Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Əbülfəs Qarayev –Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov –Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Azad Rəhimov –Azərbaycan Respublikasının gənclər və idman naziri

Hacıbala Abutalıbov –Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Cahangir Əsgərov –“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Etibar Pirverdiyev –“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Baba Rzayev –“Bakıelektrikşəbəkə” Açıq Səhmdar Cəmiyyətinin sədri

İsmayıl Ömərov –Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru

Əli Əsədov –Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisi

Fatma Abdullazadə –Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

2. Təşkilat Komitəsi “Eurovision–2012” mahnı müsabiqəsinin təşkili və keçirilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 may 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İRAQ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TİCARƏT, İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1261 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

Əli Abbasov -Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Komissiyanın üzvləri:

Xələf Xələfov -Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov -Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov -Azərbaycan Respublikası təhsil nazirinin müavini

İsmayıl İsmayılov -Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Səfər Mehdiyev -Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Vadim Xubanov -Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Akif Əlizadə -Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Elman Araslı -Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə İraq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 may 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ ÇİN XALQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA 2011-2015-CI İLLƏR ÜÇÜN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL”U İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2011-2015-ci illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol”u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 may 2011-ci il***

## X.Ə.QASIMOVANIN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xuraman Əkrəm qızı Qasımova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 may 2011-ci il***

## N.F.QASIMOVAYA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Nisə Fətulla qızı Qasımovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 iyun 2011-ci il***

## KAMİL ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ilin oktyabr ayında müasir Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Azərbaycan Respublikasının xalq rəssamı Kamil Müseyib oğlu Əliyevin 90 illiyi tamam olur.

Azərbaycan xalçaçılığı və dekorativ-tətbiqi sənətinin qədim ənənələrinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində Kamil Əliyevin mühüm xidmətləri vardır. Onun əsərləri öz orijinallığı və monumentallığı ilə səciyyələnərək mədəniyyətimizin parlaq səhifəsini təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, tanınmış xalçaçı rəssam Kamil Əliyevin 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Kamil Əliyevin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 iyul 2011-ci il***

## MİRZƏ İBRAHİMOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ilin oktyabr ayında Azərbaycanın xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas və publisist, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Mirzə Əjdər oğlu İbrahimovun 100 illiyi tamam olur. XX əsr ədəbiyyatımızın tanınmış simalarından biri kimi onun meydana gətirdiyi əsərlərdə dövrün və zamanın dolğun mənzərəsi yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi-estetik fikrin inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə xalq yazıçısı Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 iyul 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASINDA 2011-Cİ İLİN “TURİZM İLİ” ELAN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR PLANI”NIN TƏSDİQ OLUNMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyul 2011-ci il***

***Azərbaycan Respublikası Prezidentinin***
***2011-ci il 20 iyul tarixli Sərəncamı ilə***
***təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2011-Cİ İLİN “TURİZM İLİ” ELAN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR PLANI

| **Sıra №-si** | **Tədbirin adı** | **İcraçılar** | **İcra müddəti** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| | | **Mədəni turizm tədbirləri** | |
| 1. | Turist axını çox olan rayonlarda “Bu Vətən bizimdir" adlı turist düşərgələrinin təşkil edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | iyul-senty |
| 2. | Aztəminatlı ailələrin, dövlət himayəsində olan əlil və kimsəsiz uşaqların Azərbaycanın müxtəlif yerlərinə xüsusi səyahətlərinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin | II yarımil |

| | | | |
|---|---|---|---|
| | | İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Mədəniyyət və Turizm Nazirliyi | |
| 3. | Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş müvafiq tədbirlər çərçivəsində "Turizm ili"nə dair təbliğat işlərinin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi | sentyabr |
| 4. | 2011-ci il üçün Azərbaycanın "Əfsanələr paytaxtı" Şabranda, "Folklor Paytaxtı" Lənkəranda və "Sənətkarlıq Paytaxtı" İsmayıllıda milli dəyərlərin təbliği məqsədi ilə keçiriləcək tədbirlərin "Turizm ili" çərçivəsində qeyd olunması | Mədəniyyət və Turizm Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | il ərzində |
| 5. | Azərbaycan Respublikası ilə Gürcüstan arasında mövcud turist axınını nəzərə alaraq, Bakı-Tbilisi-Bakı dəmir yolu marşrutu üzrə ixtisaslaşdırılmış turist qatarlarının təşkili | Nəqliyyat Nazirliyi, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti | il ərzində |
| 6. | "Turizm ili" çərçivəsində turizm nümayişi obyektlərinə tələbələrin və şagirdlərin ekskursiyalarının təşkilinə dair xüsusi proqramın işlənib hazırlanması | Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | il ərzində |
| 7. | "Çıraqqala" tarixi abidələr kompleksinin bərpası və qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 iyun tarixli 1262 nömrəli və "Şabran şəhəri" tarix və mədəniyyət abidəsinin qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 1343 nömrəli Sərəncamlarının icrasının başa çatdırılması | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | II yarımil |
| 8. | "Turizm ili"nin yekunlarına həsr olunmuş təntənəli tədbirin təşkili | Mədəniyyət və Turizm Nazirliyi | ilin sonun |
| | **İdarəetmə və normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | |
| 9. | "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun yeni | Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi | avqust-sentyab |

| | | | |
|---|---|---|---|
| | layihəsinin Milli Məclisə təqdim edilməsi | | |
| 10. | Turizm xidməti əməkdaşlarının peşə bayramının (gününün) elan olunması və turizm sənayesində çalışan şəxslərin dövlət tərəfindən təltif edilməsi üçün təkliflərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi | avqust-sentyab |
| 11. | Turizm məqsədi ilə Azərbaycan Respublikasına səfər edən şəxslərin sayının artırılması üçün onlara viza rəsmiləşdirilməsinin sadələşdirilməsinə dair təkliflərin hazırlanması | Xarici İşlər Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 12. | Hava, dəniz və yol beynəlxalq, həmçinin yerli daşımalarda turist qruplarına xüsusi tarif qiymətlərinin tətbiq edilməsinə dair təkliflərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Nəqliyyat Nazirliyi | il ərzində |
| 13. | Xəzər dənizinin sahil ərazilərində çimərlik turizminin inkişaf etdirilməsi məqsədi ilə müvafiq idarəetmə mexanizminin yaradılmasına dair təkliflərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | il ərzində |
| 14. | Naxçıvan Muxtar Respublikasında mövcud olan türbələrin YUNESKO-nun Mədəni İrs Siyahısına daxil edilməsinə dair sənədlərin hazırlanması | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 15. | Azərbaycanın tarix-mədəniyyət obyektlərinin, qoruqların, tarixi əhəmiyyət kəsb edən arxeoloji ərazilərin xəritələrinin hazırlanması və ərazilərin genişləndirilməsinə ehtiyac olduğu təqdirdə, Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında mövcud torpaq qanunvericiliyinin tələblərinə uyğun torpaqların ayrılması | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | il ərzində |
| 16. | Turizm sahəsində fəaliyyət göstərən orta və kiçik sahibkarlara dəstək məqsədi ilə təyinatlı və güzəştli kreditlərin ayrılması | İqtisadi İnkişaf Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 17. | “Turizm ili” çərçivəsində turizm sənayesinin inkişafı üçün iqtisadi | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | il ərzində |

| | | | |
|---|---|---|---|
| | mühitin yaxşılaşdırılmasına və investisiyaların cəlb olunmasına dair təkliflərin hazırlanması | | |
| | **Elm və təhsil** | | |
| 18. | Qonşu ölkələrin nümayəndələrinin iştirakı ilə “Sərhədyanı turizmin inkişaf perspektivləri” mövzusunda beynəlxalq konfransın keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti, yerli icra hakimiyyəti orqanları | II yarımillik |
| 19. | Azərbaycan Turizm İnstitutunun nəzdində Bakı Turizm Peşə Məktəbinin yaradılması | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | il ərzində |
| 20. | Turizm şirkətlərində, mehmanxana və restoranlarda çalışanların peşə hazırlığını artırmaq üçün ixtisaslaşdırılmış treninqlərin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Turizm İnstitutu | il ərzində |
| 21. | Turizm bələdçiləri üçün Bakı və Abşeron yarımadası haqqında vahid metodiki vəsaitin hazırlanması və təsdiq edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | il ərzində |
| 22. | Müalicəvi su və digər təbii mənbələrin olduğu ərazilərdə müasir tələblərə uyğun rekreasiya-yerləşdirmə obyektlərinin yaradılmasına dair təkliflərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | il ərzində |
| **Təbliğat və təşviqat** | | | |
| 23. | 2011-ci ilin "Turizm ili" elan olunması ilə bağlı şəhər və rayonlarda bədii tərtibat işlərinin aparılması, böyük mehmanxanaların qarşısında, turizm nümayiş obyektlərində, küçə və meydanlarda, park və xiyabanlarda reklam xarakterli təbliğat vasitələrinin yerləşdirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, şəhər və rayon icra hakimiyyəti orqanları | il ərzində |

| | | | |
|---|---|---|---|
| 24. | Beynəlxalq turizm bazarında Azərbaycan Respublikası üçün prioritet hesab olunan ölkələrdə milli turizmin təbliği üzrə tədbirlərin görülməsi, həmçinin həmin ölkələrdən Azərbaycana infoturların (press-turların) təşkil edilməsi:<br>- Avropa İttifaqı ölkələri, ABŞ, Yaponiya, Kanada, Rusiya və Fars Körfəzi ölkələri;<br>- Euronews, Travel Channel, CNN, BBC və National Geographic televiziya kanalları | Nazirlər Kabineti,<br>Xarici İşlər Nazirliyi,<br>Mədəniyyət və Turizm Nazirliyi | II yarımillik |
| 25. | Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlikləri üçün Azərbaycanın turizm bölgələrinə infoturların təşkil edilməsi | Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | avqust-sentyab |
| 26. | Turizm informasiya mərkəzləri şəbəkəsinin (Qəbələ, İsmayıllı (Basqal) və Bərdə) genişləndirilməsi və onların müasir avadanlıqlarla təchiz edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | il ərzində |
| 27. | Kütləvi informasiya vasitələrində "2011-ci il Turizm ilidir" devizi altında proqramların və xüsusi verilişlərin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Milli Televiziya və Radio Şurası, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Mətbuat Şurası | il ərzində |
| 28. | "Turizm ili"nə həsr olunmuş reklam məhsullarının hazırlanması və geniş yayımlanması | Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 29. | Ölkəmizin milli parklarında və ona yaxın ərazilərdə ekoturizm, xüsusən də "Bird Watching" turizm növü üzrə turların təşkili, təşviqi və təqdimatların keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | il ərzində |
| 30. | "Azərbaycanda palçıq vulkanları" marşrutunun hazırlanması və təqdimatının keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 31. | "Turizm ili" ilə bağlı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və diasporları tərəfindən Azərbaycanın turizm | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi,<br>Diasporla İş üzrə Dövlət Komitəsi | il ərzində |

| | | | |
|---|---|---|---|
| | potensialının xarici ölkələrdə tanıtımı məqsədi ilə təbliğat-təşviqat işinin gücləndirilməsi | | |
| 32. | Respublika kitabxanalarının, informasiya mərkəzlərinin, muzey və təhsil ocaqlarının internet informasiya vasitələrində ölkənin turizm potensialının təbliği ilə bağlı lazımi işlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | il ərzində |
| 33. | Azərbaycanın turizm və mədəniyyət obyektlərinin, gəzməli-görməli yerlərinin telefon məlumat xidmətinin yaradılması | Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, şəhər və rayon icra hakimiyyəti orqanları | il ərzində |
| 34. | Mehmanxana və mehmanxana tipli obyektlərin Azərbaycanı təbliğ edən turizm bələdçi kitabı ilə təmin olunması | Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 35. | Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin dövlət hesabına yüksək tərtibatlı və əcnəbi dillərdə olan informasiya-təbliğat materialları ilə müntəzəm olaraq təmin edilməsi | Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| 36. | Turizm mövsümündə turizmin müxtəlif növləri üzrə Azərbaycanda təklif edilən turlar və xidmətlər barədə məlumatın xarici ölkələrin turizm kataloqlarında və beynəlxalq səyahət nəşrlərində yerləşdirilməsi | Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | il ərzində |
| | **Müsabiqələr** | | |
| 37. | Gənc alimlərin dəstəklənməsi və respublika turizm elminin inkişafı məqsədi ilə "Turizm" mövzusuna həsr olunmuş elmi tədqiqat işləri müsabiqəsinin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | sentyabr |
| | **İnvestisiyalar və turizm infrastrukturunun inkişafı** | | |
| 38. | Yerli və xarici turistlər üçün cəlbedici nümayiş obyekti kimi "Basqal" etnoqrafik kənd layihəsinin yaradılması, müvafiq tarix-mədəniyyət obyektlərinin bərpası və müvafiq | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, İsmayıllı Rayon İcra Hakimiyyəti | |

| | | | |
|---|---|---|---|
| | beynəlxalq nominasiyaya təqdim edilməsi | | |
| 39. | Respublikanın ərazisində turizm və nümayiş obyektlərinə (tarix və mədəniyyət qoruqlarına və xüsusi əhəmiyyətli abidələrə) gedən yolların abadlaşdırılması, təmiri, yollarda xüsusi göstəricilərin və yol nişanlarının qoyulması | Nəqliyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | |
| 40. | Bakı-Qazax turizm marşrutunda yerləşən Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin bərpası | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | |
| 41. | Bakı-Balakən turizm marşrutunda yerləşən Şəki Tarix-Diyarşünaslıq Muzeyinin və Xalq Tətbiqi Sənəti Muzeyinin təmiri və bədii tərtibatı | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | |
| 42. | “Şahdağ” qış-yay turizm kompleksinin yaradılması ilə bağlı işlərin sürətləndirilməsi | Mədəniyyət və Turizm Nazirliyi | |
| 43. | Arxeoloji abidələr üzrə müvafiq işlərin aparılması:<br>- Şəki rayonu, Fazıl kəndində kurqanların ərazisinin abadlaşdırılması, yeraltı muzey işlərinin tamamlanması;<br>- Tovuz rayonunda “Göytəpə yaşayış yeri” arxeoloji abidəsinin ərazisinin abadlaşdırılması;<br>- tarixi Şabran şəhərinin ərazisində genişmiqyaslı arxeoloji tədqiqatların aparılması;<br>- Şamaxı şəhərində yeni aşkar olunmuş, Şirvanşahlara aid edilən orta əsr tikilisinin, orta əsr Şamaxı şəhərinin qala divarlarının və kəhriz qalıqlarının konservasiyası və turizm marşrutuna salınması | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | |
| 44. | Memarlıq abidələri və mədəniyyət qoruqları üzrə bərpa işlərinin aparılması, müvafiq turizm infrastrukturunun yaradılması və turizm marşrutlarına daxil edilməsi:<br>- Sınıq körpü, Şəki xanlarının evi, Çıraqqala abidəsi;<br>- Abşeron qalaları;<br>- Qəbələ rayonu, Nic kəndində alban kilsəsi;<br>- Zaqatala qalası və şəhər meydanındakı | Mədəniyyət və Turizm Nazirliyi,<br>yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | |

| | | | |
|---|---|---|---|
| | Alban abidəsi;<br>- Nic kəndində səma altında udin etnoqrafiya kompleksinin yaradılması | | |
| 45. | Şabran Tarix-Mədəniyyət Qoruğunda və Lahıc Tarix-Mədəniyyət Qoruğunda turizm xidməti infrastrukturunun yaradılması ilə əlaqədar müvafiq işlərin görülməsi | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr | |
| 46. | Turizmin davamlı inkişafı məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında respublika üzrə turizm və rekreasiya zonaları ərazilərinin 1:50000 miqyasında müasir xəritələrinin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | |

## N.UREKENİN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rumıniya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Nikolae Ureke “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 iyul 2011-ci il***

## AZƏRBAYCAN KİNO XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə aşağıdakı kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar İncəsənət Xadimi"**
Quliyev Rövşən Cavanşir oğlu
Məmmədov Böyükağa Zeynaloviç
Şıxlinski Ziya Ənvər oğlu

**"Əməkdar Artist"**
Hüseynova Kəmalə Müzəffər qızı
Qurbanova Gülzar Qurban qızı
Səmədov Əliqulu Qüdrət oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**
Dadaşov İsmayıl Cabir oğlu
Kərimova Tatyana Alekseyevna
Qalabəyov Şahin Zahid oğlu
Məmmədov Əziz Əmirbala oğlu
Sultan-zadə Almaz Hacıbaba qızı
Şarkovkina Lidiya İvanovna

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 iyul 2011-ci il***

## BAKI ŞƏHƏRİNDƏ İSTİQLAL MUZEYİNİN TİKİNTİSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhərində İstiqlal Muzeyinin tikintisi üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 avqust 2011-ci il***

## Y.M. NURİYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə Yaşar Məmmədsadıq oğlu Nuriyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 sentyabr 2011-ci il***

## BAKI ŞƏHƏRİNDƏ GÖRKƏMLİ AZƏRBAYCAN SƏRKƏRDƏSİ BABƏKİN ABİDƏSİNİN UCALDILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və xalqımızın çoxəsrlik zəngin tarixinə adları qəhrəmanlıq rəmzi kimi həkk olunmuş görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində böyük Azərbaycan sərkərdəsi Babəkin abidəsi ucaldılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti Babəkin abidəsinin ucaldılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ TELEVİZİYA FİLMLƏRİNİN İSTEHSALINA MALİYYƏ YARDIMININ GÖSTƏRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müasir dövrdə ölkəmizin ictimai-siyasi və mədəni həyatında yerli televiziya kanallarının yayımladığı verilişlərin və müxtəlif telefilmlərin əhəmiyyəti getdikcə artaraq, gənc nəslin tərbiyəsində əsas amillərdən birinə çevrilir. Azərbaycanda mənəvi inkişaf sahəsində həyata keçirilən çoxsaylı dövlət proqramları, milli-mənəvi dəyərlərin qorunmasına yönəlmiş geniş tədbirlər yerli kino istehsalının inkişafına, o cümlədən telefilmlərin çəkilişinə ehtiyacı günü-gündən artırır.

Azərbaycan xalqının mədəni irsini təbliğ edən və mənəvi-əxlaqi dəyərlərini aşılayan telefilmlərin milli şüurun formalaşmasında, gənc nəslin inkişafında böyük əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Milli telefilmlərin, habelə teleseriallarının çəkilişini dəstəkləmək məqsədilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasına 5 (beş) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 sentyabr 2011-ci il***

## A.H.SƏMƏDOVA "XALQ ARTİSTİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan estradasının inkişafındakı xidmətlərinə görə Ağasəməd Həsən oğlu Səmədova "Xalq Artisti" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 sentyabr 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Nəbizadə Zabit Gülxan oğlu

**"Əməkdar Artist"**
Abdullazadə Zöhrə Abdulla qızı
Allahverdiyev Nizami Ağamalı oğlu
Bağırov Abbas Nizami oğlu
Cabarov Tofiq Kamaloviç
Cahangirov Arif Qüdrət oğlu
Əliyeva Təranə Mehdi qızı
Əzizov Elçin Yaşar oğlu
Fətalıyev Şirzad Nizan oğlu
Hüseynov Ruslan Barat oğlu
İmanov Fuad Yaşaroviç
İmanov Tahir Qorxmaz oğlu
Kərimova Elnarə Nadir qızı
Məlikova Fəridə İsmayıl qızı
Məmmədov Sirus Arif oğlu
Məmmədova Lalə Nadir qızı
Paşazadə Sahib Ağaverdi oğlu
Qasımbəyli Etibar İsmayıl oğlu
Qürbətov Akif Həqiqət oğlu
Sabayev Andrey Yuryeviç
Sədiyev Əliağa Baba oğlu

**"Əməkdar İncəsənət Xadimi"**
Gərayzadə Vaqif Əzizağa oğlu
Səmədzadə Aygün Ziyad qızı

**"Əməkdar Mədəniyyət İşçisi"**
Əhmədov İmamqulu İsgəndər oğlu
İsrafilov Ağamurad Balamurad oğlu
Mustafayev İmamverdi Məhəmməd oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 sentyabr 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ MONTENEQRONUN MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Monteneqronun Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş”i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu **Qarayevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verildiyi barədə Monteneqro tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 sentyabr 2011-ci il***

## "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ DAĞISTAN RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ, MƏDƏNİ VƏ HUMANİTAR ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Dağıstan Respublikası (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verildiyi barədə Dağıstan Respublikası (Rusiya Federasiyası) Hökumətinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ QARAÇAY-ÇƏRKƏS RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Qaraçay-Çərkəs Respublikası (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verildiyi barədə Qaraçay-Çərkəs Respublikası (Rusiya Federasiyası) Hökumətinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2011-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İNQUŞETİYA RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və İnquşetiya Respublikası (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş”i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verildiyi barədə İnquşetiya Respublikası (Rusiya Federasiyası) Hökumətinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2011-ci il***

## ABBAS ZAMANOVUN 100 İLLİK YUBİLEYİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ildə tanınmış ədəbiyyatşünas alim, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor Abbas Fəttah oğlu Zamanovun 100 illiyi tamam olur.

Özünün zəngin elmi fəaliyyəti ilə Abbas Zamanov milli ədəbiyyatşünaslığın bir məktəb kimi formalaşdırılması və inkişaf etdirilməsi sahəsində təqdirəlayiq xidmətlər göstərmişdir. Ölkəmizdəki yüksək ixtisaslı kadrların azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda hazırlanmasında onun böyük əməyi vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın bədii-ictimai fikir tarixinin tədqiqi, eləcə də mədəni irsimizin və mənəvi sərvətlərimizin təbliği işinə mühüm töhfələr vermiş professor Abbas Zamanovun 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə birlikdə Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Abbas Fəttah oğlu Zamanovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 1993-cü il tarixli 598 nömrəli qərarının icrasını təmin etsin və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 oktyabr 2011-ci il***

## TAHİR SALAHOVUN EV-MUZEYİNİN YARADILMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ xalq rəssamı Tahir Teymur oğlu Salahov milli sənət xəzinəsinin qızıl fonduna daxil olan əsərləri ilə Azərbaycan mədəniyyəti tarixində yeni parlaq səhifə açmışdır. Onun dünyanın mötəbər muzeylərində və qalereyalarında saxlanılan, müxtəlif sərgilərdə nümayiş etdirilən tabloları çoxəsrlik ənənələrə malik Azərbaycan incəsənətinin şöhrətini yüksəklərə qaldırmışdır.

Tahir Salahovun öz yaradıcılığının bütün qiymətli nümunələrini və arxivini dövlətə təmənnasız hədiyyə etmək arzusu ömrünü milli mədəniyyətin zənginləşməsinə həsr etmiş böyük bir sənətkar tərəfindən atılan müdrik addım kimi dəyərləndirilməlidir.

Xalq rəssamı Tahir Salahovun Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Tahir Salahovun özünün rəsm əsərlərindən ibarət kolleksiyasını və şəxsi arxivini Azərbaycan dövlətinə bağışlaması təklifi nəzərə alınmaqla, iki ay müddətində Bakı şəhəri, Səbail rayonu, İçərişəhər, İlyas Əfəndiyev küçəsi, 55/3-cü İlyas Əfəndiyev döngəsi, 1 ünvanında Tahir Salahovun ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 oktyabr 2011-ci il***

## ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASININ 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fəaliyyətə başlamasının 90 illiyi tamam olur.

Şərqdə ilk ali musiqi təhsili ocağı kimi fəaliyyətə başladığı vaxtdan etibarən Bakı Musiqi Akademiyası ötən müddət ərzində zəngin bir yol keçmiş və milli mədəniyyətimizin çoxəsrlik tarixinə yeni parlaq səhifələr yazmışdır. Ölkəmizdə görkəmli bəstəkarlar və ifaçılar nəslinin yetişdirilməsində onun xüsusi yeri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə professional milli musiqiçi kadrların hazırlanması və musiqi mədəniyyətinin inkişaf etdirilməsi sahəsində mühüm xidmətləri olan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 90 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 oktyabr 2011-ci il***

## BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN NƏTİCƏLƏRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 2011-ci il oktyabrın 10–11-də Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Forum multikulturalizmin nailiyyətləri və problemləri, dünyanı dəyişdirən müasir texnologiyalar, elmlərin konvergensiyası, biotexnologiyalar və etikanın problemləri, inkişafın iqtisadi modellərinin humanitar aspektləri, sosial jurnalistika və yüksək texnologiyalar, postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemləri kimi aktual mövzulara həsr olunmuşdur. Azərbaycan nümayəndələri ilə yanaşı dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli təmsilçiləri, o cümlədən tanınmış dövlət xadimlərinin, elmin müxtəlif sahələri üzrə Nobel mükafatçılarının və mötəbər beynəlxalq qurumların rəhbərləri bu məsələlər ətrafında geniş fikir mübadiləsi və müzakirələr aparmışlar. Qloballaşma dövrünün humanitar problemlərinə dair Forum iştirakçılarının mövqeyi qəbul olunmuş Bakı bəyannaməsində öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və forum iştirakçılarının Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi təşkili ilə bağlı təkliflərini dəstəkləyərək qərara alıram:

1. Bakı Beynəlxalq Humanitar Forumunun müvəffəqiyyətlə keçirilməsini və beynəlxalq miqyasda qaldırdığı problemlərin aktuallığını nəzərə alaraq onun ənənəvi olaraq təşkil edilməsi zəruri sayılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müvafiq qurumlarla, o cümlədən beynəlxalq təşkilatlarla birlikdə Bakı Beynəlxalq Humanitar Forumunun bəyannaməsində əksini tapmış müddəaların gerçəkləşdirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirsin.

3. Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sədrliyi ilə Təşkilat Komitəsi yaradılsın.

4. Bu Sərəncamın 3-cü hissəsində nəzərdə tutulmuş Təşkilat Komitəsinin fəaliyyətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının dörd ştat vahidi hesabına Bakı Beynəlxalq Humanitar Forumunun Təşkilat Komitəsinin İşçi Qrupu yaradılsın.

5. "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 iyun tarixli 851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 510, № 7, maddə 631; 2007, № 5, maddələr 501, 519, № 6, maddə 660, № 8, maddə 843, № 12, maddə 1287; 2010, № 2, maddə 80, № 4, maddə 345):

5.1. 1-ci hissədə "384" rəqəmi "388" rəqəmi ilə əvəz edilsin;

5.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının strukturu"nda "Humanitar siyasət məsələləri şöbəsi" hissəsində birinci halda "4" rəqəmi "8" rəqəmi ilə əvəz edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 oktyabr 2011-ci il***

## N.A.SƏMƏDOVUN AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİN MÜAVİNİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nazim Adil oğlu Səmədov Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 noyabr 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Məmmədov Zakir Qulam oğlu

**"Əməkdar Artist"**
Əlibalayev Faiq Seyfəl oğlu
Quliyev Almaz Ağadar oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 noyabr 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN DƏSTƏKLƏNMƏSİ İLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını və xalqımızın mədəni-tarixi irsinin daha dərindən araşdırılmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 noyabr 2011-ci il***

## NƏSRULLA İMANQULİYEVİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ilin dekabr ayında Azərbaycanın tanınmış ictimai-siyasi xadimi və publisisti, əməkdar jurnalist Nəsrulla Əsəd oğlu İmanquliyevin anadan olmasının 100 ili tamam olur.

Müasir Azərbaycan jurnalistikasının təşəkkülündə xüsusi yeri olan Nəsrulla İmanquliyev mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmişdir. O, cəmiyyət həyatının ən müxtəlif sahələrini əks etdirən sanballı yazıları ilə mətbuat tariximizə layiqli töhfələr vermişdir. Onun jurnalistika sahəsində zəngin pedaqoji fəaliyyəti Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan jurnalistikasının inkişafında təqdirəlayiq xidmətlər göstərmiş Nəsrulla İmanquliyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Mətbuat Şurasının və Azərbaycan Jurnalistlər Birliyinin təkliflərini nəzərə almaqla, əməkdar jurnalist Nəsrulla İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 noyabr 2011-ci il***

## FRANSA RESPUBLİKASINDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN BİNASININ TƏMİRİ VƏ YENİDƏN QURULMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Fransa Respublikasındakı Azərbaycan Mədəniyyət Mərkəzinin binasının təmiri, yenidən qurulması və təchizat işlərində sifarişçi funksiyaları Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə həvalə edilsin.

2 Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Mərkəzin təmiri, yenidən qurulması və təchizat işləri ilə bağlı müvafiq sahədə təcrübəsi olan şirkətlərlə danışıqlar əsasında seçilmiş şirkət ilə birbaşa müqavilənin bağlanmasını həyata keçirsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabineti Mərkəzin təmiri və yenidən qurulması işlərinin maliyyələşdirilməsi ilə bağlı müvafiq tədbirlər görsün.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2011-ci il***

## SABİT RƏHMAN ADINA ŞƏKİ DÖVLƏT DRAM TEATRI BİNASININ YENİDƏN QURULMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan teatr sənətinin inkişafında xüsusi rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı binasının yenidən qurulmasına başlanması üçün Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2011-ci il***

## M.C.ƏLİYEVİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə Məmmədbağır Cavad oğlu Əliyev "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 noyabr 2011-ci il***

## MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2011-ci il dekabrın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 dekabr 2011-ci il***

## XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN EV-MUZEYİNİN ƏSASLI TƏMİRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xalq şairi Səməd Vurğunun Bakı şəhərində yerləşən (Tərlan Əliyarbəyov küçəsi, 6) ev-muzeyinin əsaslı təmiri, bədii tərtibatı, zəruri avadanlıq və inventarla təchizatı üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 300,0 (üç yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 dekabr 2011-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram**:

1. Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Kərimova Rumiyyə Həmid qızı

Tağızadə Aidə Zeynal qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2011-ci il***

## ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASININ ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycanda musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayeva Rəna Knyazevna
Bədirxanov Tofiq Nurəli oğlu
Çumakov İvan Nikolayeviç
Əliyeva Hökümə Natiq qızı
Əlizadə Züleyxa Əli Ağa qızı
Hüseynova Larisa Musayevna
İmanova Gülarə İsmayıl qızı
Rəhimova Nigar Alim qızı
Rüstəmova Afaq Adil qızı
Safina Zeynab Dayanşayevna
Səfərova Xavər İbiş qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2011-ci il***

## ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASININ ƏMƏKDAŞLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycanda musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Adıgözəl-zadə Murad Zöhrab oğlu
Hüseynov Murad Fərid oğlu
Kərim Məcnun Təbriz oğlu

**"Əməkdar Artist"**
Məmmədov Emil Əfrasiyab oğlu
Növrəsli Şahin Növrəs oğlu
Rzayev Sarabski İsfar Aydın oğlu

**"Əməkdar İncəsənət Xadimi"**
Axundova-Dadaşzadə Zümrüd Araz qızı
Allahverdiyev Ceyhun Kərim oğlu
Əhmədova-Əliyeva Mehriban Fikrət qızı
Əsədullayev Arif Murtuza oğlu
Məlikova Şirin Arif qızı

**"Əməkdar Müəllim"**
Aslanov Tofiq Rüstəmoviç
Babayeva Rasimə Əhməd qızı
Bağırova Şahnabat Zəkəriyyə qızı
Bakixanova Zərifə Musa qızı
Barinova Svetlana Nikolayevna
Çanturiya Nazi Qeorgiyevna
Dadaşova Lalə Oruc qızı
Əlizadə Asəf Fazil oğlu
Hüseynova Tamila Məmməd qızı
İmanova Ülviyyə İsmayıl qızı
Kəngərlinskaya Tamila Fərrux qızı
Qafulov Aqil Müzəffər oğlu
Qarayusifli Yaşar Qurban oğlu
Qasımova Solmaz Calal qızı
Quliyev Məmməd Həsən oğlu
Quliyeva Nərminə Əhməd qızı
Mehdiyeva Lalə Rza-Qulu qızı

Məmmədova Leyla Bağır qızı
Mərdanov Nurətdin Mərdanoviç
Muradova Aliyə Mehrəli qızı
Rəhimova Xavər Hüseynovna
Salam Zadə Dögüş Salam qızı
Yusifova Adilə Niyazi qızı

**"Əməkdar Mədəniyyət İşçisi"**
Əliyarova Dürdanə Yavus qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2011-ci il***

## “QALA” DÖVLƏT TARİX-ETNOQRAFİYA QORUĞUNUN İDARƏ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qala kəndi Abşeronun ən qədim yaşayış məskənlərindən biridir. Təxminən beş min il yaşı olan bu kənddə canlı tarix mühiti şəraitində qədim memarlıq və arxeoloji abidələr, o cümlədən yaşayış binaları, kurqanlar, sərdabələr, məscidlər, hamamlar və digər maddi mədəniyyət nümunələri kompleks şəklində qorunub saxlanılır. 1988-ci ildən kəndin tarixi hissəsi dövlət tarix-etnoqrafiya qoruğu elan edilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə qoruğun ərazisində yaradılmış Arxeoloji-Etnoqrafik Muzey Kompleksi mədəni irsimizi geniş təbliğ etməyə, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir. Görülmüş işlər nəticəsində Muzey Kompleksində Azərbaycan xalqının mədəniyyətinin və məişətinin əsrlər boyu necə inkişaf etdiyini bir məkanda canlı izləmək imkanı yaranmışdır.

“Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun beynəlxalq təcrübəyə əsaslanan müasir üsullarla idarə olunmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu 2012-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindən çıxarılaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin ərazi dairəsinin və fəaliyyət istiqamətlərinin genişlənməsi ilə əlaqədar olaraq onun strukturunda və əsasnaməsində müvafiq dəyişikliklər edilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə birlikdə “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun sərhədlərini müəyyənləşdirib təsdiq etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun yeni idarəetmə strukturunun təsdiq edilməsi, maddi-texniki bazasının gücləndirilməsi, ərazinin mühafizəsi, turizmin inkişafı məqsədi ilə yeni obyektlərin, xidmət sahələrinin və yardımçı təsərrüfatların yaradılması, təbii landşaftın bərpası, tarix və mədəniyyət abidələrində bərpa-konservasiya və istifadəyə uyğunlaşdırma işlərinin aparılması ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2011-ci il***

## “QALA” DÖVLƏT TARİX-ETNOQRAFİYA QORUĞUNUN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun maddi-texniki bazasının gücləndirilməsi, ərazinin mühafizəsi, turizmin inkişafı məqsədi ilə yeni obyektlərin, xidmət sahələrinin və yardımçı təsərrüfatların yaradılması, təbii landşaftın bərpası, tarix və mədəniyyət abidələrində bərpa-konservasiya və istifadəyə uyğunlaşdırma işlərinin aparılması məqsədi ilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə ilkin olaraq

1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2011-ci il***

## DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN 870 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2011-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyi tamam olmuşdur.

Bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir.

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur “Xəmsə”si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin əsərləri dəfələrlə nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, çox sayda tədqiqatlar meydana gətirilmiş, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tənqidi mətni hazırlanmışdır. Bu proseslərin intensiv şəkil almağa başlaması əsasən Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsinə təsadüf edir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ildə qəbul edilmiş, lakin İkinci Dünya müharibəsi səbəbindən yubileyin yalnız 1947-ci ildə keçirilməsi mümkün olmuşdur. O illərdən etibarən Nizaminin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmışdır. Gəncədə dəfn olunduğu yerdə Nizami Gəncəvinin möhtəşəm məqbərəsi ucaldılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlayır. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə qəbul edilən “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürərək, Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır.

Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri ustad sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan verməmişdir.

Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq, hazırkı mərhələdə respublikamızda gənc nəslə mənsub nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində bu gün xüsusilə mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi problemləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şərq poeziyasının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, mütəfəkkir şair Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 dekabr 2011-ci il***

## BAKI ŞƏHƏRİNDƏ DƏNİZKƏNARI BULVARIN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhərində Dənizkənarı Bulvarın genişləndirilməsi ilə bağlı işlərin görülməsini təmin etmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 dekabr 2011-ci il***

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ “İMAMZADƏ” KOMPLEKSİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR İŞLƏRİN SÜRƏTLƏNDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən “İmamzadə” kompleksinin bərpası ilə əlaqədar işlərin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2011-ci il***

## FİKRƏT ƏMİROVUN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin noyabr ayında görkəmli Azərbaycan bəstəkarı, tanınmış ictimai xadim, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycanın musiqi sənəti tarixinə parlaq səhifələr yazmış Fikrət Əmirovun musiqinin ən müxtəlif janrlarını əhatə edən çoxsaylı əsərləri, o cümlədən opera, balet, simfoniya, mahnı və romansları xalqımızın mədəni sərvətlər xəzinəsinin qızıl fondunda xüsusi yer tutur. Böyük bəstəkar milli musiqimizin zəngin ənənələri ilə dünya musiqi mədəniyyətinin mühüm nailiyyətlərinin qovuşuğunda misilsiz sənət inciləri meydana gətirmişdir. Bəstəkarın dünyanın ən iri konsert salonlarında mötəbər orkestrlərin ifasında səsləndirilən simfonik muğamlarının Azərbaycan mədəniyyətinin tanıdılmasında müstəsna rolu vardır.

Milli musiqi mədəniyyətimizin inkişafına və təbliği işinə mühüm töhfələr vermiş bəstəkar Fikrət Əmirovun 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Fikrət Əmirovun 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 fevral 2012-ci il***

**“AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASININ TATARISTAN RESPUBLİKASI ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 25 AVQUST TARİXLİ 977 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tataristan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 977 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 770; 2007, № 11, maddə 1134; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2010, № 6, maddə 501) 1-ci hissəsində “Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri “Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyasının Tataristan Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI HÖKUMƏTİ ARASINDA İQTİSADİYYAT, TİCARƏT, İNVESTİSİYA, TEXNİKA, MƏDƏNİYYƏT, İDMAN VƏ GƏNCLİK SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 11 İYUN TARİXLİ 2861 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 530; 2010, № 2, maddə 80) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “İsgəndər İsgəndərov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri “Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri ilə, “Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini” sözləri “Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini” sözləri ilə və “Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin müavini” sözləri “Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini” sözləri ilə əvəz edilsin;

1.2. “Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini” sözlərindən sonra “Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Səudiyyə Ərəbistanı Krallığı tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI VƏ LATVİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2009-CU İL 24 İYUL TARİXLİ 417 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 593) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri “Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri ilə, “Avtandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin müavini” sözləri “Avtandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini” sözləri ilə və “Tofiq Zülfüqarov - Azərbaycan Respublikasının Latviya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri” sözləri “Elman Zeynalov - Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri” sözləri ilə əvəz edilsin;

1.2. “Səfər Mehdiyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini” sözlərindən sonra “Qüdrət Qurbanov - Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Latviya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEXİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ QARIŞIQ KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2011-Cİ İL 13 MAY TARİXLİ 1502 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 407) 1-ci hissəsində "Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini" sözləri "Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Çexiya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKMƏNİSTAN RESPUBLİKASI ARASINDA İQTİSADİ VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 20 İYUN TARİXLİ 2236 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli 2236 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 650; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2010, № 9, maddə 773) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri “Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri ilə və “Arif Əsgərov - Azərbaycan Dövlət Dəmir Yolunun rəisi” sözləri “Arif Əsgərov - “Azərbaycan Dövlət Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri” sözləri ilə əvəz edilsin;

1.2. “Nazim İbrahimov - Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri” sözlərindən sonra “Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi” sözləri əlavə edilsin;

1.3. “Əlixan Məlikov – “Azəriqaz” Qapalı Səhmdar Cəmiyyətinin sədri” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Türkmənistan tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 fevral 2012-ci il***

## ƏHMƏD CAVADIN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin may ayında müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, böyük şair və maarifçi, tanınmış ictimai xadim, Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın (Cavad Məhəmmədəli oğlu Axundzadənin) anadan olmasının 120 illiyi tamam olur.

Xalqımızın müstəqillik ideallarına bütün həyatı boyu sadiq qalan Əhməd Cavad Azərbaycan poeziyasında yeni bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Şairin zəngin yaradıcılığı milli azadlıq və istiqlal uğrunda mübarizə motivlərinin aparıcı mövqeyi ilə səciyyələnərək dövrün ictimai-siyasi mənzərəsini dolğun əks etdirir.

Azərbaycan ədəbiyyatına dəyərli töhfələr vermiş Əhməd Cavadın 120 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Əhməd Cavadın 120 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 fevral 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ RUSİYA FEDERASİYASININ SANKT-PETERBURQ HÖKUMƏTİ ARASINDA İQTİSADİ VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL 15 YANVAR TARİXLİ 684 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 yanvar tarixli 684 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 20) 1-ci hissəsində “Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri “Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyası tərəfinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 fevral 2012-ci il***

## HÜSEYN CAVİDİN 130 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 130 illiyi tamam olur.

Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Sənətkarın dünya romantizm ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan lirik əsərləri, mənzum faciə və tarixi dramları qiymətli söz inciləri kimi xalqımızın zəngin bədii fikir xəzinəsində layiqli yer tutur. Ölkəmizdə teatr mədəniyyətinin yüksək nailiyyətlər qazanmasında Cavid dramaturgiyası mühüm rol oynamışdır.

Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 fevral 2012-ci il***

## E.B. MANSUROVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Eldar Bəhram oğlu Mansurova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 fevral 2012-ci il***

## D.K.KASEİNOVUN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə türkdilli dövlətlər arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Düsen Kurabay oğlu Kaseinov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 mart 2012-ci il***

## Z.T.ƏMİRASLANOVA "ƏMƏKDAR ARTİST" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda incəsənətin inkişafında xidmətlərinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında səmərəli fəaliyyət göstərdiyinə görə leytenant Zaur Tariyel oğlu Əmiraslanova "Əməkdar artist" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 mart 2012-ci il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Abbasov Murad Eldar oğlu - Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində Orta İxtisas Musiqi Məktəb-studiyasının şagirdi

Ağalarova Günay Adil qızı - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Babayeva Vüsalə Zakir qızı - Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində Orta İxtisas Musiqi Məktəb-studiyasının şagirdi

Hüseynli Məhərrəm Rüfət oğlu - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Kərimov Ənvər Rüstəm oğlu - Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində Orta İxtisas Musiqi Məktəb-studiyasının şagirdi

Manafzadə Atabala İkram oğlu - Abşeron rayon Xırdalan şəhər Uşaq Musiqi Məktəbinin şagirdi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 mart 2012-ci il***

## XURŞİDBANU NATƏVANIN 180 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin avqust ayında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın anadan olmasının 180 ili tamam olur.

Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan ədəbiyyatının inkişafında xüsusi rol oynamış Xurşidbanu Natəvanın 180 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 180 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 aprel 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ ÇEXİYA RESPUBLİKASININ REGİONAL İNKİŞAF NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Çexiya Respublikasının Regional İnkişaf Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş”i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verildiyi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 aprel 2012-ci il***

## MƏMMƏD SƏİD ORDUBADİNİN 140 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə görkəmli Azərbaycan yazıçısı, şair, dramaturq, publisist və ictimai xadim Məmməd Səid Ordubadinin anadan olmasının 140 ili tamam olur.

Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. Çoxşaxəli ədəbi fəaliyyət göstərən və bir çox məşhur operaların librettosunun müəllifi olan sənətkar həmçinin dövrün mühüm ictimai-siyasi hadisələrini zəngin faktlar, sənədlər əsasında dolğun əks etdirən əsərləri ilə tanınır.

Azərbaycan ədəbiyyatının inkişafında təqdirəlayiq xidmətlər göstərmiş Məmməd Səid Ordubadinin 140 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Məmməd Səid Ordubadinin 140 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 aprel 2012-ci il***

## BƏHRUZ KƏNGƏRLİNİN 120 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Bəhruz Şirəlibəy oğlu Kəngərlinin 120 illiyi tamam olmuşdur.

Bəhruz Kəngərli milli təsviri incəsənətdə realist dəzgah boyakarlığının yaradılmasına misilsiz töhfələr vermiş, portret və mənzərə janrının formalaşmasında böyük rol oynamışdır. Sənətkarın zəngin irsi xalqımızın tarixi keçmişini və dövrün ictimai-siyasi hadisələrini dolğun əks etdirir. Bəhruz Kəngərli ölkəmizdə teatr rəssamlığının banilərindəndir.

Azərbaycan mədəniyyətinin inkişafında mühüm xidmətləri olan görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Bəhruz Kəngərlinin 120 illiyi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 aprel 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SAHƏSİNİN İŞÇİLƏRİNƏ "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında turizm sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə

**"Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:**

Quliyev Aleksandr Balaşevic
Nuriyev Fikrət Lütvəli oğlu
Rəhimov Sabir Hilal oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 aprel 2012-ci il***

## BAKI ŞƏHƏRİNDƏ DƏNİZKƏNARI BULVARIN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI
## ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhərində Dənizkənarı Bulvarın genişləndirilməsi ilə bağlı aparılan yenidənqurma və abadlaşdırma işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinə Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 aprel 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Bayramova Cəmilə Əsədulla qızı

Əhmədov İlham Namiq Kamal oğlu

Əlizadə Məryəm Əli qızı

Əlizadə Rəhman Balarza oğlu

Muradov Xamis Bəkir oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 may 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Abdullayev Əvəz Baxşəli oğlu
Axundova Yeganə Əsgər qızı
Cəfərov Samir Qədir oğlu
Əsgərov Əli Rəhim oğlu
Hüseynova Kamilla Fikrət qızı
Quliyeva Səidə Əbülfəz qızı

**"Əməkdar İncəsənət Xadimi"**
İsrafilov İsrafil Ramazan oğlu
Məmmədov Emin Salxab oğlu
Mirişli Nazim Ramiz oğlu
Nəzirova Sara Mollaçı qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Zülfüqarov Cahangir Oqtay oğlu

**"Əməkdar Artist"**
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əlizadə Çinarə Raufovna
Fərzəliyeva Gülyanaq Əhəd qızı
Haqverdiyev Bəhruz Əyyub oğlu
Həsənov Vidadi İsmayıl oğlu
İsmayılov Qurban İbrahim oğlu
Kərimova Nərgiz Faiq qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Mansurov Mansur Abdul oğlu
Miltıx Aleksey Leonidoviç
Rəfiyev Elman Məmmədrza oğlu
Rəhimov Əsgər Ağa Rəhim oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Salamov İqrar Zakir oğlu
Səfərov Atabala Osman oğlu
Vahabzadə Səbinə Qulam qızı
Zeynalov Adil Ağakərim oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**
Hüseynov Azər Rəhim oğlu
Qasımov Əli Teymur oğlu
Orucov Elçin Aydın oğlu

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 may 2012-ci il*

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abbasova Sona Akif qızı
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdullayeva Tamella İslam qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Axundov Çingiz Məmməd oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayev Kamal İlyas oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırov Pərviz Sadıq Saleh oğlu
Bağırov Viktor Cəmiloviç
Bayramov Rafael Əli oğlu
Bayramova Aygün Əliqulu qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Cəfərova Eteri Leonidovna
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əkbərov Yusif Məmmədağa oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Münəvvər Sabir qızı
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Hacıyeva Sevil İnşalla qızı
Həşımova Şahnaz Həsən qızı
Hüseynli Sevinc Qəhrəman qızı
Hüseynov Şövqi Ərəstun oğlu

Hüseynova Kamilla Fikrət qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
Xudiyev Rza Əli oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanov Əbülfəz Hüseyn oğlu
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsgəndərova Sənubər Sabir qızı
İsmayılova Gülnaz Əmir qızı
İsmayılova Zemfira Rüstəm qızı
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qəribova Nargilə Dursun qızı
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Mehdiyeva Dilarə Yurmiz qızı
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Əzizağa Seyfəddin oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Muradova Təranə Hüseyn qızı
Musayeva Şükufə İmran qızı
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nəbiyeva Gülər Nəbi qızı
Nərimanova Zemfira Əli qızı

Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rzayev Qəzənfər Yusif oğlu
Salmanlı Ağaxan Əli oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səfərova Afaq Bəşir qızı
Süleymanov Məzahir Həbullah oğlu
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zəki Mehriban Mürvət qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 may tarixli 1486 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 391) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 may 2012-ci il***

## MÜSLÜM MAQOMAYEVİN 70 İLLİK YUBİLEYİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin avqust ayında görkəmli müğənni və bəstəkar, SSRİ xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevin anadan olmasının 70 illiyi tamam olur.

Müasir Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Müslüm Maqomayevin müstəsna xidmətləri vardır. Qeyri-adi istedada malik sənətkar vokal ifaçılığının qızıl fondunu təşkil edən misilsiz opera sənəti inciləri yaratmışdır. Müslüm Maqomayev ötən əsrin 70-ci illərində sovet estradasının yeni simasının formalaşmasında böyük rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafı və təbliği işinə mühüm töhfələr vermiş Müslüm Maqomayevin 70 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, Müslüm Maqomayevin 70 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 may 2012-ci il***

## RAUF HACIYEVİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin may ayında SSRİ xalq artisti, görkəmli bəstəkar və tanınmış ictimai xadim Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 90 ili tamam olur.

Rauf Hacıyev musiqi sahəsində çoxşaxəli fəaliyyət göstərərək ölkəmizdə operetta və balet janrlarının inkişafında mühüm rol oynamış, mahnılar müəllifi kimi geniş şöhrət qazanmışdır.

Azərbaycan musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermiş Rauf Hacıyevin 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Rauf Hacıyevin 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 may 2012-ci il***

## MİRVARİD DİLBAZİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin avqust ayında müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Mirvarid Paşa qızı Dilbazinin anadan olmasının 100 ili tamam olur.

Mirvarid Dilbazi ədəbiyyatımızı yeni-yeni obrazlarla zənginləşdirən sənətkardır. Onun yaradıcılığının başlıca mövzusunu xalqımızın zəngin tarixi keçmişi və yurdumuzun misilsiz gözəlliklərinin tərənnümü təşkil etmişdir. Şairin çoxsaylı lirik əsərləri vətəndaşlıq duyğularının yüksək poetik ifadəsidir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Mirvarid Dilbazinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirvarid Dilbazinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2012-ci il***

## A.Ə. ƏLİZADƏNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Aqşin Əliqulu oğlu Əlizadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 may 2012-ci il***

## QAZAX RAYONUNDA ƏDƏBİYYAT MUZEYİNİN TİKİNTİSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın şairlər və aşıqlar yurdu kimi tanınmış qədim Qazax bölgəsi bütün həyatları boyu doğma vətənimizi tərənnüm etmiş, poeziyamıza dəyərli söz sənəti inciləri vermiş Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Səməd Vurğun, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Mirvarid Dilbazi kimi görkəmli şəxsiyyətlər yetişdirmişdir. Qüdrətli sənətkarların Azərbaycanın bədii fikir salnaməsində parlaq səhifələr açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir.

Ölkəmizdə söz-sənət ustadlarının xatirəsi həmişə əziz tutulmuş, onların adına park və xiyabanlar salınmış, abidələr ucaldılmış, ev muzeyləri yaradılmış və bu ənənələr hazırda da davam etdirilir. Qazax rayonunda fəaliyyət göstərən Səməd Vurğun poeziya evində, Molla Vəli Vidadi və Molla Pənah Vaqifin xatirə muzeyində dahi sənətkarların həyat və yaradıcılığının dərindən öyrənilməsi və təbliğ edilməsinə, yaradıcı insanların görüşlərinin, toplantılarının, poeziya gecələrinin keçirilməsinə lazımi şəraitin olmaması müasir ədəbi mərkəzin yaradılmasını zəruri edir.

Gənc yaradıcı nəslin potensialının üzə çıxarılmasının, ədəbiyyatımızın milli istiqamətlərinin və xalqımızın ədəbi-mədəni irsinin qorunmasının və təbliğinin vacibliyini, habelə bölgə yazıçı və şairlərinin Ədəbiyyat muzeyinin yaradılması barədə müraciətlərini nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qazax şəhərində Ədəbiyyat muzeyinin tikintisi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qazax Rayon İcra Hakimiyyətinə 5 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 iyun 2012-ci il***

## HƏSƏN BƏY ZƏRDABİNİN 170 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ildə Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Səlim bəy oğlu Zərdabinin (Məlikovun) 170 illiyi tamam olur. Azərbaycanda sosial-mədəni həyatın on doqquzuncu əsrin ikinci yarısından etibarən sürətli canlanmasında və ictimai fikrin maarifçi-demokratik ideyalarla zənginləşməsində Həsən bəy Zərdabinin müstəsna xidmətləri vardır. Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etdirməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında birləşdirərək taleyüklü mühüm vəzifələrin uğurla həyata keçirilməsində misilsiz rol oynamışdır.

Xalqımızın mədəni-ictimai fikir tarixinə dəyərli töhfələr vermiş Həsən bəy Zərdabinin 170 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Həsən bəy Zərdabinin 170 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyun 2012-ci il***

## XƏLİL RZA ULUTÜRKÜN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin oktyabr ayında XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, xalq şairi, filologiya elmləri doktoru, professor Xəlil Rza Ulutürkün (Xəlil Rza oğlu Xəlilovun) anadan olmasının 80 ili tamam olur.
Xəlil Rza Ulutürkün vətənpərvərlik duyğuları ilə zəngin ictimai-siyasi mövzulu yaradıcılığı xalqımızın bədii-poetik fikir salnaməsinin parlaq səhifələrini təşkil edir. Şair dünya ədəbiyyatı xəzinəsinin bir çox incilərini dilimizə uğurla çevirmişdir.

Müasir Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xəlil Rza Ulutürkün 80 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xəlil Rza Ulutürkün 80 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyun 2012-ci il***

## A.G. İŞEİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Aleksandr Gennadyeviç İşein "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 iyun 2012-ci il***

## ALEXANDRA MORENO PİRAKİVENİN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Kolumbiya Respublikası arasında dostluq əlaqələrinin inkişafına verdiyi töhfəyə görə xanım Alexandra Moreno Pirakive "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyun 2012-ci il***

## N.Ə.BABAYEVƏ “ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ” FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətinə görə Nadir Əjdər oğlu Babayevə “Əməkdar Mədəniyyət İşçisi” fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 iyul 2012-ci il***

## S.Y.NARIŞKİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Sergey Yevgenyeviç Narışkin "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 iyul 2012-ci il***

## M.Y.ŞVİDKOYUN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mixail Yefimoviç Şvıdkoy “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 iyul 2012-ci il***

## A.S.ƏLƏKBƏROVUN HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN DİREKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Anar Sahib oğlu Ələkbərov Heydər Əliyev Mərkəzinin direktoru təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 iyul 2012-ci il***

## T.H. MƏMMƏDOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Tokay Həbib oğlu Məmmədov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyul 2012-ci il***

## MARCOS PEREZ ESQUERIN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Meksika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə Meksika Birləşmiş Ştatlarının Deputatlar Palatasının Meksika–Azərbaycan Dostluq Qrupunun sədri Marcos Perez Esquer "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyul 2012-ci il***

## HƏSƏN BƏY ZƏRDABİ MUZEYİNDƏ ƏSASLI TƏMİR VƏ BƏDİİ TƏRTİBAT İŞLƏRİNİN APARILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəni-ictimai fikir tarixinin görkəmli şəxsiyyətlərindən biri, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin zəngin irsi bugünkü və gələcək nəsillərin azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda formalaşmaları baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidentinin "Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında" 2012-ci il 4 iyun tarixli 2269 nömrəli Sərəncamının icrası ilə əlaqədar Zərdab rayonunda yerləşən Həsən bəy Zərdabi muzeyində əsaslı təmir və bədii tərtibat işlərinin aparılmasını, muzeyin zəruri avadanlıqlarla təchiz olunmasını və eksponatlarla zənginləşdirilməsini, eləcə də ərazisinin abadlaşdırılmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Zərdab rayonundakı Həsən bəy Zərdabi muzeyində əsaslı təmir və bədii tərtibat işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 300 (üç yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 iyul 2012-ci il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNİN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayeva Validə Rüstəm qızı
Hacıyeva Nailə Bahadur qızı
Qafar-zadə Məlahət Xanış qızı
Qasımova Sevil Əbilhəsən qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyul 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Əfəndiyev Yalçın Heydər oğlu

Kazımov Aydın Ələsgər oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyul 2012-ci il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə aşağıdakı kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**Əməkdar İncəsənət Xadimi**
Varnovski Yuri Yuryeviç

**Əməkdar Artist**
Orucova Nahidə Mülük qızı

**Əməkdar Mədəniyyət İşçisi**
Əliyev Faiq Məmmədəli oğlu
Həsənov Çingiz Fehruz oğlu
Həsənova Gülnarə Əlibaba qızı
Pişiyari Xuraman Böyükağa qızı
Roqova Berta Abramovna
Şneyer Natalya Borisovna

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 iyul 2012-ci il***

# BAKI ŞƏHƏRİNDƏ YENİ MƏSCİD KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Bakı şəhəri ərazisində yeni məscid kompleksi tikilsin.

Bakı Şəhər İcra Hakimiyyəti yeni məscid kompleksinin tikintisi üçün Binəqədi rayonu ərazisində torpaq sahəsinin ayrılmasını təmin etsin.

Yeni məscid kompleksinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 10,0 (on) milyon manat ayrılsın.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 3-cü hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı səhəri, 18 avqust 2012-ci il***

## A.İ.MƏMMƏDOVAYA "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU"NUN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanın mədəni irsinin təbliğindəki xidmətlərinə görə Adelaida İrza qızı Məmmədovaya "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 avqust 2012-ci il***

## HULUSİ KILIÇIN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Türkiyə Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Hulusi Kılıç "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 sentyabr 2012-ci il***

## M.H.TAĞIYEVƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Mübariz Hüseyn oğlu Tağıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 sentyabr 2012-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Adıgözəlov Yalçın Vasif oğlu
İmanova Simarə Cəmaləddin qızı
Mansurov Eldar Bəhram oğlu

**"Əməkdar İncəsənət Xadimi"**
Ağayeva Sürəyya Xosrov qızı
Bağırova Sənubər Yusif qızı
Əkbərov Tahir İsmayıl oğlu
Əzimov Nadir Nəriman oğlu

**"Əməkdar Artist"**
Abbasov Səlim Vaqif oğlu
Abdullayev Süleyman Cümşüd oğlu
Aşurbəyova Səltənət Sadıqovna
Əliyev Vaqif Səfər oğlu
Əmrahov Teymur Həşim oğlu
Əsədova Səbinə Çingizovna
Həsənov Emil Karloviç
Hüseynli Sənan Həsrət oğlu
Hüseynov Fərhad Əbdül oğlu
İlyasova Səbinə Babaverdi qızı
Kazımov Möhübbət Allahverdi oğlu
Qarayusifli Əziz Yaşar oğlu
Quliyev Rövşən Vaqif oğlu
Məmmədov Eldar Ramiz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədzadə Tamilla Faiq qızı
Orucova Almaz Ədil qızı
Rzayev Əli Dağbəy oğlu
Tkaçova Lyubov Aleksandrovna
Zeynalova Aygün Mübariz qızı

**"Əməkdar Müəllim"**
Abbasov Qəzənfər Nəcəfqulu oğlu
Budaqov Fikrət Vəli oğlu

İsmayılzadə Zeynəb Məbud qızı
Məmmədova İradə Adil qızı
Rüstəmova Mehriban Əsgər qızı
Yatsenko Tatyana Nikolayevna

**“Əməkdar Mədəniyyət İşçisi”**
Babayev Vaqif Baba oğlu
Əliyev Faiq Güləli oğlu
Sadıqov Mais İsrayıl oğlu
Sultanov Kamil Davud oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 sentyabr 2012-ci il***

## İ.D.KOBZONUN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında musiqi mədəniyyəti sahəsində əməkdaşlığın genişləndirilməsində səmərəli fəaliyyətinə görə İosif Davıdoviç Kobzon “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 sentyabr 2012-ci il***

## ŞÖVKƏT ƏLƏKBƏROVANIN 90 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2012-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının xalq artisti, milli ifaçılıq sənətinin görkəmli nümayəndəsi, tanınmış müğənni Şövkət Feyzulla qızı Ələkbərovanın anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə musiqi mədəniyyətinin inkişafı və eləcə də təbliği işinə dəyərli töhfələr vermiş mahir muğam və mahnı ifaçısı Şövkət Ələkbərovanın 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Şövkət Ələkbərovanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2012-ci il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il 22 iyun tarixli 464 saylı Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

| | |
|---|---|
| Xancalova Firuzə Arif qızı | - Pyotr İliç Çaykovski adına Moskva Dövlət Konservatoriyasının 1-ci kurs tələbəsi |
| Məlikov Əli Həsən oğlu | - Rəşid Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi |
| Şükürov Mirpaşa Mustafa oğlu | - Ağdam şəhər Cabbar Qaryağdıoğlu adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi |
| Vəliyev Nəcəf Xəluq oğlu | - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi |
| Yusifov Yusif Nadir oğlu | - Bakı şəhər 24 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi |

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2012-ci il***

## S.M.AĞABƏYOVUN AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATINDA (İSESCO) DAİMİ NÜMAYƏNDƏSİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabir Məmməd oğlu Ağabəyov Azərbaycan Respublikasının islam Təhsil, Elm və Mədəniyyət Təşkilatında (ISESCO) daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 sentyabr 2012-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏRAKEŞ KRALLIĞINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ T.İ.ƏLİYEVİN EYNİ ZAMANDA AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATI (İSESCO) YANINDA DAİMİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri Tarik İsmayıl oğlu Əliyev eyni zamanda Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) yanında daimi nümayəndəsi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 sentyabr 2012-ci il***

## AZƏRBAYCANDA MEMARLIĞIN İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRİN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda memarlığının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Babakişiyev Rasim Calal oğlu
Cəfərov Xəlil Ələkbər oğlu
Həsənov Vüqar Telman oğlu
Qarber Aleksandr Aronoviç
Vəliyev Nazim Oruc oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 oktyabr 2012-ci il***

## AZƏRBAYCANDA MEMARLIĞIN İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ "ƏMƏKDAR MEMAR" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda memarlığının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar memar" fəxri adı verilsin:

Abdullayeva Nərgiz Cavad qızı
Ağayev Famil Adil oğlu
Bəylərov İlqar Xıdır oğlu
İmaməliyev Nəriman Məcid oğlu
İsmayılova Gülarə Firuddin qızı
Əhmədova Fatma Əliağa qızı
Salam-zadə Sənan Əmir oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 oktyabr 2012-ci il***

## R.C. ABDULLAYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqisinin təbliğindəki xidmətlərinə görə Rauf Canbaxış oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 oktyabr 2012-ci il***

## D.A. HARRİSİN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan və Amerika xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Devid Alan Harris “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 noyabr 2012-ci il***

# "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ ALBANİYA RESPUBLİKASININ TURİZM, MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT VƏ TURİZM SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Albaniya Respublikasının Turizm, Mədəniyyət, Gənclər və İdman Nazirliyi arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verildiyi barədə Albaniya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 noyabr 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI HÖKUMƏTİ ARASINDA İQTİSADİYYAT, TİCARƏT, İNVESTİSİYA, TEXNİKA, MƏDƏNİYYƏT, İDMAN VƏ GƏNCLİK SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ MÜŞTƏRƏK KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 11 İYUN TARİXLİ 2861 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 530; 2010, № 2, maddə 80; 2012, № 2, maddə 132) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri “Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə, “Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri" sözləri “Natiq Abbasov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini" sözləri ilə, “Füzuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri” sözləri “İlqar Rəhimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini” sözləri ilə və “Tofiq Abdullayev - Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri" sözləri “Rasim Rzayev - Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri” sözləri ilə əvəz edilsin;

1.2. “Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini” və “Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Səudiyyə Ərəbistanı Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 dekabr 2012-ci il***

## Ö.H. ELDAROVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Ömər Həsən oğlu Eldarov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 dekabr 2012-ci il***

## S.İ. MƏMMƏDOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Salxab İsa oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2012-ci il***

## “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEÇEN RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2011-Cİ İL 4 OKTYABR TARİXLİ 1758 NÖMRƏLİ SƏRƏNCAMININ LƏĞV EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Çeçen Respublikası (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş”i imzalamaq səlahiyyətinin verilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 oktyabr tarixli 1758 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 910) ləğv edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 dekabr 2012-ci il***

## E.M.HÜSEYNOVANIN AZƏRBAYCAN RESPUBLİKASININ YUNESKO YANINDA DAİMİ NÜMAYƏNDƏSİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 yanvar 2013-cü il***

# MƏHSƏTİ GƏNCƏVİNİN YARADICILIĞININ 900 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Zəngin ənənələrə malik çoxəsrlik Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Məhsəti Gəncəvinin ədəbiyyatımız tarixində özünəməxsus yeri vardır. Onun yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnərək geniş şöhrət tapmış, sonrakı dövrlərdə bədii zövqün formalaşmasına mühüm təsir göstərmişdir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilmişdir. Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyi YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd olunması proqramına daxil edilmişdir.

Azərbaycan poeziyasının inkişafına töhfələr vermiş şairə Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 yanvar 2013-cü il***

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir. Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu öndərin vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileylərinin

UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın ümummilli liderinin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün – 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən

görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 yanvar 2013-cü il***

## M.A.MİRZƏYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan musiqi mədəniyyətinin inkişafı sahəsində xidmətlərinə görə Musa Abdulla oğlu Mirzəyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2013-cü il***

## K.C. CƏLİLOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda ifaçılıq sənətinin inkişafındakı xidmətlərinə görə Kamil Cəlil oğlu Cəlilov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 fevral 2013-cü il***

## AZƏRBAYCAN HƏMKARLAR İTTIFAQLARI KONFEDERASİYASININ BİR QRUP ƏMƏKDAŞINA “ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında mədəniyyətin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilsin:

Axundov Sahib İbrahim oğlu

Əlibəyov Mirzə Murtuza oğlu

Rzayeva Tükəzban Yavər qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 fevral 2013-cü il***

# ƏNVƏR MƏMMƏDXANLININ 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin fevral ayında Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri, xalq yazıçısı, istedadlı nasir, dramaturq, ssenarist və tərcüməçi Ənvər Qafar oğlu Məmmədxanlının anadan olmasının 100 illiyi tamam olur.

Ənvər Məmmədxanlı ədəbi prosesə həmişə təravət gətirən əsərləri ilə xalqımızın bədii-mədəni fikir xəzinəsinin zənginləşməsi naminə səmərəli fəaliyyət göstərmişdir. Onun yaradıcılığı ana dilimizə həssas yazıçı yanaşmasının parlaq nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatımızın inkişafı sahəsində mühüm xidmətlər göstərmiş Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı Ənvər Məmmədxanlının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 fevral 2013-cü il***

## FİRİDUN BƏY KÖÇƏRLİNİN 150 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi tamam olur.

Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair qiymətli mənbə təşkil edən əsərlər yaratmış və çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai-mədəni fikrin təşəkkülünə mühüm töhfələr vermişdir. Ölkəmizdə təhsil sisteminin milli əsaslar üzərində qurulması prosesində onun maarifçi ziyalı kimi apardığı işlər böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan mədəniyyətinin inkişafı naminə xidmətlərini nəzərə alaraq, Firidun bəy Köçərlinin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Firidun bəy Köçərlinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 fevral 2013-cü il***

## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşovun anadan olmasının 150 illiyi tamam olur.

Şərq mədəniyyətinin xüsusiyyətlərini və Avropanın demokratik dəyərlərini üzvi şəkildə birləşdirməklə xalqımızın tarixi nailiyyəti kimi meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, onun beynəlxalq aləmin subyekti olaraq dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlər göstərmiş görkəmli ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 25 fevral 2013-cü il*

## ƏLİAĞA AĞAYEVİN 100 İLLİK YUBİLEYİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublikanın xalq artisti Əliağa İsmayıl oğlu Ağayevin anadan olmasının 100 illiyi tamam olur.

Əliağa Ağayev milli teatr tarixinin fitri istedada malik parlaq simalarındandır. Zəngin mədəni ənənələrə həmişə sadiq qalan səhnə ustası və kino aktyoru kimi o, özünəməxsus üslubda yaratdığı son dərəcə koloritli obrazlarla Azərbaycan mədəniyyəti salnaməsinə yeni səhifələr yazmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük sənətkar Əliağa Ağayevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Əliağa Ağayevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2013-cü il***

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 90 illiyi tamam olur. Bu nüfuzlu ali təhsil müəssisəsi fəaliyyət göstərdiyi dövr ərzində zəngin inkişaf yolu keçmişdir və hazırda geniş ixtisas şəbəkəsinə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mədəniyyət və incəsənət sahəsində yüksək ixtisaslı kadr hazırlığında və milli mədəniyyətin inkişafında mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2013-cü il***

## AZƏRBAYCANDA PEŞƏKAR MİLLİ TEATRIN YARADILMASININ 140 İLLİYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illiyi tamam olur. XIX əsrin ikinci yarısından etibarən baş verən ictimai-siyasi hadisələr fonunda Azərbaycanın mədəni həyatındakı dəyişikliklər ənənəvi xalq teatrının peşəkar dünyəvi teatra çevrilməsinə zəmin hazırladı. O, yarandığı gündən Şərq islam aləminin ilk professional teatr sənəti ocağı kimi öz zəngin repertuarında daim yüksək ideyalı və dərin ictimai məzmunlu əsərlərə geniş yer verdi. Ölkəmizdə indi bütünlüklə milli dəyərlər sisteminə əsaslanan yeni teatr tipi və səhnə mədəniyyəti ilə seçilən aktyorlar məktəbi vardır. Əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmiş vətənpərvər ruhlu yeni nəsillərin formalaşmasında bu teatrın xidmətləri əvəzsizdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli mədəniyyətin inkişafında mühüm rolunu, ölkənin mədəni həyatında böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Teatr Xadimləri İttifaqının təklifləri nəzərə alınmaqla, Azərbaycanda peşəkar milli teatrın 140 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2013-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA "MİLLİ TEATR GÜNÜ"NÜN TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında Azərbaycan milli teatrının əhəmiyyəti və rolunu nəzərə alaraq qərara alıram:

Hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2013-cü il***

## HÖKÜMƏ QURBANOVANIN 100 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə böyük səhnə ustası, Azərbaycanın teatr və kino sənətinin görkəmli nümayəndəsi, SSRİ xalq artisti Hökümə Abbasəli qızı Qurbanovanın 100 illiyi tamam olur.

Hökümə Qurbanova canlandırdığı romantik çalarlı və mübariz xarakterli qəhrəman qadın obrazları qalereyası ilə Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsini zənginləşdirmişdir. Yüksək istedada malik qüdrətli aktrisanın bənzərsiz yaradıcılığı sənətkarların yeni nəsli üçün məktəb olaraq qalmaqdadır.

Azərbaycan mədəniyyətinin inkişafına dəyərli töhfələr vermiş SSRİ xalq artisti Hökümə Qurbanovanın 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə SSRİ xalq artisti Hökümə Qurbanovanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2013-cü il***

## NİGAR RƏFİBƏYLİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, xalq şairi Nigar Xudadat qızı Rəfibəylinin 100 illiyi tamam olur.

Nigar Rəfibəyli milli ədəbiyyatı zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən sənətkardır. Ana vətənə bağlılıq, insanın mənəvi ucalığı və yurdun əsrarəngiz təbiət gözəlliklərinin özünəməxsus tərzdə tərənnümü onun yaradıcılığının ideya-bədii leytmotivini təşkil etmişdir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan xalq şairi Nigar Rəfibəylinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Nigar Rəfibəylinin 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2013-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ XORVATİYA RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NU İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Xorvatiya Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verildiyi barədə Xorvatiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 mart 2013-cü il***

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TURİZM VƏ QƏDİM ABİDƏLƏR ÜZRƏ BAŞ KOMİSSİYASI ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU”NU İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Turizm və Qədim Abidələr üzrə Baş Komissiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verildiyi barədə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 mart 2013-cü il***

## A.R. RZAYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin təbliğində xüsusi xidmətlərinə görə Anar Rəsul oğlu Rzayev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 mart 2013-cü il***

## A.M. ABBASOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 aprel 2013-cü il***

## B.Ə.NƏBİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın görkəmli ədəbiyyatşünası, akademik Bəkir Əhməd oğlu Nəbiyevin xatirəsini əbədiləşdirmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdaş Rayon İcra Hakimiyyəti Ağdaş şəhərində küçələrdən birinə Bəkir Nəbiyevin adının verilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Ağdaş şəhərinin ümumi təhsil müəssisələrindən birinə Bəkir Nəbiyevin adının verilməsini təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 aprel 2013-cü il***

## B.Y. SİMANDUYEVİN “ŞÖHRƏT” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında xalqlar arasında dostluq münasibətlərinin inkişafındakı səmərəli fəaliyyətinə görə Boris Yusifoviç Simanduyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 aprel 2013-cü il***

## QIZ QALASININ BƏRPA VƏ KONSERVASİYASININ SÜRƏTLƏNDİRİLMƏSİ VƏ MUZEY EKSPOZİSİYASININ YENİDƏN QURULMASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qız qalası çoxəsrlik zəngin ənənələrə malik Azərbaycan memarlığının qiymətli incisidir. Tikinti texnikası və memarlıq quruluşunun unikallığı baxımından seçilməklə paytaxt Bakının rəmzinə çevrilən bu möhtəşəm nadir Şərq abidəsi YUNESKO tərəfindən ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir. Özünün əsrarəngizliyi ilə uzun əsrlərdən bəri diqqəti cəlb edərək, o indi də ən çox ziyarət olunan əzəmətli tarixi məkanlardan biri kimi tanınır.

Əcdadlar və gələcək nəsillər qarşısında mənəvi borcu yerinə yetirərək Qız qalasının bənzərsiz abidə kimi tarixi görkəminin qorunub saxlanması üçün burada bərpa və konservasiya işlərinin yüksək standartlar səviyyəsində aparılmasını və muzey ekspozisiyasının yenidən qurulmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qız qalasında aparılan bərpa və konservasiya işlərinin sürətləndirilməsi və muzey ekspozisiyasının yenidən qurulması üçün Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 aprel 2013-cü il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdullayeva Tamella İslam qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva İnarə Əhməd qızı
Bağırov Pərviz Sadıq Saleh oğlu
Bağırov Viktor Cəmiloviç
Baxşəliyeva Zəminə İmamverdi qızı
Bayramov Rafael Əli oğlu
Bayramov Səyyad Məmiş oğlu
Bayramova Aygün Əliqulu qızı
Bunyatova Tamilla Faiq qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Cəfərova Eteri Leonidovna
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov Elnur Oruc oğlu
Əhmədova Gülxarə Manaf qızı
Əkbərov Yusif Məmmədağa oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev İsgəndər Mahmud oğlu
Əliyev Rahib Seyidağa oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Münəvvər Sabir qızı
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Əsgərova Mahirə Müzəffər qızı

Fətəliyev Zakir Məhərrəm oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Hacıyev Cabir Qadir oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşimova Şahnaz Həsən qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Sevinc Qəhrəman qızı
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilov Yaşar Sudef oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsgəndərova Sənubər Sabir qızı
İsmayılov Qurban İbrahim oğlu
İsmayılova Gülnaz Əmir qızı
İsmayılova Zemfira Rüstəm qızı
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qəniyev Toğrul Sərvər oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Qurbanov Oruc İzzət oğlu

Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Mehdiyeva Dilarə Yurmiz qızı
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Nizami Tahir oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Sirus Arif oğlu
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Miltıx Aleksey Leonidoviç
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Muradova Təranə Hüseyn qızı
Musayeva Şükufə İmran qızı
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nəbiyeva Gülər Nəbi qızı
Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Nurzadə Əli Qayıb oğlu
Orucova Nahidə Mülük qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Rzayeva Nigar Azər qızı
Salmanlı Ağaxan Əli oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səfərova Afaq Bəşir qızı
Səttarova Günay Nazim qızı
Süleymanov Məzahir Həbullah oğlu
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu

Zəki Mehriban Mürvət qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 may tarixli 2223 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 445) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 may 2013-cü il***

## E.İ. ƏFƏNDIYEVİN “ŞƏRƏF” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Elçin İlyas oğlu Əfəndiyev “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 may 2013-cü il***

# "AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 30 APREL TARİXLİ 638-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 30 aprel tarixli 638-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

a. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

b. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

c. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

d. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasının təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2013-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA MUZEY İŞÇİLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında mədəni irsin qorunmasında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Rəssam"**
Səfərov Natiq Şafiq oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**
Mahmudova Pərixanım Mahmud qızı
Orucova Elza Qədir qızı
Rəhimova Nailə Allahverdi qızı
Talıbzadə Ülkər Kamal qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 may 2013-cü il***

# GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNİN BƏRPASININ TAMAMLANMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İmamzadə" kompleksinin bərpası ilə əlaqədar işləri tamamlamaq məqsədi ilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 iyun 2013-cü il***

## AZƏRBAYCAN MİLLİ KİTABXANASININ 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan Milli Kitabxanasının yaradılmasının 90 ili tamam olur.

Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə elmi-mədəni və ədəbi irsin qorunub saxlanılmasında mühüm xidmətləri olan Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2013-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASI TEATR XADİMLƏRİNİN TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**
Aslanov Siyavuş Məmmədağa oğlu
Məmmədova Şəfiqə Haşım qızı
Pənahova Amalya Əliş qızı

**"Şöhrət" ordeni ilə**
Əhmədov İlham Namiq Kamal oğlu
Səfərova Afaq Bəşir qızı

**"Tərəqqi" medalı ilə**
Abbasov Zülfüqar Qulu oğlu
Bayramov Tofiq Qulaməli oğlu
Əliyev Aydın Allahverdi oğlu
Əliyev Təvəkkül Əjdər oğlu
Əliyev Vidadi Hüseyn oğlu
Qrafkin Boris Fyodoroviç
Mirabov Akif Əhməd oğlu
Musayeva Şükufə İmran qızı
Süleymanov Süleyman İman oğlu
Şərifov Vaqif Abdulla oğlu
Şirməmmədov Namis Xanmirzə oğlu
Vəliyev Ramiz Hidayət oğlu
Yaqubova Ella İsmayıl qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 iyun 2013-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ TEATR XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq Artisti"**
Əhmədov Cəfər Namiq Kamal oğlu
Xanı-zadə Bəxtiyar Oqtay oğlu
Məmmədov Ramiz Sultanəli oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Tağızadə İrana Tofiq qızı

**"Xalq Rəssamı"**
Tairov Tair Rəşid oğlu

**"Əməkdar İncəsənət Xadimi"**
Ələkbərzadə Mehriban Zaur qızı
Mehdiyev Ağalar İdris oğlu
Vəliyev Ədalət Məqsəd oğlu

**"Əməkdar Artist"**
Cəfərov Novruz Adil oğlu
Cəlilov Məzahir Həmdulla oğlu
Çumakov İvan Nikolayeviç
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Novruz Yaqub oğlu
Əliyeva Şəfəq Rəsul qızı
Əsgərov Xudayət Məmməd oğlu
Həsənova İradə Aslan qızı
İmanov Əbülfəz Hüseyn oğlu
Kazımov Nicat Mirəziz oğlu
Qasımova Aidə Ələkbər qızı
Məmmədov Azad Əşrəf oğlu
Mirzəyev Sücəddin Qiyas oğlu
Mustafayeva Almaz Əhməd qızı
Mustafazadə Xəyyam Xaqani oğlu
Paşayeva Yaqut Nəriman qızı
Salahov Əbülfət Yusif oğlu
Şərifəliyeva Səidə Vahid qızı
Şirinov Aslan Adil oğlu

**“Əməkdar Rəssam”**
Həşimov Rəfael Zeynal oğlu
Quluzadə Lətifə Nəsir qızı

**“Əməkdar Mədəniyyət İşçisi”**
Cəbrayılov Yavər Qəhrəman oğlu
Cəfərzadə Kəmalə Məmməd qızı
Hacıyev Ədalət Qasım oğlu
Hacıyev Namiq Valeh oğlu
Hüseynova Laləzar Ramil qızı
Xalikov Şaqlar Mikailoviç
Kapanadze Qoça Severianoviç
Məhərrəmov Nəsib Səttar oğlu
Nəbili Hikmət Məmməd oğlu
Vəliyev Vaqif Zülfü oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 iyun 2013-cü il***

## T.İ.SİNYAVSKAYANIN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin təbliğindəki xidmətlərinə görə Tamara İlyiniçna Sinyavskaya "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 iyul 2013-cü il***

## V.Q.ƏLİYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Vaqif Qadir oğlu Əliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 iyul 2013-cü il***

## K.Ə.HÜSEYNOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin dekabr ayında Azərbaycanın tanınmış ictimai xadimi Kamran Əsəd oğlu Hüseynovun anadan olmasının 100 illiyi tamam olur.

Kamran Hüseynov respublikada dövlət idarəçiliyi və iqtisadiyyatın müxtəlif sahələrində səmərəli fəaliyyət göstərmiş, uzun illər ərzində təqdirəlayiq xidmətləri ilə ölkənin ictimai-siyasi həyatına layiqli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, tanınmış ictimai xadim Kamran Hüseynovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının təkliflərini nəzərə almaqla, Kamran Əsəd oğlu Hüseynovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 avqust 2013-cü il***

## İSLAM SƏFƏRLİNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, şair və dramaturq İslam Əhməd oğlu Səfərlinin 90 illiyi tamam olmuşdur.

İslam Səfərli bütün yaradıcılığı boyu ana dilinin geniş bədii imkanlarından ustalıqla faydalanmış, vətən təbiətinin gözəlliklərini və insanın mənəvi aləminin zənginliklərini tərənnüm edən, yüksək şeriyyətə malik əsərləri ilə milli ədəbiyyatı zənginləşdirmişdir.

Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus xidmətləri olan şair və dramaturq İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, İslam Səfərlinin 90 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 avqust 2013-cü il***

## RASİM OCAQOVUN 80 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, SSRİ və respublika Dövlət mükafatları laureatı, Xalq Artisti Rasim Mirqasım oğlu Ocaqovun anadan olmasının 80 illiyi tamam olur.

Dünya kinematoqrafiyasının nailiyyətlərindən daim yaradıcı şəkildə faydalanan Rasim Ocaqov ekran həyatı verdiyi əsərləri ilə milli kino salnaməsinə yeni səhifələr yazmış, Azərbaycan mədəniyyəti xəzinəsini zənginləşdirmişdir. Onun ölkəmizdə kinooperator sənətinin geniş imkanlarının üzə çıxarılması və təkmilləşdirilməsində mühüm xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli kinonun inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş Rasim Ocaqovun 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq Artisti Rasim Ocaqovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 avqust 2013-cü il***

## CƏFƏR CABBARLI ADINA "AZƏRBAYCANFİLM" KİNOSTUDİYASININ 90 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradılmasının 90 illiyi tamam olur. Ötən müddət ərzində "Azərbaycanfilm" kinostudiyası zəngin inkişaf yolu keçmişdir. Kinostudiyada çəkilən və sənətkarlıq baxımından yüksək bədii keyfiyyəti ilə seçilib indi də böyük uğurla nümayiş etdirilən filmlər Azərbaycan kinematoqrafiyasının parlaq səhifələrini təşkil edir. Xalqımızın qədim tarixi ənənələrə malik mədəni-mənəvi irsinin qorunub saxlanmasında, peşəkar milli kadrların hazırlanmasında kinostudiyanın fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli kinematoqrafiyanın inkişafında müstəsna xidmətləri olan Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 90 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 avqust 2013-cü il***

## İ.M. QULİYEVANIN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda mahnı ifaçılığı sənətinin inkişafında xüsusi xidmətlərinə görə İlhamə Məzahir qızı Quliyeva "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 avqust 2013-cü il***

## MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2013-cü il sentyabrın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 avqust 2013-cü il***

## FƏXRİ ADLARA GÖRƏ AYLIQ TƏQAÜDLƏRİN ARTIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Fəxri adlara görə aylıq təqaüdlərin məbləği 2 dəfə artırılaraq "Xalq" fəxri adı üçün 100 (yüz) manat, "Əməkdar" fəxri adı üçün 60 (altmış) manat müəyyən edilsin.

2. "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının 1-ci hissəsində "250 min manat" və "150 min manat" sözləri müvafiq olaraq "100 manat" və "60 manat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam 2013-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 avqust 2013-cü il***

## V.B. MUSTAFAYEVƏ "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU"NUN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda silsilə sənədli filmlərin yaradılmasında xidmətlərinə görə Vaqif Behbud oğlu Mustafayevə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 avqust 2013-cü il***

## A.C. MƏLİKOVUN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Arif Cahangir oğlu Məlikov "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 sentyabr 2013-cü il***

## F.M.SALAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında heykəltəraşlıq sənətinin inkişafında xidmətlərinə görə Fuad Məmmədəmin oğlu Salayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 sentyabr 2013-cü il***

## AZƏRBAYCAN MİLLİ KİTABXANASI ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Tahirov Kərim Məhəmməd oğlu

**"Tərəqqi" medalı ilə**

İbrahimova Gülarə Aydın qızı

Rüstəmova Sevda Qadir qızı

Sadıqova Dilşad Şaban qızı

Səmədova Enfira Şaban qızı

Talıbova Liliya Xəlil qızı

Vəliyeva Mədinə Əlibala qızı

***İlham Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 24 sentyabr 2013-cü il***

## AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Babayeva Təhminə Teymur qızı
Dadaşova Nəzakət Qurban qızı
Əliyeva Almaz Xəlil qızı
Əsədova Rəna Qurbanxan qızı
İsmayılova Ədibə İmaş qızı
Sevdimalıyeva Sarıgül Adıgözəl qızı
Səfərəliyeva Gülbəniz Cahangir qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2013-cü il***

## MƏMMƏD ARAZIN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın (Məmməd İnfil oğlu İbrahimovun) anadan olmasının 80 illiyi tamam olur. Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafına mühüm töhfələr vermiş xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Məmməd Arazın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 sentyabr 2013-cü il***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLIYEV MƏDƏNİYYƏT, ƏDƏBİYYAT, TARİXİ-MƏDƏNİ İRS VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA


*TƏBRİKLƏR*

TAMARA SİNYAVSKAYAYA
*25 oktyabr 2008-ci il*

TÜRKDİLLİ ÖLKƏLƏRİN MİLLİ KİTABXANA DİREKTORLARININ KONFRANSI VƏ “AVRASİYA KİTABXANALAR ASSAMBLEYASI” ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
ÜMUMİ İCLASININ İŞTİRAKÇILARINA
*17 noyabr 2008-ci il*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*5 dekabr 2008-ci il*

AZƏRBAYCAN DİASPORUNUN TANINMIŞ XADİMİ SƏİD QURBANOVA
*20 dekabr 2008-ci il*

DÜNYA AZƏRBAYCANLILARINA
*25 dekabr 2008-ci il*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2008-ci il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*5 yanvar 2009-cu il*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK
*7 mart 2009-cu il*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 mart 2009-cu il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*18 aprel 2009-cu il*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*20 aprel 2009-cu il*

XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUYA

*4 iyun 2009-cu il*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*17 sentyabr 2009-cu il*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*18 sentyabr 2009-cu il*

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN
VI KONFRANSININ İŞTİRAKÇILARINA
*12 oktyabr 2009-cu il*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*25 noyabr 2009-cu il*

DÜNYA AZƏRBAYCANLILARINA
*22 dekabr 2009-cu il*

XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ
*25 dekabr 2009-cu il*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2009-cu il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*5 yanvar 2010-cu il*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK
*5 mart 2010-cu il*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*18 mart 2010-cu il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*3 aprel 2010-cu il*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ
*13 aprel 2010-cu il*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*6 sentyabr 2010-cu il*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*13 noyabr 2010-cu il*

SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRININ YARADICI HEYƏTİNƏ
*20 dekabr 2010-cu il*

DÜNYA AZƏRBAYCANLILARINA
*24 dekabr 2010-cu il*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2010-cu il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*5 yanvar 2011-ci il*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK
*7 mart 2011-ci il*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*18 mart 2011-ci il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*22 aprel 2011-ci il*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*27 avqust 2011-ci il*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*26 sentyabr 2011-ci il*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*4 noyabr 2011-ci il*

DÜNYA AZƏRBAYCANLILARINA
*22 dekabr 2011-ci il*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2011-ci il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*5 yanvar 2012-ci il*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*5 mart 2012-ci il*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*16 mart 2012-ci il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*13 aprel 2012-ci il*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*17 avqust 2012-ci il*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*14 sentyabr 2012-ci il*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*23 oktyabr 2012-ci il*

"DÖVLƏT VƏ DİN: DƏYİŞƏN DÜNYADA TOLERANTLIĞIN GÜCLƏNDİRİLMƏSİ"
BİRİNCİ BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA
*18 dekabr 2012-ci il*

DÜNYA AZƏRBAYCANLILARINA
*25 dekabr 2012-ci il*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2012-ci il*

AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASININ VI QURULTAYINA
*15 fevral 2013-cü il*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK
*4 mart 2013-cü il*

"MDB MÜSƏLMANLARI SÜLH VƏ SABİT İNKİŞAF TƏRƏFDARIDIRLAR" BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA
*15 aprel 2013-cü il*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA
*3 may 2013-cü il*

AZƏRBAYCAN QADINLARININ IV QURULTAYINA
*13 iyun 2013-cü il*

AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA

SİNYAVSKAYAYA
*4 iyul 2013-cü il*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*7 avqust 2013-cü il*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*3 sentyabr 2013-cü il*

*QANUNLAR*

"ŞƏHƏRSALMANIN ƏSASLARI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*28 aprel 2009-cu il*

"DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*8 may 2009-cu il*

DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*30 iyun 2009-cu il*

"BİRGƏ FİLM İSTEHSALI HAQQINDA" SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*30 sentyabr 2009-cu il*

"MƏDƏNİ ÖZÜNÜİFADƏ MÜXTƏLİFLİYİNİN QORUNMASI VƏ TƏŞVİQİ HAQQINDA" KONVENSİYANIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*26 noyabr 2009-cu il*

"AVROPANIN MEMARLIQ İRSİNİN QORUNMASI HAQQINDA" KONVENSİYANIN
TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*26 noyabr 2009-cu il*

"TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*1 fevral 2010-cu il*

“AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNİN TƏSİSİ VƏ FƏALİYYƏT ŞƏRTLƏRİ HAQQINDA” SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*5 mart 2010-cu il*

“AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*17 may 2011-ci il*

“TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*16 oktyabr 2012-ci il*

TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*11 dekabr 2012-ci il*

“AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİ SƏRVƏTLƏRİN TALANMASI İLƏ MÜBARİZƏ VƏ ONLARIN
GERİ QAYTARILMASININ TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA” SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*11 dekabr 2012-ci il*

MƏDƏNİYYƏT HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*21 dekabr 2012-ci il*

“MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN KİTABXANALARARASI ABUNƏÇİLİK SİSTEMİNİN YARADILMASI HAQQINDA” 1999-CU İL 13 YANVAR TARİXLİ SAZİŞDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*19 aprel 2013-cü il*

MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN KİTABXANALARARASI ABUNƏÇİLİK SİSTEMİNİN YARADILMASI HAQQINDA” 1999-CU İL 13 YANVAR TARİXLİ SAZİŞDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ
P R O T O K O L

*FƏRMANLAR*

"DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2009-CU İL 30 İYUN TARİXLİ 841-IIIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*20 iyul 2009-cu il*

"ŞƏHƏRSALMANIN ƏSASLARI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 30 AVQUST TARİXLİ 187 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*27 avqust 2009-cu il*

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ TƏRKİBİ VƏ ƏSASNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*8 fevral 2010-cu il*

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ ƏSASNAMƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 16 MAY TARİXLİ 574 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN STRUKTURU"NA ƏLAVƏ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*10 fevral 2010-cu il*

"AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*17 fevral 2010-cu il*

"AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN NİZAMNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*19 fevral 2010-cu il*

“TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2010-CU İL
1 FEVRAL TARİXLİ 947-IIIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR
ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI
*13 avqust 2010-cu il*

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİNİN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*24 noyabr 2010-cu il*

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİ HAQQINDA ƏSASNAMƏNİN, İDARƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*8 aprel 2011-ci il*

AZƏRBAYCAN RESPUBLİKASINDA ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN TƏŞKİLİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI
*27 may 2011-ci il*

“AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2011-Cİ İL 17 MAY TARİXLİ 124-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 29 YANVAR TARİXLİ 19 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*7 iyun 2011-ci il*

2011-Cİ İL APRELİN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ”İN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI

PREZİDENTİNİNFƏRMANI

*7 iyun 2011-ci il*

2011-Cİ İL APRELİN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ
2011-2013-CÜ İLLƏR ÜZRƏ ƏMƏKDAŞLIQ BARƏDƏ TƏDBİRLƏR PLANI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*7 iyun 2011-ci il*

2011-Cİ İL APRELİN 9-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ
İRAQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU”NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*7 iyun 2011-ci il*

2011-Cİ İL İYUNUN 9-DA LYUBLYANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SLOVENİYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT, TƏHSİL VƏ ELM SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*27 iyul 2011-ci il*

2011-Cİ İL MAYIN 25-DƏ PEKİN ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ
ÇİN XALQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA 2011-2015-Cİ İLLƏR ÜÇÜN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL”UN
TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*27 iyul 2011-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI VƏ MONTENEQRO ARASINDA 2011-Cİ İL SENTYABRIN 16-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*24 noyabr 2011-ci il*

2011-Cİ İL SENTYABRIN 8-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ HƏŞTƏRXAN VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İN TƏSDİQ

EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*22 dekabr 2011-ci il*

BAKI ŞƏHƏRİNDƏ "EUROVİSİON-2012" MAHNI MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASINA GƏLƏN ƏCNƏBİLƏR VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏR ÜÇÜN VİZA PROSEDURLARININ SADƏLƏŞDİRİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*10 fevral 2012-ci il*

"AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 25 İYUL TARİXLİ
431 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*8 fevral 2012-ci il*

2012-Cİ İL APRELİN 12-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SAN MARİNO RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*19 iyun 2012-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*6 iyul 2012-ci il*

"HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN ƏSASNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*8 oktyabr 2012-ci il*

"AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ
DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ TƏRKİBİ VƏ ƏSASNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL
8 FEVRAL TARİXLİ 212 NÖMRƏLİ FƏRMANINDA VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜKAFATI LAUREATININ DİPLOMU VƏ FƏXRİ DÖŞ NİŞANININ TƏSVİRLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA"

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL
8 MAY TARİXLİ 892 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*1 noyabr 2012-ci il*

"TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 16 OKTYABR TARİXLİ 449-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDAAZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*13 noyabr 2012-ci il*

2012-Cİ İL NOYABRIN 15-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇEÇEN RESPUBLİKASI (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ
MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*19 dekabr 2012-ci il*

2012-Cİ İL OKTYABRIN 9-DA BUDAPEŞT ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MACARISTAN HÖKUMƏTİ ARASINDA TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT ÜZRƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ"İN
TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*19 dekabr 2012-ci il*

"AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN ƏSASNAMƏSİNİN, İDARƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2007-Cİ İL 16 MAY TARİXLİ 574 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*16 yanvar 2013-cü il*

"MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*15 fevral 2013-cü il*

"TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ 725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*7 mart 2013-cü il*

2012-Cİ İL NOYABRIN 29-DA TİRANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ
"AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
VƏ
ALBANİYA RESPUBLİKASININ TURİZM, MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ
İDMAN NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT VƏ TURİZM SAHƏLƏRİNDƏ
ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*7 mart 2013-cü il*

2013-CÜ İL FEVRALIN 14-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ
"AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KÜVEYT DÖVLƏTİ
HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR
SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*15 mart 2013-cü il*

"İNCƏSƏNƏT XADİMLƏRİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN MÜKAFATLARININ TƏSİS EDİLMƏSİ HAQQINDA"
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2002-Cİ İL 8 MAY TARİXLİ
707 NÖMRƏLİ FƏRMANINDA
DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI
*27 aprel 2013-cü il*

2013-CÜ İL YANVARIN 28-DƏ TİRANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ
"AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ
ALBANİYA RESPUBLİKASININ TURİZM, MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ
İDMAN NAZİRLİYİ ARASINDA 2013-2015-Cİ İLLƏRDƏ GƏNCLƏR VƏ
İDMAN SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ PROQRAMI"NIN
TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI
*3 may 2013-cü il*

"TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA"
AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ"
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ
725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*3 may 2013-cü il*

2013-CÜ İL MARTIN 11-DƏ ZAQREB ŞƏHƏRİNDƏ İMZALANMIŞ
"AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
VƏ
XORVATİYA RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ARASINDA TURİZM

SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU”NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*3 may 2013-cü il*

2013-CÜ İL MARTIN 12-DƏ MƏDİNƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TURİZM VƏ QƏDİM ABİDƏLƏR ÜZRƏ BAŞ KOMİSSİYASI ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA
ANLAŞMA MEMORANDUMU”NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*11 iyun 2013-cü il*

GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATININ TƏSİS EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*2 iyul 2013-cü il*

2013-CÜ İL İYUNUN 6-DA VOLQOQRAD ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ VOLQOQRAD VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTISADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ”İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*24 iyul 2013-cü il*

2013-CÜ İL İYULUN 18-DƏ PARİS ŞƏHƏRİNDƏ İMZALANMIŞ “AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BMT-NİN TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT ÜZRƏ TƏŞKİLATI ARASINDA TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ ÇƏRÇİVƏ SAZİŞİ”NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTININ FƏRMANI
*28 avqust 2013-cü il*

F.M.SALAYEVİN “ŞÖHRƏT” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*21 sentyabr 2013-cü il*

AZƏRBAYCAN MİLLİ KİTABXANASI ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*24 sentyabr 2013-cü il*

AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARINA “ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

*24 sentyabr 2013-cü il*

MƏMMƏD ARAZIN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*27 sentyabr 2013-cü il*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi,
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin
Prezident Kitabxanası və AzərTAc-ın birgə layihəsi

Tərtibçilər: Lətifə Məmmədova
Mayıl Əhmədov
Əli Eyvazov

Redaksiya şurası: Lətifə Məmmədova – sədr
Mayıl Əhmədov
Əli Eyvazov
Fikrət Babayev
Vaqif Quliyev
Zakir İsmayılov
Həliməxanım Rzaquliyeva
Natəvan Hacıyeva
Səba Quliyeva
Zülfiyyə Mütəllimova
Elçin Məlikov
Xuraman İsmayılova
Esmira Şükürova (Fuad)
Vüqar Əmrullayev
Solmaz Əliyeva
Elbəy Əli
Əfsun Əhmədov
Kəmalə Əlyarova

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Çapa imzalanmışdır: 01.10.2013. Format 70x100 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 39. Sifariş 13 316. Tiraj 500

AzərTAc-ın təqdim etdiyi materiallara uyğun surətdə
"**Şərq-Qərb**" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda